
ROY
JACOBSEN
Möcüzə uşaq
Bokhandlerprisen
2009
"Möhtəşəm kitab!" – GURI HJELTNES, VG

# ROY YAKOBSEN

MÖCÜZƏ UŞAQ

Bakı, Qanun Nəşriyyatı, 2015

İngilis dilindən tərcümə: Firidun Ağazadə

Redaktor: Əziz Rzazadə

Korrektor: Ceyran Abbasova

Qanun Nəşriyyatı

Bakı, AZ 1102, Tbilisi pros., 76

Tel: (+994 12) 431-16-62; 431-38-18

Mobil: (+994 55) 212 42 37

e-mail: info@qanun.az

www.qanun.az

www.fb.com/Qanunpublishing

www.instagram.com/ Qanunpublishing

ISBN 978-9952-36-125-4

© Qanun Nəşriyyatı, 2015

© CAPPELEN DAMM AS, 2009

This translation has been published with the financial support of NORLA

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.



e-kitab.org

# VIDUNDERBARN

Roy Yakobsen Skandinaviya ədəbiyyatının canlı klassiki hesab edilir. Bir çox ədəbi mükafatlara layiq görülüb. İyirmidən çox romanın müəllifidir. İncə psixologizmlə yazılmış "Möcüzə uşaq" romanı bir ailə dramıdır. 20-dən çox dilə tərcümə olunub.

Kitab birnəfəsə oxunur və adamı keçən əsrin 60-cı illərinə aparır. Bu elə bir dövr idi ki, qadınlar daha çox evdar idi, ailələrdə çox vaxt hər iki valideyn olurdu, Norveçdə ilk neft pulları gəlməyə başlamışdı, ilk dəfə beşmərtəbəli evlər tikilirdi, evlərə təzəcə dəbdəbə və zənginlik, mebelli divarlar, divar kağızları və televizor gəlirdi. Bir ailənin dramı qlobal hadisələr, 60-cı illərin mənzərəsi fonunda göstərilir – Con Kennedinin qətli, Qəraib böhranı, Berlin divarının tikilməsi, Yuri Qaqarinin uçuşu.

Əsərin qəhrəmanı ağıllı və tərbiyəli Finn adlı oğlandır. Sinifdə ən yaxşı şagird olan Finn həm də nadinc, amma əlaçıdır, yaxşı mütaliəsi, möhkəm yaddaşı var. O xoşbəxtdir, onu anası böyüdür, çünki kran maşinisti olan atası onları atıb gedib, sonra da qəzaya düşüb, ölüb.

Finn öz hekayəsini danışır. Danışdıqca adam gülmək və ağlamaq istəyir...

Payızda onlar evlərinin bir otağını kirayəyə verirlər. Finn bu kirayənişinə təzəcə öyrəşir ki, onların həyatında başqa bir dəyişiklik baş verir. Finnin ögey bacısı, kran maşinistinin başqa bir qadından olan


e-kitab.org

qızı evlərinə gəlir. Onun əlindəki kiçik çamadanda "bomba" var. Tezliklə partlayacaq bomba...

Xəyanət, sədaqət və sevgi haqqında olan bu hekayət beləcə başlanır.


e-kitab.org

# 1

Hər şey ondan başladı ki, anamla mən evdə bir az səliqə-sahman yaratmaq istədik. Mən divarın əlim çatan yerlərini rəngləyirdim – boyum balaca idi, anam da mətbəx kətilinin üstünə çıxıb tavandan aşağıları rəngləyirdi. Belə getsə, bir divarı bir neçə aya rəngləyə bilərdik. Amma bir gün axşamüstü Fru Siversen bizə gəldi, işimizə baxdı, qollarını iri döşləri üstə çarpazlayıb dedi:

– Niyə divar kağızı çəkmirsiz, Qerd?

– Divar kağızı?

– Hə, gedək mənimlə.

Fru Siversenin arxasınca getdik. Onlar dəhlizin o biri başında olurdu. Bir neçə ildi ki, qonşu idik, amma əvvəllər onların evində heç olmamışdım. Mənimlə paralel sinifdə oxuyan yaşıdım Enn-Berit adlı qız da, onun Reydun və Mona adlı altı yaşlı əkiz bacıları da, bu evdə olurdu. Anam mənə tənə-töhmət eləyəndə tez-tez bu əkizlərin adını çəkir:

– Reyduna, Monaya bax... – deyərdi. Ya da Enn-Beriti nümunə göstərirdi mənə. O Enn-Beriti ki, fru Siversenə görə, həmişə evdə oturmağı xoşlayırdı. Yeməyi evdə, yatmağı evdə. Bayırdansa evdə daha yaxşı əyləncə var. Bayırda həyat qarma-qarışıqdır – hayana baxırsan, taxta-tuxtadır, binalar, damlar, onlardan da o yana ot basmış çöllər, ağac kötükləri, tirlər, şalbanlar, axıb gedən sular, qalın kolluqlar, palçıq yollar... keçə və iri qatran parçalarını, ağac qırıntılarını



e-kitab.org

yandırırlar, mərtəbəli daxmalar tikirlər. Sonra güclülər, qüdrətlilər bu imarətlər üstündə müharibələr aparır, onları bir anda yerlə-yeksan edirlər, bir gün sonra yenə də tikirlər. Həm də onları dağıdanlar yox, başqaları tikir. Dağıdanlarla tikənlər heç vaxt eyni adamlar olmur. Bunu ona görə deyirəm ki, mən inşaatçı idim, balaca olsam da. Dağılmış qəsrlərimizi görəndə göz yaşlarımı saxlaya bilmirdim. Əvəz çıxmaqdan, qisas almaqdan danışırdılar, amma vandalların itirməyə bir şeyi yox idi, xoş əhval və qəhqəhələri üçün hər şeyə gedirdilər. Artıq itirməyə bir şeyi olanlarla itirməyə heç vaxt heç nəyi olmayanlar arasında, heç vaxt bir qara quruş da əldə etmək istəməyənlər arasında parçalanmanın izləri görünürdü. Dünyanın Enn-Beritə və onun bacılarına verməyə heç nəyi yox idi, onlar nə tikir, nə dağıdırdılar.

Ailə mətbəx mizinin ətrafında oturub şam yeməyi yeyirdi, Herr Siversen də mizin baş tərəfində, əynində fufayka, şalvarının aşırma bəndləri yoğun ombalarından oturduğu stulun kənarları ilə yerə sallanırdı.

Siversengildə, qonaq otağının divarlarında biz ilk dəfə güllü divar kağızı görürdük, bu divar kağızları altmışıncı illərdə Norveç fəhlələrinin evlərini kiçik tropik cəngəlliklərə çevirmişdi. Evlərdə tik ağacından[1] hörülmüş, liana sarmaşıqları arasında latun məftillərlə bərkidilmiş nazik kitab stellajı olardı. Küncdə mixəyi, açıq


e-kitab.org

qəhvəyi-ağ, zolaqlı divan qoyulardı. Stellajın rəfləri arasında quraşdırılmış xırda lampacıqlar sayrışan ulduzlar kimiydi. Anam laqeyd-laqeyd, ola bilsin, bir az da qızlar kimi çəkinə-çəkinə, üç-dörd saniyə baxdı. Amma bilirdim ki, indi yenə onun realist sözlərini eşidəcəyəm: "Yox, bu, bizim üçün deyil. Biz bunu eləyə bilmərik" ya da, "Bunun bizə bir xeyri yoxdu" və sair və ilaxır. O vaxtlar anam üçün də, mənim üçün də "Bu bizim üçün deyil" kimi sözlər çox idi, çünki o, Oslo yaxınlığındakı Vaterland rayonunda ayaqqabı dükanında işləyirdi. Məktəbdən nə vaxt evə gəlsəydim o, dərhal evə gələrdi, çünki tətildə oğlunu bir yerə göndərməyə imkanı yox idi, amma hər dəfə bunu nəzərdə tutub deyirdi ki, daha yaz gəlir, guya ki, doğrudan da, istəyirdim ki, məni harasa göndərsinlər. Amma mən istəyirdim ki, evdə anamla qalım, hətta yayda da. İmkanlı adamlar da vardı ki, yayda heç yerə getmir, evdə qalırdılar, evdə qalanda da deyirdilər ki, özləri getmək istəmir, ya da tətilə harasa getmək həvəsləri yoxdur.

– Yəqin ki, çox baha olar, hə? – anam soruşdu. Başqalarının yanında belə deyirdi, öz yanımızda isə "bahalı" sözünü işlədirdi.

– Elə də yox, – fru Siversen dedi. Norveç jurnallarını oxuyan anamdan fərqli olaraq, fru Siversen həmişə İsveç jurnallarını oxuyurdu, odur ki, tropik yağış təsvirli stellajdan bir neçə İsveç jurnalı götürüb, "Malmö" məqaləsi olan səhifəni açıb


e-kitab.org

vərəqlədi, sonra mətbəxdən herr Siverseni səslədi ki, gəl, kağızları, qəbzləri Gerdə göstər.

Bu cüssəli kişi "Gəldim!" deyib, həvəslə kitab şkafına yaxınlaşdı, oradan iri bir qutu götürüb bizə yaxınlaşdı. Kişidən gələn qəribə qoxu burnumu qıcıqlandırdı. Pilləkənlərdə, dəhlizdə həmişə rastıma çıxanda olduğu kimi, indi də fikirləşdim ki, görünür, atasız olmaq heç də pis deyil. Düzdür, herr Siversen mülayim, ziyansız-xətərsiz adam idi, bəzən görürdün ki, rastlaşanda heç maraqlanmadığım bir mövzuda fikrini də bildirir. Başqa sözlə, bu evdəki üç qızı boya-başa çatdıran onun arvadı idi, indi də mətbəxdəcə oturub, hərdən göz altından bizə baxırdı.

Aydın idi ki, anam vərdiş etdiyi sözlərlə bu "nəcibliyi" rədd edə bilmirdi. Divar kağızları, doğrudan da, "bahalı" idi, həm də İsveçdə yox, "Agda Manufaktur" məişət cihazları dükanından alınmışdı. Bu dükan Arvoll Senterdə, bankın yanında yerləşirdi. Biz hansı səbəbdənsə Traverveyendəki Lienə, ya da Refstad Alledəki Omar Hansen dükanlarına gedə bilməyəndə oradan alış-veriş edirdik. Soyuducular baha olduğundan, həm də onsuz keçinə bilməməyimizdən keçən il anam buradan bir soyuducu kirayəyə götürmüşdü. Bu həmin illər idi ki, Berlin Divarı hələ dururdu, Kennedi prezident idi, amma məncə, bu daha çox Yuri Qaqarin dövrü idi, mütləq ölümdən sağ-salamat qayıtmış və


e-kitab.org

dünyanı heyrətə salmış həmin rusiyalı Yuri Qaqarinin dövrü. Qiyməti 49300 Norveç kronu olan "Yaquar Mark-2" minik maşınları da bu illərdə buraxılmışdı. Bu məlumatı elə-belə, sadəcə, xatırlatmıram, həm də ona görə yada salıram ki, bu maşını da, onun qiymətini də mən Bjerke stadionunda keçirilən qoşqu və avtomobil sərgisində öz gözümlə görmüşəm və bu heç vaxt yadımdan çıxmır. Ola bilsin, ona görə belə möhkəm yadımda qalıb ki, biz onda Evtikmə Kooperativinə avans olaraq 3200 kron ödəmişdik və deməli, həmin bu "Yaquar" maşınının qiymətinə on altı mənzil almaq olardı, başqa sözlə, bütöv bir blok. Bircə avtomobili həmin 3 nömrəli evin sakinləri qədər bütün yaşlardan olan yetmiş altı insanın mənzilinə bərabər tutan hər hansı bir sistem sənə təsir etməyə bilməz, bu elə bir məlumatdır ki, yük qatarı kimi adamın üstündən keçir, əgər cavan olsan bu, heç vaxt yadından çıxmaz. Qoxular haqda bir düşünün, hər ailənin öz qoxusu var, başqalarından seçilən qoxu, fərqli üzləri və səsləri, evlərinin biri-birindən fərqlənən xoru, qollarını çırmalayıb yeməyə əyləşəndə, mübahisə edəndə, qəhqəhə çəkib güləndə, qışqıranda, yaxud ağızlarını yumub, sakitcə otuz iki səmtə saqqız çeynəyəndə onlara bir baxın, əyin-başlarına və hərəkətlərinə bir fikir verin. Bircə "Yaquar"ı bütün bunlarla necə müqayisə etmək olar? Maşının mücrüsündə tapança saxlamaq kimidir, eləmi? Ən azı. Mən o


e-kitab.org

maşın haqqında çox fikirləşmişəm, lap çox, özü də tünd yaşıl rəngdə idi.

– Orada yapışqanın da qiyməti olmalıdır, – fru Siversen dedi. Yəqin ona elə gəlirdi ki, əri hər şeyi başa salıb, işlər yaxşı gedir.

– Yox, yapışqanın qiyməti yoxdur, – herr Siversen onun sözünü kəsdi. İndi aydın oldu ki, onun xaç adı Frenkdır.

– Nə dedin, Frenk? – fru Siversen əlüstü dedi və yaxınlaşıb qəbzləri ərindən aldı, qara, səkkizguşəli eynəyinin arxasından onları o üz-bu üzə çevirib xeyli diqqətlə baxdı. Amma rəflərdəki çini qab-qacaq və oval, qalaylı külqabılar arasından eynəyini tapmaq heç də asan olmadı. Rəflər, fikrimcə, kitabla dolu olmalı idi. Məgər bu evdə bir dənə də kitab yoxdur? Frenk yalnız çiyinlərini çəkdi, anama gülümsədi, sonra qurğuşun kimi ağır əlini qırxılmış başıma çəkib dedi:

– Yaxşı, Finn, demək, sən evdə böyüksən də?

Bu sözlər, yəqin ki, üzümə, barmaqlarıma, saçlarıma bulaşıb qalmış yaşıl rəngə görə deyilirdi, mən də guya ki ikinəfərlik ailəmizi saxlayan bir kişiyə oxşamalı idim.

– Hə, o elə yaxşı uşaqdır ki... – Bu yerdə anamın səsi titrədi. – Heç bilmirəm, onsuz neyləyərdim.

Çox sevdiyim sözlər idi, çünki o vaxt anamı adi bir sözlə də kövrəltmək olurdu, çardağında qaranquşlar yuva salmış o


e-kitab.org

beton evdə yaşayanda da, qonşular öz balkonlarında əyləşib qəhvə içəndə, yaxud maşınlarının kapotunu qaldırıb saatlarla içində qurdalananda da. Mən çoxlarından yaxşı oxuyub-yazırdım, onun da maaşı vaxtında – hər on dörd gündən bir gəlirdi, bir də ki, əslində, buralarda heç nə baş vermirdi, elə bil ki, biz həmişə təhlükə ilə üz-üzə idik və nə yaxşı ki, indiyə qədər bu təhlükələrdən yayına bilmişdik, çünki anamın sözü ilə desəm, heç vaxt baş verməyən şeylərdən bir şey öyrənə bilməzsən.

– Bilirsən, mənim daha əvvəlki gücüm qalmayıb, – deyə anam gözləri yol çəkə-çəkə mızıldanardı, sonra da – baxmayaraq ki, mən heç vaxt bu barədə soruşmazdım, o da heç bir izah etməzdi – boşanınağını əsas gətirərdi. Bu haqda düşünəndə elə hesab edirdim ki, bəli, o, uçuruma düşmüş kimidir və bu, onun davamlı əzablarının doğurduğu xırda-xırda bəlalarının bəlkə də yalnız birincisidir. Çünki bu, Yuri Qaqarin dövrü ola bilərdi, boşanma dövrü yox, bu, nikah dövrü idi, boşanmadan bir il sonra da əri vəfat etmişdi. Anaının sözü ilə desək, işdə, istehsalat qəzası nəticəsində. Atam “Akers Mekaniske Verksted” gəmiqayırma şirkətində qaldırıcı kranın qəzasında ölmüşdü. Mən nə onu, nə onların boşanmağını, nə də qəzanı xatırlaya bilirəm. Anam ikimizin də yerinə xatırlayır, bununla belə, ondan dürüst heç nə ala bilməzsən, məsələn, o necə idi, ya da boş vaxtlarımda


e-kitab.org

nə etməyi xoşlayırdı, yaxud nəyisə xoşlamırdı, əslən haradan idi yaxud da onlar xoşbəxt illərində – doğulmağımı gözlədikləri vaxt, yəqin ki, belə illər olmamış deyildi – nədən danışırdılar, nədən söhbət edirdilər. Hətta öz şəkillərini də əlindən yerə qoymur, müxtəsər, bu arxada qalan bir vaxtdır.

Bu iki bədbəxt hadisənin dalınca birisi də baş verdi, bu dəfə dul pensiyası ilə bağlı. Məsələ onda idi ki, anamdan boşanmış atam ölməmişdən qabaq yenidən evlənmiş, bir qız övladı da olmuşdu, amma heç adını da bilmirdik, odur ki, indi haradasa başqa bir dul qadın da vardı. Yəqin ki, dul pensiyasını da o qadın alırdı, bizim almalı olduğumuz pensiyanı. Alıb üzgüçülük hovuzlarına, taksilərə, saç ustalarına xərcləyərdik.

– Yaxşı, qəbzləri bir kənara qoyduq, – fru Siversen deyib fikrindən daşındı, divar kağızlarının qəbzlərini yığıb əlini yellədi. Anam da, nəhayət, baş verənlərə yekun olaraq öz fikrini bildirdi.

– Hmm, baxaq da, görək neyləmək olar, – dedi. Sonra qızlara tərəf dönüb gülümsündü, sağollaşdı. Süd içən qızlar ağızlarını ayırıb təəccüblə bizə baxırdılar, dodaqları süddən bığ qoymuşdu. – Sağ olun ki, baxmağa icazə verdiniz. Kağızlar, doğrudan da, yaxşıdır.

1 Cənubi və Cənub-Şərqi Asiyada bitir.



e-kitab.org

# 2

Ertəsi gün biz artıq Arvoll Senterdə idik, divar kağızlarına baxırdıq. Bu, görünməmiş bir şey idi, çünki onu əhatə edən risklərdən başqa, anam həm də hər şeyi götür-qoy etməyə vaxt tapırdı. Məsələn, yaşıl boya alınağa xərclədiyimiz pul heç də mənasız bir iş deyildi, məsələ burasındadır ki, keçən il Milad bayramında birinci mərtəbədə yaşayan yaşlı qonşularımız bizi qonaq çağırmışdı, orada gördük ki, onların evinin divarları bizimkindən fərqli rənglənib, sonra məlum oldu ki, onlar bunu özləri, əllə, yavaş-yavaş rəngləyiblər, ona görə də, biz də o vaxtdan bəri hesablayırdıq, görək, nə qədər xərcləyək, divarlarımızı necə rəngləyək.

Bir dəfə yenə təsadüfən anam dostum Essigilin evindən məni çağırmağa gəlmişdi. Essinin atası qonaq otağının dəhlizə açılan qapısını dəyişib kiçik yataq otağına tərəf çəkmişdi ki, Essinin on altı yaşlı böyük bacısının dəhlizdən öz otağına ayrıca girişi olsun. Orada gördüklərimiz, üstəgəl bu saat içində durub baxdığımız bu dükan sanki gələcəyimiz və yeni imkanlar barədə düşüncələrimizi işıqlandırırdı, əlbəttə, boya qabları və buradakı satıcıların mavi geyimi təmizlik və optimizm həvəsi doğururdu, bütün bunlar sanki dağları yerindən tərpətməyə bəs edərdi, odur ki, anam dərhal mühüm bir qərar verdi.

– Yaxşı, – anam dedi. – Onda kirayəçi



e-kitab.org

saxlayarıq. Başqa yolumuz yoxdur.

Təəccüblə onun üzünə baxdım, biz bunu əvvəllər də müzakirə etmiş, başa düşdüyüm qədər, razılaşmışdıq ki, kirayəçi saxlamayaq, güzəranımız nə qədər ağır keçsə də, çünki kirayəçi götürsəydik, mən çox sevdiyim otağımı verib anamın yanına keçməli idim.

– Mən qonaq otağında yata bilərəm, – ağzımı açmamış anam dedi.

Həmin gün biz nəinki divar kağızı və yapışqan aldıq, üstəlik, "Arbeiderbladet" qəzetində "KİRAYƏÇİ LAZIMDIR" elanını verdik. Sonra da həmin yekəpər Frenkla bir də əlaqə saxladıq ki, o bizim işi görə bilərmi. Frenk Qroruddalendəki yeni tikinti sahəsində buldozerçi idi. O bizim işimizi axşamlar görməli idi. İstəyirdik ki, kiçik yataq otağının qapısını dəhlizə çəksin ki, kirayəçimiz olsa, onun gediş-gəlişi bizi narahat etməsin, təzəcə divar kağızı vurduğumuz qonaq otağı korlanmasın.

Başqa sözlə, həyəcanlı günlərimiz başlayırdı.

Aydın oldu ki, Frenk heç də yaxşı dülgər deyil. Otağın qapısını dəyişəndə bir gurultu saldı ki, gəl görəsən. Əynində fufayka, tövşüyür, bədənindən vedrə-vedrə tər tökülürdü, üstəlik, elə birinci axşam anama "əzizim" deməyə başladı.

– Nə deyirsiz, əzizim, qapının köhnə çərçivələrini saxlayaq, ya təzəsini alaq?

– O çərçivənin neçəyə başa gələcəyindən asılıdır,


e-kitab.org

– anam dedi.

– Sizə çox da baha başa gəlməyəcək, mənim tanışlarım var.

Yaxşı ki, anam onun tez-tez təkrar etdiyi bu "əzizim" sözündən pərt olmadı. Fru Siversen arabir yanımıza gəlir, gah deyirdi ki, hazır yeməyi var, gah da deyirdi ki, bu gün zibil maşını gec gələcək. Boynuma alım ki, mən də danışılanlara qulaq asırdım, çünki anam dodaqlarına pomada çəkirdi, hər dəfə də saçlarını bağladığı biqudini açırdı, mənimsə evdən küçəyə çıxmağa vaxtım olmurdu. Hərdən fru Siversen böyük qızı Enn-Beriti bizə göndərirdi, biz də iri gövdəli Frenkın ağır qapılarla, faner taxtaları ilə necə əlləşdiyinə baxırdıq. Onun çiyinləri və kürəyi qışın pıtraq otları kimi uzun, qara tüklərlə örtülmüşdü, tükləri, geyimdən çox balıq toruna oxşayan fufaykasının deşiklərindən bu üzə çıxırdı. Hərdən iş arası "Çəkici ver!", "Mıxlar!", ya da "Ruletka!" – deyə çığırırdı, guya ki, biz onun köməkçiləri idik. Yaman məzəli gəlirdi bizə. Təxminən, bir həftə sonra, nəhayət, bir qapı öz yerinə qoyuldu, o biri qapının da yeri tutuldu. İşin pulunu verməyə gələndə Frenk pul götürmədi.

– Necə yəni? Bu necə ola bilər?

– Əvəzində, əzizim, bir qurtum viski olsaydı...

– Frenk səsini yumşaltdı, guya ki, iş görülüb qurtarandan sonra onların arasında nəsə bir gizli anlaşma vardı, yalnız özləri bilirdi. Anam əlindəki ağzı açıq pul qabı ilə ətrafa


e-kitab.org

baxındı, lap təzəcə lak çəkdiyi barmaqları arasından iki, ya üç göy kron görünürdü, hələ pul qabında yenə vardı. Amma bunun əhəmiyyəti yoxdu, Frenk axıradək alicənablıq elədi, sonda yalnız iki stəkan kuraso likörü içdi.

– Hər ayağım üçün bir stəkan.

O getdi, indi divar kağızlarını vurmaq olardı.

Hər şey yaxşı gedirdi. Anam yenə mətbəx mizinin ütünə çıxdı, o, tavana yaxın yerlərə, mən də aşağılara yapışqan vururduq. Rəngləməyinə bir həftə sərf etdiyimiz divarları bir gecədə kağızlayıb qurtardıq. Sonra, iki gecə balkon qapısının, qonaq otağının iri pəncərələrinin ətrafını düzəltdik, bir axşam da yataq otağıma bitişik divarın kağızlanmasına getdi – bu otaq indi kirayəyə veriləcəkdi. Hər şey dəyişdi, dəyişiklik dərhal hiss olunurdu, göz oxşayırdı. İndiyə qədər buraya pul xərcləmirdik, anam istəyirdi ki, daha sadə olsun, ona görə də otağı daha çox botanik üslubda bəzədik – payızın qızılı-qəhvəyi rənglərindən istifadə etdik. Sonrakı gün bir müştəri gəldi ki, otağa baxsın, başa düşdüm ki, biznesə girmişik.

Amma yox.

İki kirayəçidən heç biri ilə sözümüz tutmadı. Sonra üçüncüsü gəldi, o da dedi ki, otaq nəsə xoşuna gəlmir. Anam inamını itirirdi. Bəlkə çox baha deyirdik? Yoxsa ucuz? Əvvəllər anam deyirdi ki, Arvolla köçsək yaxşıdır, daha sadə bir mənzil alaq,


e-kitab.org

qabaqlar yəqin ki, əri ilə birlikdə anamın yaşadığı rayonda, Evre Fosda. Deyirdi ki, oralarda hamının bir otağı və mətbəxi var, hamı da razıdır. Bir gün bir məktub aldıq. İnqrid Olossen adlı bir qadından. Tələsik xətlə yazılmış bir məktub idi. Yazırdı ki, otuz beş yaşı var, subaydır, bəlkə Cümə günü otağa baxmağa gəldi.

– Əlbəttə, qoy gəlsin, – anam dedi.

Ertəsi gün mən Enn-Berit və Essi ilə məktəbdən evə qayıdanda anam evdə yox idi. Bu vaxt evdə olmamağı, yəqin, səbəbsiz deyildi. Əvvəllər mən belə şey - görməmişdim.

Qapı bağlı idi. Zəngi nə qədər basdımsa qapı açılmadı. Lap narahat oldum. Essi məni öz evlərinə apardı. Anası evdə idi. Öz anamdan başqa burada ən çox ona inanırdım. Essinin anası məni sakitləşdirdi, dedi ki, anam yəqin dükan-bazara gedib, indi gələr. İstəsəm, Essi ilə onlarda oturub dərslərimi hazırlaya bilərəm, Essiyə də kömək edim – Essi hərfləri yaxşı yazmırdı, hesabda da zəif idi.

– Çox ağıllı oğlansan, yox, Finn? – dedi.

Bu düz idi, dərslərimi yaxşı oxuyurdum, ikinəfərlik ailəmizdə anamla şərtimiz belə idi. Burada mənə çörəklə servelat verirdilər, bunu çox sevirdim, amma indi yeyə bilmirdim – sizə qəribə gəlmirmi, adamın anası olsun, birdən-birə itsin. Bu elə-belə deyildi. Mən Essinin yanında, onların böyük stolunun arxasında oturmuşdum, əlimdə karandaş, amma heç nə yaza bilmirdim,


e-kitab.org

özümü yetim kimi hiss edirdim, bircə hərf də yaza bilmirdim. Anamdan çıxmayan iş. Bəlkə də bir saatdan da çox keçmişdi (cəmi on dörd dəqiqə keçmişdi). Təxminən iki saat keçmişdi ki, aşağıdan maşın səsi eşitdik. Köhnə bir yük maşını gurultu ilə binamıza yaxınlaşırdı. Sonra gördüm ki, anam maşının kabinəsindən yerə tullandı. Əynində ayaqqabı dükanındakı uzun, güllü iş paltarı vardı. Düşüb giriş qapısına tərəf qaçdı. Maşının tünd qırmızı qapılarının üstündə qızılı hərflərlə "Storstein Mobler & Inventar" sözləri yazılmışdı. Fəhlə paltarında, boylu-buxunlu bir kişi maşının yan taxtalarını açdı, başqa birisi də maşına çıxdı, onlar ikilikdə maşındakı divanı düşürməyə başladılar. Tünd qəhvəyi-sarımtıl bir divan idi, sarı, qəhvəyi zolaqları vardı. Anam bu divanı alınağa gedibmiş, həm də İnqrid Olossenin qeyri-müəyyən məktubuna əsasən. Fəhlələr divanı maşından düşürdülər, sonra evin giriş qapısına gətirdilər.

Mən də çantaını götürüb sürətlə birinci mərtəbəyə qaçdım, otluqdan keçib öz blokumuza girdim, pillələrdə ağır divanı aparan fəhlələri gördüm. Deyinə-deyinə, çığır-bağırla, birtəhər ikinci mərtəbəyə qaldırdılar. Bayaq həmişəlik bağlı görünən qapımız üzümə ilk dəfə açılırmış kimi indi taybatay açıq idi.

İçəridə anam duruxub qalmışdı, yəqin üzümdəki məzlum ifadəni görmüşdü, çaşqın nəzərləri bir neçə dəqiqə mənə baxmağa


e-kitab.org

cürət etmədi, sonra birdən üzr istəməyə başladı – "dükanda çox yubandım". Təskinedici sözlərində heç bir hərarət yox idi. Sonra o, bir kağızı imzaladı. Bir az keçincə, bu günə qədər boş olan, indisə doğrudan da çox yaraşıqlı görünən qonaq otağının divarı yanında qoyulmuş təzə divanda oturub rahatlandı. Mən də yanında oturdum. Sonra yavaşca bükülüb yanında uzandım, anaının ətrini duydum, məni qucaqlayan qollarının istisini hiss etdim, yuxu apardı məni: bənövşə ətri, təravətli saçlar, Köln ətrinin qoxusu içində uyudum. Üstümə çəkilmiş adyal altında iki saata qədər yatdım, oyananda anam mətbəxdə şam yeməyi hazırlayırdı, həmişəki kimi, zümzümə edə-edə.

Bu gün yeməyimiz çox sadə idi, yalnız qızardılmış donuz əti, bir də yumurta, amma bütün yeməklərdən yaxşı idi. Yemək zamanı anam dedi ki, belə bir şey var – nəsə alırsansa əvvəlcədən qənaət etmə, bunu sonradan da edə bilərsən. Bu isə o deməkdi ki, biz kreditə kitab şkafı da ala bilərik, televizor da. Çünki qonşularımızın hamısının televizoru vardı, televizor alsaq, mən də hər dəfə bir şeyə baxmaq istədikdə Essigilə qaçmazdım.

Anaının dedikləri adamı qanadlandırırdı. Amma həmin günü axşam o, çox narahat görünürdü, mən də narahat olurdum, elə bil onun içində nəsə dağılmışdı, çox fikirli idi, ona görə mən də bütün gecəni yata bilmədim.


e-kitab.org

Ertəsi gün məktəbdən gələndə gördüm ki, anam İnqrid Olosseni qarşılamağa hazırdır, yəni buna xüsusilə hazırlaşmışdı, mən də özümü hazırladım, bəzi şeyləri yenə yadıma saldım, elə bil imtahan verəcəkdik, demək artıqdır ki, çox vacib şeylər deyildi, amma məni düşündürən işin ciddiliyi idi.

– Sən yaxşısan, ana? – soruşdum.

– Nə mənada? – o, güzgüdə özünə baxa-baxa dedi. Mənə tərəf dönüb deyindi: – Sənin başqa bir fikrin
yoxdu ki?

Nəyə işarə vurduğunu heç başa düşmədim. Anam yenə öz fikirlərinə qapıldı. Sınayıcı nəzərlərlə mənə baxıb dedi ki, bunun mənim üçün asan olmadığını yaxşı bilir, amma başqa yolumuz yoxdur və mən bunu başa düşürəmmi.

Mən, əlbəttə, başa düşürdüm.

Biz eyni şeyləri fikirləşirdik.

Saat yarım sonra İnqrid Olossen gəldi, məlum oldu ki, o, Loftus tərəflərdə bərbər salonunda işə düzəlib. Elə bərbərə də oxşayırdı, lap iyirmiyaşlılar kimi, amma yəqin ki, anam yaşında olardı. Qırmızımtıl saçlarını yığıb topalamışdı, balaca, boz şlyapa geymişdi, şlyapanın altından mirvari dənələri düzdüyü saçları elə bil çığırır, haray salırdı. Filtrli siqaret çəkirdi, xoşa gəlməyən bu davranış tərzi bir yana, kirayə verəcəyimiz otağa bir nəzər fırladıb üzlü-üzlü dedi:

– Əsasən, yaxşıdır. Amma elanda da gərək bunların hamısını yazaydız.


e-kitab.org

Nə demək istədiyini başa düşmədim. Anamın üzündə iki-üç ifadə biri-birinə qarışmışdı, birtəhər dedi ki, bir qəzet elanında bunların hamısını yazmaq kimin üçünsə asan ola bilər.

Bu sözləri eşidən İnqrid Olossen siqaretindən dərin bir qullab götürdü, sonra külqabı üçün ətrafına boylandı. Külqabı təklif etmədik. Onda anam bütün danışıqları pozmaq qərarına gəldi, dedi ki, fikrimizi dəyişmişik, otaq özümüzə də lazımdır.

– Təəssüf edirəm, amma görünür, bura sizlik deyil, – dedi. Hətta giriş qapısını da açdı ki, qadın getsin. Amma İnqrid Olossen bir anda özünü çox ümidsiz hiss etdi. Pırpız saçlı başı köksünə endi, uzun, yöndəmsiz vücudu titrəməyə başladı.

– Aman Tanrım, özünüzü yaxşı hiss etmirsiz?

Anam onun qolundan yapışıb qonaq otağına apardı, təzə divanda əyləşdirib su, yoxsa qəhvə istədiyini soruşdu.

Sonra daha ağlagəlməz bir şey baş verdi. İnqrid Olossen nəinki bir fincan qəhvə istədi, üstəlik, anam çaydanı doldurub qaynamağa qoyanda, o, iki ipi biri-birinə bağlayırmış kimi uzun, nazik barmaqlarını biri-birinə toxundurub dağınıq tərzdə və birnəfəsə danışmağa başladı – anladığım qədər, öz işi haqqında, onu bəyənməyən, tələbkar müştərilər haqda. Bərbər dükanının təkəbbürlü sahibini də unutmadı. Axırda elə bir


e-kitab.org

məsələdən danışdı ki, anam fikrini tamam dəyişdi, sonrakı söhbətlərini tam başa düşməzdən əvvəl anam məni yatmağa göndərdi.

Qapı arasından onların danışıqlarını, qonağımızın deyinməsini eşidirdim, elə bil hərdən ağlamaq səsi də gəlirdi.

Vaxt keçdikcə, onlar, deyəsən razılığa gəlirdilər, isterik bir qəhqəhə də eşitdim. Sonra, anam qapını açanda elə bildim ki, onlar yaxın dost olublar. Amma yox, heç demə, İnqrid Olossen getmək qərarına gəlib, şam yeməyi hazırlayan anam isə daha da fikirli idi.

– O burada yaşamayacaq? – anamdan soruşdum.

– Yox, yaşamayacaq, sənə söz verirəm, – anam dedi. – Onun bir qəpiyi də yoxdur. Harda gecə düşür, orda gecələyir. Heç adı da İnqrid Olossen deyil...

İstəyirdim anamdan soruşum ki, bütün bunları necə bilib. Tamam yad bir adam öz ürəyini ona bunca necə aça bilib. Yataq otağında uzandığım yarım saat ərzində özümü qəribə şəkildə narahat hiss edirdim. Məni düşündürən sualların cavabları yəqin ki, belə olmalı idi – ya anam onu əvvəlcədən tanıyırmış, ya da anam özünü bu qadında görüb. Həm də heç istəmirdim ki, anam bunu təsdiq etsin, odur ki, fikrimi yeməyimə verdim, amma yenə başqa bir fikir mənə rahatlıq vermirdi – mən anam haqqında bəzi şeyləri bilmirəm. Bir gün qabaq birdən-birə yoxa çıxması o yana qalsın. Bunun


e-kitab.org

üçün səbəb vardı – divan almaq istəyirdi. Amma tamamilə yad bir adamın bizim indiyə qədər sakit, son günlər bir balaca dəyişilən evimizə, həyatımıza daxil olması, təzə divanımızda belə arxayın oturması, bütün sirlərini açması, sonra da evdən qovulması nə deməkdi? Bu, mənimçün təkcə izah olunmaz bir tapmaca deyildi, həm də, nədənsə izahını istəmədiyim bir şey idi.

Yerimdə oturub göz altından anama göz qoyurdum, bir əsəbi, qaranlıqdan qorxan, ümumiyyətlə möhkəm və əvəzedilməz anama, Yer üzündə pənahım, göylərdə ümid qalam, indisə sifəti tanınmaz dərəcədə dəyişmiş anama.


e-kitab.org

# 3

Otağın kirayə verilməsi bir neçə həftəliyə təxirə salındı, sanki anam qorxurdu ki, daha bir sirr açılacaq, daha bir müəmma qapısını döyəcək. Amma, dediyim kimi, biz həmişə əksini edirdik, ona görə də, "Arbeiderbladet" qəzetində yeni bir elan verməkdən başqa yolumuz yox idi, hər sözü də əlli ereyə2. Odur ki, anam səbirsiz, hövsələsiz olmuşdu, mənə çörək verəndə səhvən içinə başqa şeylər qoyurdu, söz deyəndə elə bil qulaq asmırdı, axşamlar mənə kitab oxuyanda oxuduğu yeri tez-tez itirirdi. Mən etiraz edəndə:

– Nə isə, sən məndən daha yaxşı oxuyursan, – deyib özünü müdafiə edirdi. Amma bu, oxumağı yaxşı öyrənməyimə görə deyildi. Kitabımız çox idi, hamısını oxumaq istəyirdik. Marqit Zederqolmun uşaq kitabları, Jalna seriyasından olan kitablar3, Norveç krallarından bəhs edən saqalar, Frederik Marrietin "Piter Simplın macəraları", atamdan qalan yeganə kitab, fin yazıçısı Vyayno Linnin "Naməlum əsgər" kitabı. Bu axırıncı kitabı biz heç oxumamışdıq və anamın fikrinə görə, heç oxumaq fikrində də deyildik. Əgər bu lənətə gəlmiş kirayəçini tapsaq, istəyirdik ki, bir kitab şkafı alaq, mənim yataq otağımda, qutulara yığılıb qalmış bütün bu kitabları oraya yığaq. Bir dəfə anama nəsə dedim, gördüm ki, anam mənə eşitmir, elə bil başqası idim, bu, mənə yaman təsir etdi.


e-kitab.org

Nəsə baş çıxara bilmədiyim bir hissin təsirindən hirslə dedim:

– İndi bizim hansımızla danışırsan – mənimlə. yoxsa hardasa uzaqlarda olan naməlum birisi ilə?

Bu, xoşuna gəlmədi.

– Nə demək istəyirsən? – anam dediyimi göydə tutdu və öyüd-nəsihət etməyə başladı ki, hərdən mən çox anlaşılmaz hərəkətlər edirəm – əvvəllər də bir-iki dəfə belə məzəmmət etmişdi – sonra da əlavə etdi ki, yəqin, oğlan olduğuma görə belədir, qızı olsaydı, onun həyatı daha asan keçərdi.

– Başa düşmürəm, nədən danışırsan, – dedim və guya ərköyünlük elədim. Öz otağıma keçib çarpayımda uzandım, əlimdəki "Yukon macəraları"nı oxumağa başladım. Adətən belə narazı hallarda olduğu kimi, indi də oxuya bilmədim. Fikrimi toplaya bilmirdim, paltarlı-paltarlı yerimdə uzanıb getdikcə hirslənirdim: balaca bir oğlan nə qədər gözləməlidir ki, anasının hirsi soyusun, onun yanına gəlsin, Yuri Qaqarinin bizi səmaya nə qədər yaxınlaşdırdığından asılı olmayaraq, uşağını inandırsın ki, heç nə baş verməyib. Bu, bir qayda olaraq, çox vaxt aparmır, ən azı, bizim evdə, amma bu dəfə, çox qəribədir, elə bu hirsin-qəzəbin içində yuxu məni apardı.

Ertəsi gün səhər yuxudan oyananda xatırladım ki, mən gecədən paltarlı yatmışam, indi də adyalın altındayam, anam isə orada – mətbəxdədir. Durub geyindim,



e-kitab.org

mətbəxə getdim. Həmişə olduğu kimi, nahar elədik, radioda eşitdiyimiz "bariton", "U Tan" sözlərinə güldük, gülüşdük. Buna baxmayaraq, arada bir pərtlik, soyuqluq vardı, bu onu göstərirdi ki, aramızdakı ziddiyyət qalmaqdadır, çünki dəhlizə açılan qapı çırpılıb örtüləndə mən bunu hiss etdim, sonra mən də jaketimi, kurtkamı geyib çıxdım, Enn-Beritlə məktəbə yollandım.

Bəlkə mən daha dəyişmişdim?

Enn-Berit isə hər halda heç dəyişməmişdi. Mən hələ elə bir adam tanımırdım ki, bu qədər dəyişməz olsun: sevimli, özünə inanan, amma sadəlövh. Kasıb valideynlərindən onda əsər-əlamət yox idi, heç vaxt əyləncəli şeylərə maraq göstərmirdi, gülməyə doğrudan da bir səbəb görməyəndə heç vaxt gülmürdü, amma adətən gülməyə səbəb də olmurdu. Amma bu gün bütün bunlar çox yaxşı idi, o mənada ki, həmişə danışan mən bu gün danışmırdım, ona görə də heç birimiz dinmirdik və bu susqunluq bezdirici olduğundan axırda o dedi:

– Bu gün sənə nə olub?

Bu suala məndə hələ ki, dəqiq cavab yox idi, odur ki, Muzelandenin tozlu-torpaqlı boz cığırları ilə yolumuza davam etdik. Anamın da, fru Siversenin də dediyinə görə, bu yollar Tronheymdəki səkilərdən daha təhlükəsiz idi – yamacdan aşağı enən bu yollar boyunca avaraların kasıb, yöndəmsiz evləri salınsa da. Payızın



e-kitab.org

axırlarında yarpağı tökülmüş, qara-qura ağaclar fonunda onların kiçik, baxımsız daxmalar hər tərəfdən görünürdü. Elə bil qəzaya uğramış təyyarədən buralara tutqun qan ləkələri səpilmişdi. Burada çox qorxulu adamlar yaşayırdı, biz onları Sarı, Qırmızı və Qara adlandırırdıq. Deyirdik ki, Sarı xəstəlikdən əzab çəkir, ona görə də saralıb, Qırmızı həmişə qırmızı üzlüdür, Qara da qaraçı kimi qaradır. Biz sadəcə özümüzü inandırırdıq ki, bizi çağırsalar da, onların daxmalarına getmərik, çünki getsək, onlar bizi öz dəyirmanlarına atacaq, üyüdüb bizdən sulu, qəhvəyi sıyıq bişirəcək, ya da bulyon yumruları – ehtiyat azuqə düzəldəcəklər. Amma bu gün bunların heç birini danışmırdıq, onlar da heç yanda gözə görünmürdü, buna görə də sözüm yoxdu, danışmırdım. Amma bir himə bənd idim ki, kiminləsə toqquşub özümdən çıxım.

– Əh, sən də lap bezdirirsən adamı, – məktəbin oyun meydançasına yetişəndə Enn-Beritə dedim. O isə cavabında:

– Rədd ol başımdan! – dedi.

Xarakterindən bunu gözləmək olsa da, onun bu cür danışmağı özünə xas deyildi, odur ki, biz soyuq-soyuq ayrıldıq, o, qızların sinfinə, mən də qızlarla oğlanların birlikdə oxuduqları qarışıq sinfə – bu sinfi yaratmışdılar ki, görsünlər, qızlarla oğlanların biri-birinin yanında oturması mümkündürmü və eyni vaxtda nəsə öyrənə bilirlərmi.

Ən gözəl qızlar o biri sinifdə olsa da,


e-kitab.org

qarışıq sinifdə oxumaq yaxşı idi, amma bu da məlumdur ki, başqalarını yaxşı tanıdıqca onlarda daha çox nöqsan görürsən. Burada gözlərim Tanyanın qara, parıltılı saçlarında dincəlirdi. O Tanya ki, nədənsə həmişə sirli-sehrli görünürdü gözümə, çünki o heç vaxt heç nə demirdi, suallara isə elə yavaşdan cavab verirdi ki, müəlliməmiz freken Henriksen onun səsini artırınağa nahaq çalışırdı. Mən nəsə deyəndə o hər dəfə mənə sarı dönüb gülümsünürdü, mənə elə gəlirdi ki, həyatda bundan başqa adama heç nə lazım deyil. Bəziləri deyirdi ki, o qaraçıdır, Toyendəki botanika bağının yanında, sirk furqonunda yaşayır. Bu o qədər də əhəmiyyətli deyildi, çünki əlində gitara dünyanı dolanan, oğurluq edib karusellərdə fırlanan adamlardan daha cazibədar nə ola bilərdi ki?

İş o yerə çatdı ki, bu gün Tanyanı da məndən üz çevirməyə məcbur etdim və guya bununla da beynimi dəng edən fikirlərdən xilas oldum. Amma bu sərt ötkəmlik əvəzinə, birdən yadıma düşdü ki, ev tapşırığımı yerinə yetirməmişəm, bu dəhşətli və anlaşılmaz fikirdən məni ağlamaq tutdu. Göz yaşlarımı saxlaya bilmədim, səfeh kimi masamın üstünə əyilib əllərimlə üzümü gizlətdim. Gözlərimi ovur, hıçqırırdım. Başa düşürdüm ki, heç bir illüziya mənə kömək edə bilməz, bu, mənə baha başa gələr, ağlamaq heç nəyi asanlaşdırmaz.

– İlahi, Finn, nə olub?


e-kitab.org

– Bilmirəm, – deyə yenə hönkürdüm. Doğrudan da, bilmirdim. Bəlkə də bu cavabla özümü daha rahat hiss edirdim, çünki əgər desəydim ki, anama nəsə olub, onda nə olardı?

Freken Henriksen məni dəhlizə çıxartdı, sakitləşdirdi, istəyirdi ki, onun nə dediyini başa düşüm: indi məni evə göndərəcək, bir məktub da verəcək. Bilmək istəyir ki, evimizdə hər şey yaxşıdırmı. Mən etiraz etdim, bərkdən "yox" dedim, gözlərim yenə doldu. Dedim ki, bir az gözləsin, qoy özümə gəlim. Divara söykənib ayaqlarım üstə çökdüm, gözlərimi yer dikdim. Dəhlizdə kimsə gözə dəymirdi, mənə elə gəldi ki, bura xəstəxana dəhlizidir, uşaqlar hər yandan baxır, səssiz-səmirsiz gülürlər, ölülər də qanad bağlayıb uçurlar. Birdən xətrini çox istədiyim freken Henriksen dedi:

– Gözünə nəsə... görünür?

Diksindim.

– Nə... görünür?

– Yox, yox, heç nə. Elə belə soruşuram, bəlkə nəsə... görürsən...

– Nə görürəm yəni? –yenidən qışqırdım, çünki, deyəsən, məni qorxudan uçurum daha da dərinləşirdi, anam məndən get-gedə uzaqlaşır, yadlaşırdı. Bəlkə elə mən özüm də bunu bilirdim, duyurdum, bəlkə də bunu əvvəlcədən görə bilərdim mən.

– Mən heç bir qanlı şey görməmişəm! – yenə qışqırdım.

– Sakit ol, bir az sakit ol, Finn, – freken Henriksen dedi, başımı sığallayıb təskinlik


e-kitab.org

verdi, ovutdu. Oturduğum yerdəcə başımda qəfil xatirələr, ya da sözlər fırlanmağa başladı. Anamla mən sözlər tapırdıq, bu sözlərə ya gülürdük, ya da xoşumuza gəlirdi, deyirdik hansı söz səfeh sözdür, hansısa daha işlənmir, sözlər var, elə realdır ki, elə bil əlinlə onlara toxuna bilərsən, məsələn, "beton", "işlənmiş qaz", "palma süpürgəsi", "benzin", "dəri", "ayaqqabı dərisi"... Xəyal apardı məni, təsəvvür elədim ki, təzə aldığım kirşədə sürüşürəm, ağlayır, qışqırıram, budur, anam əlimdən tutur, Tronheymdən yamacla üzü aşağı var gücü ilə dartır... aydın, soyuq suların axdığı çay-zad da görünmür, əvəzində əzişdirilmiş, qana bulaşmış bir sifətdə burundan axan laxtalanmış, qəhvəyi-palçıqlı cığır kimi bir şey...

– İndi məni başa düşürsən? – anam qışqırdı, səsindən qulaqlarım cingildədi. – Qış qurtarıb! Yazdır daha!

– Sinfə gedək? – freken Henriksenin səsini eşitdim. Başımı qaldırıb onun üzünə baxdım.

– Hə, – dedim, ayağa durdum, üzümdə elə bir ifadə vardı ki, guya bir neçə dəqiqə qabaq razılığa gəlmişdik ki, heç nə baş verməyib.

Mənim bu halımdan məktəb meydançasında hamı xəbər tutmuşdu, məktəbdən evə gedəndə isə Enn-Beritin məni azdıran təbəssümü də yoxa çıxmışdı. Sarı və Qara yuxudan oyanmış, Qırmızı isə gözə dəymirdi. Oyananlar daxmalarının


e-kitab.org

kənarında oturub əllərindəki işıldayan bankalardan nəsə içirdilər. Bizə əl eləyib çağırırdılar ki, gəlin, Qara öz dələsini sizə göstərsin. Bunu eşidəndə Enn-Beriti qəribə bir gülmək tutdu.

– Qatillər! – var səsimlə qışqırdım. Qara ayağa durub "Hayl Hitler" salamı verdi, nəsə qışqırdı, amma nə dediyini başa düşmədik, çünki canımızın hayında idik, "Gənclik" Otelinə tərəf qaçırdıq. Nəfəsimizi dərmədən tennis kortundan keçənə qədər qaçdıq. Burada gördüm ki, dostlarım ocaq qalayıb, Enn-Beritə dedim ki, gəl onların yanına gedək.

O, ayaq saxladı, gözlərimə baxdı, sonra anasının papiros iyindən, xüsusən qatran iyindən xoşlamadığından danışdı, sonra da dedi ki, botinkalarım tamam palçıq içindədir, daha nələrsə də dedi. O heç özünə oxşamırdı, heç vaxt danışmırdı, düşündüm ki, məktəbdə başıma gələnləri də yəqin unudub.

Həmin axşam qapımızın zəngi çalındı, fru Siversen bizə gəldi. Elə astanadaca anamla xısınlaşmağa başladılar. Anam əllərini sinəsində çarpazlayıb qapı arasında durmuşdu, yad bir adam kimi bir gözü ilə hərdən mənə baxırdı. Mən yerimdə uzanıb özümü kitabla məşğul kimi göstərdim.

– Düzünü de, görüm, bu gün nə şıltaqlıq eləmisən? – anam elə birbaşa soruşdu ki, onun sözünü qulaq ardına vura bilmədim. Amma nə vardı ki, nə deyəydim. Ona görə də, uzanıb oxumağa davam etdim. Bu o

vaxta qədər ki, vəziyyət səngər davasına çevrildi. Sual bu idi – mən nə görmüşəm?

Bir ana "xəstələnməkdə" olan oğlunu xilas etmək üçün nə etməlidir, bax, anam heç indi də bunu etmədi, əvəzində burma saçlarını kədərlə yellədib mətbəxə yönəldi. Amma qapını açıq saxladı, kirayəçi üçün nəzərdə tutduğumuz həmin otağın qapısını, Frenkin qoyduğu qapını. Qonaq otağının da qapısını açıq saxladı. Mən onun şırhaşırla nəsə yuduğunu eşidirdim, əslində, bu iş mənim işim idi, ağır bir iş idi, amma boyun da qaçıra bilmirdim. O, yuyulanları qurudur, yır-yığış edirdi.

Kitabı kənara qoyub, ayağa durdum. Mətbəxə keçib onu su kranından yavaşca kənarlaşdırdım, amma şotkanı yelləməməyə, suyu sıçratmamağa çalışdım. Biri-birimizə heç nə demədən, danışmadan, süd stəkanlarını, boşqabları və çəngəlləri parıldayana qədər yuduq, qurutduq, lap sözləri qurtarmış iki qoca ər-arvad kimi. Bizim evdə onsuz da həmişə beləcə ölü sakitlik hökm sürürdü.

Amma ağlamağım keçmişdi daha, hiss edirdim bunu, lənətə gəlsin, indi mən gülmək, bərkdən gülmək istəyirdim. Bu vaxt əlimdəki şotkanı çirkli suya necə şappıldatdımsa, çirkli su anamın üzünə, üst-başına çiləndi. O yırğalandı, hirslə çığırıb geri çəkildi, bir təhər dayandı, üz-gözünü qəribə tərzdə büzüb, bir əli böyründə, o biri əli ilə gözlərini tutdu. Bir təhər yaxındakı mətbəx stuluna çökdü,


e-kitab.org

saçlarından sabunlu su axa-axa laqeyd şəkildə dedi:

– Sənin bacın var.

– Nə?

– Ögey bacın.

Bu sözün qabağında bir şey deyə bilmədim. Bu "bacı" haqqında mən, əlbəttə, bilirdim, haradasa yaşayır, dul bir qadının pensiyasını alıb xərcləyirdi. Bizim almalı olduğumuz pensiyanı. Sonra hər şey yerini tapdı.

– Həmin bərbər?

– Hə.

Hə, bax, həmin bərbər, İnqrid Olossen. Onun adı heç İnqrid Olossen də deyildi. O mənim bacım sayılan altı yaşlı, Linda adlı qızın anası idi. Bizim küt ağlımızın ucbatından o, qəzetdə elanımızı görüb, adlarımızı tanıyıb. Halbuki gərək poçt qutusunun nömrəsini verəydik, adımızı, ünvanımızı yox. Amma belə şeyləri kim - fikirləşir ki?

– Poçt qutusunun nömrəsini?

Sonrakı informasiya daha uzaqlara apardı. Anam əvvəlcə üst-başını qurutmalı oldu. O bunu vanna otağında elədi, diqqətlə, xeyli çalışdı. Mən balaca stolun üstünə çıxıb, su şırnağı ilə sabunlu şotkanı yuyub təmizlədim. Deyəsən, yoruldum. Sonra anam gəldi, makiyajını silib təmizlədi, amma bu makiyaj ayaqqabı dükanında çox lazım idi ona. Həftə axırları, evdə yalnız ikimiz olanda, o, həmişə makiyaj eləyirdi, belə çox cazibədar görünürdü.


e-kitab.org

– Amma o, qıza baxan deyil, – anam dedi və susdu. Yenə fikir götürdü məni, deyilənlər haqda baş sındırmağa başladım, şotkanı o yan-bu yana hərləyir, bilmirdim, neyləyim. Anam daha heç nə demirdi, mənsə soruşmağa özümü məcbur edə bilmirdim. Sonra o, elə mülayim səslə danışmağa başladı ki, elə bil dərman vermək üçün körpə uşağı dilə tuturdu. Dedi ki, İnqrid Olossen təkcə dul qadın deyil, o həm də narkomandır. Mən bu sözü ilk dəfə eşidirdim, anaının dediyinə görə, o, morfinist idi. Əh, cəhənnəm olsun...

– Bunları sənə indi ona görə deyirəm ki, daha böyümüsən, hər şeyi başa düşərsən, – anam dedi. – Əgər başa düşmək istəsən, əlbəttə.

– Bəs o burada yaşayacaq?

İndi mənə çatırdı hər şey.

– Sən bunu əvvəlcədən bilirdin! – qəfildən hirslə qışqırdım. – Heç demə biz burada yer düzəldirik, ayrıca qapı qoyuruq ki, onlar gəlib burada yaşasınlar!

– Yox, yox, – anam sözümü kəsdi, elə inamla, qətiyyətlə danışdı ki, bu mənə çox lazım idi. – O, qıza baxa bilmir. Mən bu haqda fikirləşmişəm... əgər götürməsək... onu yetimlər evinə verəcəyik...

– Yəni o burada yaşamaq istəyir də?

Anam sakitcə oturmuşdu, amma soruşduğumu başı ilə təsdiq etdi.

– Onda biz kirayəçi götürmürük? – ümidsizliklə yenə soruşdum.

– Hə, biz...



e-kitab.org

– Həm bacım gələcək bura, həm də kirayəçi saxlayarıq?

– Hmm.

– Amma, bərbər yox da, hə?

– O, bərbər deyil, Finn! Yox, o bir az müalicə olunmalıdır, bilmirəm...

– Demək, burada yaşamayacaq!

– Yox! Deyirəm də, bir qulaq as!

On dəqiqə sonra anam, əlində bir fincan "Lipton" çayı təzə divanda, mənsə limonad butulkası ilə kresloda oturmuşdum. Həftənin ortası idi. İndi bir-birimizi daha yaxşı başa düşürdük, on dəqiqə əvvəl başqa cür idi. İndi biz eyni ovqatdayıq. Bu, təzə bir ovqatdı, mən bir az dəyişmişəm, dəyişınəyə öyrəşirəm, bütün bunlar anamın gizlinləri ilə bağlıdır, çünki o özü də dəyişib, biz, iki yad adam kimi cani-dildən götür-qoy edirik ki, üçüncü bir yad adamla neyləyək, mənim də atam olan qaldırıcı kran maşinistinin qızı, Linda adlı, altı yaşlı bir qızla nə edək.

Bilirəm ki, anaının bu qərara gəlməsi asan olmayıb, əvvəllər onun bu qadın haqqında, onun qızı haqqında xeyirxah bir fikri, sözü ola bilməzdi, indisə o, fikrində qəti idi – bəziləri buna həmrəylik deyir – amma biz elə də iddialı, yüksək səviyyədə yaşayan adamlar deyilik, kreditlə yaşayırıq, bir az örtülü-qapalı həyatımız var. İndi anam mənə deyir ki, bu iki həftə ərzində nəinki xərclərimizi hesablayıb, onu da fikirləşib ki, əgər qızı ailəmizə götürməsək, camaat nə deyər, özümüz nə vəziyyətdə qalarıq. Hələ o qız yetimlər evində olduğunu


e-kitab.org

bilsə nə hiss edər. Üstəlik – bunu isə mən sonralar düzgün qiymətləndirə bilərəm – dul qadın olaraq özünü məğlub olmuş kimi göstərməkdən və narkomaniya kimi səfeh bir şeyə görə öz məsuliyyətindən qaçmaqdan belə daha yaxşı olmazdımı?

Onu da deməliyəm ki, bu, xatirəsi hələ də anaının qəlbində göynəyən, buna görə də şəkilləri bağlı bir qutuda saxlanan o qaldırıcı kran maşinistini aparan və dolayısı ilə onun ölümünə bais olan həmin adam üzərində anamın qələbəsi olardı, qələbə kimi görünərdi.

Bunlar öz yerində, mən dul qadının pensiyası ilə bağlı cavabsız qalan suala da cavab tapmalı idim.

– Yox, belə bir şey ola bilməz, – anam dedi. Görünür, bu sözləri deməyə əvvəlcədən hazırlaşmışdı, amma səsi titrədi. – Mən onu qızlığa götürmək istəmirdim...

Amma demək istədiyim bu deyil. Bilmək istəyirəm ki, görüm, anam belə bir riskə getməkdə öz arzusunu həyata keçirmək imkanını görürmü (o istəyirdi ki, qızı olsun). Odur ki, fikrimi dəyişdim, həm də ola bilsin, təzəcə əldə etdiyimiz bu razılığı pozmamaq üçün susdum. Özüm-özümə bunları götür-qoy edəndən sonra otağıma keçdim ki, dərslərimi hazırlayım, qapıları da açıq qoydum ki, anamla bir-birimizi eşidə bilək: anam gah qonaq otağına, gah mətbəxə keçir, işlərini görürdü. Radioda axşam mahnıları, arada yükdaşımalar haqda son məlumatlar


e-kitab.org

verilirdi. Bu isə o deməkdi ki, yatmaq vaxtı gəlir. Mənsə pəncərəmin qabağında qoyulmuş balaca oyuncaqlıma baxa-baxa, karandaşın ucunu ağzıma salıb çeynəyir, Essinin yaşadığı bloka, onların pəncərəsində indicə söndürülən işığa, o biri dostlarım Hansa, Rocer, Qreqer və Vettenin pəncərələrinə, binamızın bir-bir sönməkdə olan işıqlarına baxır, hansı səbəbdənsə bilmək istəyirdim ki, hələ iki həftə bundan qabaq mənə fəlakət kimi görünən bir hadisəni təsəvvür edim: mənim bacım olacaq, kiçik bacım.

2 Norveçdə xırda pul vahidi

3 Ümumən 16 kitabdır



e-kitab.org

# 4

Hər şeydən əvvəl, gəlir mənbəyimiz olacaq bu kirayəçini tapmaq lazım idi. Bu, adi bir məsələ deyildi. Elana görə cəmi üç nəfər bizə müraciət etmişdi. Biri eynilə Doris Deyə4 oxşayırdı. Anam qəhvə və pirojna gətirdi. Bu gənc xanım arada gülümsündü, qıpqırmızı boyanmış dodaqları arasından iki çürük dişi göründü, görünür, yaddan çıxarmışdı ki, ona belə gülmək olmaz. Nəsə, onu başımızdan elədik.

Yaşlı birisi də gəlmişdi, üst-başından alkoqol, daha hansısa anlaşılmaz iy gəlirdi. Özünü-sözünü bilmirdi, mizin üstünə heç vaxt görmədiyim yüzlük kron qoysa da, anam ona da qapını göstərdi.

Bundan sonra bir kişi gəldi. Palto, şlyapa geymişdi. İşsiz-gücsüz adama oxşayırdı. Amma xoş sifətli idi, üzü qırxılmışdı, Frenk bazar günləri ətirlənən kimi ətirlənmişdi. Bu ətrin adını mənə Enn-Berit demişdi – "Akva Velva", lazım olanda onu həm də içirdilər. Təzə gələnin aydın, sakit, rəngsiz gözləri vardı, maraqla gah anama, gah da mənə baxırdı. Dediyinə görə, dənizdə işləyirmiş, indi sahildə, gəlirli bir tikinti müəssisəsində işləyir, hələlik "öz yeri"ni tapana qədər ona bir "yuva" lazım idi.

Bu adamda nəsə bir müasirlik vardı, adamda xatircəmlik yaradırdı. Anam sonra deyəcəkdi ki, "əgər təhsili də olsaydı". Doğrusu, çox normal görünürdü, kino



e-kitab.org

ulduzları kimi geydiyi şlyapa və paltodan başqa, istədiyimizə tam uyğun idi. Danışığımız belə qurtardı: o, təzə açdığımız qapıda dayanıb kitablarıma, kibrit qutusu kimi maşınlarıma baxdı, astaca başını yellədi:

– Rahatdır.

– Əlbəttə, elə deyil?

– Amma, deyəsən, televizor üçün yer yoxdur...

– Televizor? Sizin televizorunuz da var? – anam dedi, guya ki, yaşamağa yeri olmayan adamın televizoru olması təbii bir şeymiş. – Onda televizoru biz qonaq otağında qoya bilərik, – bu son sözləri elə razılıqla dedi ki, qonaq məcburən gülümsədi:

– Əlbəttə var, amma çox da baxmıram.

Vəssalam, bununla da razılaşma alındı.

Onun adı Kristian idi, sonrakı həftənin şənbə günü evimizə köçdü. O vaxta qədər mən də anamın otağına keçdim. Birdən-birə birtəhər olmuşdu, elə bil özünə yer tapmırdı. Xeyli var-gəl edəndən sonra öz otağına getdi, həmişə yatdığı yataq otağına, ailəmizin yeni üzvünü
– altı yaşlı Lindanı qəbul etməyə hazırlaşdığımız vaxt olduğumuz otağa.

– Sənə bir az qəribə gələ bilər, – anam dedi və şəfqətli baxışlarını mənə dikdi.

Amma mənə heç qəribə-zad gəlmirdi, indi mən qarşıdakı evləri də görürdüm, orada dostlarım yaşayırdı. Bir də ki, biz indi ikiyaruslu çarpayıda yatacaqdıq. Onu anam


e-kitab.org

üç il əvvəl, həm də ucuz almışdı, yarısını ayırıb çardaqda saxlayırdı. Onu oradan gətirmək və yerinə qoymaq lazım idi. Bunu özümüz də edə bilərdik, Frenkə ağız açmaq lazım deyildi.

Amma anam çox narahat görünürdü, bunun səbəbi, deyəsən, qonaq otağında qoyduğumuz televizor idi. Onu heç açmırdıq, çünki Kristian evimizə köçəndən sonra, onu bir müddət görmədik, şlyapa və paltosu isə dəhlizdə – anamın iki paltosunun, mənim də gödəkcəmin asıldığı yerdə asılmışdı. O heç soruşmamışdı ki, onun otağından mətbəxə yol varmı, çünki onun otağından mətbəxə birbaşa yol yox idi. Amma tualetə, vanna otağına birbaşa yol vardı. Ona həftədə bir dəfə hamam lazım olacaqdı. Deməк, o, bayırda nahar eləyirdi, ya da bəlkə otağında yeməkdən-zaddan saxlayırdı, təkcə yeyirdi, ona görə də biz onu heç görmürdük. Bir axşam anam nəhayət dözmədi, gedib qapısını döydü.

– Gəlin, – içəridən səs gəldi. İçəri girdik. Kristian qırmızı rəngli kresloda oturmuşdu, qabağında da mənim əvvəllər görmədiyim qəzet.

– Siz heç televizoru açıb baxmırsız, – anam dedi.

– Siz açıb baxın, mənim elə də həvəsim yoxdur.

Hiss etdim ki, bu cür danışıq anamı bir az çaşdırdı. Dedi ki, bizim də elə çox marağımız yoxdur.

– Şam yeməyi yemisiz? – anam bir az


e-kitab.org

əsəbi soruşdu.

– Mən axşam saat beşdən sonra heç nə yemirəm,
– Kristian sakit səslə, qəzetə baxa-baxa dedi.

– Nə olsun, – anam dedi, – gedək, bizimlə şam yeməyi yeyək.

Anam belə əhvalda olanda, mənim etdiyim kimi, Kristian da ayağa durdu, azacıq gülümsəyib təşəkkür etdi. Biz otaqdan çıxanda:

– Bilirsiz, birdən sonra öyrəşərəm... – deyə əlavə etdi.

– Narahat olmayın, öyrəşməzsiz, – anam da replika ilə cavab verdi, yəni ki, bu bir dəfə olan şeydi. – Lütfən, gəlin, süfrə hazırdır.

– Əgər rəsmilikdən kənar deyirsizsə... – Kristian dedi, keçib mizin başında oturdu. Orada indiyə kimi heç kəs oturmurdu. – Amma bu düzgün deyil.

– Hə? – anam səsləndi. Fikir verdim ki, anam çörəyi həmişəkindən daha nazik doğramağa başladı. – Yox, biz balaca adamlarıq.

Bu artıq bir dəlil idi. Amma bu məsələdə mən Kristianın tərəfində idim. Başqalarının yanında, xüsusən ayaqqabı dükanında adamlarla danışarkən anamın işlətdiyi dil yalnız orada qəbul edilirdi.

– Bəs bu cavan oğlan gələcəkdə nəçi olmaq istəyir?
– Kristian soruşdu.

– Yazıçı, – əlüstü cavab verdim, ardınca


e-kitab.org

anam qəhqəhə çəkdi.

– O heç bilmir ki, yazıçı nə olan şeydir.

– Hər halda, istəmək bir üstün cəhətdir, – Kristian dedi.

– Hə? – anam eyni tərzdə təəccübləndi.

– Əlbəttə, çox lazımlı sənətdir, – Kristian dedi, görünürdü ki, nə haqda danışdığını yaxşı bilir. Anamla biri-birimizə baxdıq.

– Siz "Naməlum əsgər" romanını oxumusuz?

– Yaxşı, bəsdir, – anam mənə acıqlandı.

– Əlbəttə, oxumuşam, – Krsitian dedi. – Fantastik kitabdır. Amma elə bilirəm, sən hələ bu haqda bir şey bilmirsən, elə deyil?

– Yox, bilmirəm, – boynuma aldım. Amma indi miz arxasında elə mehriban bir ovqat vardı ki, mən həvəslə yeməyə başladım. Yemək zamanı anam gülümsəyib Kristiana dedi ki, yaxında ailəmiz böyüyə bilər, tezliklə evimizdə balaca bir qıza rast gəlsə təəccüblənməsin. Krsitian heyrətlə səksəndi. Necə təsvir edim, bilmirəm – lap astaca gülüşdülər. Onu da deyim ki, Kristianın oturuş-duruşu necə idisə, yeməyi də o cür aramla, tələsmədən yeyirdi. Gözləyirdi, layiqincə, anaının təklifindən sonra daha bir tikə çörək götürür, yeməyə davam edirdi. Anam hər dəfə deyirdi ki, bir az da yesin. O başa düşmürdü ki, saat beşdən sonra yeməmək nə axmaqlıqdır, Kristian isə hesab edirdi ki, ölkədə bir çoxları asketizmin nə olduğunu, şübhəsiz, öyrənməli olacaqlar.


e-kitab.org

– Çünki bunların davam edib-etməyəcəyi məlum deyil, – o dedi.

– Soruşmaq ayıb deyilsə, bununla nə demək istəyirsiz? – anam istehza ilə dedi. Kristian isə ərklə gülümsəyib əlindəki bıçaqla anama işarə elədi:

– Gördüz? Yenə rəsmi danışırsız...

Amma mən bunlara qulaq asa bilmirdim, çoxdan televizora baxmaq istəyirdim. Axırıncı gecələri biz qonaq otağında keçirdik. Anam qabağında bir fincan çay, əlində nəsə toxuyurdu, mən isə kitab oxuyurdum, amma o yandan yaşıl-boz, kor gözü ilə bizə baxan o qutudan gözlərimi çəkə bilmirdim. Gələcək o qutunun içində idi. Dünya onun içində idi. Nəhəng və ağlasığmaz. Valehedici və sirli. Yavaş-yavaş işləyən əqli, atom partlayışı, amma biz hələ ki, bu haqda heç nə bilmirdik. Təsəvvür edirdik. Amma onun beləcə lal-dinməz qalmasının səbəbi, anamın dediyinə görə, o idi ki, anam onun ağ düyməsini basmağa mənə icazə versəydi, kirayənişinimiz fikirləşə bilərdi ki, biz birdən ehtiyatsızlıq edərik, xarab edərik onu. Ya da kirayənişinimiz müvəqqəti “sığınacağından” bu səsi eşidər, müqaviləyə əsasən ona verdiyimiz otaqdan daha geniş sahəyə çıxmağa həvəslənəcək, qonaq otağına da şərik çıxacaq, guya ki, bu onun hüququdur. Vaxt keçdikcə hələ ayrı şeylər də çıxa bilərdi meydana. Yox, daha dözmək olmurdu.

– Mən onu açmaq istəyirəm, – dedim.



e-kitab.org

Biz əyləşib özümüzü elə göstərməli idik ki, orada hər şey yerindədir, heç nəyə əl vurulmayıb. Bizim evdə onsuz da ən çox fikir verilən şey təhlükəsizlik idi. Televizoru açsam nə olar ki? Anam qəzetləri oxuyur, proqramlara baxırdı ki, görsün, hansı kanalda nə gedir. Bir proqramda Erik Dayzenin “Hit Parad” verilişi gedəcəkdi. Deməli, biz “Matros” mahnısını, ya da “Fin meşəsində həyat” valsını dinləyə biləcəkdik. Bu mahnıları yalnız rekord sifariş olanda verirdilər. Bəs, məşhur oyun-viktorina? Essi bu viktorinadan elə danışdırdı ki, elə bil dünyanın səkkizinci möcüzəsidir.

İndi mən yerimdən durub düz qonaq otağına getdim, beynimdə başqa fikrə yer yox idi. “Tandberq” nişanından yuxarıdakı düyməni basdım, heç nə baş vermədi. Səs-səmir gəlmirdi. Ekran işıqlanmırdı. Təxminən, otuz saniyə. Sonra, ekrandan bir fışıltı-xırıltı qopdu ki. Mətbəxdən Kristianın səsini eşitdim.

– Gərək lisenziyaya baxaq. Həm də antena lazımdır, – deyib ayağa durdu, öz otağına getdi. Əlində bir qutu gətirdi, eşələməyə başladı, içindən bir şey çıxardı. “Daxili antena” deyirdi ona. İri böcəyin qalvanizasiya edilmiş xortumuna oxşayırdı. Onu quraşdırandan sonra, ekranda əyri-üyrü, deformasiya olunmuş balıqlar göründü, hər səmtə dalğa-dalğa xətlər axır, heç nə seçmək olmurdu. Lap Siversenin divar kağızları kimi qarışıq bir şey.

– Eybi yox, başqa birisini alaram, –


e-kitab.org

Kristian dedi. Bir əli ilə antenanı o yan-bu yana tərpədir, dalğaları kiçildir, böyüdürdü.

Oturub ekranda əyri-üyrü görünən balıqlara baxırdıq. Anam uzunboğaz dükan ayaqqabılarında, bir azca əyilmiş halda, divanın lap qırağında oturmuşdu, elə bil avtobus gözləyirdi. Kristian otağın ortasında, ayaqlarını aralı qoyub əllərini sinəsində çarpazlamışdı, gözlərini balkonun qapısına zilləmişdi – yəqin, antenanı orada quracaqdı. Anam təklif etməyincə o oturmadı, sonra lap stulun qırağında oturub dizlərinə dirsəkləndi, çənəsini əllərinə dayadı. Nəsə o da başqa bir havada idi, dalğın görünürdü. Yalnız mən huş-guşla qulaq asırdım, elə bil dünyanı mənə vermişdilər. O vaxt hiss etdiyim dostluğun, mehribançılığın əsası həmin axşam qoyuldu.

Aydın oldu ki, Kristian da mənim kimi rəqəmləri, rekord vaxtları, tarixləri, maşın nömrələrini yaxşı yadda saxlayır, bunlara maraq göstərir. Məsələn o bilirdi ki, Norveçdə 60 mindən çox televizor var, yəni hər on evə bir televizor düşür, ABŞ-da isə az qala hər evdə rəngli televizor vardı. O, “intelligent”, “development”, “sporadic” (hərdənbir, təsadüfi) sözlərini tez-tez işlədirdi, mənimçün, anam üçünsə bu anlayışlar heç bir məna kəsb etmirdi. Balıqlardan sonra, ekranda bir asiyalı adamın sifəti göründü, adı da bizə gülməli görünürdü – U Tan. Səsini radioda eşitmişdik, o vaxt xeyli gülmüşdük də bu


e-kitab.org

ada. Amma Kristian deyirdi ki, o həm çox ağıllıdır, həm də zəngin dünyagörüşü var. "Belə deyirlər",

– Kristian əlavə etdi. U Tanın intellektuallığı haqqında bu rəy təkcə kirayəçimizin fikri deyildi, elə bil əksəriyyətin də fikri belə idi, "deyirlər", "deyilənə görə" sözləri ilə ağızdan-ağıza yayılan bir həqiqət – Kristianın dediyi hər bir söz, cümlə güclü təsir bağışlayırdı. Sonrakı dəqiqələrdə işlətdiyi "gic", "axsaq", "radiator", "absenteizm" sözləri bizdə belə bir fikir yaratdı ki, o, oxumuş, təhsilli adamdır. Anaının üzündəki ifadədən isə hiss etdim ki, vulqar sözlərdən çox, bu cəhət onu daha çox narahat edir. Demək istəyirəm ki, hər kəs and içə bilər, amma nalayiq sözlər, elə bil otağımın havasını pozdu. Anaının qaş-qabağının tutulması da bu qarışıq davranışa görə idi: eyni bir adam həm "gic" sözünü, həm də "sporadic" sözünü işlədirsə, demək, o, yarımçıq, yetkin olmayan birisidir, hər kəs bilir ki, beləsi yurdsuz-yuvasız bir qaraçı ola bilər, dedikləri yalan və etibarsız olar. Yoxsa bu Troyan atı sakit evimizi tövlə bilmişdi? Kim bilir, içində nə vardı?

Gecəyə anaının sözləri nəhayət verdi:

– Yaxşı, məncə bəsdir daha, yatmaq vaxtıdır, – dedi.

O, ayağa durdu, ətəyini aşağı çəkdi. Kristian da dərhal ayağa sıçradı, sanki qorxulu bir işin üstündə tutulmuşdu.

– Hə, əlbəttə, sabah başqa bir gün olacaq. Gecəniz xeyrə qalsın.


e-kitab.org

O öz otağına getdi, bir az keçməmiş geri qayıtdı.

– Yadımdan çıxdı, deyim, şam yeməyinə görə təşəkkür edirəm, – dedi, sonra beş ere çıxarıb televizorun üstünə qoydu, dedi ki, mən onu götürüm. Müharibə dövründən qalmış xırda pul idi, dedi ki, bir vaxt o özü xırda pulları yığırdı. Elə bilirdi, mən də yığıram belə sikkələri.

Anamla mən vanna otağına keçdik, axşamkı təmizlik işlərini görmək lazım idi. Kirayəçimiz gələndən bəri bu işlər bir az da artmışdı. Anam gözləməli olurdu, lap sonda, hələ gündüzdən ayaqqabı dükanında elədiyi makiyajını yuyub təmizləyirdi. Mən də vannanın qırağında oturub gözləyirdim, bir əlimdə diş fırçası, bir əlimdə Kristianın verdiyi xırda pul vardı.

– Nə fikirləşirsən? – anam güzgüdə mənə baxıb soruşdu.

– Hər şey yaxşıdır, – televizoru nəzərdə tutub dedim, əlbəttə, ola bilsin, proqramlara görə idi ki, nəsə gözlədiyimiz kimi olmadı, amma bunu sonra da yoluna qoymaq olardı, indisə heç olmasa sabah məktəbdə nə haqdasa danışmağa bir şey vardı.

– Qəribədir, – anam dedi.

– Nədir qəribə?

– Bəlkə səfeh bir iş görmüşük?

– Necə yəni?

– Sən onun əllərini görmədin? O, tikintidə işləyənə oxşamır, heç vaxt.

– Nə demək istəyirsən?

– Sən Frenkin... eee... Herr Siversenin


e-kitab.org

əllərini görmüsən də?

Heç bilmirdim, nəyi nəzərdə tutur, öz əlimə baxdım, xırda pul tutduğum sol əlimə, qeyri-adi bir şey yox idi.

– Təsəvvür elə ki, o, ədabaz-snob deyil, – anam dedi.

Mən bilmirdim, snob nədir, amma anam izahat verəndən sonra, fikirləşdim ki, bunun Kristiana o qədər də dəxli yoxdur.

Sonrakı günlərdə aydın oldu ki, kirayəçimizdə hər kəsin həsəd aparacağı şeylər varmış: əsgərlikdən gətirdiyi süngü bıçağı, mis haşiyəli taxta qutuda mikroskop, içində iyirmi səkkiz xırda şarı olan balaca dəri torba – şarlar yerqazan maşınların podşipnikindən çıxarılmışdı, onları bəzək kimi də istifadə etmək, ya da sadəcə əldə oynatmaq olardı, əlimdə gözəl bir şey var deyə. Başqa bir taxta qutuda yaşıl rəngli, spiralvarı, balaca bir mis fırfıra vardı, fırladanda adamın başı hərlənirdi. Balaca bir şahmat qutusunda polad fiqurlar vardı, deyirdi ki, həmin fırfıra kimi onları da özü düzəldib. Deyirdi, sənəti belə alətlər qayırmaqdır. Amma dediyinə görə, alət qayıran olmaq istəmirmiş, səbəbini dedi, amma mən bir şey başa düşmədim. Ona görə də, çıxıb dənizə gedib, bu iş xoşuna gəlirmiş, o vaxta qədər ki, İrlandiya sahillərində gəmiləri qəzaya düşüb. Sonra da, daha dənizə getməyib, əvvəlki sənətinə qayıdıb, amma burada bir dəyişiklik görməyib, nəhayət, tikinti sahəsində işləməyə üstünlük verib.


e-kitab.org

Bu işi haqqında da bir şey eşitmirdik, üstəlik, anaının müşahidəsinə görə, onun əlləri bu işlə heç uyuşmurdu, o vaxta qədər ki, bir gün axşam o, birinci ayın kirayə pulunu verəndə anam bu barədə ondan soruşdu.

– Mən həmkarlar işini görürəm, – o, qətiyyətlə dedi və öz otağına getdi. Anamla mən yenə bir şey başa düşmədik, mat qaldıq.

– Heç nə başa düşmürəm, – anam əllərini göyə açdı.

Beləliklə, bir müəmma öz yerini o birisinə verirdi. İndi ki, burada yaşayır, görür ki, bizim də ondan xoşumuz gəlir, Kristian niyə bizim kimi hər şeyi açıq - deməsin?

İndi anaını fikir götürmüşdü. Mən onsuz da razılaşmışdım ki, Kristian matros olub, sonra alət qayırıb, amma onun otağına gedib-gəlməyim də indi problem olmuşdu, çünki anam hər dəfə onun otağına getməyimə icazə vermirdi və bu hər axşam belə olurdu. Mən qapını döyürdüm, o "Gəl" deyirdi. Mən içəri girib gözləyirdim, ta ki, o, başını qəzetdən ayırır, elə başı ilə də işarə edirdi ki, yanındakı boş stulda oturum. O daha bir-iki dəqiqə oxuyurdu, mən də gic kimi oturub, əllərimi dizlərimin arasına qoyub kitablarını nəzərdən keçirirdim, divarda qarmaqdan asılmış içində podşipnik şarları olan torbaya, şahmat taxtasına baxırdım. Bir gün yenə otağına getdim. O oxumağını bitirib ev


e-kitab.org

tapşırıqlarımı edib-etmədiyimi soruşdu.

– Hə, ev tapşırıqlarımı eləyib qurtarmışam, – dedim.

– Mənim heç vaxt ev tapşırığım olmayıb, etməmişəm də, – o dedi.

Bunun mənim üçün fərqi yox idi. Çoxlu dostlarım vardı, onlar da ev tapşırıqlarını yerinə yetirmirdilər, bu, əlbəttə, onların işini çətinləşdirirdi. Bir də ki, sözlər, ədədlər maraqlı və məzəli idi, Kristian məndə bu marağı görməmiş deyildi.

– Sən maraqlı oğlansan, – dedi.

– Siz də, – dedim. – Mikroskopa baxa bilərik?

– Baxaq, gətir onu görüm.

Mikroskopu gətirdim, güzgülərini, şüşə slaydları bərkitdim, bir kronluq sikkəni götürüb mikroskop altında baxmağa başladıq. Yaxşı seçmək olmurdu, sikkənin səthində çoxlu cızıqlar vardı, mikroskop altında bu cızıqlar lap dərəyə oxşayırdı. Gözlə bunları görmək mümkün deyildi.

– Bilirsən, bu nədir? – Kristian soruşdu.

– Yox.

– Bu, sikkənin tarixidir. Bura bax, tarixi yazılıb: 1948-ci il. O vaxtdan bu sikkə minlərlə əldən keçib, bank daxıllarında saxlanıb, kassalarda, ciblərdə, oyun avtomatlarında gəzib, ola bilsin hansısa taksidən düşüb, diyirlənib, bir yağışlı gecədə Storqata küçəsinə gəlib çıxıb, üstündən avtobuslar keçib, sonra bir məktəbli qız onu yolda tapıb, götürüb evə aparıb, öz kassasına salıb. Bütün bunlar


e-kitab.org

sikkənin səthindəki izlərdən oxunur, sikkənin tarixidir. Heç bilirsən, necə bir tarixdir? Çox köhnə bir tarixdir. Məsələn, mənə bax, mənim üzümə. Gör orada nə qədər qırış var, amma cəmi 38 yaşım var. İndi öz üzünə bax. Körpə uşağın yanı kimi hamardır, aramızda yeganə fərq də budur – köhnəlir adam. Mən səndən otuz il köhnəyəm. Elə bu sikkə kimi. Dünən, təzəcə zərb edilmiş bir sikkə ilə əlimizdəki bu sikkənin fərqi kimi. – O, üstündə at rəsmi zərb edilmiş təptəzə bir kron çıxartdı, dedi ki, mikroskop altında ona da baxım. Doğrudan da, sikkənin üzü küləksiz dənizin səthi kimi hamar idi. Linzaları dəyişib daha da yaxından baxdıq. Hətta təzə sikkənin də üzündə minlərlə hissəciklər vardı. Kristian onlara kristal xətlər deyirdi, onlar da bir gün köhnəlib yeyiləcəkdi. – Başqa sözlə, sikkə özlüyündə parlaq bir şey deyil, onun ən parlaq dövrü onda olur ki, maşında zərb olunandan sonra, onun Allah bilir iyirmi altıncı, ya da qırx üçüncü sahibi onu cibindən çıxarıb Asbuanın Bjerke rayonundakı kafelərin birində xardallı sosis və kartof piroqu alır. Bax, sikkənin tarixinin ən yüksək nöqtəsi həmin andır – ac bir müştərinin əlindən sürüşüb tox bir sosis satanın piştaxtası üzərinə düşdüyü həmin an. Bax, oradan sikkənin köhnəlməsi, yıpranması başlayır, nə qədər vaxt keçsə də. Sən heç tamam köhnəlmiş, pozulmuş sikkə görmüsən?

– Yox.



e-kitab.org

– Get qonaq otağına, oradan ananın ensiklopediyaları arasından “S” cildini gətir.

Dediyi kimi elədim. Ensiklopediyadan ölkəmizin tarixində ən yüksək nöqtə olan kral Sverre haqqında mətni tapıb oxuduq. Bildim ki, Sverre həm sərkərdə, həm də kral olub, xalqı ayağa qaldırıb, amma həm də pul sikkələri zərb edib və ensiklopediyada bu sikkələrin şəkli də var. Onların üzərindəki “Suerus Magnus Rex” sözləri asanlıqla oxunurdu, latın dilində. Onlar yarpaq kimi nazik idi, gün işığına tutanda o üz-bu üz görünürdü. Amma burada nə az, nə çox, 800 ilin söhbəti gedirdi, ona görə də, Kristian sikkələrlə bağlı son sözlərini deyəndə mən də maraqla, heyrətlə baxırdım.

– Bundan nəticə çıxarsaq, – o, filosofsayağı bəyan elədi, – deyə bilərsənmi, insan öz yüksək nöqtəsinə nə vaxt çatır?

Fikrə getdim.

– Bəlkə də, sənin yaşında, – Kristian hiyləgərliklə gülümsündü.

Həmin gecə mən ensiklopediyanın o cildini özümlə yatağıma apardım, kral Sverre haqqında olan məqaləni tamam oxudum, orada Kristianın demədiyi sözlər də vardı, amma başa düşdüm ki, Kristian doğru deyir.

4 Amerikalı aktrisa və müğənni


e-kitab.org

# 5

Amma onun otağına belə tez-tez getməyim anamın xoşuna gəlmirdi. Deyirdi ki, gərək kirayəçimizi narahat etməyim, xoşuna gəlmirdi ki, mən onun qapısını döyür, xeyli gözləyirdim ki, nə vaxt "Gəl" deyəcək, bəzən də heç "Gəl'' demirdi, mən də içəri girmirdim. İçəridə çox qalmağım da anamın xoşuna gəlmirdi. Ən pisi o idi ki, onun yanından gələndən sonra beynimdə cürbəcür məlumatlar olurdu. Məsələn, Şpisbergen arxipelaqında orta temperatur, yaxud Norveçdə "Akuavit içkisinin istehlakı – ildə 3,3 milyon litr, amma, məsələn, ölkədə bunun onda biri qədər qırmızı çaxır içmirdilər. Bir uşağın beynini belə şeylərlə doldurmaq olmazdı.

– Mən uşaq deyiləm.

Bundan başqa, məsələn, mən anama deyə bilirdim ki, "qırmızı kolbasa" dediyimiz şey əslində "salami" kimi tanınır, dəfələrlə səs verdiyimiz baş nazir Eynar Herhardsenə çox da inanmaq olmaz. Odur ki, bu axşam gəzintilərimə son qoyuldu. Anam hətta icazə vermirdi ki, onun otağına gedib mikroskopu qaytarım. Mikroskopu almışdım ki, anaının neylon corabında adi gözlə görünməyən xırda toxumalara baxım. Anam özü buna icazə verdi. Amma yenidən yanıma gələndə onun yanaqları pörtmüşdü, bilmək istəyirdi ki, kirayəçimiz alt paltarlarını qurutmaq üçün onları həmişəmi pəncərə pərdələrinin şüvüllərində asır.


e-kitab.org

Mən haradan biləydim. Anam yenidən özünü bizə yetirdi, dedi ki, bütün binanın sakinlərinin bu alt paltarlarının pəncərədən asıldığını görməsini istəmir.

– Yaxşı, – Kristian yerində donub qalmışdı. – Bəs onları haradan asım? Harada yuyum?

Belə razılaşdıq ki, çirkli paltarlar üçün onun ayrıca qurusu olsun, vaxtı gələndə götürüb camaşırxanaya aparsın, yuyulandan sonra oradaca barabanın üstünə qoysun, sonra anam onları paltar qurutma otağında sərsin. Hiss etdim ki, bütün bunlar anaının onun çirkli paltarlarına toxunmaq istəməməsinə görədir. Kristian da belə düşünürdü. Belə də oldu. Sonrakı həftələrdə biz onu heç görmürdük.

Həmin payız təchizat sahəsinin işçiləri tətil etdi. Omar Hansen dükanlarında da ehtiyatlar qurtarmışdı, anam işdən evə gələndə bizə lazım olan şeyləri almaq üçün bütün şəhəri dolaşırdı. Bir gün günorta çağı evimizin dəhlizində iri bir qutu gördük, içində marqarin yağı, çörək, kartof, balıq əti, bir tübik kürü, ciyər pastası, iki butulka "Solo" içkisi, üç plitka südlü "Freia" şokoladı. Qutunun lap dibində mənim üçün iki nüsxə kovboy nağılları vardı.

– Siz belə etməli deyildiniz, – anam dedi.

– Niyə də yox? – Kristian dilləndi. Dedi ki, Frenk kimi onun da əlaqələri var. Həmkarlar təşkilatında. Amma anamın belə


e-kitab.org

əlaqələri yox idi. İşə bax ki, tətili də anamın həmkarlar təşkilatları başlamışdı.

– Heç olmasa soyuducuya qoyaydınız, mənim üçün. Olmazdımı?

Bu da elə bir razılığa oxşayırdı, indi anamın da, mənim də hər gün televizora baxdığımız kimi. Çünki anam lisenziya pulunu öz adına ödəmişdi. Anam nə eləsə də, Kristian get-gedə həyatımıza, ailəmizə daha çox daxil olurdu.

– Bu şeylər üçün nə qədər verməliyik? – anam dedi.

– Necə, yəni? Bu nə deməkdir? – Kristian hirslə dedi və çevrilib öz otağına getdi, qapını örtdü. Qutu bir-iki saat oradaca qaldı, nəhayət, anam bir qərara gəldi, oradakı şeyləri soyuducuya qoydu.

– Bu nə isə düzgün deyil, – anam dedi. Sonra əlavə etdi: – Amma eybi yoxdur. – Sonra "Solo"lardan birini mənə verdi. Həftənin ortasında daha bir "Solo" verdi.

Sonra bir şokolad plitkasını da yedik. Televizoru açdıq, "Hit-Parad"a baxdıq. Ardınca şəhərdə pivə zavodundan dükanlara pivə daşıyan bir at haqqında sənədli filmə baxdıq. Atın adı "Bamse" idi – "Xuliqan". Otuz iki yaşı vardı, atlar üçün çox böyük yaşdır. Məsələ burasında idi ki, indi Bamsenin dövrü keçmişdi, təkcə onun yox, ümumiyyətlə at zamanları keçmişdi. Atları avtomobillər, asfalt yollar əvəz edirdi. Sürət də artmışdı. Çox təsirli bir veriliş idi, oturub gözlərimizi ekrana zilləmişdik, gözlərimiz az qala yaşarırdı. Yaxşı ki, nəhayət, veriliş



e-kitab.org

bitdi, Bamseni öz əvvəlki sahibinin yanında, böyük bir fermada, çəmənlikdə otlayan gördük. Onun son günləri idi, ətrafda günəş parlayır, çiçəklər açır, torağaylar oxuyurdu.

– Allaha şükür, qurtardı, – anam dedi və tələsik televizoru söndürdü. Ekranın sönməkdə olan işığı gözlərimizdə əks edirdi, birdən anam dilləndi:

– Mən bunları onun kirayə pulundan çıxacağam.


e-kitab.org

# 6

Sonra Linda gəldi. Avtobusla. Həm də təkcə. Çünki anam istəmirdi ki, qızın anasını bir də görsün, hər halda mənə belə gəlirdi.

Şənbə günü idi. Biz Aker xəstəxanasının yanındakı avtobus dayanacağına vaxtında yetişdik. Saat 13.26 dəqiqədə Qroruddan gələn avtobusu gözlədik. Səhər mən məktəbə getmişdim, hadisələrin bu cür inkişafı haqqında, Linda haqqında heç kimə bir söz deməmişdim, heç deməyə söz də tapmırdım. Amma dolayısı bir yolla dostum Rocerlə bu mövzunu müzakirə etdim. Rocerin özündən böyük iki qardaşı vardı. Soruşdum ki, bir neçə qardaşı olmaq necə şeydir. Əvvəlcə sualımı başa düşmədi, sonra nəyi bilmək istədiyimi anladı, rişxəndlə gülümsündü:

– Tək uşaq...

Bu lap diaqnoza oxşadı, "bir az axsaqlığı var" şəklində qoyulan diaqnoza. Bu haqda özümün də hələ tam aydın olmayan fikirlərim vardı, çünki təzə bir çarpayı yığmışdıq – bir gecə onda yatmışdım da. Anam fikir-xəyal içində idi – Lindanı gətirsin, ya yox? Sonra o, çardağa çıxıb oradan üstü "Lom və Dombas" etiketli iri bir çamadanla qayıtdı. Çamadan uşaq paltarları ilə dolu idi, anamın Lindanın yaşında, altı yaşında olanda geydiyi paltarlar. Paltarları bir-bir götürüb baxır, öz-özünə nəsə deyir, danışırdı: "Yox, heç vaxt. Aman Tanrım, bəs onda bunlar necə olsun? Bunların heç biri



e-kitab.org

yaxşı deyil. Bəlkə bu yaxşı olar?" "Amaliya" adlı kuklanı nəzərdə tuturdu. Amma kuklanın da qarnı cırılmışdı, deyildiyinə görə, o vaxt qardaşları onu guya appendiksdən əməliyyat etmişdilər. Kuklanın ayaqları sallanır, oynayırdı, başı yerində durmurdu, boz muncuq dənələrindən tutqun gözləri vardı.

– Yaxşı deyil? Bir bax.

– Hmm.

Anam "Amaliya"nı Lindanın çarpayısına qoydu, kukla bir həftə çarpayıda qaldı. Amma bu gün səhər o oradan götürülmüşdü.

– Bəs "Amaliya" hanı? – yuxudan oyanan kimi soruşdum. Anam cavab vermədi. – O bu gün gəlir, hə? Linda?

– Əlbəttə, – anam dedi, guya ki, onun bu cavabı kuklanın yenidən çardağa atılması üçün kifayət edəcək bir səbəb idi. Bəlkə ona görə ki, anamla Linda arasında anlaşılmazlıq olmasın? Mən belə yozurdum, amma mən nə bilirəm ki? Çarpayıya salınmış ağlar artıq üçüncü dəfə dəyişilirdi, kimsə onlarda yatmırdı, çarpayı isə gözləyirdi.

Axır ki, avtobus gəldi, dayandı. Amma kimsə düşmədi. Əksinə bir neçə nəfər mindi. Anamla mən bir-birimizə baxdıq. Pnevmatik əyləclər fışıldadı, qapılar titrədi və bağlanınağa başladı. Son anda anam özünü qabağa atdı, "Saxla!" deyə qışqırdı. Konduktor yerindən sıçradı, anamın qolundan tutdu, eyni anda dizi ilə


e-kitab.org

bağlanmaqda olan qapıları geri itələyib açdı.

– Ehtiyatlı olun, madam.

Anam elə bil nəsə dedi, amma avtobus da dayandı. Sonra anam içəri girdi, avtobusun çirkli pəncərələri arxasında yox oldu. Bir xeyli vaxt keçdi. Sonra avtobusun içində nəsə səs-küy qalxdı, bir azdan anam qapıda göründü. Üzü qızarıb pörtmüşdü, hirslə, həyəcanla, kip geyimli, çiskinli payız günündə ağ, uzun corab geyinmiş balaca bir qızın qolundan tutub arxasınca dartırdı, əlində də açıq-göy rəngli, kiçik bir çamadan.

– Sağ olun, sağ olun, – anam konduktora bərkdən deyirdi. Konduktor da "Dəyməz" dedi və anama daha nə dedisə, anamın sifəti bir az da qızardı, əli ilə saçlarını düzəltməyə başladı. Mən həndəvərdə gəzinir, indicə gəlmiş Lindaya baxırdım. O, balaca, kök bir qız idi, sakit baxışları asfalta zillənmişdi.

Nəhayət, avtobus yola düşdü, anam ailəmizin bu yeni üzvü qarşısında diz çöküb üzünə, gözlərinə baxmağa çalışır, gördüyüm qədər, istədiyinə nail ola bilmirdi. Amma sonra tamam hövsələsini itirdi, bu utancaq, zərif varlığı bərk-bərk qucaqladı, bu, mənə çox təsir etdi. Amma Linda buna da məhəl qoymadı,

anam gözlərinin yaşını sildi, özündən utanırmış kimi, sıxıla-sıxıla dedi:

– Ah, gör mən nə edirəm? Gəl, gəl, gedək Omar Hansenin dükanına, orada sənə şokolad alım. Şokolad istəyirsən, Linda?

Lindanın elə bil nitqi qurumuşdu.



e-kitab.org

Ondan qəribə qoxu gəlirdi, saçları pinti, səliqəsizdi, hər yandan üzünə tökülmüşdü. Əlini anamın əlinin içinə salıb, iki barmağından bərk-bərk elə tutub sıxmışdı ki, barmaqlar ağarmışdı. Anamın yenə hövsələsi daraldı. Mən daha buna baxa bilmədim, görürdüm ki, Linda instinktiv olaraq sanki həyatın ucundan yapışıb, onu əlindən buraxmaqdan qorxur. Sanki əgər buraxsa, yəqin, təkcə onun həyatında deyil, mənim də həyatımda bir çox şeylər dəyişəcəkdi. Bu cür adamın ürəyini elə tutub sıxmaq olar ki, adam ölər, adama elə gəlir ki, lap ölsən də o barmaqlar sənin əlindən açılan deyil. Heç qəbirdə də. Mən çox yüngül, balaca, göy çamadanı götürüb başımın ətrafında fırlatdım.

– Anam soruşur ki, şokolad istəyirsən? – qışqırdım. – Karsan, ya nəsən?

Linda diksindi, anam mənə elə hiddətlə baxdı ki, bu sayaq adətən daha çox adamların yanında mənə baxdığını görmüşəm. Mən öz payımı götürdüm, yoxuşu qalxdıqca onlardan bir-iki addım arxada getməyə başladım. Anam indi özünü daha məhrəm göstərməyə çalışır, səsinə sevinc qataraq deyirdi:

– Bax, Linda, biz orada yaşayırıq, – sonra əlini uzadıb maşınlardan qalxan buxar içində az qala görünməz olan Trondheym tərəflərini göstərirdi. – Orada, ikinci mərtəbədə oluruq. O pəncərələri yaşıl mənzil bizimdir. Üç nömrəli evdir, qabaqdan üçüncü blok, onu lap əvvəlcə


e-kitab.org

tikiblər.

Daha nələrsə deyirdi, Lindadan səs-səmir çıxmırdı.

Amma şokolad alandan sonra işlər bir az yaxşılaşdı, Linda şokoladdan yedi, gülümsündü. İndi sevinməkdən çox utanıb-sıxılırdı, adamın yazığı gəlirdi lap, az qala özünü günahkar hesab edirdin. Doğrudan da. Mənə elə gəlirdi ki, anam onun şokoladı acgözlüklə yediyini düşünür, ona görə də bu ona irad tutmağa bəhanə olacaqdı. Bəlkə başqa cür olsaydı daha yaxşı olardı. Hamımız üçün yaxşı olardı. Amma Linda hələ də ağzını açıb bir söz də deməmişdi. Evə girənə qədər də heç danışmadı.

– Yatmaq istəyirəm, – Linda, nəhayət, dilə gəldi.

– Yaxşı, – anam dedi, amma çaşıb qalmışdı. – Sənin yerin ordadır, orda yatarsan.

Linda yalnız bu zaman anamın barmaqlarını buraxdı, çarpayıya qalxıb uzandı, gözlərini yumdu. Anam və mən bunu bir balaca oyun hesab etdik, bir az da təəccüblü gəldi bizə, çünki bu oyun deyildi, Linda daş kimi yuxuya getdi.

Anam məhrəm bir hərəkətlə onun üstünü örtdü, yatağının qırağında oturdu, saçlarını, yanağını tumarladı. Bir azdan durub otaqdan çıxdı, ağrın-yorğun özünü mətbəx mizinə yetirdi, elə bil müharibədən indicə qayıtmışdı.

– Təsəvvür eləyirəm, necə əldən düşüb, zavallı qızcığaz. Gəlib ki, bizimlə qalsın. Elə


e-kitab.org

yalqızdır ki...

Belə fikirlərə ürəyim çox da yanmırdı, axı, onsuz da bundan yaxşı ola bilərdi? O bizimlə qalacaqdı, çarpayısı üç dəfə təzələnmişdi, o vaxtdan heç kim yatmamışdı onda. Anam da görürdü ki, ailəmizin bu təzə üzvü gələndən sonra, deyəsən, əməlli-başlı xəstələnməyə başlayırdım.

Amma anam eşitmirdi, balaca göy çamadanı açıb içindən bir məktub tapdı. Görünür, göstəriş ya da xahiş idi, tez-tez, əllə yazılmışdı. Linda nəyi xoşlayır, necə oynayır, necə yeyir: "Sunda" balı, ədviyyəli pendir, kartof sousu onun xoşuna gəlirdi. Amma ət, balıq ya da tərəvəz xoşlamırdı. Məktubda o da yazılmışdı ki, uşağı "həddən çox yedirtməyək". Sonra, onun dizində nəsə ağrı varmış, gərək dərman qəbul edəydi, üstündə Lindanın adı yazılmış balaca qutuda həblər vardı. Anam qutunu işığa tutub yaxından içinə baxdı. Hər axşam iki ya üç həb atmalıydı. "O həblərlə ona bir dolu stəkan su da verin" – məktubda belə yazılmışdı. "Yatmazdan qabaq verin ki, gecə durub soyuducudan su içməsin".

Anamı yenə fikir götürdü.

– Aman Tanrım!..

– Nə olub, ana? – soruşdum.

– Nə ağır dərddi bu?! – o inildədi.

Yenə bir şey başa düşmədim, təkrar soruşdum:

– Sənə nə olub, ana?

– Necə də ona oxşayır?! – anam dedi.



e-kitab.org

– Kimə? – qışqırdım, hiss edirdim ki, səbrim-zadım qalmayıb. Anaının nə dediyinə görə yox, nə halda olduğuna görə lap özümdən çıxmışdım. O, əlbəttə, kran maşinistini nəzərdə tuturdu, mənim atam, Lindanın atası, bütün bu həngamələrin səbəbi. O adam ki, ölməzdən qabaq bu cür qarma-qarışıq bir həyat saxlamışdı bizə, bilmirdik, haradan gəlirik, hara gedirik. Bu azmış kimi, Kristian da işin üstünə gəlib çıxdı, ucundan-qulağından nəsə eşitdi, bilmək istədi ki, nə var, nə yox, nə baş verir.

– Bunun sizə dəxli yoxdur, – anam bərkdən dedi, görünür, özünü ələ ala bilmirdi, dərd-sərini, yaşlı gözlərini gizlətməyə də çalışmırdı. – Gedin buradan! Eşidirsiz? Bir də üzünüzü görməyim!

Kristian başa düşdü ki, vəziyyət ciddidir və yaxşı ki, sakitcə çəkilib getdi, Mən belə ağıllı deyildim.

– Bəs mən kimə oxşayıram? – az qala inildəyib dedim. – Heç vaxt deməmisən ki, mən kimə oxşayıram.

– İndi sənə nə oldu belə?

Mən də bir adam idim, nə etmək istədiyimi bilirdim, ona görə də anamın əlini tutub, bayaq Lindanın əli ilə bərk-bərk sıxdığı həmin iki barınağını ağzıma salıb var-gücümlə dişlədim, anam ağrıdan qışqırdı. O da üzümdən möhkəmcə şillələdi, əvvəl heç vaxt belə vurmamışdı məni. Dayanıb üzü-üzə baxırdıq. Mən də, anam da xeyli dəyişmişdik. Hirsli üzümə bir təbəssüm də yayıldı elə bil, hiss etdim ki,

sifətim gizildəyir.

Sonra döşəməyə qusdum, durub səssiz-səmirsiz dəhlizə çıxdım, üst paltarımı geyinib küçəyə üz tutdum. Gedib qoşuldum küçədəki evsiz-eşiksizlərə. Elə bil onların heç vaxt evləri olmamışdı. Böyük-böyük oğlanlar. Bəxti gətirməyənlər. Reymond Uokorneqel, Uve Yon kimiləri. Həmin gecə biz neçə-neçə blokun pəncərələrini sındırdıq, 2-ci, 4-cü, 6-cı, 7-ci, 11-ci bloklarda. Ardınca da Liendə yarma və tütün rulonları saxlanılan anbarın pəncərələrini qırdıq. Tonsen tərəflərdə bir şənbə gecəsində bu qədər şüşə sındırıldığı heç vaxt olmamışdı. Şübhəsiz, bunun səbəbini yalnız özüm bilirdim, həm də məni buna sövq edən səbəb vardı – bizim təzə çarpayıda lal-dinməz yatan o qəribə varlıq. Güman ki, başqaları buna adət etmişdi, sadəcə bu onların xasiyyəti idi, amma mən belə işlərə heç vaxt qol qoymurdum.

Böyük bir qalmaqal qopdu, evlərin nəzarətçisini və mənzil kooperativi sədrini də istintaqa çağırdılar. Əlbəttə, müqəssirləri tapmaq çox da çətin deyildi, bunlar həmişə hər işdə şübhəli bilinən Reymond Uokorneqel, Uve Yon və başqaları idi. Mən buraya necə düşmüşdüm, bax, bu, anlaşılmaz idi. Mən, heç vaxt pis bir iş görməyən, ana uşağı. Təkcə ona görə yox ki, mənim atam yox idi, mən sadəcə olaraq həmişə özümü yaxşı aparırdım, müəllimim froken Henriksonun çalışma dəftərimdə yazdığı kimi, öz ayaqlarım üstə necə lazımdı


e-kitab.org

durourdum, beynim yaxşı işləyirdi, yaxşı yazır, hesab məsələlərini həll edə bilirdim. Mən heç nədən qorxmurdum, heç Reymond Uokorneqeldən də qorxmurdum. Demək olar ki, hər gecə yuyunurdum, boyum çox da uca deyildi, amma şalvarımı heç vaxt islatmırdım, əgər desəydilər, fırça ilə qonaq otağının bütöv bir divarını rəngləyə bilərdim. Bəlkə pis uşaqlara qoşulmuşdum? Ya da içimdə şeytan oturmuşdu, nə etmək istədiyi bəlli deyildi?

Bütün bunlar Kristiana yenidən işlərimizə qarışmağa fürsət verdi.

– Boş şeydir, – o, evimizin dəhlizində, hakim ədası ilə dayanıb anamla söhbət edən mənzil kooperativi sədri Yorqensenə dedi. Sədr soruşurdu ki, belə pis uşaqla necə rəftar edək. – Boş şeydir, uşaq pis bir şey eləməyib.

– Bunu haradan bilirsiz? – anam sərt cavab verdi. Görünür, Yorqensenə xoş gəlsin deyə belə deyirdi. Dedi ki, lazım olsa o da bacardığını edər, bütün bunlar ətrafındakıların uşağa təsiridir, həm də ola bilsin onun da nəslində beləsi olub, Torşovda böyüyən uşaqların axırıncısı olan anamın atasının içkiyə çox aludə olması da öz rolunu oynayır. Dedi ki, atası vəfat edəndən sonra anası da, asan həyat arzusu ilə içkiyə qurşanıb.

– Hər kəs bunu görə bilər, onların işi deyil bu, – Kristian inadkar, amiranə bir səslə dedi. – Onları tanıyan hər kəs ağlı ilə bunu fəhm edə bilər.


e-kitab.org

Kristian başını cəncələ salmasın deyə, həm də allah bilir daha hansı hissin təsiri iləsə əlini başıma çəkib gülümsündü, sonra deyinə-deyinə öz otağına keçdi.

Anam əllərini sinəsində çarpazlayıb durmuşdu, Lindanın tutduğu həmin iki zədəli barmağına bağladığı sarğını əlləşdirib-didişdirirdi, amma onun bu halı indicə Yorqenslə çox nahaq şəkildə razılığa gəldiyinə bəraət qazandırmırdı. Yorqenson arada izah edirdi ki, radiatorlardan suyu nə vaxt boşaltmaq olar, kirşələri isə yayda bomba sığınacağında saxlamaq üçün əvvəlcə onları qatlamaq-yığmaq lazımdır.

– Yaxşı da, daha çox böyütməyək bu işi, – deyib, anam baxışlarını yayındırdı. Onun bu sözləri bəs idi ki, mən yenidən qışqırım. Dedim ki, 11 saylı pəncərənin şüşələrini mən sındırmışam, özüm də pulunu verib düzəltdirəcəyəm.

Anam riqqətlə mənə baxdı, Yorqenson da başa düşdü ki, söhbət bitib, amma çəkilib getmirdi, elə bil, demək istəyirdi ki, nə vaxt gedəcəyini o özü qərara alır, anam yox, o özü bilir ki, iş necə yoluna qoyulmalıdır və elə ki, bir qərara gəldi, yalnız bundan sonra çıxıb getdi.

Sonra da anam uzun-uzadı deyinməyə başladı ki, gərək mən küçə avaralarından uzaq duraydım, bu hərəkətimlə mən nə demək istəyirəm və sairə və sairə. Amma bütün bunlar şənbə günü Linda bizə gələndə baş verənlərin yanında toya getməli idi.


e-kitab.org

İndi o, mətbəx mizinin arxasında oturub gözləyirdi.

Şam yeməyini gözləyirdi.

Göy çamadana qoyulmuş məktubdakı tapşırıqlara görə, biz artıq bəzi şeyləri fikirləşmişdik – anam çörək dilimlərinə yağ yaxdı, buterbrod düzəltdi, onları iki ayrı-ayrı nimçələrdə gətirib qabağımızda qoydu, yanında da iki stəkan süd. Hər nimçədə iki dilim yarım çörək qoymuşdu. Anam özü isə bir dilim çörək yedi. Biz çörəkləri meyvə şirəsi ilə yeyirdik. Ola bilsin, uşaqlıqda çörəklə meyvə şirəsi anamın sevimli yeməyi imiş ya da o vaxt evlərində meyvə şirəsi olmayıb, indi bizə də çörəklə meyvə şirəsi verir, o günlərin əvəzini çıxmaq istəyirdi, çünki adamlar deyirdi ki, o illər çox kasadlıq olub. Anam bir kənarda dayanıb ya servantda nəyisə silir, ya da əl-üz yuyanın ora-burasını əlləşdirirdi. Linda üçün əlavə buterbrod yox idi, o isə bir xeyli səssiz-səmirsiz oturub gözlərini anama elə zilləmişdi ki, adi vaxtlarda bu baxışlar ən dözümlü adamlara təsir edərdi. Amma birinci gün burda yediyini o, yəqin ki, heç yerdə yeməmişdi. Yaxşı ki, onu başa düşmüşdü ki, mizin üstündəki yeməyi dərhal qamarlamaq olmaz. Lap "Sunda" balı olsa da.

Bilirdim ki, bir dilim ya altı dilim çörək yeməyim heç vaxt fərq etməz, mən onsuz da danışmayacağam, ona görə də, anam başı ilə bu hərəkətimi bəyəndi, çünki biz indi bir ailə olmuşduq, birləşib məktubdakı


e-kitab.org

tapşırıqları yerinə yetirirdik. Linda da görürdü ki, işlər necədir.

– İndi isə oxumağa, – anam dedi.

Biz də oxuyurduq. Amma əvvəlcə nahar stolunu təmizlədik, guya ki, qabları da yuduq. Öz kətilimi Lindaya vermişdim, o, kətilin üstünə çıxıb sabunlu suda əllərini şappıldadırdı. Mən daha səliqəli işləməyə çalışırdım. Gördüm ki, Lindadan daha əvvəlki kimi heç bir qoxu gəlmir. Mənim kimi ondan da heç bir iy gəlmirdi. Saçları daranmışdı, alnına tökülən saçları açıq-göy sancaqla yığılıb bağlanmışdı, iri gözləri indi pırpız saçlarının arxasında gizlənə bilməzdi. Anam soruşdu ki, o heç mahnı bilirmi. Bir xeyli mızıldanandan adını eşitmədiyim bir mahnının adını dedi. Anam gülümsündü, mahnını zümzümə etməyə başladı. Qabları qurulayıb yığa-yığa bu naməlum mahnının sözlərindən oxudu. Linda utanıb başını qabyuyana tərəf əydi, gülümsündü və bir az qızardı. Bu, yaxşı əlamət idi, çünki o bizə gələndən bəri heç gülməmişdi.

Hətta oxuduqlarımız da dəyişdi bir az, indi mənim çox sevdiyim “Bobsey əkizləri” nağılını oxumalı olduq. Bu nağıllar bir dəstə uşaq haqqındadır, onların Allah bilir neçə ata-anası, dayıları, xalaları var. Bir də “Mette Marit balet məktəbində” kitabı. Anam uşaqlıqda bu kitabı oxumuşdu, istəyirdi mən də oxuyum. Amma mən bu “Mette Marit” i oxuya bilmirdim. Linda nəsə oxumağı çox da sevmirdi, o yalnız səhifə yarıma dönə-dönə qulaq asa bilirdi, sonra,



e-kitab.org

əhvalat uzandıqca o elə bil hadisələrin ipini itirirdi ya da ola bilsin, olanları təkrar-təkrar eşitməyə maraqlı idi.

Evdə, tavanın altında uzanmağın da öz abı-havası var. Əllərini başının arxasında daraqlayıb uzanırsan, bilirsən ki, bir şey istədin-istəmədin, ağzını yummalısan, bilirsən ki, anan bunu qiymətləndirir. Anam, doğrudan da, bunu qiymətləndirirdi, həm də xasiyyətinə əlavə etdiyi təzə bir gözlə qiymətləndirirdi. Dediyim kimi, biz artıq bir olmuşduq, ailə olmuşduq, hələ axıra qədər öyrənib aça bilmədiyimiz, tanıya bilmədiyimiz birisinin qayğısına qalmaq üçün birləşmişdik. Hələ düz üç ay da onu tanımağa çalışacaqdıq.



e-kitab.org

# 7

Dediyim kimi, anam böyük bir ailədə doğulub, özündən böyük üç qardaşı olub, bir də qocalıb pensiyaya çıxmış anası. İndi anam günlərini pasyans oyunları ilə keçirir, saysız-hesabsız xeres şərabı şüşələri ilə əylənirdi, amma hər dəfə məni görəndə pörtür, soruşurdu ki, məktəbdə işlərim necədir. Məktəbdə işlərimin yaxşı olması vacib idi. Soruşurdu, amma cavabıma heç vaxt qulaq asmırdı.

– Bir kart çək, – anam dedi.

Mən kart çəkdim, əgər "yeddi xaç" çıxsaydı, bu o deməkdi ki, çox gözəl həyatım olacaqdı, əgər "kərpic" çıxsaydı, bu da yaxşı idi. Amma Torşovda, kirayədə qaldığımız o köhnə fəhlə mənzilinin zirzəmisində biz, Milad axşamından başqa, çox qalmadıq. Orada yalnız mətbəx və bircə otaq vardı. Otağa da nədənsə "qonaq otağı" yox, "ümumi otaq" deyirdilər. O otaqda iri, qara, dəyirmi bir odun sobası qoyulmuşdu. Soba həmişə yanırdı, elə qızmar yanırdı ki, ətrafına dəmir barmaqlıq çəkilmişdi.

Milad axşamı biz oraya gələndə mən də Oskar dayının yanına gedib zirzəmidə odun doğramalı olduq. Arvolddan gələndə üşüdüyümüz şaxtalı havadan sonra həmin ümumi otaqda qızardılmış donuz ətinin iyi gəlirdi, qızarmış sobanın yanındakı küknar ağacı isə yavaş-yavaş təravətini itirməkdə idi. Nənəm qırmızı şamlar yandırır, onları tez-tez dəyişinəli olurdu, çünki şamların


e-kitab.org

mumu əriyib qurumaqda olan küknarın budaqları ilə aşağı axırdı.

Oskar dayım o biri dayılarımdan çox yaşlı idi, müharibə vaxtı dənizdə ticarət gəmisində xidmət etmişdi. Ailəsi, uşaqları yox idi, pensiyaya çıxıb xırda-para dülgərlik işi görürdü, anamın dediyinə görə, "öhdəsindən də gəlirdi". O, Milad günü həmişə tezdən gəlir, donuz şaqqasını peçin içinə qoyur, sonra odun anbarında xeyli odun doğrayır, nənəmə kömək edirdi ki, qışda yandırmağa bir şeyi olsun. Mən ora gələndə dayım odunu necə doğramaq, yığmaq lazım olduğunu göstərdi, gülümsündü. Əhvalı yaxşı idi, amma çox şey demədi. Mən hədiyyə gözləsəm də, həmin axşam Oskar dayımla orada olduğum bir saat, şübhəsiz, nəyə desən dəyərdi, halbuki bəziləri bəzi səbəblərə görə ona sataşır, dolayırdılar, xüsusən, mizin ətrafında əyləşəndə ona deyirdilər ki, guya axırıncı dəfə onu görəndə belə deyildi, indi beli lap bükülüb ya saçı tamam ağarıb yaxud da onun hələ də bəxti gətirməyib, cek-potu udmayıb...

Anam da onlara qoşulurdu, bu isə xoşuma gəlmirdi. Anamdan da çox, şəhərkənarı kağız fabrikində mühəndis işləyən, buna görə də az-az görünən, son dərəcə ciddi olan dayım Biarne sataşırdı ona. O buralarda bircə Milad günü görünürdü.

Qardaşların ən kiçiyi Tor dayım idi, O, Hesteskonda, Renndə, Qrefsendə ofisiant


e-kitab.org

işləyir, iş yerlərini tez-tez dəyişirdi. Elə ki hədiyyələr paylandı, stola içkilər düzüldü, o xeyli nəşələndi, fərəhlənib anamla rəqs etdi. O, Biarne dayımın bədxasiyyət arvadı Merit xala ilə də rəqs etdi. Məclis davam etdikcə Merit xala axıra yaxın lap əldən düşdü. Biarne dayıma Milad günü həmişə kitablar hədiyyə verirdilər, indi də o, Oskar dayım haqda öz fikirlərini deyəndən sonra mətbəx skamyasında oturub oxumağa başlayırdı. Görünür, uşaqlıq illərini də beləcə oxumaqla keçirmişdi, yəqin, məclis sona çatmamış kitabı oxuyub bitirmək istəyirdi, çünki uşaqları, dəymə-düşər arvadını yığıb Sandakerveynə, taksilər olan yerə getmək vaxtı idi. Dediyim uşaqlar Biarne dayım və Meritin uşaqları idi. Merit ləhcədə danışırdı, həmişə də göz qoyurdu ki, uşaqlar donuz piyini əyin-başlarına sürtməsinlər. Ən böyüyü yaşda məndən iki il böyük idi, o qızın da adı Merit idi, həm də çox maraqlı şeylər bilirdi. Məsələn, mənə fokuslar göstərir, aldadırdı.

– Mənə bax, Finn, – deyirdi, sonra barmaqları ilə nəsə bir fokus göstərirdi, lap sehrli bir şey. Əvvəlcə boş olan əlində birdən Milad ürəyi şəkli görünürdü. Amma bunu bir təhər yozmaq olardı.

– Bax, bu sənin o biri əlindədir, – deyirdi. – İndi bax, bu sənin arxandadır.

Üzünün təbəssümü itmədən sadəcə bir əlini yavaş-yavaş qaldırır – elə bil tilsimlidir – sonra guya indicə qulağımın içindən xırda pul çıxaracaq və birdən yanağımı



e-kitab.org

çimdikləyirdi, mənimsə gözlərim yaşarır, yanağım ağrıyırdı.

– Gördünüz, – deyib sonra o fəxrlə o biri adamlara tərəf çevrilirdi.

– Ha-ha-ha, Finn yenə aldandı, yenə qarmağa düşdü, tilov da getdi, yem də getdi. – Mən bu səsi tanıdım, Biarne dayı idi.

O bu sayaq sözləri xoşlayırdı: qayka açarı işdə qalıb. Meri, Meri, baxmaz geri (anam haqqında). Oskar dayım haqda isə deyirdi: Tuk-tuk, evdə kim var? Elə sözlər, idiomlar, atmacalar deyirdi ki, anamla mən bunları ayıb hesab edirdik. Anam Biarne dayının xasiyyətini xoşlamırdı, arvadını da, uşaqlarını da eləcə; tez-tez onun belə deyindiyini eşitmişdim: "gicin biri" ya da "kütbeyin". Bilәndә ki, yanlarında başqası yoxdur, daha pis sözlər deyirdi ona.

Amma Oskar dayı ilə bağlı bir şey də vardı – o, əlbəttə, istəmirdi ki, onu ələ salsınlar, ad qoysunlar ona. O hər şeyə incə bir yumorla gülümsünür, asta-asta yeməyini yeyir, zirzəmidə xeyli odun doğrayandan sonra indi mədəsini doldururdu. İş paltarları da yanında idi, vaxt tapıb onları soyunub bürmələmişdi, göy kostyumunu geyib süfrəyə oturmuşdu. Biz burada olanda anam dinib-danışmır, nəsə əsəbi olurdu, heç vaxt tualetə getmirdi, çünki ora qaranlıq və darısqal idi. Buradan - gedəndən sonra bir-iki gün özünə gəlmirdi, axşamdan xeyli keçmiş evə qayıdanda deyinirdi ki, gərək getməyəydik və buna son qoymaq lazımdı. Məsələn, keçən ilki kimi.


e-kitab.org

Arxa çantalarımızda hədiyyələr, dondurucu şaxtada Raqna Rindal Mərkəzini keçib, dairəvi yoldan və Muzelanden tərəfdən fırlanıb gəldik. Bu elə mənim məktəb yolum idi. Sonra "Sarı", "Qırmızı" və "Qara" dediyimiz adamlara məxsus o yöndəmsiz daxmaları arxada qoyduq. Ağappaq qarla örtülmüş daxmalar lap Məryəmlə Yusifin tövləsinə5oxşayırdı, amma ətrafda Trondheym sakitliyi vardı, arxa fonda isə eynən dumanlı-sarımtıl Betleyem ulduzları. Bircə fərq vardı

– sakitliyi vəhşi heyvanların səsləri pozurdu, bəlkə də bu onların xorultusu idi. Anam qorxdu, addımlarını yeyinlətdi, dodağının altında "İşlər pisdir" dedi, sonra əlavə etdi:

– Biz düz edirik, Finn, düz edirik. Yadında saxla bunu. – Görürdüm ki, Milad Bayramı günü uşaqlığının keçdiyi evdə olması onu xeyli yüngülləşdirib.

Linda bizə gələn il mənə üzrxahlıq sözləri yazdı. Göndərdiyi Milad bayramı açıqcasında mənə yazdı ki, heç yadında olmayıb. Daha nələr yazmışdı, bilmirəm. Biz hər şeyi özümüz etməli idik, üçümüz. Yadımda olanı budur ki, bu ilki Milad ən yaxşılarından biri idi. Bayrama bir az tərəddüdlə başlasaq da. Arvoll Senterə baş çəkdik, orada Milad yolkası alıb Essinin balıq kirşəsində evə gətirdik. Traverveyen yolunu yarı etmişdik ki, məlum oldu ki, Linda hədiyyə nədir bilmir.

– Hədiyyə nədir? – anamla Milad günü


e-kitab.org

alacaqlarımızı həyəcanla müzakirə edərkən Linda sakitcə soruşdu. Biz Torşovdakı qohumlarımıza nə hədiyyə alacağımızdan danışırdıq, Kristiandan danışırdıq. Anam nisbətən arxayın idi. Kristian təkcə dekabr ayının yox, ondan sonrakı yanvar ayının da kirayə pulunu vermişdi. Təxminən, belə demişdi ki, Milad günü qoy əlinizdə pul-para olsun.

Lindanın bu sualını anam tədricən həzm etdi, mənsə heç başa düşmürdüm, anamın bət-bənizinin ağarmasından gərək mən də başa düşəydim, amma güclə soruşa bildim:

– Bilmirsən, hədiyyə nədir? Səfehsən, nəsən?

Sonra heç vaxt eşitmədiyim sözləri dedi Linda:

– Sən ağzını yum, Finn, yoxsa öldürərəm səni.

– Hədiyyə də, hədiyyə! – qışqırdım – Bilirsən də nədir hədiyyə? Yox? Anam hədiyyədən danışır. İndi bildin, Linda? Başa düşdün?

Biz təəccüblə Lindaya baxır, başa düşməsini gözləyirdik. Heç bir zərrə də. Karıxıb özünü itirmiş halda anaının həmin iki barınağını yenə möhkəm-möhkəm tutub dayanmışdı, küt baxışları harasa uzaqlara zillənmişdi. Görünür, geri qayıtmaq istəyirdi.

Günün qalan hissəsi anamın uzun və təskinedici monoloqları ilə keçdi. Deyirdi ki, Milad bayramını müxtəlif cür qeyd etmək


e-kitab.org

olar, qoy Linda çox baş sındırmasın, həmin gün bəzi adamlar biri-birinə hədiyyə verirlər, bəziləri yox. Adamlar bu günü ən müxtəlif cür bayram edirlər. İndi Lindanın üzündən bilmək olurdu ki, o səbirsizliklə hədiyyə gözləyir və nəhayət ki, hədiyyənin nə olduğunu başa düşüb.

Onun Milad günü üçün ürəkşəkilli naxış toxumaq istəyi yaxşı alınmadı, amma mən ona yumurta qutusunu necə düzəltməyi göstərdim, kartonları biri-birinə yapışdırıb akvarellə rənglədim – bunu məktəbdə bizə öyrətmişdilər, sonra onlara sap bağladım ki, Milad yolkasından asmaq olsun.

Biz bununla məşğul ikən anaının mənə zillənən baxışlarını gördüm, bu o deməkdi ki, ayrılıqda mənə sözü var, odur ki, Lindanı yumurta qutusu ilə mətbəxdə qoyub qonaq otağına keçdim.

Qonaq otağında anam ağzını qulağıma yapışdırıb soruşdu ki, Lindanın anasına bayram açıqcası göndərsək necə olar, çünki o, bizə təbrik göndərmişdi, həm də tələsik yazılmış bir xətlə. İkincisi, əgər belə bir açıqca göndərsək onu Lindaya göstərək ya yox, çünki onun üstündə elə məxsusi bir söz yazılmamışdı, sadəcə Yeni il təbriki idi, çap hərflərilə. Onsuz da o oxuya bilmirdi, üstəlik, anası heç Lindanın yadına da düşmürdü, hətta anam soruşanda da özünü o yerə qoymurdu.

Mən iki dəfə fikirləşməli deyildim, iki suala da birdən cavab vermədim. Bir də ki, həmin gün dekabrın 22-si idi, bildiyimə


e-kitab.org

görə, bizim tərəflərdə poçt bir az ləng işləyirdi. Bunu, təbrik açıqcasını məktuba qoyanda bildik.

Əvvəlcə anam təəccüblə mənə baxdı, sonra töhmətedici baxışlarını gördüm, sonra da sifətinə yeni bir nəvaziş duyğusu yayıldı. Məni qucaqlayıb mətbəxə ötürdü. Linda burada üçüncü karton oyuncağını hazırlayırdı. Qara-sarı zolaqlı, yumru karton oyuncaq.

– O quruyana qədər gözləməlisən, sonra təpəsini rəngləyərsən, – dedim. – Bax, belə.

Mən göstərirdim, Linda baxırdı. O da eyni ilə mənim kimi eləyirdi. İşə elə aludə olmuşdu ki, dayanmaq bilmirdi. Anam da axşam bir-iki şey hazırladı, amma evimiz dörd nəfərlik idi, lap çoxu beş nəfər üçün yerimiz olardı, bir də ki, oyuncaqlarla bəzədilmiş yolka ağacı. Biz hələ ona bəzi oyuncaqlar da asacaqdıq. Dükandan almışdıq: zərrin lentlər, ürəkşəkilli bəzəklər, bayraqcıqlar, quş fiqurları. Hiss edirdim ki, bu iş lap bizim kitab oxumağımıza dönəcək – nə edirsənsə axıra qədər təkrar etməlisən. Bu məni narahat edirdi. Məncə, anam da narahat idi, dedi ki, balkona çıxıb ordan yolkamıza baxaq. Onsuz da yolkamız sabaha qədər qonaq otağına aparılmayacaqdı, çünki bu bir ənənə idi. Anam dekabrın 22-də soyuq balkona çıxıb qapı ağzında nağılvarı bir səslə Milad ağacının gəlişini təqlid edirdi, guya Milad ağacı gəlib içəri girir, bayırda isə lopa-lopa qar yağır


e-kitab.org

– bu, Uolt Disney filmlərindən əsrarəngiz bir səhnə idi.

Əlbəttə, bu, Lindanın başını qatmaq üçün idi. Mən bunu başa düşdüm, ona görə də mətbəxdə qaldım ki, bir az yır-yığış eləyim. Divarın dibində Lindanın düzəltdiyi səkkiz oyuncaq sıra ilə düzülmüşdü. Deyim ki, qara-sarı zolaqlı, yumru oyuncaq ən yaxşısı idi. Onlar qayıdanda anam titrək bir səslə dedi ki, indi isti bir qəhvə içmək pis olmazdı. Linda şam yeməyinə hazır idi, üstəlik bu gün ona bir dilim də əlavə çörək verdi, həm də ədviyyəli pendirlə.

Dekabrın 23-də yolkanı bəzədik. Anam bir stula çıxdı, mən o birisinə, Linda da aşağıda oyuncaqlarla. Yumru oyuncaqlar budaqlardan sallanıb dairə yaradırdı, günəş sistemində hara gəldi səpələnmiş planetlər kimi. Linda heç vaxt belə bir şey görməmişdi, yolka qurmamışdı. Bu axşam doğrudan da, unudulmaz bir axşam idi, ona görə də, ağzımdan qaçırdığım kiçicik bir söz az qala faciə kimi qəbul edilmişdi. Anam indi çox yaxşı əhval-ruhiyyədə idi, Kristian da öz ailəsinin yanına getmişdi, bütün evdə yalnız özümüz idik.

Dekabrın 24-də səhər Linda ilə əl-ələ tutub bir neçə saat küçədə gəzdik. İlk dəfə. Bacı-qardaş kimi. Mən bir az hirsləndim, amma gəzintimiz çox yaxşı keçdi. Həmişə evdə oturmağı sevən qonşumuz Enn-Berit dedi ki, Linda kirşədə lazım olduğu kimi sürüşmür. O həmişə mənim kirşəmdə sürüşmək istəyirdi. Mən də icazə verirdim,


e-kitab.org

amma görünür, indi o mənə mane olurdu. Nəsə xoşagəlməz bir vəziyyət yaranırdı. Uşaqlardan hansısa Linda ilə danışır, o isə cavab vermir, susurdu.

– Bəs sənin adın nədir?

– Onun adı Lindadır.

– Sın onlara qonaq gəmisən?

– Yox, o burada yaşayır.

– Harada, sizdə?

– Hə.

– Sən Finnin bacısısan?

Heç birimiz bu suala cavab vermədi.

– Anam deyir, sən Finnin bacısısan.

– Mənim anam da belə deyir.

– Bu düzdür, Finn?

Cavab vermədim.

– Ey, Finn, niyə cavab vermirsən? O sənin bacındır? De də, niyə dinmirsən?

– Bəs, indiyə qədər harada imiş o? – Bunu "İkinci Fredi" ləqəbli oğlan dedi. – Sən danışa bilmirsən ya nədir?

– Yox, – Linda yavaşdan dedi. Ardınca hamı qəhqəhə çəkdi. Fredi hamıdan bərk gülürdü. İkinci Fredi ona görə deyirdilər ki, bizim küçədə ən azı üç Fredi vardı, onlardan yalnız Birinci Fredi tanınmış adam idi.

– Onda sən karsan, – İkinci Fredi təəccübləndi.

– Hə, – Linda dedi.

İndi daha bərkdən güldülər. Amma bu, yaxşı və lazımlı cavab idi, bu, o deməkdi ki, daha heç nə soruşmasınlar. Sonra, bir az da sürüşdük. Bu, Lindaya ləzzət verirdi, biz evimizin qabağındakı enişdə sürüşürdük.


e-kitab.org

Aşağıya qədər sürüşüb gəldik, Linda anamın əlindən tutduğu kimi indi də mənim əlcəkli əlimdən bərk-bərk tutmuşdu. Bir də yamacın başına qalxdıq, kirşəyə
minib üzü aşağı sürüşdük. Bu dəfə yenə hansısa cüvəllağı soruşdu:

– Ey, sən... bəs sənin adın nədir?

– Onun adı Lindadır, dedim də sizə!

– Özü danışa bilmir?..

– Linda, bir şey de!

– İris istəyirsən, Linda?

– ...

Bir neçə saatdan sonra evə qayıtdıq. İliyimizə qədər üşüyürdük, əynimizdəki sviterlər buza dönmüşdü, corablarımız, şərfimiz, yun papaqlarımız sırsıra bağlamışdı. Anam çəkmələrimizin buza dönmüş iplərini bir təhər açdı, ikimizi də qucaqladı. Elə yaxşı idi ki... Sonra dedi ki, indi Linda hamama girməlidi. Zavallı tamam donmuşdu. Soruşdu ki, Linda çimməyi xoşlayırmı.

– Hə, – Linda mızıldadı.

Linda vannada oturub Milad bayramında hədiyyə aldığı oyuncaq ördəyi üzdürür, dodağı altda nəsə fışıldayırdı. Lindaya daha çox paltar hədiyyə verilmişdi. Anam süfrəni açdı, sonra yenə yığdı, sonra bir də açdı, təkrarən yığdı, axırda ağ süfrəni mizə sərib mənə tərəf döndü:

– Deyəsən, sürüşmək yaman xoşunuza gəlirdi, hə?

– Hə, lap çox.

– Uşaqlar da vardı yanınızda.



e-kitab.org

– Həə...

– Elə biliram, vaxtınızı yaxşı keçirdiniz, yox?..

– ...

Böyüklər heç vaxt başa düşmürlər ki, uşaqlar nə qədər sadəlövhdür. İndi də onun soruşduqları lap İkinci Fredi söhbəti kimi beynimi xarab elədi. Axır durub çıxmalı oldum, gedib televizorun qabağında çömbəldim, düyməsini basdım – bilirdim ki, indi multfilm vaxtıdır. Bir ya iki dəqiqə keçməmişdi ki, qapının zəngi çalındı.

– Finn, gör kimdir? Elə bil lap aşağıdan, blokun qapısındandır.

Gələn artıq evimizin qapısı ağzında idi.

Tor dayım gəlmişdi. O ki bizə heç vaxt gəlmirdi, lap yaxında – məsələn, Hesteskoendə işləyəndə də. Halbuki onun iş yeri mətbəximizin pəncərəsindən görünürdü, əl uzatsan çatardı. Amma dediyinə görə, bu gün məxsusi gəlib. Ofisiant geyimində, sərxoş bir təbəssümlə dayanıb baxırdı, sarışın, dalğalı saçlarına "Brilkrem" çəkib hamarlamışdı.

– Hə, Finn, Milad gününü qarşılamağa hazırsan?

– Əlbəttə. Bu gündür?

– Hə.

– Bu sənsən? – arxamdan anamın səsini eşitdim. Əli ilə sırğasını dartışdırır, sınayıcı baxışlarından – hiss etdiyim qədər – tənə yağırdı, yəni ki, yekə kişidi, Milad günü qonaq gəlib, amma əlində bir dənə hədiyyə yoxdu. Qonaq Tor dayım idi, bir dəfə Milad


e-kitab.org

bayramında mənə kolbasa yox, bayram hədiyyəsi kimi bahalı xizək almışdı, amma indi kasıblamışdı və bunu özü də həvəslə təsdiq edirdi. Tor dayım, anamın dediyinə görə, ailənin elə bir üzvü idi ki, nə qədər yaşa dolsa da, heç vaxt böyümürdü və doğrudan da, mən onu görəndən bəri elə bil mənim yaşımda qalmışdı. İndi gəlmişdi ki, bizi götürsün, Milad bayramına aparsın, taksi də aşağıda gözləyirdi.

– Maşın?

– Hə, taksi gətirmişəm.

Anam balkonun pəncərəsindən həyətə boylandı.

– Ağlın başındadır? Taksini gətirmisən, aşağıda gözləyir, pul yazır, axı...

– Siz hazır deyilsiz? – Tor günahkar kimi dilləndi, sonra divar kağızına baxdı, açıq bir heyrətlə divana, Milad ağacına, xüsusilə televizora göz gəzdirdi. Anam elə indicə televizoru söndürdü, sonra televizorun qabağında əllərini ombalarına qoyub durdu.

– Bütün bunlar sənin Biarne ilə elədiyinizdi?

Sonra da, həmişəki kimi. Tor dayı divana yayxandı, dərindən köksünü ötürdü, şalvarının əziklərini düzəltdi, əllərini yelləyib qolundakı saatı biləyinə tərəf - sürüşdürdü.

– Həə, belə işlər, – deyib saatına baxdı.

– Görürsən də... bəzi işləri görə bildik... – anam onun fikrindəkiləri təsdiq edirmiş kimi dilləndi.



e-kitab.org

– Həə, – Tor dayı bir də təkrar etdi, mənə tərəf baxdı, başa düşdü ki, gülümsəmək lazımdı, gülümsədi, sonra bir az ciddiləşdi, guya ki, burada bu cür oturmaq özlüyündə bir məqsəd imiş.

Anam danışmırdı, amma üzünün ifadəsindən görürdüm ki, vəziyyətdən çıxış yolu axtarır, həm də elə bil bu vəziyyət xoşuna gəlirdi. Sonra öz otağına yönəldi, qayıdanda pulqabı əlində idi.

– Taksiyə verməyə yəqin ki, pulun yoxdur, hə?

– Eee... yox, – Tor dayı dedi, sonra baxışlarını yayındırıb divar kağızına baxmağa başladı.

– Al, hamıya salam söylə, vaxtını da yaxşı keçir.

Tor artıq ayağa qalxmışdı.

– Yaxşı, bacı. Sən qalib gəldin, həmişə olduğu kimi.

O, baş barınağını yuxarı qaldırıb pulu aldı, dəhlizə çıxdı. Birdən nəsə yadına düşdü.

– Hımm, burda ikən dedim bəlkə... o balaca qızı da görüm, danışdırım?

– O vanna otağındadır, çimir, – anam onun sözünü kəsdi. Tor dayı tutuldu, baxışlarını endirdi.

– Gərək ona bir hədiyyə alaydım, – dedi.

– Hə, almalı idin.

Bundan sonra Tor dayım daha da utandı, sonra, çox sevdiyi bir hərəkətlə mənimlə boks oynayırmış kimi əl-qolunu ölçdü:


e-kitab.org

– Zərbəni gözlə, oğlan, zərbəni gözlə... – deyib qapını açdı, "Milad Bayramınız mübarək!" sözlərilə pillələrlə aşağı endi.

– Dələduzun biri! – anam dedi və mətbəxə keçdi, elə o an da qayıdıb amiranə səslə:

– Hazırlaşın, Finn, həm də yaxşı geyinin, bu il siz daha ağıllı olmalısız, sən də, Linda da.

Lindanı vannadan çəkib çıxartdıq, su xeyli soyumuşdu, qız üşüyür, dişi-dişinə dəyirdi. Amma anam məhrəba üstündən onu qıdıqlayanda gülürdü, elə ləzzətlə, amma astadan gülürdü ki. Doğrudan da, biz daha ağıllı, daha ciddi olmuşduq. Bu, Linda üçün elə də çətin olmazdı, onsuz da o ora-bura çox qaçan deyildi, amma mən yemək yeyəndə də sakit dura bilmirdim. Bugünkü kimi. Bu dəfə qabırğa yox, qızardılmış donuz budu vardı, bolluca sousla.

Hədiyyələrin üstündəki adları mən oxumalı oldum, çünki ailədə oxumağı ən yaxşı mən bacarırdım. İşlərin bu cür getməsi qəribə görünürdü. Milad yolkasının bərq vuran işıqları altda, şax yaxalığım boynuma sürtünə-sürtünə hədiyyələrin üstündəki adları oxuyurdum – onda bilinirdi ki, dünyada kimə etibar etmək olar, kimə yox. Məsələn, bu il nənəmin hədiyyəsi az idi. Linda və mən hərəmiz bir oyun kartı aldıq, anam isə heç nə. Biarne dayı, Merit xala həmişə olduğu kimi bizə gözəl hədiyyələr vermişdi, amma anama heç nə verməmişdilər, halbuki keçən il ona çoxlu



e-kitab.org

bəzək şeyləri hədiyyə edilmişdi, həm də bahalı, eləsini özü heç vaxt almazdı.

Yalnız Oskar dayıdan hamımız istədiyimiz hədiyyəni aldıq. Linda tapmaca fiqurlar almışdı, amma heç cür yapışdırıb düzəldə bilmirdi. Mənə lupa hədiyyə vermişdi, anama isə primus sobası. Amma anam sobaya baxır, elə bil narazı qalırdı, halbuki keçən payız köhnə sobası xarab olanda demişdi ki, ona belə bir soba - lazımdır. Kristian da hər birimiz üçün hədiyyə gətirmişdi. Anama bəzi zinət şeyləri almışdı, odur ki, susub qalmışdı, amma bu onu hirsləndirirdi bir az, ona görə də, bizdən fərqli olaraq özünü ayrı şeylərlə məşğul göstərirdi. Linda holland konkisi almışdı, mənsə iki kitab. "Möhtəşəm beşlik"6 seriyasından on səkkizinci kitab və "Hvem, Hva, Hvor"7 almanaxının 1961-ci il nəşri. Nəşrin arasına kağız da qoymuşdular, üstündə yazılmışdı ki, almanax televiziyada çox baxılır: "Təcrübəmizdə gördük ki, istedadlı uşaqlar asudə vaxtlarını televizor qabağında keçirməkdənsə kitab-jurnal oxumağa üstünlük verirlər, daha az istedadlılar isə, əksinə, televizora çox baxmağa meyllidirlər..."

– Yəni nə demək istəyirlər bununla? – anam təəccüblə kitabı əlimdən aldı, qaşlarını çatıb almanaxı vərəqlədi, sonra diqqətini qəribə zinət əşyasına çevirdi. Mən imkan tapıb Oskar dayımın verdiyi lupa ilə onun əlindəki əşyaya çəpəki baxdım. Gördüm ki, üstündə 585 karat yazılıb. Bu,


e-kitab.org

pəncələrini gözləri qabağında tutmuş dovşan fiquru idi.

Məlum oldu ki, Lindaya daha çox hədiyyə verilib. Mənim verdiyim hədiyyə də içində. Amma bunun elə bir mənası yox idi, çünki hədiyyələrin çoxu geyim idi. Linda onları dönə-dönə geyinib yoxlamalı oldu. Biz isə bu vaxt marsipan[8] və piroq yeyir, danışıb-gülürdük. Linda isə axırda konkilərin, paltarların arasında yuxuya getdi. Yalnız bundan sonra mən Kristianın verdiyi yorucu kitabdan üç səhifə oxudum. Kitabda Yuri Qaqarinin də şəkli vardı. Bir azdan anam gözü yaşlı içəri girdi. Doluxsunmuşdu, dedi ki, biz heç kimə əl açmırıq, heç kəsin köməyi olmadan yaşamaq yaxşıdır, ya yox?

Bu suala cavabım yox idi, təkcə onu fikirləşirdim ki, ailəmizdə heç vaxt bu qədər adam olmayıb.

Amma əvvəllər tez-tez olduğu kimi, mənə ayrılıqda nəsə demək istəyəndə anam əvvəlcə demək istədiyi əsas məsələyə dəxli olmayan şeylərdən danışardı, bu dəfə isə əsas məsələ o idi ki, həmin axşam evimizə yığışan ailə onun haqqında nə deyəcək, bu, nə isə anlamadığım başqa bir şey idi.

Məsələ Milad bayramından xeyli sonra da aydınlaşmadı. Anam deyirdi ki, indi biz üç nəfərik. Linda tezliklə məktəbə gedəcək, ayaqqabı dükanındakı işindən çıxmaq söhbəti ola bilməz, ola bilsin hətta bütün günü işləməyə keçsin. Sonra, kilsənin yanındakı bağça ərizəmizi qəbul etmədi,


e-kitab.org

orada yalnız yazda yer olacaqdı. Yaxşı, bəs o vaxta qədər biz neyləyəcəyik?

Heç bu sualı da mənə vermirdi, özünə verirdi. Amma deyəsən, cavabını tapmışdı. Dekabr ayının 28-i, günortadan sonra idi. Soruşdu ki, "Mən necə görünürəm"? Kosmetikasını vurmuş, dükan ayaqqabılarını, qəşəng plaşını geymişdi. Dedi ki, Lindaya baxım, sonra özü birinci blokdan başlayaraq qapıların zəngini bir-bir basıb hamının Milad bayramını təbrik etdi. Soruşurdu ki, yaza qədər kiçik bir qız uşağına kim baxa bilər, gündə beş-altı saat. Yeddinci blokda axtardığını tapdı. Bu, iyirmi yaşlı Yeva Marlin idi. Biz ona sadəcə "Marlin" deyirdik, axşamlar Oslonun mərkəzində – Kontreskaretdə ofisiant işləyirdi, bütün günü də valideynlərinin evində yatırdı. Marlinin xoş görkəmi vardı, amma Linda onu görən kimi başını gizlətdi.

– Linda, gəl, Yeva Marlinlə salamlaş, mən işdə olanda o sənə baxacaq.

Bunun o qədər də faydası olmadı, mən də Lindanı günahlandırmıram. Nə qədər bu qadına, o qadına bağlanmaq olardı? İkinci anaya güclə öyrəşirdi ki, indi də üçüncü anaya öyrəşməli idi. Amma ilk baxışda mütərəddid və yetkinlik yaşına çatmış görünsə də, Marlin, hərtərəfli baxanda, möhkəm və təcrübəli bir qıza oxşayırdı, həyata ayıq gözlə baxırdı, Tor dayım kimi belə bir yüngül, xidməti işdə işləyə bilirdi. Anam dayımın ofisiant işi haqqında deyirdi ki, bu iş nağıllar aləminə xas bir işdi, burada


e-kitab.org

arzu-istək və axmaqlıq qara qəpiyin iki üzü kimidi.

– Narahat olmayın, o mənə öyrəşəcək, – Marlin dedi. Sonra Lindanın başını gizlətdiyi adyal tərəfə boylandı, ətrafa göz gəzdirdi, sanki burada vaxt keçirməyin nə demək olduğunu özü üçün aydınlaşdırmaq istəyirdi. – Mənim də üç kiçik bacı-qardaşım var, kiçik uşaqlara öyrəşmişəm.

– Elə bilirəm, o burda uzun müddət duruş gətirə bilməyəcək, – Marlin məcburən üç fincan qəhvə içib gedəndən sonra anam razılıqla dedi. Bununla həm də onun xoş görkəminə və yetkin qız olduğuna işarə edirdi. – Hələ ki, qoy mart ayına qədər baxsın... Bir də ki, görək hər şey yaxşı olacaqmı...

Və beləcə söz sözü çəkdi. Dedi ki, yaxşı bir şeydən sonra həmişə nəhs işlər gəlir, nə bilim daha nələr... nələr...

Sonra başladı ki, "Berlin Divarı" yıxılan ili belə oldu, televizor çıxan ili elə, Yuri Qaqarin necə həlak oldu, halbuki həmin illər hamısı yaxşı başlamışdı, di gəl ki, geyim-kecim qayğısı və kasıblıq mərəzi onun kimi bir dul qadını mülk sahibəsinə və iki uşaq anasına çevirib, mən isə tək uşaq idim, indi ikiyaruslu çarpayıda yatan bacı-qardaşdan biri olmuşam, üstəgəl, bütün bunların Linda üçün nə demək olduğunu hələ bilmirik. Bu "hələ"nin nə olduğundan da hələ xəbərsizik. Ümumiyyətlə, düzünü desək, ətrafımızda baş verənlərin çoxunu başa düşmürük. Anaının həmişə dediyi kimi, Tanrının izni


e-kitab.org

ilə, həyat bizə zərrə-zərrə bəxş olunur.

5 Rəvayətə görə, Məryəm İsanı Betleyemdə, tövlədə doğub.

6 İngilis yazıçısı Enid Blaytonun uşaqlar üçün detektiv əsəri

7 Norveç dilində uşaqlar üçün almanax

8 badam qurabiyəsi



e-kitab.org

Yeni İl qarla gəldi. Bolluca qar yağdı. Balkonlarda, damlarda, çöllərdə, küçələrdə tığ bağladı, yamaclarda xizəklər, kirşələr göründü. Traverveyendə sürüşən maşınların təkərləri fırlanır, uşaqlar maşınların buferindən tutub sallanırdılar. Maşınlar Lien dükanlarından uzağa gedə bilmir, Ekelunveyndə dalda yer tapıb dayanırdılar. Şəhər kənarı tərəflərdə ruha işləyən bir sakitlik hökm sürürdü, halbuki bu qədər qar yağması daha çox hay-küyə, qarışıqlığa səbəb olmalı idi. Qar yığınları qalaqlandıqca sakitlik azalır, Trondheym tərəfə tələsən maşınlar orda-burda gözə dəyir, bəyaz qar təpələri arasından arabir banında qar yığılmış Şoyen avtobusları görünürdü. Avtobusların banındakı qar uçan xalçalar kimi yerindən qopub geriyə uçur, səssizcə dağılır, səpələnirdi. Sanki ucqar bir kənd havası, ağaclı-meşəli, sonsuz kənd mənzərələri şəhərə gəlmişdi, lap dəniz intəhasızlığı kimi bir şey.

Təkcə blokumuzun qabağında, kirşədə sürüşməkdən söhbət gedə bilməzdi. Biz küçəni keçib Hagen tərəflərə, qədim palıdlar və meyvə ağacları bitən, qarağat kolları ilə örtülü dağ yamacları boyu gəzmək, oraları görmək istəyirdik. Orada bircə pəncərəsindən işıq gələn tək bir ev vardı. O evdə "Rubi" dediyimiz bir qarı yaşayırdı, elə bil qarı özü də əbədiyyətin bir parçası idi. Qar kimi, atlar kimi. Gecə vaxtı


e-kitab.org

oralara yolun düşsə zülmətə qərq olmuş evdən kosmik səslər eşidərdin – ətrafda yaşayanları dəhşətə salan səslər.

İndisə mən daha uzaqlara gedə bilərdim, evimizdən, evimizin yanındakı kiçik yamacdan, xüsusən də Lindadan uzaqlara. İşə bax ki, Linda o “ev quşu” Enn-Beriti dəyişə bilmişdi. Yanvarın ilk həftələrində Enn-Berit vaxtını o qədər bayırda keçirirdi ki, keçən il boyu küçəyə heç bu qədər çıxmamışdı. İndi o, Lindaya da qahmar olurdu. Hesabı-zadı yaxşı bilən bizim Enn-Berit xanım, bax, beləcə lazımlı bir adam olmuşdu.

– Yox, yox, yox, Linda, elə yox, mənə bax.

Linda, doğrudan da, bir neçə dəfə cəhd etdi, dediyimi başı ilə təsdiqləyib, sonra bərkdən güldü. Gülüşündə bir az da təəssüf hiss olunurdu. Axı əslində, kukla kimi balaca bir uşaq idi, necə istəsən elə rəftar etmək olardı. Səbəbsiz ağlamazdı, Enn-Berit kimisi üçün o, sözə baxan, balaca bir heyvancığaz kimi idi. Kiçik bacılarından bezən Enn-Berit onu tennis kortuna apardı. Kortu su ilə doldurmuşdular, indi donub konki meydançası olmuşdu. Linda burada dəri botinkalarının pəncəsi üstə fırlanmağı öyrənir ya da əlcəkləri üstə yığılan qarı çırpırdı. Linda sanki tamaşaçı idi – Enn-Berit buz üstə sürüşür, pəncələri üstə fırlanır, Anita
Lindblomun9 “Sən o oğlanı əldə edə bilərsən” hit mahnısının İsveç versiyasını


e-kitab.org

oxuyurdu. O qış hamı bu mahnını oxuyurdu. Radioda, televizorda. Mən bu mahnını avtobusda da, cıdır yarışlarında da eşitmişdim. Marlin də bu mahnını tez-tez oxuyurdu, elə bil bu mahnını zümzümə etməsə bircə kartof da soya bilmirdi.

Odur ki, aradan çıxa bildim. Hagan tərəflərə getdik, böyük oğlanlarla.

Mən elə də bacarıqlı bir idmançı deyiləm, amma cəsarətli ola bilirəm, mənim kimi, qarşısına çıxan maneələrə görə heç vaxt ruhdan düşməyən adam asanlıqla rişxəndə tuş gələ bilər, xüsusən, o halda ki, o, rişxəndləri qulaq ardına vura bilsin.

Elələri də var ki, hansı yol olur olsun, seçirlər, sonra bu yol onları bəlalara salır və vəziyyətə nəzarət edə bilmirlər. Belə bir dostum vardı, Birinci Fredi. Cüssəli və hirsli birisi idi. Nə məktəbdə, nə də küçədə bir qabiliyyəti ilə seçilirdi. Danışığını da bilmirdi. Paltarı-zadı da nədənsə həmişə tay-dəyişik olardı. O məhz buna görə seçilirdi, buna görə fərqlənirdi, adı da buna görə Birinci Fredi qoyulmuşdu, bu isə onu təzəcə ortaya çıxmış İkinci Fredidən, Üçüncü Fredidən irəli çıxarmışdı. Dediyim kimi, o, cüssəli və güclü idi, amma di gəl çox astagəl idi, bunlar eyni bir adamda necə fəlakətli dərəcədə uyuşmuşdu, qəribə idi. Odur ki, ona “nömrə 1” statusu verilmişdi.

Dəstəmiz xizəklə Haqana dırmaşmaqdan, aşağı sürüşüb sonra yenidən yuxarı qalxmaqdan yoruldu, -əvəzində uşaqlar Birinci Fredini ələ salır,


e-kitab.org

onun xizəyini, papağını, görünüşünü məsxərəyə qoyurdular, o isə kobud sözlərlə onları təhqir edir, qartopu ilə vurmaq istəyir, amma həmişə olduğu kimi atdıqları heç kimə dəymirdi. Uşaqlar ona qartopu atanda isə o, xizəklərini ayağından çıxarıb başı üstə fırlatmağa başladı. Əslində kimsəni vurmaq istəmir, sadəcə başı üstə fırladır, tüpürür, çığırırdı, səfeh Bonna xizəkləri ilə özünü müdafiə edirdi. Nəhayət, yorulub söyüş söyə-söyə qar üstünə yıxıldı. Çığırtılar kəsildi. Bax, belə, Birinci Fredi yıxılıb qar üstə qalmışdı. Uşaqlardan bir neçəsi yaxın gəldi ki, görsünlər, ölüb-eləməyib ki. Yox, Birinci Fredi ölməmişdi. O elə bu anı gözləyirdi, indi öz gücünü göstərəcəkdi.

– Ölmüsən, Bir Nömrə?

Amma birdən var gücünü toplayıb, o, balaca oğlanlardan birinin çəkməsindən yapışdı, onu yerə yıxıb buz bağlamış əlcəkləri ilə onun üzünü yumruqlamağa başladı, oğlanın burnundan qan açıldı. Sonra böyük oğlanlardan biri şərfini Birinci Fredinin boynuna dolayıb geriyə dartdı, az qala boğulacaqdı. Çox vaxt elə belə də olurdu. Birinci Fredi daha bu dünyalıq deyildi. İndi öz hayında idi. Qəzəb içində, ağzı-burnu axır, göz yaşları dayanmırdı. Birinci Fredini heç nə sındıra bilməzdi, onun cəzasını verdilər. Amma nə olsun, heç vaxt dərs olmurdu ona. Traverveyndə duruş gətirmək belə çətin idi, dözə bilənlərə heykəl qoyulmalı idi. Özü də dəmirdən.


e-kitab.org

Belə hay-küylü axşamların birində Haqanın başından xizəklə aşağı enirdim, qar-külək üzümə çırpır, bütün diqqətimi toplayıb irəli baxırdım. Haqandan aşağı, binalar başlayan yerdə üzü üstə yıxıldım, elə bu zaman aşağıda Kristianın dayanıb mənə baxdığını gördüm. Kirayənişinimiz paltoda, papaqda idi, durub yıxılmağıma baxırdı. Gəlmişdi görsün ki, yeniyetmələr bu axşamüstü necə əylənirlər.

Həmin günü axşam mənim xizəkdə babat sürüşmək bacarığım yemək masasının arxasında xeyli müzakirə olundu. Bir də ki, söhbət ondan gedirdi ki, gələn bazar günü mən Kristianla gəzməyə gedim ya yox. Qatarla Movatna, ordan Lillomarkadakı xizəkçi evinə qədər gedib sonra da Sinober, Sorskauen və Lilloseter restoranlarından da o yana gedib çıxardıq. Çünki atalı uşaqlar üçün bu adi bir şey idi.

Tərəddüd edirdim, daha çox ona görə ki, anam bu dəvətə xeyli həvəslə razı olmuşdu. Kristian Milad tətilindən sonra evə qayıdanda anam ona etiraz etmişdi, soruşmuşdu ki, Milad hədiyyəsi olaraq ona verdiyi o daş-qaş nə deməkdi. Kristian da eyni ifadə ilə narazılığını bildirmişdi. Tətil günlərində bizə ərzaq şeyləri gətirəndə də beləcə anam etiraz etmişdi, onda da kirayənişinimiz belə pərt olmuşdu. Onda bəs, indi Kristianın bu dəvətinə niyə həvəslə razılıq verirdi? Bu adam indi ataların öz uşaqları üçün elədiklərini mənim üçün eləmək istəyirdi, anam da razılaşırdı.


e-kitab.org

Nədən?

– Bəs Linda necə olsun? – mən soruşdum.

– O çox balacadır.

– Yəni çox balacadır?

– Hə...

Mən də “hə” deyib razılaşdım. Uşaq vaxtı mən çox vaxt “hə” deyirdim, yalnız sonralar, elə ki, ”yox” deməyi öyrəndim, bunun deyəsən bəzi şeylərdə köməyi oldu. Bəzi səbəblərə görə, biz səhər tezdən çıxmalı idik. Səkkizin yarısında. Xizəklə. Kristian ağ rəngli, başlıqlı gödəkcədə tamam başqa bir adam olmuşdu, çox qəribə, qədimi, gödək şalvar geymişdi. Hava bərk soyuqdu, o da heç dinib danışmırdı. Loftusveyn yolu çınqıllı idi, buz bağlamışdı. Bütün yolumuz eniş olsa da, lap bezdim. Qrefsen dəmiryol stansiyasına gəlib çatanda səkkizə beş dəqiqə qalırdı. Vaqonlar dolu idi, səssiz-səmirsiz, mürgüləyən kişilər. Hər yaşda. Yalnız kişilər. Milli fəxarət həvəsilə cəbhəyə yola düşən əsgərlərə oxşayırdılar. Biz də belə görünməli idik, amma mən heç özümə gəlməmişdim. Bərk soyuq idi, hər tərəfdə dəstə-dəstə adamlar görünürdü. Movann gölünün səthi elə yaxşı, hamar idi ki. Amma əziyyətimiz elə bundan sonra oldu – yoxuş başlayırdı.

– Elə ki, lap təpənin başına çıxdıq, ordan aşağı rahat olar, uça-uça gələrik, – Kristian tövşüyə-tövşüyə, astadan dedi.

Məsələ burasındadır ki, biz heç vaxt


e-kitab.org

zirvəyə çatmırdıq. Elə bil Aya çıxırdıq. Şəffaf qış mənzərəsi fonunda qəflətən peyda olan Sinober restoranının həyətinə çatanda mən artıq əl-ayağımı hiss etmirdim. Amma nədənsə restorana getmədik. Yola davam edirdik. Sorskauenə tərəf. Güclə yeriyirdik. Mən lap heydən düşmüşdüm. Kristian mənə qarağat punşu və vafli verdi, amma boğazımdan keçmirdi. Ağzımda yemək, yuxu tuturdu məni. Kristian məni tutub silkələdi ki, oyanım. Dedim, bəlkə gecəni qalaq burada.

– Ha-ha-ha, – Kristian ofisiant qadına tərəf döndü.

– Oğlan soruşur ki, bəlkə gecəni burada qalaq.

– Hmm, yaxşı fikirdir, yaxşı olardı, – qadın dedi.

Tərslikdən burada yoldaşlarından birinə rast gəldim. Rocer yaxşı xizəkçi idi. Özündən böyük qardaşları ilə gəlmişdi bura. Şaxtadan üz-gözümüz qızarmışdı. O da mənim kimi taqətdən düşmüşdü, danışmağa halımız yox idi. Basırıqda, köhnə bir skamyada, yanaşı oturmuşduq. Yaş paltarda, nəm iyi verən, bürkülü otaqda. Hər tərəfdə üst-başı islanmış kişilər, arxa çantaları ilə. Ağac qabığı, giləmeyvə və küknar qoxusu verən Norveç havası istər-istəməz kasıblığı, atalarımızı xatırladırdı bizə. Yaxşı ki, Rocergil bizdən əvvəl yola düşdü.

Punş içib, vafli yeyəndən sonra nə qədər yalvarsam da, olduğumuz yerdə qala


e-kitab.org

bilmədik. Dəstə-dəstə, hay-küylə, dəbdəbəli xizək çəkmələrində gələnlərin arasında özünə yer tutmaq lazım idi. Buz-qar içində adamların ağzından buxar çıxır, tər axırdı, insan nəfəsindən yaranan buğ qalaq-qalaq burulur, yayılırdı. Donmuş yollar getdikcə uzanırdı. Bu sıxlıqda, primitiv daldalanacaqlarda, hermetik qablarda yeməkləri gətirib burada yemək, sonra da buraları çirkləndirmək lazım idimi? Nəhəng Norveç ayısını da gördüm. O heç vaxt yatmır, eşələnir, caynaqları, pəncələri ilə hər yanı qazır, bütün qışı nərildəyir ki, donmasın... Belə-belə bir çox şeylər ki, atam olmadığı üçün mən bunlardan xəbərsiz qalmışdım.

Qısası, dözməkdən, yola davam etməkdən başqa çarə yox idi, zəifləmək, yumşalmaq olmazdı. Bu, əzablı bir inadkarlıq deyildi, buna səbəb sürüşkən enişlər-yoxuşlar da deyildi. Məni daha çox fiziki vəziyyətim narahat edirdi. İndi mən az qala donub ağac parçasına dönmüşdüm, elə bil məni odun peçində yandırmışdılar. Lillosetera gəlib çatanacan yediyim vafli və qarağat punşu sanki yenidən ağzıma qayıdırdı. Kilometrlərlə yolu getmək üçün Kristian məni həvəsləndirib dilə tutmalı olurdu. Lillosetera – bu sonuncu sosial-demokrat “VIA Doloroz”10 dayanacağına gəlib çatanda məlum oldu ki, burada da dayanmayacağıq. Bax, burada bədən temperaturum bərpa olundu, yediyimi qaytardım.


e-kitab.org

Üstəgəl, Breysyen gölünə tərəf enəndə Kristian bir neçə dəfə yıxıldı. Mən də yıxıldım, amma onun üzüqoylu yıxılması lap məzəli oldu. O, möhkəm yıxıldı, xeyli də yerdə qaldı. Bəlkə də yaşla ya da düşüncələri ilə bağlı idi. Kristian yıxılan adamlardan deyildi, belə vəziyyətlərdə o yıxıla biləcəyini nəzərə alıb özünü saxlamalı idi, amma burada təbii amillər də öz rolunu oynayırdı. Nəhayət, xizəklərimizdə Orvollosenin təpəsinə çatanda üşüyür, titrəyirdik. Aşağıda güllə atıcılığı klubu və Ostreheym görünürdü. Burada Kristianın təbəssümü yox oldu. Əvəzində üzündə tamam yeni bir ifadə göründü. Hətta gülümsəməyə çalışsa da, nəsə acı bir təəssüf vardı sifətində. Dedi ki, mənimlə bir şey haqqında danışmaq istəyir. Onun yanına qonaq gəlsə anamın etiraz edib-etməyəcəyini bilmək istəyir, mənim fikrimi soruşurdu.

Cavab vermək çətin idi, bir az o yandan-bu yandan danışandan sonra başa düşdüm ki, burada qadın məsələsi var. Kristian bilmək istəyirdi ki, görəsən, anam o qadına bir neçə gün onun yanında qalmağa icazə verərmi.

Dedim ki, icazə verəcəyinə inanmıram.

– Mən də belə fikirləşirəm – o dedi, sonra baxışlarını Oslo səmtə döndərdi.

– O niyə belə eləyir, axı?

Uşaq belə suallara cavab verə bilməz, həm də bu sözlərin heç anama aid olduğu yəqin deyildi.


e-kitab.org

– Bəs o qıza nə olub? Elə bil... bir az ağıldan kəmdir, hə?

Elə bil qulaqlarım guruldadı, gözlərim tutuldu. Nəfəsim təngidi, ayaqlarımı xizəkdə bərkidib yerimdən tərpəndim. Ayaq üstə durmağa çalışaraq üzüaşağı endim. Atıcılıq klubundan keçib Ostreheymsveyn boyunca yoluma davam etdim, amma Kristian arxadan məni haqladı, itələyib qara yıxdı.

– Tanrı xətrinə, Finn, sən heç bir şey başa düşmürsən!

Kirayənişinimiz qəddar bir adam olmuşdu, gücüm yalnız ona çatdı ki, gözlərimi yumum, bir az dözümlü olum.

– Hə, artıq qayıtmısız, – biz, nəhayət, evə girəndə anam dedi.

Xizəklə gəzintimiz haqda deməli bir şey yox idi, üstəgəl, hərarətim vardı, dilim də söz tutmurdu. Səbrim çatmırdı, çəkmələrimin ipini açmalı idim. Sözsüz-zadsız otağıma çəkildim, güclə özümü saxlayırdım ki, heç bir şey danışmayım. Ola bilsin hətta özümü inandırmağa çalışırdım ki, o dəhşətli sözü eşitməmişəm. Amma aşağıdakı yarusda Linda uzanmışdı. Üzüqoylu halda at şəkli çəkirdi. Nə çəkdiyini yalnız anam və mən bilə bilərdik. Əgər siz bu həyatda at şəkli çəkə bilmirsinizsə, siz məhv olmağa məhkumsunuz, siz qurğuşun kimi batacaqsız. Linda Milad günü ona hədiyyə verdiyim bloknotda dönə-dönə at şəkli çəkirdi, amma şəkildən heç nə başa düşmək


e-kitab.org

olmurdu. O, atları çox sevirdi, çəkdiyi atlar isə qarışqaya, filə, Allah bilir daha nəyə oxşayırdı. O gülümsündü, dedi:

– Soyuqdu?

Mənsə çığırdım:

– Bir az əmməli-başlı çəkə bilmirsən?..

Lindanın alt dodağı tirədi, ağlamağa hazır idi. Heç demə anam arxamızda dayanıbmış. Üstümə qışqırdı:

– Nə olub sənə, Finn? – O dəhşətli söz beynimdə fırlanırdı.

– O dedi ki, bu kəmağıldır, – mən qışqırdım. Elə bu zaman bət-bənizi ağarmış anamın arxasında Kristianı gördüm.

– Nə? – anaının səsi güclə eşidildi. Araya ölü sükutu çökdü.

– Uşaq səfehləyir də... – Kristian səsini qaldırdı. Sifəti tutulmuş, bir az da pörtmüş axmaq xizəkçi... – Qulaq asmayın ona.

Amma anam belə hallarda təmkinli ola bilir. Bu saat aramızda ən normal adam Linda idi. Heç nə olmayıbmış kimi, o, bloknotun səhifələrini çevirib rəngli tabaşirləri ilə oynamağa başladı. Kristianla mən qorxu və təşviş içində idik. Anamın sakit, həlim səsi eşidildi:

– Siz ona nə demisiz?

Kristian əllərini yuxarı qaldırdı, sonra yenə aşağı saldı. Tor dayı kimi elədi, başa düşdüm ki, guya Lindaya canıyananlıqdan araya razılıq salmaq üçün dedi:

– Siz bilməlisiz ki, o uşağa kömək etmək lazımıdır. O danışa bilmir, görmürsüz?



e-kitab.org

– Siz ona necə demisiz?

Bu sözlər onu karıxdırdı. Kristian əlini alnına çəkdi, mənim özümə heç vaxt rəva bilmədiyim bir şey elədi. Üzr istədi, üzr istəməyi bütün görkəmindən bilinirdi.

– Üzr istəyirəm, mənim üçün heç yaxşı hərəkət deyil. Amma... hə, hə, burada bəraət ola bilməz, bilirəm.

Günahkar adam kimi bütün vücudu ilə dabanları üstə fırlandı, otağına tərəf yönəldi. Anam quruyub qalmışdı, yad-biganə bir adam kimi baxırdı. Əlin tutub silkələdim, dartdım.

– Bəraət ola bilməz, belə söz unudula bilməz! – anamın səsi elə bil uzaqlardan gəldi.

Bunun nə demək olduğunu başa düşmədim. Onda anam mənə tərəf döndü:

– Bu adamınkı qırtardı!

Mən tez başımla təsdiq etdim.

– Linda isə at şəkillərini necə istəsə elə çəkəcək, bunu mən deyirəm sənə, Finn!

– Hə, əlbəttə, amma...

– Amma nə?

– Mən ona bəzi şeyləri öyrətməliyəm.

İndi anamın da səbri qalmamışdı. O, Lindanın çarpayısı yanında çömbəldi, əllərini onun dizlərinə qoyub astaca tumarladı, nazladı. Dönüb mənə bir də baxdı, elə bil birinci dəfə görürdü məni. Ya da halımı indicə duydu, pörtmüş-qızarmış yanaqlarımı, soyuqdan qurumuş bədənimi indicə gördü.

– Xizək gəzintiniz necə keçdi?


e-kitab.org

– Acam, – dedim.

– Bir az uzan, dincəl, – anam dedi. – Durub indi bir şey düzəldəcəyəm.

Mən uzandım. Amma "bir az" yox. Yalnız ertəsi gün səhər oyandım.

9 İsveç aktrisası, bəstəkarı

10 Qədim Qüdsdə küçə. Rəvayətə görə, İsanın çarmıxa gedən yolu buradan başlayıb.



e-kitab.org

# 9

Soyuqdan titrəyirdim, çox ağır nəfəs alırdım, sinəmdə dözülməz ağrılar vardı. Əl-ayağım ağırlaşıb qurğuşuna dönmüşdü. Ayağa qalxa bilmirdim, səhərin bu alaqaranlıq çağında pıçıltı ilə də olsa anamı səslədim.

– Mənə soyuqdur.

– Qalın adyalını götür, – anam yuxulu-yuxulu deyindi.

– Mən... qalxa bilmirəm.

– Niyə durursan? Hələ gecədir ki...

– Tualetə istəyirəm...

– Get də...

– Gedə bilmirəm, dedim, axı.

Anam artıq yanımda idi.

– Necə, yəni? İndi qalx, görüm.

– Elə bil buram işləmir, – dedim və guya ki, ürəyimin olduğu yeri göstərdim. Səndirlədim, anam əlini çiynimə qoydu:

– Sonra nə? – təəccübləndi. Ailəmizdə heç vaxt heç kəs xəstələnmir, xəstəlik adını eşidəndə heç birimiz inanmır, bu, hər nədirsə anamın öz atası evindən gətirdiyi bir vərdişdir. "Xəstələnəndə bir az uzan, keçib gedər" düşüncəsi ilə. Hətta Biarne dayım da bu məsləhətə təslim olardı – "bir az uzanıb" müalicə olunardı. Bu haqda Oskar dayım bir məktubunda yazmışdı bizə. Anam bunu eşidib deyinmişdi, amma bu heç vaxt Milad süfrəsi arxasında ailə müzakirəsinə çıxarılmamışdı. Doğrudan da, məsələn, necə təbi səslənərdi ki, soruşasan:


e-kitab.org

“Hə, Biarne, müalicən necə gedir?”

Danışmağa söz tapmırdıq.

Anam məni diqqətlə süzdü.

– Bu, ürək deyil, oğlum, ciyərlərindir, – dedi.

Lənətə gəlmiş kirayənişinə və xizək gəzintisinə xeyli deyindi, təkrarən dedi ki, “bu adamı atacağam bayıra”. Sonra termometri əvvəlcə qoltuğumun altına, sonra da ağzıma qoydu. Termometr yalnız 37 dərəcəni göstərirdi, mənsə bərk ağrıyırdım.

– Nəfəs ala bilmirəm, – dedim. Anam dedi ki, gözləyim, özü isə geyindi, Omar Hansen dükanlarının yanındakı telefon budkasından həkimə zəng vurdu. Həkim gələnə qədər məni çarpayının aşağı yarusuna – Lindanın yerinə düşürdülər. Linda anamın yerində üzüqoylu uzanıb həkimin məni müayinə etməsinə baxırdı.

Onun adı Doktor Loc idi. Nə qədər çətin olsa da, o məni əyləşdirdi, soyuq barmaqları ilə sinəmi, kürəyimi döyəclədi, stetoskopla nəfəsimə qulaq asdı, onu köksümdə gəzdirə-gəzdirə ağarmış qaşları altından mənə göz yetirdi, sonra sualedici baxışlarını anama dikdi.

– Elə bil iki ya üç qabırğasında çat var. Yıxılıb eləmişdi?

– Qabırğaları?

– Bəli, ola da bilər, sınıb. Onu yalnız rentgendə bilərik.

– Finn, dünən yıxılıb eləmişdin?

Hə, əlbəttə, yıxılmışdım, özü də necə


e-kitab.org

dəfə.

– Amma əzilməmişdim, – dedim.

– Xizək gəzintisi zamanı iki qabırğanı sındırdığını mənə demək istəmirsən, elədir?

Doktor Loc indi mənə daha maraqla baxırdı. Onun yaşı yəqin ki, əllini keçmişdi, bifokal eynəyinin yuxarı hissəsindən mənə baxırdı.

– Gəzintiniz uzun çəkdi, eləmi? – gülümsəyib soruşdu.

– Bəli, çox uzun.

– Bu gəzintidir-nədir, ən axmaq şeydi, – anam hikkə ilə dedi. – O səni vurdu.

– Kim?

– Kristianı deyirəm. Gəl, düzünü de.

– Çı...

– Siz nədən danışırsız? – Doktor Loc müdaxilə etdi.

– Heç nədən, – anam qollarını sinəsində çarpazlayıb, əsəbi halda dodağını dişlədi, sonra Lindaya baxdı. Üzü çox ciddiləşdi. Hiss etdim ki, indi nəsə ağlasığmaz, dözülməz bir şey baş verəcək. Dedim, bəlkə əhvalı düzəldi, görək sonra neyləyirik. Amma o, sözsüz, hərəkətsiz durmuşdu. Doktor Loc da qalın qaşları, təəccüb dolu baxışları ilə eynəyinin arxasından baxır, eynəyin linzaları dərisinin məsamələrini böyüdüb dərin krater kimi göstərirdi. Anam qəfil bir qətiyyətlə dilləndi:

– Yaxşı, mən getməliyəm. Biz...

– Axı biz uşağı rentgenə salmalıyıq.

– Marlin məşğul olacaq bununla, –



e-kitab.org

anam soyuqqanlılıqla dedi. – Mən işə getməliyəm. Linda, ayağa dur, əyninə bir şey gey. Finn, sən acsan?

– Bir parça çörəklə bir az keçi pendiri olsa yeyərəm...

Doktor Loc gah birimizə, gah o birimizə baxdı, hiss etdi ki, burada, deyəsən, ailə söhbəti gedir, həkimin vaxtı daha qurtarıb.

– Borcumuz nə qədərdir, doktor? – anam soruşdu.

Doktor stetoskopu çantasına yığdı, paltosunu götürüb dizləri üstə qoydu, çarpayısında kuklası ilə oynayan Lindaya nəzər yetirdi. Anam mətbəxə keçdi. Doktor gülümsündü, Lindanın yanağını sığalladı, adını soruşdu. Linda cavab vermədi, sadəcə, kuklasını əlində tutub baxdı. Kuklanın "əməliyyat yarası" indi tikilmiş, sallanmış ayağı yerinə bərkidilmişdi, çıxarılmış gözlərinin yerinə təzə parlaq düymələrdən göz qoyulmuşdu.

Anam mənə çörək, bir fincan süd verdi. Bu zaman qapının zəngi çalındı, yanaqları alma kimi qırmızıya çalan Marlin içəri girdi. Lak vurulmuş saçlarına azca qar qonmuşdu. O heç vaxt papaq geymirdi. Marlin az vaxtda anamın sirdaşına çevrilmişdi. Hiss etdim ki, anam pıçıltı ilə vəziyyəti ona başa salır. Bir azdan dəhlizdən boğuq bir səs gəldi, ardınca anamın "Bundan artığına dözə bilmərəm!" sözlərini eşitdim. "Ona görə də, etiraz etmirsinizsə..."

Sonra anam hələ də paltosunu geyməmiş doktora tərəf döndü:


e-kitab.org

– Doktor, sualıma cavab vermədiniz.

– Buna görə narahat olmayın, – doktor sakitcə dedi, sonra bir qələm, bloknot, tünd göy rəngli kopiya kağızları çıxarıb Lindaya verdi. Doktor evdən çıxan kimi kopiya kağızları quru yarpaq kimi uçub evə dağıldı. Amma indi payız deyildi, qış idi. Yeməyi çeynəyir, amma uda bilmirdim. Yəqin südü də içə bilməyəcəkdim, halbuki südü çox sevirdim. Anam çıxandan sonra gördüm ki, onun stolunun üstündəki zəngli saat onu göstərir. Bildim ki, ya Marlin bu gün gecikib, ya da anam yatıb qalıb, mən də, güman ki, xəstələnirəm.

Marlin otağa girdi, lap xəfifcə. Üst-başında da qışın soyuğu. Gəlib çarpayıının kənarındaca oturdu, necə odluğumu soruşdu. Saçlarımı sığalladı, zarafatla nəsə dedi. Əlimdəki çörəkdən bir dişləm götürdü, mənim artıq bildiyimi dedi. Rentgenə gedəcəkdik. Dedi ki, şəhərə çıxacağıq, hər şey də yaxşı olacaq. Həm də Linda ilə. Yaxşı olmazmı?!

Əlbəttə, yaxşı olacaq.

Ayağa qalxdım. Marlin ikimizi də geyindirdi. Həyətə düşdük. Ətraf elə görünürdü ki, elə bil nəhəng bir xəstəxananın üstünə ağ mələfə örtülmüşdü və bu xəstəxanada həyat əlaməti olmayan uşaqlar ağzını açıb səssizcə gülürdülər. Çətinliklə yeriyirdim, güclə nəfəs alırdım. Başım hərlənir, qusmağım gəlirdi, soyuqdan titrəyirdim, görünür, xizəklə keçdiyim meşələrin soyuğu canımda idi.



e-kitab.org

Marlin mənə kömək edirdi. Avtobusda mənə yer verdilər, yaşlı adamlar kimi. Marlin ətrafdakıları inandırırdı, amma oturmaq mənim üçün daha çətin idi. Yol uzun idi, anaının işlədiyi ayaqqabı dükanına tez-tez bu yolla gedirdim. Amma indi bu yol başqaydı, heç tanımadığım yerlərdən keçirdik. Nəhayət, tanış Qasser şirkətinin yanında düşdük. Bu həmin nəhəng şirkət idi ki, uzun, qara boruları nərildəyir, yanır, fışıldayırdı, elə bil dünya müharibəsi gedirdi.

Yolu keçdik, təcili yardım şöbəsinə girdik.

Mən özümü güclə idarə edir, Marlinə baxırdım. O heç kimdən baxışlarını qaçırmırdı. Orta məktəbə getmişdi, sərbəst, açıq danışırdı. Mənim adımı, Doktor Locun adını verdi və gözləməyə başladıq. Bizə yer göstərdi, oturduq. Özü isə bayıra çıxıb kiçik bir köşkün qabağında növbəyə durdu. Pəncərədən bizə əl elədi, iki çubuq nabatı aldı. Biri yaşıl, biri də narıncı. Narıncı nabatı növbə ilə sormağa başladıq, çünki ikimiz də narıncını xoşlayırdı. Hər dəfə Marlinin qolundakı qızıl saata baxıb nabatı kimin neçə dəfə sorduğunu hesablayırdıq. Marlin deyirdi ki, saatı zövqsüz bir şeydir, ardınca da gülürdü.

– Amma onu mənə şahzadə verib haa... – deyirdi.

O özü ilə bir kitab da götürmüşdü, pıçıltı ilə Lindaya oxuyurdu. Linda hərdən onu saxlayır, o, oxuduğu yeri ona yenidən



e-kitab.org

danışırdı. Hiss etdim ki, elə bil əzələlərim daha əvvəlki kimi gərgin deyil, əl-ayağımı geniş rahatlayıb sərbəst oturdum. Amma elə o an adımı çağırdılar, məni ayağa qaldıranda yenə dəhşətli ağrı hiss etdim. Sakit, ağappaq bir kabinetə gəldik. Məni ağır, dəmir bir kresloya oturtdular, sonra yarı qaranlıq bir otaqda bir skamyada uzatdılar, dərindən nəfəs alıb-verdim. Ətrafdakıların gülümsər üzünü görürdüm. Sonra elə onlar kobud əllərilə məni böyük, ağ bir sarğıya bükdülər. Sarğı məni dimdik saxlayırdı, bu, lazım olduğundan çox dərindən nəfəs almağa qoymurdu. Sonra məni yenə möhkəm sarıdılar. Marlin məni qucaqladı. Sonra qeydiyyat otağına gedib nəsə xeyli söhbət etdi. Orada oturan qadın bizə təzim etdi, amma çox dəhşətli bir sirri bilirmiş kimi üz-gözünü mənalı-mənalı əzib-büzdü, pıçıltı ilə nəsə dedi. Bayırda tüğyan edən soyuq qış havası bizi ağuşuna aldı. Bizim üçün çağırılmış taksi gözləyirdi.

Taksiyə oturub evə gəldik.

Linda ilə mən arxada oturduq, Marlin sürücünün yanında. Sürücü filtrli siqaret çəkirdi. Onlar elə danışırdılar ki, elə bil biri-birini çoxdan tanıyırdılar. Marlin hər kəslə belə asanlıqla danışırdı. Sözü, ünsiyyəti ilə, gözəlliyi, qırmızı dodaqlarının təbəssümü ilə hər cür inadkarlığa qalib gəlirdi. Sürücüyə deyirdi ki, bizi lap qapının ağzına qədər aparsın – mən yaxşı deyiləm deyə. Bir az qələbəliyə düşdük, çünki dərslər qurtarmışdı, qara "Volqa"mız lap təcili


e-kitab.org

yardım kimi şütüyürdü. Enn-Berit Lindadan soruşdu ki, nə baş verib, amma bilmədim, Lindadan cavab ala bildimi. Mən ağrıdan tərpənə bilmirdim, üz-gözümü qırışdırıb gözləyirdim. Marlin sürücünün verdiyi kağızı imzaladı, sürücü yola düşəndən sonra bizi uşaqların arasından bir təhər keçirib, pillələrlə yuxarı çıxartdı.

Anam artıq işdən qayıtmışdı. Səhər evdən çıxandakından fərqli bir əhvalı vardı, gözləri razılıqla gülürdü, xeyli də işgüzar görünürdü. Stolun üstündə yeməklər, kotlet, qaymaqlı kələm qovurması. Hər şeyi dürüst bilmək istəyirdi – gün ərzində hara getdik, nə iş gördük, ən əsası – mən necəyəm.

Deyim ki, çox pis də deyildim, indi əvvəlkindən yaxşı yeyirdim. Amma sonra yenə uzanmalı oldum. İndi də Lindanın yerində, aşağı yarusda.

– Linda mənimlə yata bilər, – anam dedi, Lindanın yanağını sığalladı. Linda mənim çarpayımda bir dəfə yatmışdı. Bir qiyamət qopmuşdu ki. Linda hündürlükdən qorxurdu.

Lindanın yerində düz bir həftə yatdım.

Yeddi gün bir yerdə uzanıb qalmaq çətin bir işdir. Bir-iki qabırğaya görə. Amma madam ki, uzanıb qalmışdım, bütün günü oxuyurdum, müxtəlif kitablar, əyləncələr. Linda da anaının çarpayısında uzanıb gözlərini məndən çəkmirdi. Lap məzəli idi. Mənə tərəf baxırdı ki, birdən nəsə istəyərəm. Məsələn, ensiklopediyanın


e-kitab.org

dördüncü cildi, bir stəkan qazlı su. Mən də ona üstündə nömrələr yazılmış kiçik kağız parçaları verdim, deyirdim ki, bunlar puldur, o da bu kağızları balaca ayaqqabı qutusuna yığırdı. Tapşırdım ki, onları ölçülərinə görə, səliqə ilə yığsın, o da çalışırdı ki, onları ölçülərinə görə üst-üstə yığsın.

Yanıma gələnlər də vardı. Əvvəlcə Enn-Berit gəldi. Eşidəndə ki, sarğım gipsdən deyil, o, xeyli heyfsiləndi. Sonra Birinci Fredi gəldi. Anası göndərmişdi yanıma. İki şokolad plitkası gətirmişdi. Çarpayımın yanında durdu, bilmirdi harada otursun. Bir az kənara çəkilib yanımda ona yer elədim. Şokoladları yeyib, şahmat xanaları kimi bolunmuş kağız üzərində müxtəlif oyunlar oynadıq. Bir az da kart oyununa başımız qarışdı. Linda uzaqdan bizə baxırdı.

– Qoy o da bizimlə oynasın, – Birinci Fredi dedi.

– Yox.

– Niyə?

– O belə oyunları xoşlamır.

– Xoşlamır? – Fredi təəccübləndi. Gülümsündü, Lindaya tərəf boylandı. Fredi hamıdan uzun saç saxlayırdı. Saçını qırxdıranda da hamıdan qısa vurdururdu. Saçı həmişə dağınıq, vız dururdu, elə bil başında qranat partlatmışdı.

– Bu adi kartlarla oynamağa nə var ki? Oynaya bilmirsən?

Linda cavab vermədi. O, “pul”larını yığır, çinləyirdi.



e-kitab.org

– Mən sənə öyrədə bilərəm, – Birinci Fredi dedi.

– Yox, – mən bərkdən etiraz etdim. Fredi pərt oldu.

– Yaxşı, – dedim, – öyrət.

Birinci Fredi oyunu izah elədi, Linda isə ona heç baxmırdı.

– Bax, kartları belə səpələyirsən... – deyib, Birinci Fredi kartları ətrafa atdı. Lindaya bu, məzəli gəldi. Güldü. Elə gülürdü ki, elə bil hansısa arzusu həyata keçmişdi. Bilmirdim, həyata keçən onun arzusu idi, yoxsa mənim arzum həyata keçmişdi.

Birinci Fredi nədənsə paltosunu soyunmamışdı, nəhayət, o gedəndə başa düşdüm ki, çox həyəcanlanıb. Anam dedi:

– Ona nə olub?

– Necə, yəni?

– İki dəfə səndən böyük görünür...

Şənbə günü qonaq otağından səs-küy eşitdim. Getdim, görüm nə səsdir. Gördüm ki, anamla Kristian nəyi isə qızğın müzakirə edirlər. Məni görən kimi səslərini kəsdilər.

– Finn, sadəcə istəyirdim bunu sənə verim, – Kristian əlindəki şahmat taxtasını göstərdi. – Çıxıb gedirəm, qoy sənə yadigar qalsın.

– Ona sizin hədiyyəniz-zadınız lazım deyil, – anam dedi.

Belə bir şahmat qutusunun mənim olmasını çox istəsəm də, tələsik rədd etdim. Amma Bazar ertəsi günü səhər məktəbə gedəndə Kristianın şlyapasını, paltosunu dəhlizdə asılmış gördüm, günorta dərsdən



e-kitab.org

qayıdanda anamdan soruşdum ki, bu necə ola bilər. Doğru-dürüst bir cavab almasam da, nəsə başa düşdüm ki, kirayənişinimizə vaxt verib, təzə yer tapan kim o burdan gedəcək.

Daha çox şey soruşmaq istəyirdim, ya da "Bəs sonra?" – deyəcəkdim. Amma bunu soruşmaq elə də asan deyildi. Saat 10-a işləyirdi. Üç sınıq qabırğa ilə yuxudan durduğum həmin günün səhəri təxminən, dumanlı şəkildə yadımda idi. Elə bilirdim ki, anam həmin gün işə getməz. Amma o getdi. Əlbəttə, bu çox da təəccüblü deyildi, amma bəlkə də elə daha çox təəccüblü idi. Bir də ki, biz təcili yardımdan qayıdanda o artıq evdə idi və bu da təəccüblü deyildi. Hər halda sorğu-sual etməyə dəyməzdi. Xırdalıqlara fikri vermək nəyə gərək. Belə idi, belə olub, vəssalam. Lindanın evimizə gəlişi ilə anamla mənim aramda yaranan boşluğa bir körpü yaranmalı ikən, əksinə, aramızdakı məsafə böyüyürdü.

Sonrakı həftələr evdə az olurdum, məktəbdən gəlir, çantamı dəhlizə atıb, yenə çıxıb gedirdim. Marlinin arxadan məni səslədiyini, yemək istəyirəmmi ya yox deyə soruşduğunu guya heç eşitmirdim. Bunu bilə-bilə eləmirdim. Belə alınırdı, bəlkə ona görə ki, bunlar məndən asılı deyildi və nəsə təzə bir şey baş verməkdə idi. Bəlkə yazın gəlişi? Linda üçün, bu, ip atdı oyunu, kef-əyləncə idi. O, axı, bunların heç birisini görməmişdi və hər şeyi sıfırdan başlamalı idi. Amma çox yavaş inkişaf edirdi. Çox


e-kitab.org

keçmədi ki, qızcığaza olan marağım azalmağa başladı. Çalışırdım ki, az baxım ona. Və əslində də baxmıram. Haqanın başında mənim müşahidə yerim var, oradan evimizin ətrafına baxıram. Görürəm ki, Linda evimizin giriş qapısında, pilləkənlərdə oturub, təkdi. Trondheymsveyn yamacı ilə üzbəüz başqa bir müşahidə "məntəqəm" də var. Ordan da Lindanı görə bilirəm. Həmişə təkdi. Mən bunu bildirmirəm, ətrafımda uşaqlar hay-küy, macəra həvəsi ilə elədən belə qaçışır, qaynaşır, mənsə həmişə ona baxıram, hirslənirəm, çünki görürəm ki, o oturduğu yerdəcə oturur, tərpənmir, sanki istəyir ki, mən ona baxım, onu görüm. Gəlib soruşuram:

– Niyə burada oturmusan?

Sualımı başa düşmür, gülümsünür, məni görməyinə sevinir, ayağa durur, amma heç əlimi də tutmur, gözləyir ki, əlindən tutum, nəyləsə əyləndirim onu. Çünki mən onu çox dindirir, əyləndirirəm, amma yanımızda heç kim olmayanda.

– Belə oturma, – deyirəm.

– ???

– Başını belə aşağı salıb oturma, deyirəm. Düz otur.

Necə oturmaq lazım olduğunu göstərirəm, o da düz oturur. Başımla razılıq edirəm, amma bu hələ kifayət deyil, çünki içimdə bir səs deyir ki, onun bu cür tək oturması o demək deyil ki, başqaları səfehdir, bəlkə də o deməkdir ki, onun özündə nəsə var, amma nə, dəqiq bilmirəm.


e-kitab.org

Onu özümlə pul-pul oyununa aparıram, amma bildirmədən tamaşaçılar arasında qoyub kənardan müşahidə edirəm. Ya da bıçaq atdı oyununa aparıram. Burda da çox adam olur, tamaşa edirlər. Gah da küçədə əriyən qarı yığıb bənd düzəldirik, hərə özünə bənd ucaldır. Amma bunların heç biri Lindanın ürəyincə deyil, halbuki özü təqlid etməyi sevir.

Onun indi Birinci Fredinin əqli kəmliyini görmək imkanı da var. Bu dəfə onun təzə velosipedinə görə. Məsələ burasındadır ki, Birinci Fredinin atası ona bir köhnə, qara velosiped alıb. Storoda, köhnə-kürə şeylər satan Adolf Yardan. On beş kronerə. Çox işlənmiş şeydir. Fredi onu sürəndə Linda əlimdən tutub dartır, oradan uzaqlaşdırmaq istəyir. Əlimi buraxıb ondan ayrılmaq istəyirəm, deyirəm, görəsən, başqaları bunu necə eləyir, onlar balaca, doğma bacı-qardaşlarından necə qaçıb uzaqlaşırlar. Amma çıxış yolu görmürəm, elə bil kiçik-böyük, hamı bilir ki, balaca uşaqlarla, balaca dostlarla necə belə davranmaq olur. Bəs anam?

Şam yeməyi vaxtı anam deyir:

– Hə, bu gün necə keçdi?

– Əla, – Linda deyir və gülümsünür, amma anam soruşmur ki, o kimlə oynayıb, ya da hansı oyunu oynayıb, əvəzində, elə arxayın baxır ki, sanki heç nə olmayıb.

Marlin Lindanı hərdən dükana göndərir, lap Lien dükanlarına. Bu işi adətən mən görürəm, çünki anam işdən



e-kitab.org

qayıdana qədər evə kartof, çörək almalıyıq. Lindanın dükana getməsi də gözümdən yayınmır. Haqandan görürəm ki, Linda dükana girir, xeyli orada qalır, hələm-hələm çıxmır. Çıxanda görürəm ki, əlində heç nə yoxdur, ona görə də tez qabağına gedib soruşuram ki, nə olub. O isə Marlinin yazdığı kağızı mənə göstərir. Lindanı götürüb yenidən dükana giririk, ona izah eləyirəm ki, məqsəd dükana girib rəflərin arxasında gizlənmək deyil, sən satıcının qabağına gəlib dayanmalısan. Yerini heç kimə verməməlisən, ta ki, fru Lien səni görsün, sən dərhal kağızı ona verirsən. Bax belə.

İki gün sonra o yenə əliboş gəlir.

– İndi nə olub? – mən hirslə, təngnəfəs halda soruşuram. Nə qədər eyni şeyi demək olar? O yenə Marlinin siyahısını mənə göstərir, başa düşürəm ki, deyəsən, Marlinin xətini oxumaq olmur. Bilmir ki, bir yoxsa iki baton çörək almalıdır.

– Sən danışmalısan, – ona deyirəm. – Bura gəl.

Biz yenidən dükana giririk, mən bildiklərimi nümayiş etdirirəm. Birdən ixtiyarsız qışqırıram.

– Bir buğda çörəyi verin!

– Aman Tanrı, Finn, – fru Lien deyir, az qala gözlərini bərəldir. Mən adamlar içində qızarıb pörtürəm, çörəyi götürüb, Lindanın da qolundan dartıb bayıra çıxırıq.

– İndisə bunu sadəcə evə aparırsan, vəssalam, özü də təkcə, – ciddi səslə


e-kitab.org

Lindaya deyirəm, hiss edirəm ki, qulaqlarımın dibinəcən qızarmışam. Amma o aparmaq istəmir, çörəyi iki əlli sinəsinə sıxıb, elə bil ki, əlindən qaçacaq.

– İndi get, mən arxanca baxıram, 8 nömrəli bloku keçənə qədər baxıram.

Xeyli aşağı-yuxarı danışandan sonra o gedir, həm də arxaya baxa-baxa, Traverveynlə üzüaşağı. Üzünü də qabağa çevirmir. Sanki öz dünyası ilə mənim dünyaının sərhədində dayanıb. Başlayır vurnuxmağa, mənə sarı boylanır. Görürəm ki, ayrı əlac yoxdur, yenə ardınca gedirəm, birlikdə evə gəlirik. Evdə radioya qulaq asa-asa, zümzümə edib corabları yığan Marlinə deyirəm:

– Bir az aydın yaza bilmirsiz bunu?

– Nədən danışırsan?

– Bu kağızı!

Yazdığı kağızı Marlinə göstərib izah edirəm, amma Marlin elələrindən deyil ki, nə iləsə hövsələdən çıxarasan, hətta öz cızma-qarasını olsa da.

– Niyə fru Lienə demirsiz ki, oxumağı öyrənsin?

– Marlen deyir. – Yeyib enlənə bilir...

Gözlərimi yumub bir düzənlik, düzənlikdə kiçik bir alma ağacı təsəvvür edirəm. Yenə gözlərimi açıb çörəyi sinəsində az qala hamarlamış Lindaya deyirəm:

– Sabah yaddaş kağızını səndən alıram, sənsə nə almaq istədiyini dilnən deyəcəksən, başa düşdün?


e-kitab.org

Hər şey bir yana, bu həmin yaz idi ki, qoca, təkgöz qarı Rubi Haqandakı daxmasından yox oldu, pəncərəsindəki son işıq da söndü. Odur ki, biz uşaqlar da ordakı çəpərləri sökə bildik, ağaclara dırmaşıb, yerdəki taxta-tuxtanı yandırdıq, köhnə daxmanın üstünə son həmləyə keçdik. Pəncərələri qırdıq, qapıları sındırdıq, olmayan şeyləri də oğurladıq – axı onsuz da o, dibsiz göylər kimi bomboş idi, iki buldozer bir saat içində o daxmanı yerlə yeksan elədi.

Burada təzə uşaq bağçası salınacaq, ticarət mərkəzi, bərbərxana, İrma supermarketi, foto mağazası, balıq və ayaqqabı dükanı tikiləcəkdi, çünki bu peyk-şəhər hər şeyi udurdu, indi şəhərin mərkəzini ələ keçirməkdə idi. Yaşayış binaları addım-addım yeriyirdi, maşınlar, uşaqlar, yollar, səs-küy... Ayaq basmağa yer yox. Kristian deyirdi ki, bircə yol qalır – cəhənnəmə getmək. Yeri gəlmişkən, Kristian hələ ki, köçməyib, hələ heç nə aydınlaşmayıb, o, qış paltosunu plaşla əvəz edib, təzə çəkilmiş kəsə yolda gəzişir. Həmin yol ki, altı aya yaxındır ki, çəkir. Bəlkə onun müvəqqəti gördüyü bu qazıntı işləri daimi olacaq?

Daha bir məsələ: xizək gəzintisinə aparılmağımla, yıxılıb əzilməyimlə anamın barışmadığı o gün saat doqquz yoxsa on bir idi?

Qoca Rubinin daxmasından çıxarılmalı olan axırıncı əşya qədim bir piano idi.


e-kitab.org

Daxmanın içində gizli bir xəzinə vardı. Səs. Biz bu səsi uzun illərdi ki, eşidirdik, payızın toranlığında hündür palıd ağaclarına çıxırdıq, əlimizdəki fənər işığıyla gizlicə içəri girir, təkgözü əhatəyə alırdıq. Amma həmin səs bizi saxlayırdı. Traverveyndə heç kimin pianosu yoxdu. Yalnız burada, bu qədim evdə vardı. Pianonu başdan ayağa ağ geyimli dörd güclü adam aparırdı. Dördü də bir yaşda, bir boyda idi, saçları eyni rəngdə, dördü də qara eynəkdə idi. Qısa, boz saqqalları vardı, onlar eyni bir ordunun əsgərləri kimi, bir ailənin dördəm əkizləri kimi idi. Onlar bu parlaq, qara möcüzəni gözəl, sakit bir rəqslə aparırdılar. Biz yerimizdə quruyub baxırdıq. İlk dəfə onda bildim ki, illər uzunu biz – hər yaşda olan otuz-qırx, əlli, altmış... uşaq – nəyi eşitmişik. Bu musiqini 183 uşaq uzun illər ərzində eşitmişdi, bilirdilər ki, bu səs haradan gəlir. Amma bunu yalnız o səs batanda, öləndə bildik. İndi biz məzara aparılan tabuta son borcumuzu vermək üçün dayanmışdıq.

– Orada çox uşaq olmaz, yəqin, hə? – anam soruşdu.

– Çox idi, – dedim. – Saydım, yadımdadı.

– Yadıma salma bir də, Finn.

– Onda Lindadan soruş.

– Dedim ki, demə. Yadıma salma!

Bir əli ilə gözlərini tutdu. Üç qabırğamın sındığı məlum olan gün səhər-səhər də belə eləmişdi. Elə onda başa düşmüşdüm ki, o



e-kitab.org

daha mənim sözlərimə dözmür, mənim deməli olduqlarımı eşitmək istəmir. O mənə dözmürdü, səbəb nə ehtiyac, nə qəfil ölüm, nə itirdiyi sevgi, nə bizə ilişmiş bu kirayənişin, nə də özünə qapanmış bu Linda idi. Səbəb mən idim. Başa düşdüm ki, axşam piano ilə vidalaşmağa düzülən 183 nəfər uşaqdan danışanda o mənə qulaq asa bilmirmiş, çünki bu uşaqlıq əlaməti deyildi, bu, düşkünlük, ümidsizlik əlaməti idi.

– Yaxşı, doğrudanmı, o, royal idi yoxsa piano? – anam əsəbi soruşdu.

– Bunun əhəmiyyəti yoxdur, – dedim və evdən çıxdım.


e-kitab.org

# 10

Sonra bir məktub gəldi. Üstündə karandaşla və tələsik xətlə ünvanımız, adımız yazılmışdı. Məktub Sajen klinikasından gəlmişdi. Əvvəllər məktəbimizdə tibb bacısı yox idi, mən də bir neçə dəfə oraya həkim müayinəsinə getmişdim. İndi Lindanın növbəsi idi. Anam istəyirdi ki, məni də oraya aparsın, həkimə göstərsin. Zarafatla deyirdi ki, bu bir "qabırğa müayinəsi"dir. O mənim bu cür yıxılıb qabırğalarımı sındırmağımla barışmırdı. Kim xizək gəzintisində üç qabırğasını sındırır ki? Bir də ki, o, Sajen klinikasındakıları həkimləri tanıyırdı, yalnız şəhər kənarı qəsəbədə iş təcrübəsi olan Doktor Locdansa onlara daha çox inanırdı.

Demək, həqiqəti bilməyin vaxtı çatmışdı. Tibb bacısı Amundsen dedi ki, Linda nəsə hərəkətlərini idarə edə bilmir, fikri özündə deyil, ləngdir...

– Ləng? – anam təəccübləndi. Fru Amundsen fikirli-fikirli başı ilə təsdiq etdi. – Bunun onun dizi ilə bir əlaqəsi varını? – anam soruşdu.

– Dizilə? – fru Amundsen də təəccübləndi. Fru Amundsen ucaboy, qoca bir qadın idi, məktəbimizin bufetində işləyən fru Lund kimi ağ xalat geymişdi. O, dünyaya dörd uşaq gətirmişdi, iki müharibədən keçmişdi, çox şey görmüşdü. Amma o da mavi çamadandakı məktubda Lindanın xəstəliyi və dizi ilə bağlı bir şey görə bilmirdi.


e-kitab.org

– Bəli, bilirsiz, qız buna görə dərman da qəbul edir,
– anam təkidlə dedi.

– Dərman?

Anam bir anlığa bilmədi ki, başı ilə təsdiq etsin ya başını bulasın, son anda heç birini etmədi.

Fru Amundsen əməliyyat stoluna oxşayan, uzunsov kağız üzərində oturdulan Lindanın üzərinə əyildi, onun ayaqqabılarını çıxartdı, kalqotkasını aşağı endirib iri əllərilə onun sol dizini yoxladı.

– Ağrıyır?

Linda ehtiyatla başını buladı.

– Bəs indi?

Linda bu dəfə başını çox buladı. Fru Amundsen onu götürüb yerə qoydu, dedi ki, o yana, optometrik cədvəl asılan divara tərəf getsin, oradan geri qayıtsın, sonra yenə müşəmbəli qapıya qədər gedib yenə qayıtsın. Soruşdu ki, adı nədir. Amma Linda cavab vermədi, baxışları ilə anama tərəf dönüb baxdı. Anamdan razılıq alıb adını dedi.

– Linda? Yaxşı addır, neçə yaşın var?

Linda yenə anaının baxışlarını axtardı. Elə bil gərək anam icazə verəydi.

– Altı.

– Demək, payızda məktəbə gedirsən?

Linda başı ilə təsdiq etdi.

– O artıq hərfləri bilir, – dedim.

– Doğrudan? Yaxşı, bu hansı hərfdir?

– G, – Linda dedi.

Fru Amundsen razılıqla başını tərpətdi,



e-kitab.org

stuluna söykənib anama baxdı.

– Ona hansı dərmanı verirsiz ki?

Anam dərmanın adını dedi.

– Yuxusu necədir, yaxşı yatırmı? – Fru Amundsen soruşdu.

Anam başı ilə təsdiqlədi.

– Çox yatır?

Anam yenə başını tərpətdi, dodağı altda öz-özünə dedi:

– Hə, demək olar ki.

Fru Amundsen gülümsündü, dedi ki, gözləyin və özü çıxdı. Anam Lindanın kalkotqasını çəkdi, ayaqqabılarının bağını bağlamaq istəyəndə o dedi:

– Mən özüm bağlaya bilirəm, – Linda deyib ayaqqabılarını bağladı.

– Bilirəm, bağlaya bilirsən, yavrum, amma indi qoy mən bağlayım.

Anam ayaqqabının bağlarını dartıb bərabər saxladı, sonra Milad hədiyyəsinin bantı kimi bağladı. Sonra qəfildən Lindanı oturduğu yerdə, bürüşük kağız üzərindəcə ağuşuna basdı. Elə bil Atlantik okeanını - qucaqlayırdı. Bax, elə o anda bildim ki, üç qabırğamın sirri yenə də açılmayacaq.

Tərəzinin üstünə çıxdım, çəkimi ölçdüm, divarın qabağındakı üçbucaq dəmirin altında durub boyumu yoxladım. Anaının mənimlə işi yox idi, o, Lindanı qucaqlayıb saçlarını öpür, əzizləyirdi, elə bil kimsə onu götürüb qaçacaqdı. Uzun, nazik ayaqlı, seyfə oxşayan ağ bir şkafın qapısını açdım. Şüşə rəflərdə kiçik qablar qoyulmuşdu, onlardan birini götürüb



e-kitab.org

çalxaladım, sonra ağzını açmağa başlayanda anam əlinin asta hərəkətilə işarə etdi ki, toxunmayım.

Onda mən şüşənin ağzını yenə bağladım, şkafın qapısını örtdüm, pəncərənin yanında, divardan asılmış göstərici çubuğu götürdüm. Yavaşca anaının əlini kənar edib diaqramdakı hərfləri göstərdim. Hərfləri bir-bir göstərir, Lindaya deyirdim ki, adını desin. Bir azdan fru Amundsen əvvəllər tanımadığımız cavan bir adamla qayıtdı. Gələn adam hamımızla mehribancasına görüşdü, Lindaya dedi ki, Fru Amundsenin ardınca otaqda o yan-bu yana getsin. Sonra o, anamı o biri otağa dəvət etdi. Dönüb çiyninin üstündən:

– Qoy uşaq burada qalsın, – dedi.

Biz qalıb gözlədik.

Fru Amundsen bizə Donald Dakın köhnə bir nağılını verdi, mən hündürdən oxudum. Sonra bizi gözləmə otağına çıxardı, çünki həkimin yanına təzə adamlar gəlirdi. Bir azdan gəlib bizi yenə içəri apardı, kiçik dəri müşəmbəli divanda oturtdu. Bu, əslində böyük bir kreslo idi, fru Amundsen onda oturub gündəlik müayinə kağızlarını yazırdı, çünki onları sonraya saxlamaq olmazdı.

Anam qayıdanda elə bil fikri bizdə deyildi. Kosmetikası bir az köhnəlmiş, gözləri qızarmışdı. İti uclu pero ilə üç formanı imzalayandan sonra Lindanın əlindən bərk-bərk tutdu, lap elə Linda ilk dəfə avtobusla bizə gələn gün tutduğu kimi.


e-kitab.org

Bayıra çıxana qədər heç kim dinib-danışmadı, günün gur saatında küçədə-səkidə nəqliyyatın nəriltisi aləmi başına götürmüşdü, yalnız indi başa düşdük ki, o naftalin ocağında necə də sakitlik-asudəlik imiş.

– Yaxşı, – anam güclə eşidiləcək bir səslə, özü ilə danışırmış kimi dedi. – Demək, belə. – O, yuxarı-aşağı boylandı, ətrafı gözdən keçirdi, sanki gedəcəyimiz səmti müəyyənləşdirmək istəyirdi, Linda ilə mənsə ona baxır, nə baş verdiyini bilmək istəyirdik.

Sonra anamın çoxdan tanıdığı qəssab dükanına gedib bir az donuz əti, bir az da doğranmış mal əti aldıq, anamın uşaqlıqdan tanıdığı çörəkçidən çörək aldıq. Fikir verirdim, anam piştaxtanın arxasında dayanmış qadınla bərkdən danışırdı. Satıcı qadın mənə də, Lindaya da pirojna verdi. Sonra trolleybusa mindik, yolda düşüb Karl Berners meydanına gedən Tonsenhaqen avtobusuna mindik. Orada, "Proqres" fabrikinin yanında duran maşından araxis aldıq. Nəhayət, evə gəlib çatanda dadlı donuz əti sousu yeməli olduq – bizim evdə bu bir vərdişdir, yaxşı yemək varsa, bu o deməkdir ki, böhran qurtarıb, təhlükə yoxdur.

Amma bu dəfə işlər tərsinə oldu.

Axşam Lindaya heç bir dərman vermədik. Anam iki dolu butulka dərmanı tualetə boşaltdı, reseptləri kran maşinistinin və özünün xoşbəxt illərinin


e-kitab.org

şəkilləri saxlanan siyirməyə qoyub möhkəm bağladı. "Qoy sübutum olsun" – Linda yatandan sonra dedi. Onu da dedi ki, ola bilsin qarşıdakı günlərimiz bir az ağır oldu.

– Avamlıqdan pis şey yoxdu, Finn, – o əlavə etdi.

– Sənin anan da avam və axmaq olub. Axmaq, kar və kor. Heç nəyi görməyib, bilməyib. Bilirsən, adamlar nədən avam, axmaq olur?

– Eee, yoox...

– Qorxudan. Ona görə də, sən heç vaxt qorxmamalısan, oğlum. Dərs buraxmadan məktəbə getməlisən. Söz verirsən mənə?

Hə, əlbəttə, başqa cür heç ağlıma da gəlməyib. Anam da ki, utanan-qısılan adamlardan deyildi. Burası var ki, o, qaranlıqdan qorxurdu, hətta xeyirxahlıq eləyib Lindanı ailəmizə gətirəndən sonra da heç vaxt özünü rahat hiss etmirdi. Bəs indi nə baş verirdi? İndi nə olmalıydı?

– Bilmirəm, – anam dedi. – Görək indi nə olacaq.

Biz elə həmişə belə eləyirdik – gözləyirdik, görək nə olacaq. Hər şey ondan başladı ki, gecə yarı gördüm ki, Linda çarpayımın yanında durub. Dedi ki, oynamaq istəyir. Sonra tualetə getmək istədi, sonra da nəsə yemək istədi. Amma hərəkətsiz qala bilmirdi, odur ki, qonaq otağına qaçıb nəsə gətirməyə getdi, amma nəyi, bilmirdi. Nə axtarırdı, bilmirdi. "Oyy!" deyib mətbəxə qaçdı, orada ona nəsə oldu, geriyə qaçıb gəldi, üç otaqlı evimizin (birini


e-kitab.org

kirayənişinə vermişdik) balaca döşəməsində ora-bura yüyürməyə başladı. Birdən o titrəməyə başladı, stula toxunub onu yıxdı, özü də yıxıldı, əl-ayağını oynatınağa başladı. Anam onu bərk-bərk tutdu, qucağında möhkəm saxladı, gətirib çarpayıya uzatdı, sakitləşdirdi. Mən qonaq otağına qaçıb televizorun arxasında oturdum, əllərimlə qulaqlarımı tutdum. Bilmirdim, ölmüşəm ya diriyəm, tüklərim biz-biz olmuşdu, qışqırırdım, burnuma Bakelit mastikasının və hind palıdı ağacının iyi doldu. Mən Çin simvolları haqqında oxumuşdum, onlarda guya elektriki işlətmək gücü var, amma səsi batıra bilmirlər. Nəhayət, səhərə yaxın qonaq otağının iri pəncərəsi işıqlandı. Anamın səsini eşitdim, qışqırıb deyirdi ki, yaxşı olar ki, çıxıb məktəbə gedim.

Naharsız-zadsız məktəbə getdim.

Yaxşı ki bu gün dörd dərsim vardı, evə qayıdanda heç nə dəyişməmişdi, anam Lindanı qucaqlayıb çarpayıda uzanmışdı. Linda qıvrılır, qıc olurdu, sifəti ağarır, göyərirdi. Linda çox qusmuşdu, hər yanda qusmaq iyi gəlirdi. Ağlamırdı, qışqırmırdı, elə bil öz içinə çəkilmişdi. Amma bildim ki, Marlin gəlib, baş çəkib evə, çünki stolun üstündə yemək vardı. Yeməkdən sonra bilmədim necə eləyim – bunlara sakitcə baxım yoxsa yenə içimdə yanım, tüstülənim. Qapının o üzündən anaının qışqırığını eşitdim, açınağa qorxdum. Qorxdum ki, elə bir şey görərəm ki, bir də heç vaxt


e-kitab.org

yaddaşımdan silinməz. Ona görə də bir az televizora baxıb qonaq otağında yatdım.

Amma gecə də sakit ötüşmədi.

Ertəsi gün səhər saat altıda Kristianın səsini eşitdim, bizim tərəfə keçib soruşurdu ki, nə olub, nə baş verir. Dərhal da anam onu acılayıb qovdu.

– Sizə dəxli yoxdur, gedin öz otağınıza! – anam qışqırdı. O bunlara necə dözürdü? Lindanı qucağına alıb qəribə, heç vaxt ondan eşitmədiyim sözlərlə sakitləşdirirdi, hey deyinir, lənətləyirdi, amma faydası olmurdu.

Nəhayət, Lindanı yuxu apardı, anam məni məktəbə göndərdi. Əlindəki yemək bükülüsünü mənə verib fikirli-fikirli qucaqladı, özünü güclə saxlayırdı ki, bir şey deməsin. Mənə deyirdi ki, güclü ol, sanki Lindanın içində nəsə çox dəhşətli şeylər baş verirdi, kimsə bundan xəbər tutsaydı bunlardan daha qorxulusu başımıza gələcəkdi.

Mən gedərkən Marlin gəlib çıxdı. O isə avam deyildi, heç vaxt da avam olmamışdı, gəlib bütün günü anamın yanında qaldı, həmin gün heç işə də getmədi.

Həmin axşam Linda cəmi iki saat yatdı, mən yatmağa hazırlaşanda isə həngamə yenidən başladı. O vaxta qədər anam da azacıq yata bildi. Qulaqlarıma pambıq taxıb qonaq otağında uzanmışdım, canıma vicvicə düşürdü, çünki yataq otağında hay-küy səsləri gəlməkdə idi. Marlin çarpayımın kənarında oturub necə olduğumu soruşana



e-kitab.org

qədər gözümü açmadım.

– Necəsən, Finn?

– Saat ondur?! – deyib birdən gözlərimi açdım, çünki mənə elə gəlirdi ki, işlər yenə yaxşı deyil.

Amma yox. Mən qan-tər içində idim. Sakitlikdi, hər şey yerindəydi, işıq yanırdı. Sajendə bizi müayinə edən həkim otağın ortasında dayanmışdı. Paltoda idi, amma şlyapasız. Nəsə anamı mehribanlıqla məzəmmət edirdi. Anam bir az kosmetika vurmuşdu, görünür, işə hazırlaşırdı. Həkim ona deyirdi ki, bu məsələdə o istədiyini edə bilməz. Yəqin, bu sözlər nəsə deməkdi, mən bilmirdim. Anam dedi:

– O uşaq heç bir yerə getməyəcək!

– Mən sizin hərəkətinizi qiymətləndirirəm, amma...

– O bu evdən heç vaxt heç yerə getməyəcək. Heç vaxt!

Doktor bir də “yox!” dedi, paltosunu soyunub Kristianınkının yanında asdı, guya ki, o da burada yaşayırdı. Ehmalca anamın qolundan tutub mətbəxə sarı çəkdi. Onu stula əyləşdirib əllərini, qollarını müayinə etməyə başladı. Anamın əl-qolu elə bil göyərib-qızarmışdı, mənə elə gəldi ki, diş yerləridi.

Linda da mətbəx solunun arxasında əyləşmişdi, səhər yeməyi yeyirdi, kakao içirdi. Çay qaşığını kakaonun içində oynadır, utana-utana gülümsəyirdi. Anam qəhqəhə çəkdi, nədənsə elə bildim, anam ölür. Elə bu anda Marlinin əlini alnımda hiss



e-kitab.org

etdim. O məni stola aparmaq istəyirdi. Bir azdan Marlinin doğradığı çörək dilimləri qoyulmuş boşqabın qabağında idim. Nədənsə yadıma düşdü ki, Marlin bu çörəkləri doğrayanda, yağ yaxanda, yəqin ki, "Sən o oğlanı əldə edə bilərsən" mahnısını oxuyub. Bir çörək dilimi götürüb ehtiyatla dişlədim.

– Linda xəstələnib, – Linda dedi.

– Mən də xəstələnmişəm, – əsnəyib, yeməyi çeynəyə-çeynəyə dedim. Yanımda oturan həkim işini qurtaran kimi hamının nəzəri mənə dikildi. Anam ayağa durmuşdu, vanna otağına keçdi ki, əl-üzünü yusun, kosmetikasını təzələsin. Bir azdan qayıtdı, gözlərini qıyıb doktora, işığa baxırdı. Soruşdu ki, bu cür işə gedə bilərmi.

– Məndən soruşursuz? – həkim gülümsündü.

– Daha kimdən soruşmalıyam ki? – anam dedi.

– Elə isə, hə, əlbəttə, əgər mütləq getməlisizsə. Mən apara bilərəm sizi.

– O, işə getməyəcək, – Marlin dilləndi. Anam əzgin, mənə tərəf yarı çevrilmiş halda başı ilə nəsə anlaşılmaz bir hərəkət etdi, guya ki, mən görməyəcəyəm. Doktor, görünür, nəzərlərimi tutdu, mənə sarı əyildi, boşqabıma, yeməyimə baxdı, iri ağzı ilə soruşdu ki, dünənki ev tapşırıqlarımı yerinə yetirmişəmmi. Dedim ki, yerinə yetirmişəm. "Çox yaxşı" – dedi, sonra soruşdu ki, sinfimizdə neçə şagird var...

– Qarışıq sinifdə oxuyursan? Hə, belə


e-kitab.org

de. Sinfinizdə qəşəng qızlar varmı?

– Var, adı Tanyadır, – Linda tez dilləndi. Doktor gülümsündü, mənsə fikirləşdim ki, görən, doğrudanmı ev tapşırıqlarımın hamısını yerinə yetirmişəm. Xatırladım, hə, əlbəttə, himnin mətnini əzbər bilirdim, oxu - kitabından bir parçanı da öyrənmişdim. Bu parça Halvor[11] haqqındadır. Halvor bir dəfə evə gəlir, kefi də yoxdur. Tapşırığın məqsədi bu deyildi, mən bunu özüm bilirdim. Müəllim tapşırmışdı ki, biz həmin parçanı öz sözlərimizlə yazaq, ona öz təsəvvürümüzlə əlavələr edək. Mən də yazmışdım. Yazdığımı danışdım. Heyada nə baş verir, xəstə at meşədə yıxıldıqdan sonra niyə ayağa qalxa bilmir, baytar həkimi necə bildi ki, ata bir az su vermək lazımdır, at sonra necə cana gəlir, silkələnir, ayağa durur. Qəribədir, hamı maraqla qulaq asır, gülürdülər. Anam da. Beləcə, hekayəmi bitirməli oldum, südümü içib məktəbə getməli idim. Amma saat on birə az qalırdı.

– Bu gün evdə qala bilərsən, Finn, – anam dedi.

– O nağılı mənə bir də danış, – bu, Lindanın səsi idi.

11 Norveç xalq nağıllarının qəhrəmanı



e-kitab.org

# 11

Yay tətilidir, Arvolldun küçələrində sakit və mülayim bir hava var. Hiss edirəm ki, Lindaya ağaca çıxmağı öyrətməliyəm. O daha yüksəklikdən qorxmur, bir az arıqlayıb, bir azca da boyu uzanıb. Şişirtmək istəmirəm, dəyişiklik olanda şişirtmək asandır. Hər şeyə addım-addım gedirik. Hər cür vəziyyətə, lap pisinə hazırlaşırıq, əgər işlər tədricən yaxşılaşsa, məsələn, oturub bütün gecəni televizora baxarıq, təki Lindanın tutmaları olmasın, anam isə ömrünün keçən günlərini xatırlasın.

Amma Linda çox dözümlü olub. Paltarları blokumuzun qabağında qurumağa asanda hərdən paltar qurudan tirlərdə nəinki asılır, tirdən asılıb beş-altı dəfə yellənir də, yorulanda qollarımın üstə düşür. Linda mənə inanır, mən onu tuturam, mənə inananda xoşum gəlir.

– Belə qıdığım gəlir, – o deyir.

Dəmir skamyanın üstə çıxıb tirə qalxmaqda ona kömək edirəm. Çıxıb birinci və ikinci bloklar üçün qurulmuş tirlərin üstə oturur, dörd-beş dəqiqə zivələrdən asılır, qorxu-zad bilmir. Günlər bizim ixtiyarımızdadır. Elə Birinci Fredinin də. O da tətildə heç yana getməyib. Amma bədənli-cüssəlidir, ağırdır, tirin üstünə dırmaşa bilmir. Tirdən asılanda bütün tiri tərpədir, yellənəndə o biri tirlər də fırtınaya düşən yelkənli gəmi kim yırğalanır. Linda tirin üstündə olanda o, beton plitə üzərində


e-kitab.org

arxası üstə uzanır, əllərini başının arxasında daraqlayıb Lindaya deyir ki, ordan onun qarnı üstə atılsın. Linda qorxur.

– Tullan, – Birinci Fredi deyir. – Əzilmərəm, mənə heç nə olmaz.

Linda ölçüb-biçir, mən başa düşürəm ki, Birinci Fredi o yerdə uzanır ki, aşağıdan baxanda sarı güllü paltar geymiş Lindanı görsün. Linda qarnı üstə tirin üstündən sürüşür, çünki daha dayana bilmir. Linda dediyim kimi eləyir, metrə yarımlıqdan səndəlləri ilə düz Birinci Fredinin qarnı üstə düşür. Fredi öskürür, qıp-qırmızı qızarır. Elə bu zaman anam gözündə günəş eynəyi, bomba sığınacağından çıxıb bizə sarı gəlir. Əlində bir şezlonq, iki qadın jurnalı var.

– Uşaqlar, nə işlə məşğulsuz? Finn, nə iş görürsüz?

Birinci Fredi məni müdafiə etməyə hazır idi – üz-gözündən görürdüm, amma səsini çıxarmadı. Anam tez onun yanına qaçdı, kömək edib qaldırdı, üstündə paltar zənbilləri qoyulan dəmir skamyada oturtdu. Sonra təşvişlə ətrafa baxındı ki, görsün, Birinci Fredinin anası pəncərədən ya da balkondan baxıb eləmir ki, bunları görmür ki. Amma Birinci Fredinin anası görünmürdü, demək, baş verənləri görmürdü, yəqin ki, yatırdı. Fredinin atası tikinti sahəsində idi, böyük bacıları da yay düşərgəsinə göndərilmişdi. Birinci Fredi düşərgəyə getmək istəməyib evdə qalmışdı. Onu incidənlərin, ona sataşanların heç biri buralarda olmayanda o burada qalmaq,


e-kitab.org

rahat gəzmək istəyirdi. Qoy hansı cəhənnəmdə olur olsunlar, bu, Birinci Fredi üçün bayram olardı.

Anaının xəbərdarlığından sonra şezlonqu yığıb bağlamada ona kömək etdik. Bu bir az vaxtımız aldı. Sonra bir az topla oynadıq, darıxdığımız göstərmək üçün otlar üstə necə gəldi sərildik. Anam bunu görüb dedi ki, doğrudanını yaxşı bir şeylə məşğul ola bilmirik.

Biz Traverveyendən keçib Haqana tərəf qalxdıq, gözdən-qulaqdan uzaq bir yerə gəldik. Orada hamının, hətta Linda kimi balacaların da əlinin çata bildiyi palıd ağacının budaqları yerə sallanırdı, hətta Birinci Fredi də buradan ağacın gövdəsinə dırmaşa bilərdi. Gövdənin qurtardığı yerdə çoxlu budaqlar şaxələnib ətrafa açılmış, bir yerdə sanki meydança düzəltmişdi. Möhkəm palıd budaqları arasında dörd-beş, hətta altı uşaq rahat otura bilirdi. Bir dəfə həmin bu yerdən Birinci Fredi İkinci Fredinin başına işəmişdi, çünki İkinci Fredi biz oturduğumuz yerə çıxa bilməmişdi.

Oturduğumuz yerdən görürdük ki, qızmar havanın ilğımları şəhərin mərkəzini bürüyüb. Disendəki təzə binalar, Trondheymsveyn və bizim binalar da bürküdən az qala görünməz olmuşdu. Küçələrdə adamlar görünmürdü, otu biçilmiş qazonlara qulluq edənlər də yox idi. Bəs Oslo şəhər parkları, bağları? Yəni, oralarda da heç kim yox idi? Adamsız tikililər? Yoxsa haradan gəlmişdilərsə oraya


e-kitab.org

da çıxıb gediblər? Gəlmişdilər ki, uşaqlarına ot qurutmaq, balıq tutmaq, avar çəkmək, ağaclara dırmaşmaq öyrətsinlər, sonra da çıxıb getsinlər? Essi maşınla dağlardan keçib Romsdalen vadisinə getmişdi, Vatten – Solora, Rocer də şimal tərəflərə. O biriləri – Hudoy Ayelend yay düşərgəsinə gedənlər isə, yəqin ki, indi ağızlarını açıb əsnəyir, Haqandakı evləri üçün darıxırlar. Biz də ki burada... Oturub bu başgicəlləndirici dünyaya baxırıq, ləzzət alırıq. Amma buraların sakinləri yoxdur. Qəribə vaxtdır bu yay, sirli-müəmmalı bir vədədir, lap elə qış kimi.

Amma bu yay adi bir yay olmayacaqdı.

Hər şeydən qabaq, Linda vardı, Birinci Fredinin bir çox işdəklərinə son qoyan Linda. Birinci Fredi qəribə şeylər təklif edirdi: binanın zirzəmisindən ya da çardaqdan heç bizə gərək olmayan nəsə bir şey oğurlayaq, məsələn, bir kilo un, ayaqqabı mazı, oyuncaq avtomatlarda patron kimi işlətmək üçün noxud ya da Trottinq Stadionundan boş butulka yığıb sataq, dondurma alaq. Mənsə Lindanı belə yerlərə apara bilməzdim.

İkincisi, biz həmin axşam evə gələndə Kristian mətbəx mizinin arxasında oturmuşdu. Əynində xeyli böyük xaki rəngli şort, eyni rəngdə, ondan da böyük köynək vardı, lap klassik əsərlərdəki Doktor Livinqstona oxşayırdı. Qollarını çırmalamışdı. Görəsən, biz gəzməyə gedəndə onun çadırını istəsək, verəcəkmi,


e-kitab.org

deyə fikirləşirdim.

– Siz hələ bir deyin, görək nə olur, – anam dedi. Bizsə sakitcə yerimizdə oturduq. Təəccüblü idi, Linda xəstələnəndən bəri Kristian yoxa çıxmışdı, indi hardan gəlib tapıldı, bilmirdim. O vaxtdan təxminən iki ay keçmişdi.

Kristianın, doğrudan da, bir çadır evi vardı, özü belə deyirdi. Oslo yaxınlığındakı Naoya adasında. Çadır bütün yayı orda olurdu. Kristian həftə sonu qayıq götürüb ora gedirdi.

– Çadır evi?

– Hə, altı nəfərlik çadırdı, talvarı da var.

İstədim soruşam ki, altınəfərlik çadır subay bir adamın nəyinə gərəkdi, Kristian ağzımı açmağa imkan vermədi.

– Elə xüsusi bir şey deyil. Ucuz almışam, bir az yanıq yerləri var, – dedi.

Anam gülməyə başladı.

– Yanıq yerləri demək olar ki, heç bilinmir, – Kristian israrla dedi. Amma çadırın çox da baha olmamağı onu bizə verməyə imkan yaradırdı və Kristian, doğrudan da, onu bizə inadla təklif edirdi.

– Bəs siz özünüz oralara getməyəcəksiz?

– Yox, getməyəcəm. Çadır onsuz da qalıb orda, mən də səhərdən sizə bunu demək istəyirəm. Qapısı bağlıdır, bu da açarı.

Ciblərini eşələyib balaca bir açar çıxardı. Daş-qaş qutusunun açarı kimi balaca. Açarı hamımıza göstərdi, sonra



e-kitab.org

mizin üstünə qoydu.

Heç açar da yanıb eləməmişdi, par-par parıldayırdı. Elə parıldayırdı ki, lap bu saat getmək istəyirdik.

– Onda Birinci Fredi də bizimlə gedəcək! – qışqırdım.

– Dayan görək, Finn. Biz adaya, çadıra-zada getmirik...

– Niyə yox? – Kristian dilləndi. – Siz orada uzanıb günəş vannası qəbul edə bilərsiz... elə burdakı kimi.

– Söhbəti qurtardıq.

– Siz gündə yaxşı qaralmısız, bu, sizə yaraşır

– Dedim, bəsdir.

– Uşaqlara da təmiz hava lazımdır...

– Çadır? – Linda öz-özünə deyib balaca açarı götürdü, o üz-bu üzə çevirib baxdı, sonra süd stəkanına saldı.

– Linda!

– Birinci Fredi heç vaxt tətilə getməyib! – qışqırdım. – Bu heç yaxşı olmaz!

– Ona niyə "Birinci Fredi" deyirsiz?

– Onun adı belədir.

– Linda, açarı mənə ver.

Linda əlini stəkana salıb açarı axtardı, tapdı, sonra anama verdi. Anam onu sildi, əllərini də dəsmalla qurulayıb başını buladı. Sonra dayanıb açara diqqətlə baxdı. Milad bayramında ona hədiyyə verilən qızılı dovşan fiquruna da belə baxmışdı. Sonra gördüm ki, ayaqqabı dükanındakı geyimini geyir.

– Orada yatmaq üçün kisələr də var,


e-kitab.org

hə? – fikri dağınıq halda dedi.

Kristian bunu da nəzərə almışdı. O hər şeyi ölçüb-biçmiş, heç nəyi unutmamışdı. Dediyinə görə, altı açıla bilən, yaşıl rəngli, brezent bir vedrə də qoymuşdu burda, onunla yaxınlıqdakı su kranından su gətirib çadırın yanındakı şam ağacından asıb yuyuna bilərdik. Vedrəni bir az hündürdən asanda gün altında qızmış suyu açıb altında durar, duş qəbul edərdik. Yəqin, ləzzət verərdi.

Amma indi anama elə gəlirdi ki, bütün bunlar nəsə çox düşünülmüş şeylərə oxşayır, yəni, Kristian bunu bizimlə qaynayıb-qarışmaq üçün eləyir, necə ki, televizorunu ümumi istifadəyə vermişdi, ərzaq alıb gətirmişdi, qızılı dovşan fiquru bağışlamışdı. Hələ şahmat qutusu da almışdı, mən istədiyim vaxt alıb oynayırdım. Şahmat taxtası elə indi də stolumun üstündə idi.

– Fredi də gəlir! – mən təkidlə dedim. – Yoxsa mən onsuz getmirəm.

– Başlama yenə! – Kristian dilləndi, elə bil bu saat yumruğunu stola çırpacaqdı.

– İndi bunu necə başa düşək? – anam dedi. Məni tərəfimi saxladığı aydın görünürdü.

– Lap dəstə oldu ki, – Kristian deyib ayağa qalxdı, enli xaki paltarını yellədə-yellədə qapıya tərəf yönəldi.

– Hirslənib, – Kristian qapısını örtən kimi Linda dedi. Anam oturdu, biz də mizin üstündən biri-birimizə baxdıq. Balaca açar,


e-kitab.org

Kristianın yarımçıq yediyi çörək dilimi elə bil dil açıb danışırdı. İndi biz bir-birimizə daha canıyananlıqla baxırdıq. Anam üzünə tökülmüş saçlarını kənar eləyib köksünü ötürdü:

– Nə baş verir? Onun istədiyi odur ki, yanmış çadırını bizə icarəyə versin?!

Biz hələ belə gülməli söz eşitməmişdik, qəşş eləyib mizin üstünə yıxıldıq. Gülməkdən uğunur, dayana bilmirdik. Bəs nə etməli? Ayrı bir planımız da yox idi. Anam ayağa durdu, kirayənişinin qapısını açıb bərkdən səsləndi:

– Qayıdın, yeməyinizi yeyin, mısmırığınızı da sallamayın.

İndi işlər yoluna düşürdü. Kristian yarımçıq bir təbəssümlə qayıtdı, yerində əyləşib yeməyinə davam etdi, anam da ona qəhvə süzdü, dedi ki, biz onun təklifini, əlbəttə, qiymətləndiririk, amma elə qəfildən oldu ki, baş açmadıq, bəlkə qarşıdakı çərşənbə axşamı günü gedək, özü də bir həftəliyə.

– Yaxşı, nə deyirəm ki?

Amma mən hələ son sözümü deməmişdim.

– Birinci Fredi də bizimlə gedir! – təkrar etdim. Anamsa hələ də hirs-hikkəsinin yelkənində üzürdü.

– Yaxşı, onda elə bu saat onlara gedək, soruşaq, görək gedirmi.

O, səndəllərini geyindi, mənsə ayaqyalın onun dalınca düşdüm. Yay idi, pillələrlə düşüb həyətdəki çəmənlikdən


e-kitab.org

keçdik. Anam, görünür, fikrən götür-qoy edirmiş, çünki yolboyu Birinci Fredinin anası haqda məndən bir-iki şey soruşdu. Özü onu tez-tez görsə də, kəlmə də kəsməmişdi onunla, amma şayiələri eşitmişdi, əlbəttə.

Anamın hikkə yelkənində birnəfəsə üçüncü mərtəbəyə qalxdıq, mən qapının zəngini çaldım. Amma qapı açılmadı. Əvəzində, içəridən səs-küy eşidildi, yəqin ki, Birinci Fredi ilə anası arasında qapını kim açsın deyə mübahisə gedirdi. Qapını Fredinin anası açmalı olmuşdu.

O, qapıda göründü, sakit və xoşsimalı bir qadın idi, nə istədiyimizi deyəndə qaşlarını çatıb baxdı, dedi ki, lap yaxşı, nə olar.

– Əlbəttə, Fredi tətilə getməlidir, o heç vaxt heç yanda olmayıb.

Amma Fredi üzünü göstərmirdi. Bu mənə bir az qəribə gəldi, axı, o içəridə idi və yəqin ki, eşidirdi, qapıya kim gəlib, niyə gəlib, nə danışırıq. Bərkdən dedim ki, Fredi bizimlə həftənin ikinci günü, yəni, çərşənbə axşamı tətilə gedəcək.

– Eşidirsən? – içəriyə səsləndim.

Amma əvəzində Fredi "yox" dedi.

– Bu nə deməkdi!? – anası evin içinə tərəf səsləndi, amma durduğu yerdən bir millimetr də kənara çəkilmədi. Elə bil qapını qoruyurdu. Heç mən də, Fredinin yeganə dostu olsam da, bu astanadan içəri keçməmişdim.

– Yox, – yenidən Fredinin səsi gəldi.


e-kitab.org

Fredinin anası üz-gözünü narazı halda, həm də çox mükəmməl şəkildə və məharətlə turşudub, bir az bükülmüş çiyinlərini çəkəndə anaının təəccüblü baxışlarını gördüm. Fredinin anası nəsə dedi, yəni ki, bu uşağa deməyin xeyri yoxdu.

Amma mən geri çəkilmədim, dedim ki, biz qayıqla gedirik, böyük bir adada, çadırda yaşayarıq, dənizdə çimərik.

Birinci Fredi də geri çəkilmədi.

– Yox! – əvvəlki kimi inad etdi.

O vaxta qədər anaının artıq səbri tükənmişdi. Birinci Fredinin anası ilə tələsik, hirslə salamatlaşdı, biləyimdən tutub pillələrlə aşağı dartdı, yenə otluqdan keçib evə yollandıq. Günəş altında isinmiş zərif otlar yalın ayaqlarımı qıdıqlayırdı. Anam indi əsl üzünü
göstərəcəkdi.

– Bu nə axmaq fikirdi beyninə girib, Finn?!

Anaını belə dilə tutduğum üçün pərt idim.

– O peşman olacaq! – qışqırdım. – Qayıdaq, təzədən deyək!

– Ağlın başındadı?

– Mən onu yaxşı tanıyıram, o peşman olacaq.

– Mən sənə göstərərəm, peşman olmaq nədir?! – anamın boğuq, hikkəli səsi üzümü yandırdı, dabanı üstə fırlanıb addımlarını yeyinlətdi.

Bu, mənim planlarımı pozmaq deməkdi.

Mən az qala anaının arxasınca



e-kitab.org

qaçırdım, amma axşam bu haqda heç nə demədim, şeylərimizi qablaşdıranda da Birinci Fredinin heç adını çəkmədim. Yaxşı idi ki, Linda bu ildən məktəbə gedəcəkdi, ona təzə məktəb çantası vermişdilər. Anam çardaqdan Allah bilir, neçə müharibənin iştirakçısı olmuş köhnə bir yol çantası tapıb gətirdi, açıb içini töküşdürdü, o yan-bu yanına baxdı, amma heç xoşuna gəlmədi, aparıb çardağa tulladı. Əvəzində, "Dombas" yarlıqlı köhnə bir çamadan tapıb gətirdi.

– Düşərgəyə çamadanla getməzlər ki... – bütün gecəni televizor baxan Kristian dedi. Ayağa durub öz otağına keçdi, bir azdan əlində kətan parçadan olan bir yol çantası ilə qayıtdı. Çantanın çiyin qayışları, bağlanma yerləri vardı, şeyləri içinə yığıb kürəyində apara bilərdin.

– Mən bunu götürürəm.

– Hə, əlbəttə, – anam Kristianın əlindəki formasız çantaya baxa-baxa ehtiyatla dilləndi dedi.

Kristian adanın xəritəsini çıxarıb çadırının yerini göstərdi, yaxınlıqda olan su kranını, dükanı, iki çimərliyi və adamların daha çox yığışdığı yeri dairəyə aldı. İndi lap tələsirdik ora getməyə. Hamın gözləri parıldayırdı. Sonra Kristian qayıqların yan aldığı körpünün yanında, xəlvət bir yerdə balıq tutulan yeri göstərdi. Deyirdi ki, orada üzü üstə uzanıb balıq, yengəc tuta bilərsən. Bunları eşitdiyim zaman tüklərim sevincdən biz-biz oldu. Əhvalımı korlayan təkcə Birinci Fredi idi. Yatmağa getməzdən



e-kitab.org

qabaq pəncərə qabağında oturub fikirləşirdim ki, yəqin, indi o da pəncərənin yanında oturub, peşmandır. O görünmürdü, bax, o pəncərədən baxan oğlan indi görünmür. Heç olmasa baxsın, aşağı düşsün, görsün, şar uçursun. Elə o anda da ağlıma bir şey gəldi. Çox yaxşı bir plan deyildi, amma hətta yaxşı planlar da bir anda heç ola bilər.



e-kitab.org

# 12

Çərşənbə axşamı səhər tezdən, gün doğanda Kristianın yol çantasını avtobus stansiyasına gətirib avtobusa qoyduq. Konduktor zarafatla dedi ki, belə bir çanta üçün bilet almalı idik. Uessels meydanında düşüb yanalma körpüsünə getdik, orada bizi qayıq gözləməli idi. Amma qayıq yox idi. Çünki, aydın oldu ki, biz üç saat tez gəlmişik, çünki Kristianın vaxt cədvəli keçən ilki idi.

Burada görməli şeylər çox idi. Üzən gəmilər, yaxtalar, balıqçı gəmilərindən balıq ya da xırda dəniz xərçəngi alıb-satanların səs-küyü, çirkab rəngli sularda hoppanıb görünən balıqlar, hay-küylə fit çalıb uzaqlaşan uzun qatarlar. Qatar pillələrindən sallanan, əllərində yaşıl bayraqlar olan uniformalı dəmiryolçular... hərdən papaqlarını yellədir, o yan-bu yana keçənlərə "tələsin, o yandan keçin, qatar gəlir" – deyə çığırışdılar.

Yol çantamızı balaca divana oxşayan yanalma körpülərinin birində qoyduq, anam dedi ki, bir şey dalınca gedir, allah xatirinə, Lindaya mən göz olum, qoy, körpüdən-zaddan yıxılmasın.

– Yanında ol!

– Yaxşı, yaxşı.

Amma Lindanı necə saxlamaq haqda mübahisəmiz hələ bitməmişdi ki, anam qayıtdı.

– Baxın, kimi tapdım, – onun üzü işıq



e-kitab.org

saçırdı.

Marlin yanındaydı. Üzünə o qədər kosmetika vurmuşdu ki, əvvəlcə tanımadıq. Onun da yanında əvvəllər heç vaxt görmədiyimiz bir nəfər. Yan adlı bu adam özünü Marlinin dostu kimi təqdim etdi. Onların ikisi də uniforma geyinmişdi, Ringen Sinema-dakı şirniyyat satıcıları kimi. Yan dedi ki, onlar da buradan işə gedirlər, Akersus Fortressə tərəf.

Marlin Lindanı qucaqladı, yuxarı qaldırdı, dedi ki, o necə də böyüyüb. Əslində isə cəmi iki həftə idi ki, Marlini görmürdük, Linda bəlkə də bir millimetr böyümüş olardı.

– Finn də böyüyüb, – Marlin dedi, yəni ki, mənə də diqqət göstərdi.

Biləndə ki, bizim qayığımız hələ iki saatdan sonra yola düşəcək, onlar bizi Friluften restoranına dəvət etdilər ki, bir fincan qəhvə içək. Dedilər ki, səhər tezdən orada müştəri az olur. Onlar, görünür, daha nələrsə də eləmək istəyirdilər, Yan mənə göz də vurdu, sonra çantanı kürəyinə aldı, guya ki, bu çanta elə kürəkdə aparmaq üçün idi. Hər şey gözəl idi, biz onların arxasınca düşüb Taun Holl meydanını, dəmiryolunu keçdik, restorana gəldik. Yanın "Merin stolu" dediyi stolda oturduq, guya əvvəllər şəhər meri burada tez-tez pivə içər, siqar çəkər, camaatla mühüm görüşlər keçirərmiş. Əyləşdiyimiz yerdən bütün liman görünürdü.

Anam qəhvə, badam pirojnası sifariş


e-kitab.org

verdi, Linda ilə mən uzunsov qablarda bir aylıq dondurma planını doldurduq. Dondurma qabı elə uzun idi ki, Linda onu dizləri üstə güclə saxlayırdı. Biz özümüzlə məşğul ikən anam harasa iş dalınca getdi. Yan gəlib soruşdu ki, bizə nəsə lazımdırmı, sonra fit çalıb təzim edirmiş kimi dörd bir yana baxındı, çıxıb getdi. Hərəkətləri eynən Tor dayımı xatırladırdı.

Axırıncı dəfə restoranda haçan olmuşdum, bu dəfə heç ona oxşamırdı. Yadıma gələni, soyuq bir yanvar günündə meşədəki restoranda idi. Amma indi stolların üstünə ağ, bəzəkli örtük salınmışdı, qağayılar başımızın üstündə çığırışır, elədən-belə qanad çalırdılar. Bələdiyyə binasının ütündəki zənglər səslənir, qatarlar gəlib-keçirdi. Bir az aşağıda, limanda qayıqlar qaynaşır, qaldırıcı kranlar körpülər boyu o yan-bu yana sürüşürdü, o yerdə ki, atamız haçansa işləmiş, sonra da qəza nəticəsində bizi yetim qoymuşdu.

Eşidə bilmədiyimiz bircə şey vardı, o da dumanda gəmilər üçün çalınan siqnal borusunun səsi idi. Gərək o da olaydı. Mən Lindaya onun nə olduğunu dedim. Amma belə aydın, günəşli gündə siqnal borusu nəyə lazımdı? Evimizdən o qədər uzaqda idik ki. Heç qorxmurduq, ac da deyildik, yorulmur, bezmirdik də.

Bax, onda mən bir şeyi yenidən başa düşdüm. Bəzən bunu başa düşməyə bir neçə gün ya bir həftə ya da ömrün yarısı da bəs


e-kitab.org

eləmir. Saatın əqrəbləri əks istiqamətə hərəkət edən kimi. Anam qayıtmışdı, qapının ağzında Marlinlə söhbət edirdi. Marlinin əlindəki gümüş podnosda iki qədəh pivə vardı, podnosu əlində taraz saxlamağa çalışaraq yaxınlıqdakı stola aparırdı. Anamla Marlin nəsə danışır, müzakirə edirdilər, ikisi də qayğılı görünürdü. Anam uzaqdan bizə baxdı. Bizsə dondurmanı yeyib xeyli razı halda gözləyirdik. O bizə əl elədi, qırmızı dodaqları tərpəndi, nəsə deyirdi, amma biz səs-küydən heç nə eşitmirdik. Sonra o yaxınlaşıb əlindəki çantanı açdı, oradan bir çimərlik paltarı çıxarıb əlində tutdu. Linda üçün almışdı. Marlin də dönüb baxdı, gülümsündü, əl elədi, sonra anamla xudahafizləşib uzaqlaşdı. Ağ mizlərin arası ilə qəhvəyi rəngli durna kimi süzürdü. Məcməyini masalardan birinin üstünə qoyub, sonra pivələri götürdü, iki kostyumlu müştərinin qabağına qoydu. Gülümsündü, döşlüyünün cibindən kiçik bir noutbuk çıxardı. Müştərilərdən birisi nəsə dedi, Marlin bərkdən güldü, sonra nəsə yazdı. Sonra yenə nəsə dedi, ona verilən pulu saydı. Təzim edib deyilən sözə cavab olaraq gözəl bir hərəkətlə çevrildi – lap rəqs edirmiş kimi, güllər üstə rəqs edən kimi, təntənəli bir şəkildə. Amma bəs mənim gördüyüm nə idi?

Anam gəlib aldığı çimərlik paltarını Lindaya göstərdi. Göy rəngli paltarın qabağında iri, sarı su zanbağının şəkli vardı.



e-kitab.org

Lindaya dedi ki, onu çantasına qoysun, çünki biz indi getməliyik. Yan içində iki sendviç və yengəc olan podnosla qonşu stola yaxınlaşdı, onları tələsik stola qoyub gəldi. Çantamızı belinə alıb restorandan çıxdı, biz də dalınca. Dəmir yolunu keçib qayıqlara tərəf getdik. Yan hətta bizimlə qayığa də mindi, arxayın oldu ki, biz qayığın arxa tərəfində yerlərimizi tutduq. Deyirdi ki, bura ətrafa baxmaq üçün yaxşıdır, əsl "müşahidə postu"dur, bura dağlar arasında, hər yandan görünən Oslo körfəzi deyil, ucqar bir şəhərdir. Sonra:

– Hələlik, görüşənədək, – deyib qayığın köhnə, dəri oturacağında özünə yer eləyən anama göz də vurdu. Anam qayığın məhəccərinə söykənib günəşə boylandı. Yəqin ki, kömür kimi qara eynəyin arxasında gözlərini də yummuşdu.

Şəhər, Bələdiyyə Binası və qaldırıcı kranları ilə birlikdə sonuncu dəfə görünüb qızılı çən-dumanda gözdən itən kimi elə bil içimdə nəsə qırıldı, dəyişdi. Nəsə baş verirdi. Ağzımda da. Ağzım maye ilə dolurdu. Görünür, həddən artıq yediyimiz dondurma yuxarı qalxır, geri qayıdırdı. Belə də oldu. Amma məhəccərin üstünə yox – çünki bilmirdim, nə baş verir – göyərtəyə qusdum. Ağzımdan ağappaq daşqın köpürürdü, idman ayaqqabıları, səndəllər, yatmaq üçün kisələr, tilovlar... bu ağ köpüyün altında qalırdı. Sərnişinlər ora-bura çəkilir, möhkəm deyinirdilər. Dua edirmiş kimi dizlərim üstə düşüb


e-kitab.org

əyilmişdim, təəccüb içində ağzımdan gələn pendirə oxşar kristallara baxırdım, iri-iri, sarımtıl-qırmızı, bütöv meyvə qırıqları... elə bil heç çeynənməmişdi, yeyilməmişdi... götür, təzədən ye. Anam ayağa qalxmağıma kömək etdi, mehriban sözlərlə əzizləməyə, dilə tutmağa çalışır, üst-başımı tualet kağızı ilə silir, təmizləyirdi. Bu zaman iri gövdəli, qara rəngli qayıqçı pencəyi geymiş bir kişi taxta ayaqqabılarını taqqıldada-taqqıldada adamları yarıb irəli gəldi. İstehzalı bit təbəssümlə əlindəki şlanqla göyərtəni yumağa başladı, hamının eşitməsi üçün bərkdən dedi:

– Demək belə, bu gün dənizə ilk dəfə çıxan bir sərnişinimiz də var... güzgü kimi hamar, sakit dənizdə...

Bir saatdan sonra sahilə yaxınlaşdıq, dəhşətli baş gicəllənməm hələ də keçmirdi. Körpüdə arxası üstə uzanıb yumulu gözlərimi səmaya dikdim, tərpənmədən, içimdə, ətrafımda hər şeyin sakitləşməsini gözlədim.

Biz Hoya adasında idik.

Oslo körfəzində yaşıl bir cənnət. Gəzinti üçün çoxlu dar cığırları, bir neçə ev, üç dənə də çimərliyi vardı. Quş səsləri ilə dolu meşənin içinə qədər uzanan çəmənlik, o yanda qayalara qədər qalxan yastı yamaclar, kol-kos, cürbəcür həşəratlar, dərin dərələr. Bura lap əjdahaların torpağı idi. Amma hələ bilmirdik ki, bu yaxşıdır ya pisdir.

Aydın oldu ki, burada qoyulmuş



e-kitab.org

qaydalar var və bu qaydaları bir nəfər müəyyən edir. Yanalma körpüsünə çıxan kimi o adam yanımıza gəldi, çünki onsuz da buraya təzə gələn sərnişinlər yalnız biz idik. Bir az dincəlməyə ehtiyacımız vardı. Burada olanlar isə artıq adanın mərkəzinə yayılırdı, sonradan bildiyimizə görə, düşərgə salmaq üçün daha yaxşı yer axtarırlarmış.

O adam yaşda da, zahirən də babaya oxşayırdı. Düzünü desək, hər kəs belə baba arzulayır. Elə bil əynindəki kostyumunu məxsusi bu ada üçün tikmişdilər, həm də məhz bu fəsil üçün. Çox qısa şort geymişdi, az qala çimərlik tumanı kimi qısa. Uniforması ona polis görkəmi verirdi. Günlüyü üstdə ağ, plastik lövbər şəkli həkk edilmiş balaca kapitan papağının altından boz saçları görünürdü, saçları kimi boz saqqalı vardı, balaca, işıqlı gözlərindən mehribanlıq yağırdı. Tez-tez də baxışlarını yayındırırdı, xüsusən anama baxanda bunu gördüm. Anam indi qəşəng bikini geymişdi, alnının üstündən başına taxdığı günəş eynəyi saçlarında qara almaz kimi parıldayırdı.

Anam ona bəzi şeyləri izah edəndən sonra o, köksünü ötürüb:

– Hə, Kristian... o Kristian.... – dedi, bu dəmdə kişinin günəşdə qaralmış sifətindən cürbəcür ifadələr keçdi. Bizsə tamam həvəsdən düşmüşdük, amma yaxşı ki, o, bunu hiss etdi və yavaş səslə dedi ki, siz gəlib burada hazır qurulmuş çadır görməyə ümid edirdiz, amma günlər keçir, adamlar


e-kitab.org

burada kök salıb həftələrlə yaşaya bilməzlər. Bununla o demək istəyirdi ki, gözləməyimiz iki gecədən çox çəkməz. Siz çadırınızı başqa bir yerdə də qura bilərsiz. Bir də ki, alkoqol qəbul etmək olmaz. Sonra o, yemək və dükan-bazarla bağlı daha nələrsə dedi, amma ayırd edə bilmədim.

– Mənə sadəcə “Hans” deyə bilərsiz, – o hər şeyi razılaşdırılmış hesab edib guya söhbəti bitirdi, amma biz bu qaydaların nə özünü, nə məqsədini başa düşdük.

– Niyə? – mən soruşdum, elə bu anda hələ də xahiş-təmənna ilə balaca boylu kapitana baxan anam arxadan ayağıma toxundu. Düşünürdüm ki, biz diqqətsiz-filan qalan deyilik, kiminsə ixtiyarında da deyilik.

– Eee... yəni... adım belədir, – o dedi, bir az tutuldu. Sonra anaının bikinilərinə tuşlanan baxışları Lindaya tərəf döndü. Linda, yəqin, fikirləşirdi ki, bunların ona dəxli yoxdur.

– Demək, onda burada çadır yoxdur?

– Var, əlbəttə, var. – Hans müdrik bir görkəm alıb dedi. Linda elə bil ayıldı, ciddi bir şəkildə ona baxdı, sözləri uzada-uzada:

– Biz dondurma yedik...

– Hə, doğrudan? Yəqin, çox dadlı olub, hə?

– Çox.

Sakitlik çökdü. Linda yenidən:

– Biz tətildəyik.

– Hə, elədir...

Bu bəs idi. Hans şeylərimizi götürdü,


e-kitab.org

dedi ki, arxasınca gedək. Həm də elə götürdü ki, sanki belə də olmalı idi, şeylərimizi aparmalı idi. Hər tərəfdə tətilə, istirahətə gələnlər çadırlarını qururdu. Dar bir cığırla, qayalıqlar arasındakı fındıq kollarını keçib üzbəüzdə kiçik bir talaya çıxdıq. Nisbətən hündürdə yerləşən, yuxarıdan dənizə baxan yaşıl bir tala idi, bir az aralıda başqa xırda adalar görünürdü. Hans ayaq saxlayıb sınayıcı nəzərlərlə ətrafa baxdı, sağı-solu dinşədi, sanki bizim altı nəfərlik çadırı axtarırdı. Çadır bu cənnət guşənin şimal səmtində, meşəyə yaxın bir yerdə idi. Dəniz kimi, səma kimi mavi bir çadır. Narıncı rəngdə, böyük bir talvarı da vardı, İki birnəfərlik otağı, bir geniş otağı vardı.

Anam soruşdu ki, bu həmin çadırdırmı. Hans cavab verdi ki, həmin çadırdır, Kristianın dediyi. Nəsə mənə elə gəldi ki, bu, yumşaq desək, qeyri-müəyyən bir cavab oldu. Axı "Kristianın çadırı" nə deməkdir? Demək, Kristianın burada daimi qurulmuş çadırı var. Buradakı qaydaların ziddinə olaraq. Üstəgəl, bizdən xahiş edirlər ki, kimsə bizə rast gəlib soruşsa ki, buradan nə vaxt köçürsüz, deməliyik ki, bilmirik. "Bir baz keçincə çadırınızı yığın, o yanda, meşənin beş-altı metr yaxınlığında qurun. Elə yerdə qurun ki, qoy, başqa çadır qurmağa yer olmasın. Əgər kimsə soruşmasa – yəqin ki, soruşan olmayacaq, çünki bura gözdən uzaq yerdir – demək, çadırı sökmək də lazım olmayacaq". Bu


e-kitab.org

sözlər bizi bir az nigaran qoydu, bu hiss bizə tanış idi – daim örtülü, kiminsə istədiyi kimi yaşamaq, kiminsə himayəsi altında olmaq.

Anam təşəkkür etdi, dedi ki, hər şey yaxşıdır, "mən heç belə təsəvvür etməzdim".

– Çadırın yanmış yeri də heç bilinmir, elə deyil?

– Hə, yanıq yeri heç bilinmir, təkcə bir ucunda, o da arxada bir az gözə dəyir, – Hans dedi və təsadüfi adamın görə bilməyəcəyi yanıq ləkəsini göstərdi.

İndisə açar əlimdə idi. Balaca qıfılı açdım və özümü bir talvarın altında gördüm. İçəri çox isti idi, kandarda bir cüt idman ayaqqabısı vardı, onlardan yaman pis qoxu gəlirdi. Hans bir anda onları bir çubuqla götürdü, bayırdakı enişə vızıldatdı. Yaxşı ki, qabaq tərəfdən çadırı bir az açmaq mümkün oldu, arxa tərəfdən də bir balaca açdıq, sərin hava içəridəki boğanağı qovub çıxartdı. İçəridə yatmaq üçün kisələr, hava döşəkləri, şezlonq və dörd balaca düşərgə stulu, yüngül bir stol, kətan parçadan bir torba vardı. Bu torbada su gətirib ağacdan - asacaqdıq.

– Burada ocaq qalaya bilərsiz, – Hans daşlarla dövrəyə alınmış ocaq yerini göstərdi. Ocaq yerinin ətrafında ağac kətilləri qoyulmuşdu.

– Ura, – sevinclə qışqırdım.

– Bircə bunu yox, – anam dilləndi.

– Mən də, mən də tonqal istəyirəm, – Linda dedi.

Hans sanki artıq ailəmizin bir üzvü



e-kitab.org

kimi ya da düşərgə sevincini təzəcə yaşamaq istəyənlərə xoş gəlmək üçün gülümsündü.

– Meşədən quru odun yığıb gətirmək olar, – o mənə tərəf döndü, sonra kətan parçadan olan torbanı göstərib təzə su kranına gedən cığırı göstərdi, torbanı ağacdan necə asmaq lazım olduğunu başa saldı. Sonra yeməklə, ərzaqla bağlı nələrsə dedi. Onun sözlərinə görə, burada bircə dükan var, o da yəqin ki, günün müəyyən saatlarında açıq olur. Nə vaxt açıq olur, bir az qaranlıq məsələdir, yaxşı olar ki, Drobekdən vaxtaşırı buraya gələn qayıqdan ərzaq alaq, azuqə ehtiyatı görək. Dedi ki, qayıq müxtəlif vaxtlarda gəlir, gərək haçan gəldiyini biləsən, gedib bazarlıq eləyəsən. – Məncə, bu ən yaxşı variantdır, – deyib Hans sözünü bitirdi.

Belə uzun-uzadı izahatın əsas məqsədi o idi ki, adamlar burada çox da arxayın olmasınlar, özləri özlərinin rahatlığı qayğısına qalsınlar.

– Hə, bax, buradakı işlər belədir, – deyib Hans razılıqla gülümsündü.

O anda, şeylərimizin yerbəyer edilməsi ilə məşğul olmalı ikən, anam nəsə yerində qurcalanmağa başladı. Hiss etdim ki, bu o deməkdir ki, biz Hansın xeyirxahlığından sui-istifadə edə bilmərik, onsuz da Kristiandan nə qədər borc almışdıq. Hans bunu hiss etdi.

– Belə... nəsə lazım olsa, mənə xəbər verin. Mən Vikada oluram.


e-kitab.org

Anam yenidən ona təşəkkür etdi, əlini sıxdı. Hans getdi.

Biz cənnətdə idik, həm də yalnız özümüzdük, bunlara layiq görülməyimiz üçün çöpü çöp üstünə qoymasaq da, orası da var ki, bunu necə qiymətləndirməyi bilməmiş deyildik. Çox sevinirdik, xüsusən mən. Anamın da fikri-düşüncəsi lap son saatda yüngülləşmişdi. Nə qədər yol gəlmişdik, avtobusla, qayıqla. Linda yolda üç dəfə yatdı, durdu. Hər dəfə anam primus peçi yandırıb, tavada donuz əti, sosiska qızardırdı. Yay fəslinə həmişə bir yaxud bir neçə ad verirdik, bu yay Lindanın üzmək öyrəndiyi yay idi.


e-kitab.org

# 13

Lindaya üzməyi öyrətmək elə də asan məsələ deyildi. Bilirsiz, dərman qəbulunu saxlayandan sonra o nəinki az yatmağa və az yeməyə başlamışdı, o elə bil həm də tərs və inadkar olmuşdu. Anam bir neçə dəfə bu haqda mənimlə danışmışdı.

– Sənə elə gəlmirmi ki, Linda son zamanlar çox tərslik edir?

Doğrudan da, bir ay qabaq onun kök və qabaq dişlərinin çıxması ilə bağlı belə bir şey olmuşdu. Mən dedim ki, düşən dişinin əvəzində gərək ona xırda pul verək, o biri dişləri də daha böyüyüb, anam sözümüzü kəsdi. Linda isə ona hədiyyə verdiyimiz xırda kronları səhər-səhər stəkanında görəndə onları götürmək istəmir, əməlli-başlı tərslik edirdi. Odur ki, bu diş söhbəti bir neçə həftə davam elədi.

İndi Lindanı sudan ayırmaq olmurdu, nahardan qabaq çimərlik paltarını geyinir, mənim köhnə kəmərimi də taxırdı, bütün günü suda oynayırdı, gərək güclə sahilə dartaydın. Amma dediyimizi eləmirdi. Suyun dayaz yerində qalmır, uzaqlara getmək istəyirdi. Balıq kimi üzür, sıxılmış dodaqları ilə suyun altına girir-çıxırdı, suyu şappıldadır, addımlayır, oynayırdı. Bu o deməkdi ki, anamla mən üzücü nişan ağacları kimi daim onu xəbərdar etməli idik: o yana getmə, bu yana üzmə, həmişə sahilə tərəf bax. Çağırırdıq, nə faydası, o heç olmasa əl eləməli idi. Əllərilə kəmərindən


e-kitab.org

tutur, daha heç nə eləmirdi. Anam kəməri onun belinə elə bağlamışdı ki, bədənində dama-dama iz salmışdı.

Bu, köhnə bir üzgüçü kəməri idi, məncə, şimal maralının dərisindən düzəldilmişdi. Suyu özünə çəkir, get-gedə üzgüçü əşyasından çıx qurğuşun kimi ağırlaşırdı. Hərdən açıb qayaya çırpmalı ya da sıxmalı idin ki, suyu çıxsın, yüngülləşsin, sonra da tez-tez günəşdə asmaq lazım idi. Amma heç vaxt tam qurumurdu, nəm qalırdı. Linda hər dəfə onu geyəndə üşənirdi, ona görə də istəyirdi ki, həmişə belində saxlasın ki, isti olsun. Anamsa buna icazə vermirdi.

– Xəstələnəcəksən sən... xəstələnəcəksən... – deyirdi.

Üstəlik, Linda çox pis yanmışdı. Günəş sudan yuxarıda qalan çiyinlərini, üzünü yandırmışdı, ona görə də, hətta dənizə girəndə də açıq yerlərinə Nivea kremi sürtməli olur, ağ kofta geyinirdi. Anam həmişə sonradan peşman olduğu şeyi yenə elədi, amma etməyə də bilmirdi. Lindadan elə-belə soruşdu ki, bəs keçən yay aylarında o nə ilə məşğul olub. Sualı eşidən kimi Linda ayağa durub uzaqlaşdı, bizə məhəl də qoymadı, sanki daha güclü bir qüvvə onu çağırdı və guya anam ya mən, ya da hər ikimiz onun dalınca qaçmalı idik, yan-yörəsində olmalı, ayaq saxlayana qədər onu dilə tutmalı idik. Sonra Linda dayanıb bizə elə bir nəzərlə baxdı ki, sanki xoşuna gələn bir şey eşitmişdi və həmin anda nagah verilmiş bu sualın onun iç dünyasında



e-kitab.org

oyatdığı hər şeyi unutdu.

Linda bizə elə diqqətlə baxırdı ki, dedim, görəsən, bu saat onun içində nələr baş verir. Doğrudan da, Lindanın gözlərinə baxanda adamın nəzərləri elə bil getdikcə dərinlərə işləyirdi, elə bil Kristianın mikroskopuna diqqətlə baxırdın ki, orada sənə nəsə tanış olan ya da ağlına gələn bir şeyi görəcəkdin.

Xoşbəxtlikdən, bu yay Borislə keçən yay oldu. Ona mən bura gəldiyimizdən iki gün sonra çimərlikdə rast gəldim. Eynilə mənim yaşımda, mən boyda idi, mənim kimi saç saxlamışdı, bizim qəsəbəyə oxşar bir qəsəbədən gəlmişdi. Mənim sevdiyim cizgi filmləri, kitabları, sikkələr, ağaclar onun da xoşuna gəlirdi, diyircəkli podşipniklər, sözlər, kosmos onun da sevdiyi şeylər idi. Onun da atası yox idi, burada da oxşar idik.

Amma onun bir "əmi"si vardı, o, buraya Borisin anası ilə, daha böyük qardaşları və başqa "əmi"lərlə gəlmişdi. Odur ki, Boris orada tək və özgə idi, görünür, buna görə də, "əmi"si onu mənimlə tanış etdi.

– Ey, siz birlikdə, bu oğlanla oynaya bilərsiz? – qəfildən yanımda bir səs eşitdim. Bu zaman mən qum üstə əyilib var diqqətimlə çala qazırdım. Amma bu nəyə lazım idi, hansı arzularıma çatdıracaqdı məni? İri cüssəli, dazbaş bir adam idi, qara və dar çimərlik tumanı çılpaq, şabalıdı qarnının aşağılarını gizlədə bilmirdi, ağzının kənarında siqaret tüstülənirdi. Onun da yanında yəqin ki, "Boris" dediyi oğlan


e-kitab.org

dayanmışdı. Arıq, balaca, qarabuğdayı bir oğlandı, elə bil həyatı boyu burda yaşamışdı, çox iri çimərlik tumanı geymişdi, baxışları qumlarda qazdığım, yavaş-yavaş su ilə dolmağa başlayan "arzularımın qum çalası"na dikilmişdi. Mənim onda bir təəssürat oyatmadığımı görüb "əmi"si işarə ilə:

– Sən yengəc tuta bilirsən?

– Eee...

– Boris sənə öyrədəcək. Elədir, Boris?

Bunu deyib o, arxasını bizə çevirdi və çimərlik səndəllərində yastılana-yastılana uzaqlaşdı. Elə bil iri ayaqları səndəllərinə yapışmışdı, suya çatıb ayaqlarına yapışmış qumları silkələyib tökdü, başını qaldırıb buludsuz səmanın çəhrayı ənginliyinə boylandı.

Boris dinib-danışmırdı, ətrafa göz gəzdirdi, yəqin, mən də bu vəziyyətdə idim. Sonra o düz üzümə baxıb: "Gedək" dedi və qumlarda iz sala-sala suyun ortasında qalmış iri qaya parçasına sarı yeridi.

Mən qorxa-qorxa, ondan iki-üç metr arxada gedirdim, hiss edirdim ki, anamın baxışları uzaqdan kürəyimə dikilib, heç vaxt olmadığım qayaya tərəf baxır. Hərdən molyusklar ayaqlarıma dəyir, çimçişirdim. Borisə heyrət edirdim, o, qalın yosunluğu asanlıqla keçib suya baş vurdu, bir anda suyun altında görünməz oldu. Bir az keçməmiş ovcunda bir dəstə dəniz molyusku suyun üzündə göründü, mənə tərəf gəlib onları ayaqlarımın altına atdı.



e-kitab.org

– Bəs onları necə açacağıq? – soruşdum, yəni ki, bunların nə olduğunu mən bilirəm.

– Sındıracağıq, – Boris dedi. – Bax, bununla.

O, iri bir daşı göstərdi, daşın altında ip və torba vardı. Borisin ipi, Borisin plastik torbası.

– Bax, yapışqanlı maddə balıqqulağılardan birinə yapışır, yengəclər də bunun dalınca gəzir.

Biz yengəc tutmağa başladıq. Günəş kürəyimizi yandırırdı, midiləri12 suya atır, yalnız yengəcləri tuturduq. Qırmızımtıl-yaşıl yengəcləri dəniz suyu ilə doldurduğumuz plastik torbaya yığırdıq. Boris yengəcləri necə tutmağa öyrədirdi. “Gərək çox tələsməyəsən, çox da ləngiməyəsən. Səbirli olmaq lazımdır”. Daha çox onu deyirdi ki, qorxmayım, burada nə var ki, adi yengəclərdir, sən də bilirsən ki, onları tutmaq istəyirsən. Anaının nəzərlərini daim üstümdə hiss edirdim. O, sahildə, Kristianın kreslosunda oturub Linda ilə danışırdı. Deyirdi ki, Linda hər on beş dəqiqə fasilədən sonra suya girib üzsün. Biz isə cəmi iyirmi dəqiqə idi ki, burdaydıq.

– Sən üzə bilirsən? – Borsi soruşdu.

– Hə, – dedim.

– Onda gedək, – o dedi və suya girdi. Mən də ardınca. Körfəzdən keçib adanın o biri tərəfinə sarı getdik. Tək olsam bu boyda məsafəni üzməyə cəsarət etməzdim. Heç anam da üzməzdi. Görürdüm, o, sahildə, -



e-kitab.org

kreslonun yanında, əlini alnına qoyub baxırdı. Bütün anaların abidəsi kimi – zaman-zaman yay gələndə çimərlikdə dənizə boylanıb sevdiklərinin ardınca beləcə baxan, nigaran olan anaların abidəsi kimi. Qalan hər şey yaddan çıxır. Mənsə üzür, üzürdüm. İntəhasız xoşbəxtlik içində nə qədər üzdük, bilmədim. Borisin yanında. Mənim təzə dostum. Mən bu sözləri indi daha böyük razılıqla deyirəm. O heç də məndən yaxşı üzmürdü, elə mənim kimi üzürdü. Biz yanaşı üzürdük. Təsəvvür edirdim ki, biz indi uzaqdan necə görünürük – iki balaca baş getdikcə uzaqlaşır, kiçilir, nöqtəyə dönür, az qala görünməz olurdu. Ölüm və əbədiyyət üfüqlərində yox olmazdan qabaq lap noxud boyda görünən balaca səfehlər kimi...

Körfəzi üzüb keçdikdən sonra bir təhər sahilə çıxdıq, hamar bir qayanın üstündə oturduq. Geriyə, “ana abidəsi” kimi hələ də yerindəcə durub boylanan qaraltıya baxdıq. Kiçicik nöqtə kimi görünən, uzaqdan-uzağa hərarətini, nigaranlığını, qorxu-ürküsünü hava ilə ötürən o varlığa. Hiss etdim ki, nəhayətsiz bir sevincdən üzüm işıqlandı, ayağa qalxıb əl elədim, pıçıldadım:

– İndi bax!

– Nəyə baxsın? – Boris dedi.

– Görmürsən, əl eləmir.

– Nə?

– Acıqlıdır, yəqin, – deyib əyləşdim.

Boris fikirli-fikirli baxdı, o da gülümsündü, çünki körfəzi üzüb keçəndə



e-kitab.org

mən duyduqlarımı o da duymuşdu. Biz, deyəsən, bir az ağ eləmişdik, həddimizi aşmışdıq. Amma həmin gün biz elə əhvalda idik ki, heç nəyə fikir vermirdik, həmin yay günü elə hey uzaqlara getmək, getmək istəyirdik... Boris üçüncü dəfə "Gedək!" deyəndə onun dalınca necə getməyəydim. Biz kolluqların arxasına girdik. Bura Borisin dünyası idi. Sıx, keçilməz ağaclıq və kolluq bizi saxlaya bilməzdi. Vadinin mürgülü mənzərəsi, qulaqlarımıza dolan quş səsləri, səmada günəş, yerdə isə az qala adamı üşüdən qaranlıq kölgəliklər. Yalnız Borisin tanıdığı cığırla gedirdik, gah isinir, gah da soyuq hiss edirdik. Lap əjdaha məskəni, yapalaqlar yuvası idi. Yeridikcə yaş ayaqlarımıza ağappaq, yapışqana oxşar toz yapışırdı, elə bil əzilən sümüklərin tozu idi ya da təpəyə qalxan bu cığıra toz səpilmişdi. Lap sıldırımın başına qalxdıq. Qəfildən aşağılar lap aydın göründü, o tərəfdə, təxminən əlli metr aşağıda başqa bir körfəz açılırdı. Sahildə bircə çadır görünürdü.

Boris dedi ki, gəl uzanaq, sıldırım başında bizi heç kəs görməsin. Aşağıda görünən çadırın yanında hava ilə doldurulmuş döşəyin üstə bir adam uzanmışdı. Qadın idi. Qurşağadək soyunmuş qadın özünü günə verirdi, gündə yanıb qaralmış mis rəngli iri döşləri aydın görünürdü. Bir az diqqətlə baxanda başa düşdüm ki, heç şort da geyinməyib.

– O hər gün burada olur, – Boris pıçıltı ilə dedi.


e-kitab.org

Baxdım, ətrafda kimsə yoxdu. Təkcə bu əcaib məxluq. Meyit kimi uzanıb ya da çox möhkəm yatıb, hər nədirsə əvvəllər gördüyüm heç nəyə oxşamırdı. İçimi qəribə maraq və həyəcan bürüdü, xəyalıma gəlməyən şey görürdüm.

–Qardaşlarım ona "Şişman" deyirlər, – Boris dedi. – O qocadır, – nədənsə Borisin bu fikri mənə yaman təsir etdi. – Azı, əlli yaşı var, – Boris özünü çoxbilmiş kimi göstərdi. – Amma buradan yaxşı görünmür, bəlkə bir az yaxın gedək?

–Yooox...

Üzü üstə uzanıb "Şişman"a baxırıq. Gözünü ondan çəkmək olmurdu. Fərqi də yoxdu, qoca idi, uzaqda idi ya da daş kimi hərəkətsizdi, gözlərimizi döyür, baxır, baxırdıq. Gündə yanıb qaralmış bu şey sahilə çıxmış balina kimi işıldayırdı.

– Qardaşlarım deyir ki, o bilir ki, biz ona baxırıq, – Boris pıçıldadı.

– Nə?

– Hə, hə, onun bundan xoşu gəlir.

– Necə, yəni?..

– Gözlə, qalxıb suya girəndə görərsən.

Yerimizdə uzanıb "Şişman"ın nə vaxt qalxıb suya girəcəyini gözləyirik. O uzanmağında idi. Nəhayət, o oyandı, hava döşəyinin yanında qoyduğu qol saatını götürüb baxdı, qarnına, sinəsinə yapışmış tozu-qumu təmizlədi, dikəlib oturdu. O indi daha iri bədənli görünürdü. Ətrafa baxdı, çiyinlərindən, ombalarından nəyisə sildi, təmizlədi. Yəqin, cücü idi, əlilə çırpdı. Sonra


e-kitab.org

ayağa durdu, əllərini belinə qoyub nəyisə xatırlayırmış kimi asta-asta nəzərlərini uzaqlara, ilğımlı-çənli yay səhərində görünən çöllərə dikdi.

Bir azdan dənizə sarı addımladı. Ayağı altda qalan balıqqulağı və sivri çınqıllar üstə valaylana-valaylana yeriyirdi. Qollarını yanlara elə geniş açırdı ki, sanki bununla müvazinətini saxlayırdı. Arxası bizə tərəf idi. Lap uzaqdakı qayaya tərəf gedirdi. Orada ayaq saxlayıb dayandı, yenidən ətrafa baxındı. Dənizə, sahilə, ağaclara, uzaqdakı silsilə dağlara nəzər saldı. Çiyinlərini bir də sığalladı, əyilib əlilə suyu yoxladı. İndi biz onu yandan görürdük.

– O hər yana baxır, – Boris astadan dedi. – Bu yerdən başqa.

– Nə?

– Ona bax, o heç vaxt bu cür baxmır.

Mən hələ də onun nə demək istədiyini başa düşmürdüm. İndi də Boris əsəbiləşdi, dedi ki, o hər yay bura gəlir, həm də bunu təkcə o və onun qardaşları bilmir, hamı bilir.

– Bax.

Ətrafa baxdım, gördüm ki, uzandığımız yer elə bil yastılanıb, lap çadırın içi kimi hamardı.

– Böyüklər də bura gəlir, – Boris əda ilə dedi. – Böyük kişilər.

– Kimlər?

– Rəislər də... nəzarətçilər...

– Hans da?

– Hə də, amma elə bilirəm "əmim"in


e-kitab.org

bundan xəbəri yoxdur.

– Niyə?

– Bilmirəm...

Məndə belə bir təəssürat oyandı ki, Boris "əmi"sini buraya gətirmədiyinə görə peşmandı.

"Şişman" indi də tamam suya girdi, bizsə lap qarğa yuvasından dənizdə balinaları izləyənlər kimiydik. Elə bil iri, yaşıl, böyüdücü linzalardan baxırdıq. O qanadlarını geniş açmış quş kimi görünürdü, lap yaxından və aydın. Vermişdi özünü suların ixtiyarına, dalğalarda yellənirdi, hər şey də üzdə idi. Və birdən o arxası üstə çevrildi, bizə sarı baxdı. Qəribə idi, o anda məni tanış bir hiss bürüdü: o ya kor idi ya da biz gözə görünməz idik. Aşağıda, düz gözlərimizin qabağında, suyun üzündə iki qoşa konus yırğalanırdı. O isə bizə baxmaqda idi. Kiminsə sənə baxdığını hiss edəndə adam özümü ələ ala bilmir. Özünə kənardan baxırsan. Adamın öz qəribəliyi, yəni, təkcə sənsən, sən özünsən, içinlə baş-başa, tək qalmısan. Amma hər halda bilirsən ki, bu sən deyilsən, təsəvvür etdiyin o adam heç vaxt sən özün ola bilməzsən, bu, təqliddir, cinayətdir, sən qəbul etsən də, etməsən də. Daim səninlə, içində olub. Sən sadəcə bunu bilməmisən, sonra da ki, çox gec olur. Biləndə də artıq özün də başqalaşıb ayrı adam olmusan.

– Biz getməliyik, gedək, yengəcləri tutaq, – Boris pıçıldadı. Nəfəs də çəkmədən geriyə qanrıldı və uzandığımız otluqdan



e-kitab.org

səssizcə geri çəkildi. – Mən hərdən tilovuma düşən yengəcləri buraxıram da...

12 dəniz molyusku



e-kitab.org

# 14

İşlər düşündüyümüz kimi getməsə də, bu yay Birinci Fredi ilə keçirdiyimiz yay kimi də yadda qala bilərdi. Mənsə elə bilirdim ki, hər şeyi yaxşı-yaxşı fikirləşmişəm. Boris "Şişman"ı mənə göstərdikdən sonra iki gün ərzində Boris bir neçə dəfə bizim çadıra gəldi, nəyisə aydınlaşdırırmış kimi başı ilə təsdiq də edirdi. Sonra anamla da tanış oldu, özünü elə aparırdı ki, elə bil iyirmi səkkiz yaşı vardı.

– Mənim adım Borisdir, – o düz anaının gözlərinə baxa-baxa dedi.

Anam fikirli-fikirli gülümsündü, mən öz-özümə dedim ki, gərək mən də belə hərəkət eləyim ki, anam həmişə belə gülümsəsin.

Ekvatoru keçdiyimizə görə anam iki gün idi ki, məni danlayırdı. Lindanı isə sakitləşdirirdi ki, heç nə olmaz – Linda biləndə ki, şor suda çimir, inadla deyirdi ki, evə qayıdaq. Üstəgəl, mənə töhmət edirdi ki, bəzi şeyləri niyə başa düşmürəm. Məsələ burasında idi ki, Hans yenə də düşərgəmizin yan-yörəsində, çimərlik tərəfdə fırlanar, bəzi "yeni" qaydaları izah edir, qızıl məsləhətlərini verirdi. Həm də heç tələsmirdi, anamsa istəyirdi ki, mən həmişə onun yanında, yaxınlıqda olum. Hesab edirdi ki, bu mənim vəzifəmdir, amma niyəsini izah etməyi lazım bilmirdi.

– Başa düşürsən?

– Eee... hə, ana...



e-kitab.org

– Bəs onda niyə məni tək qoyub gedirsən?

İndi o, Borisə elə baxırdı ki, baxışları deyirdi ki, o məhz belə bir oğlu olmasını istəyir.

– Mənə deyiblər ki, sizə xəbər verim: saat yarımdan sonra dükan açılacaq, – Boris dedi. – Siz orada kolbasa, çörək, daha nə istəsəniz ala bilərsiz. Bir də ki, onun adı nədir... hə... ciyər kolbasası, axır vaxtlar ondan çox gətirirlər.

– Həəə? Kim dedi sənə?

– Heç kim. Mən özüm.

Anam gözlərini ona dikmişdi. Bir az təəccüblənmişdi, sonra dönüb mənə baxdı. İndi üzündə başqa bir ifadə vardı.

– Onda, Finn, sən bunu götür, – o dedi və əlindəki pul kisəsindən şax bir on dollarlıq çıxarıb mənə verdi.
– Get, gör nə tapırsan. Amma dondurma olmaz!

– Onlarda dondurma olmur.

– Doğrudan?

– Hə. Onlarda, ümumiyyətlə, çox şey olmur. Həm də uşaqlara dükana getməyə icazə vermirlər.

– Demək istəyirsən ki, dükana özüm gedim?

– Hə, məncə, belə yaxşı olar.

Anam Lindanı çadırdan bayıra çıxardı. O, çadırda özünə qapanıb gözləyirdi ki, havaya çıxaq, üstəgəl, dəniz suyunda çimməkdən də qaçırdı. Biz bir-birimizin arxasınca düşüb düşərgəyə gedən dar, əyri-



e-kitab.org

üyrü cığırla getdik. Anam fürsətdən istifadə edib Borisdən soruşdu ki, bizim yerimizi necə bildin. Boris cavab vermədi, amma elə reaksiya verdi ki, yəni, bu adada elə bir şey yoxdu ki, onun xəbəri olmasın.

Sahildəki yanalma körpüsünə gəldik, oturub ayaqlarımızı suya salladıq. Anamsa deyilən dükana getdi. Dükan yamacda yerləşən boz rəngli bir tikili idi, yanalma körpüsündən gələn cığır dükanın qabağına gəlirdi. Dənizə daş atdıq, Linda yenə şor dəniz suyunu xatırladıb narazı-narazı deyindi.

–Hə, şor sudur, amma həm də yaxşıdır, – Boris dedi.

Linda sualedici baxışlarını ona dikdi.

– Çünki sən orada yaxşı üzürsən, – Boris sözlərinin başa düşüldüyünü bilmək üçün bir də ona baxdı.

Linda ağzını açıb “Nə?” deyə soruşmaq istəyirdi ki, Boris izah etdi:

– Ona görə yaxşıdır ki, sən duzlu suda batmırsan.

Linda gözlərini Borisdən çəkib mənə tuşladı. Mən də başımla təsdiq etdim. Boris diqqətlə ona baxdı, elə bil nəsə bir şey kəşf etmişdi. Son altı ayda mən bu ifadəni bir çoxlarının üzündə görmüşdüm. Heç xoşuma gəlməmişdi. Biz bu maneəni keçməli idik.

– Üzə bilmirsən? – Boris soruşdu.

– Əlbəttə, bacarıram, – Linda dedi.

– Bəs onda niyə?..

– Nə?

– Yaxşı, bəyəm biz dəniz suyunu içirik?


e-kitab.org

Linda yarımçıq bir təbəssümlə yenə mənə baxdı.

– O üzə bilir ya yox? – Boris, nəhayət, birdəfəlik məsələni aydınlaşdırmaq üçün mənə sarı çevrildi. Mən başımla təsdiq etdim. Linda dedi:

– Hımm...

–Yaxşı, – Boris etinasız dilləndi, dənizə, yanalma körpüsünə tərəf bir-iki daş fırlatdı. Əvvəlcə burnunu, sonra da nədənsə sol dizindəki köhnə çapığı qaşıdı. “İndi nə etməliyik?” – deyə məni fikir götürmüşdü. Boris də, deyəsən, elə bu sualı düşünürdü. Bəzən adam bir işi görür, qurtarır, indi nə etməli olduğunu bilmir, özünə yer tapmır, bezir, darıxır.

Anam qayıdıb gəldi. Yerişindən çox əsəbi olduğunu hiss etdim. Əlindəki boz çantanı çadırdan götürdüyü bluzkanın altında birtəhər gizlətməyə, diqqəti mümkün qədər cəlb etməməyə çalışırdı. O bluzkaya biz “Deyzi” adı qoymuşduq, daha doğrusu, bu adı Linda sehrli nağıldan olan inəyin adından götürmüşdü, biz də onun dililə belə deyirdik.

– Bu necə yerdir?! – anam deyib əyləşdi.

– Hə, burada, doğrudan da, hər şey satınağa icazə vermirlər, – Boris dedi.

– Onda belə çıxır ki, biz yeməyi gizlətməliyik. Belə necə olar, bilmirəm... – deyib anam çantanı açdı. İki kilo hisə verilmiş sosiska, bir dəstə yerkökü, iki çörək və yarım kilo marqarin yağı almışdı. Marqarin istidə əriməyə başlamışdı. Anam


e-kitab.org

bilirdi ki, Linda da, mən də hisə verilmiş sosiskanı xoşlayırıq, ona görə də, hərəmizə bir sosiska verdi. Amma əvvəlcə uzun dırnaqları ilə onları soydu, sonra verdi.

– Boris, bəs sən? Səhər yeməyi yemisiz?

– Eee... yox, – Boris dedi. – Əmim səhər yeməyi yemir.

– Necə, yəni? Onda gəl, sənə də bir sosiska verim.

Borisə də bir sosiska verdi. Amma Boris onu soymamış yedi. Mənim kimi. Sosiskanın dərisi adamın qabaq dişləri arasından çıxır, hisə verilmiş, soyuq dad hiss edirsən, çeynəmək həm asan olur, həm də birtəhər gəlir. Amma qızardılmış donuz ətindən də dadlı olur. Anam da bir sosiska yedi, O da Linda kimi sosiskanı soyub yedi. Qurtarandan sonra hərəmiz yenə birini yedik. Sonra da bunu yada salıb zarafatla deyib güldük. Biz – orada əyləşənlər, nə parlament yadımıza düşürdü, nə də hökumət. Nə qədər istədik, o qədər sosiska yedik. Qanunsuz-zadsız.

Sonra arxası üstə uzanıb, dirsəklənib ayaqlarımızla oynadıq. Yaxından dəniz yosunlarının iyi gəlirdi. Bir az o yandan meşə və yarpaq ətri, lap yaxından isə Nivea qoxusu yayılır, burnumuzu qıcıqlandırırdı. Həşəratların, cücülərin sakit vızıltısı... Bizim üçün görünməmiş şey olsa da, dinib danışmırdıq. Biz ki həmişə ora-bura qaçıb, səs-küylə oynamağı sevirik. Sakitlik mənə yaman təsir edirdi. Anam gözlərini açmadan dedi ki, biz istəsək burda həmişəlik otura


e-kitab.org

bilərik. Biz gülüşdük, amma tezliklə qayıq gələcəkdi. “Bu gün, axı, şənbədir” – o dedi.

– Şənbə günüdür? – mən gözlərimi açdım.

– Həə, – anam dərindən köksünü ötürdü. Mən bilirdim, bu, havasını dəyişməkdən idi. O bir dizini bükərək bizə sarı əyildi, sanki hansısa sirrini bizimlə bölüşəcəkdi. Boz rəngli, yumşaq taxtanın üstündə dırnağı ilə cızıq çəkdi. Boris maraqla onun dırnaqlarına baxırdı.

– İndi mən sizə bir xəbər verəcəyəm, – anam dedi. Sonra qısaca dedi ki, həmin qayıqla Marlen və Yan bizə qonaq gələcək.

– Yan yadınızdadı, keçən həftə görmüşdüz ha?

Biz başımızla təsdiq etdik.

Anam da həmin qayıqla şəhərə gedəcək, bir neçə gün qalacaq, bəzi işlərimizi görəcəkdi – adamı bezdirən, məxfi, amma vacib olan bəzi işlər. Bu zaman Lindanın çənəsi əsdi, anam əlini onun üzünə çəkdi.

– Sən Marlenlə qalacaqsan, yaxşı?

Hiss etmişdim ki, baş verənlər əslində yalnız bunlar deyil. Bunlar yaxşıca planlaşdırılmışdı, bunlar Town Hall körpüsündə ya da restoranda başlanmış işlərin davamı idi. Bəlkə də ondan da qabaq. Anam, əlbəttə ki, bunu yalnız bir adamla, bizi etibar edəcəyi adamla birlikdə planlaşdırmışdı. Marlenlə, əlbəttə.

Məni bir şey də narahat edirdi – hələ Borissiz, adasız olanda, son zamanlar baş verən, həm də mənim güclə başa düşdüyüm,


e-kitab.org

bir-biri ilə bağlı baş verən bütün bu işlər mənim üçün anlaşılmaz bir əhəmiyyət kəsb edirdi və bunu dərk etdiyimdən az qala ağlamağım gəlirdi.

İndi anamdan heç soruşmadım da ki, o hansı işin dalınca gedir, heç etiraz da etmədim, odur ki, o diqqətlə üzümə baxıb fikirlərimi oxumağa çalışırdı. Mənsə üzümü şimala, körfəz tərəfə çevirib qayığın gələcəyi səmtə baxırdım. Odur, doğrudan da, qayıq göründü, ağ-qara, likörlü şokolad qutusu kimi üzə-üzə, ləngər vura-vura düz vaxtında yetişdi. Lap o filmdə olduğu kimi. Hər şey bir siqnalla başlanır, sənə isə yalnız bir iş qalır – ağzını açıb udasan. İndi motorun da səsi aydın eşidilirdi, porşenlər aramsız işləyir, körpüyə yan alan qayığın boğuq səsi yayılırdı, arxada isə lap sahilə qədər enib gələn meşə görünürdü. Ailəmizdə əvvəlki sakitlik yox idi, o ailə ki, bircə nəfərin – Borisn gəlməsi ilə bir az da böyümüşdü.

Boris ayağa qalxdı, ayaqyalın körpüyə qaçdı, qayıqçının körpüyə atdığı kəndiri tutdu. Hardansa üzə çıxan Hans da başı ilə Borisin hərəkətlərini təqdir etdi. Boris onsuz da bu işləri beş barınağı kimi bilirdi, odur ki, trapla qayığa qalxmaqda Hansa da kömək etdi. Sonra lüt-üryan qapıçı kimi qayıqla adaya paltarlı-paltarlı, təzə gələnlərə "cənnət"in yolunu göstərdi. Lap təzə gələnlər də, əvvəllər burda olanlar da vardı. Onları davranışlarına görə tanımaq olurdu. Təzə gələnlər elə bizim kimi, dörd


e-kitab.org

gün qabaq buraya gələndə çaşıb qaldığımız kimi nə edəcəklərini bilmirdilər. Köhnələr isə artıq hər şeydən xəbərdar idilər – adaya çıxan kimi yaxşı yer tutmaq üçün ətrafa yayıldılar.

Heç demə Yan da "köhnə"lərdən imiş. Özüylə adaya böyük baqaj gətirmişdi, adi bir Amerikalı mühacirin işi deyildi bu. Körpüdə Hansla bir-iki zarafat da elədi. Marlenlə gəlmişdi. Marlen bu gün az kosmetika vurmuşdu, Lindanı görən kimi qızı qaldırıb qucaqladı. Sonra mən də yadına düşdüm. Boris səhər dediyi sözləri yenə də təkrar etdi:

– Mənim adım Borisdir.

Amma sözləri elə bil havada qaldı.

Doğrusu, mən bir az arxada dayandım, anamsa çadıra gedib çantasını gətirdi. Yanın gətirdiyi iri ərzaq səbəti, böyük, plastmas, ağımtıl qutu məni yaman təəccübləndirdi. Yəqin yeməyimizi soyuq saxlamaq üçün soyuducu idi. İçində buz parçaları vardı. Yan dedi ki, onları dondurma şirkətindən alıb. Yekə bir buz parçasını bizə göstərdi, buzdan tüstü çıxırdı. Dedi ki, qutuda qalsa bu buz parçası hələ neçə gün əriməz, haçan əriməyə başladı, onda təzəsini alıb qayıqla göndərəcək, çünki onun "Diplom-İs" dondurma şirkəti ilə müqaviləsi var.

–Bu, doğrudan da, əla qutudur, – Yan təşəxxüslə dedi və gündə yanıb qaralmış əlini qutunun dalğalı qapağına çəkdi.

Doğrudan da. Amma qutu çadıra araba


e-kitab.org

ilə aparılmalı idi. Biz onu Hansdan götürməli olduq. Hans artıq burada idi və anamla rəsmi tonda danışmağa başladı. Sonra da dedi ki, fru Cekobsonu bir də görməyə şad olardı. Anamsa gedəcəkdi deyə Lindanı qucaqlayıb xudahafizləşməkdə idi, nigaran görünürdü. Mən bir addım
o yanda bulud kimi tutulmuşdum. Anam bunu görməyə bilməzdi.

– Bilirsən, Finn, mən səni çox sevirəm, – o dedi. – Qucaqlasam da, qucaqlamasam da.

Mənə elə gəldi ki, bu, bir növ lütfkarlıq və barışıq jestidir, anam kiməsə bunu nümayiş etdirir, amma bu sözlər körpü və adamla dolu gəmilərin göyərtəsi üzərində elə riqqətlə yayıldı ki, daha heç nəyə ehtiyac qalmadı. Yəni, nolar, qucaqlamadı, qucaqlamadı da. Məni nə qədər sevdiyini təkrar-təkrar deyirdi ki, ətrafda bu sözlərə "kar olan" varsa o da eşitsin, bilsin. Sonra göyərtəyə qalxdı, gəminin arxa tərəfindən, öz güllü paltarında mənə əl elədi. Nəsə bu səhərdən gözüm su içmədi, mənə elə gəldi ki, burda bir yanlışlıq var. Adada olanda, o, bikini və çimərlik paltarı geyinirdi, yəni şəhər geyimi, uniforma. İşlədiyi ayaqqabı dükanında, asfalt küçələrdə geyindiyi kimi. Mən və Linda yanında olmayanda geyindiyi kimi. Bir azdan qayıq yenidən şimal səmtə yol aldı.

İndi də mən kiminsə arxasınca baxa-baxa qalmışdım, üfüqdə itməkdə olan birisinin arxasınca. Öz-özümə deyirdim ki,


e-kitab.org

istəsəm, bu saat dənizə atılıb onun arxasınca üzə bilərəm, bu andıra qalmış qayığı tutub saxlaya bilərəm. Hər halda, xəyalımda belə düşünürdüm, amma bundan vaz keçdim, başqalarının arxasınca mən də Deyziyə qayıtdım. Gözlərim yaşla dolmuşdu, bu saat ağlayacaqdım, amma elə bil toxtadım. Göz yaşlarım içimə axdı. Demək, elə pis də deyildi. Amma bəlkə pisi elə göz yaşlarıının içimə axması idi. Mənim üçün bunlar hamısı təzə idi, yavaş-yavaş gəlirdi, hər nədirsə son altı ayda içimdə bir uçunma baş verirdi. Birdəfəlik aydın olurdu ki, mənimlə anam arasındakı məsafə getdikcə artır, elə bil görünməz bir əl bizi son ayrılığa hazırlayırdı.

Sonra, doğrudan da, gözlərim yaşla doldu, Amma ağlamaqdan kimə fayda olub ki? Ağlamağımı bir adam gördüsə də, bu adam, əlbəttə ki, həmişə ayıq-sayıq olan Marlen idi. Yaxınlaşıb yanımda oturdu, dedi:

– Hər şey yaxşı olacaq, görərsən...

Bu sözlər bu saat onun deyə biləcəyi ən pis sözlər oldu. Bəlkə də sözlərin intonasiyası ağrıtdı qəlbimi. Hönkürdüm.

– Nə yaxşı olacaq?! – dedim. Lap sabun operalarındakı bədbəxtlərə oxşayırdım. Marlenin üzünə baxa-baxa “nəyin” yaxşı olacağını fikirləşirdim. Onun üzündə iki şeyi aydın oxudum: mən məsələdən nə qədər xəbərdaram ya da belə deyək – nə qədər az xəbərdaram. Sonra o ən yaxşı variantı seçdi. Bir az sonra o, şübhələrimi dağıtmaq üçün


e-kitab.org

qamətini düzəldib təxminən belə dedi:

– Özünü ələ al, Finn. Öz işlərini yoluna qoymaq üçün anana bir-iki gün vaxt lazımdır. Narahat olma.

Marlen fındıq kollarının arasındakı cığıra tərəf üç addım atdı, çevrilib əl elədi, sözlərini elə tərzdə təkrar etdi ki, bilmək olmurdu, mənimlə razıdır yoxsa yenə müzakirəyə ehtiyac var. Bir şey aydın idi – artıq-əksik danışmadan gedib düşərgəni ona göstərməliyəm.

Demək, belə, bu dünyada güvənə bildiyin bircə adam varsa, o da Marlendir. Marlen daşdır, qayadır. Kaş anam da belə olaydı. Marlen qasırğaya düşən yavru bir göyərçin deyil ki, hər an vəhşi dalğalar onu kamına çəkə bilsin. O bütün günü üstündə gəzdiyin torpaq kimi möhkəmdir. Səni heç vaxt darda qoymaz. Əhvalını həmişə yaxşı saxlamağa çalışır, qorxu nə olduğunu bilmir. Gərək belə anamız olaydı! Məsələn, gör Borislə necə davrandı. Boris bizim çadıra gəldi, başladı dil boğaza qoymadan düşərgə haqqında bildiklərini Yana izah etməyə. Amma Marlen onu susdurmağı bacardı.

– Boris, daha qaç, get başqaları ilə bir az oyna, – ciddi bir təbəssümlə Borisə dedi. – Mənim Finnlə bir az söhbətim var. – Mənə tərəf dönüb: – Finn, sənə bir məktub verəcəyəm, – dedi.

Boris dinməz-söyləməz oradan uzaqlaşdı, mən Oskar dayımın Milad bayramında bizə hədiyyə etdiyi primusun necə işlədiyini onlara danışmağa başladım.


e-kitab.org

Burdan klapanı açırsan, spirti tökürsən, burdan düyməni basırsan, yandırırsan və sair və ilaxır. Hə, Marlen deyirdi mənə məktub verəcək.

Lap yadımdan çıxmışdı. Mənim planım. Məktub Birinci Fredidən idi, həyatımda aldığım ilk məktub. Əlbəttə, Linda haqqında olan məktubu nəzərə almasaq. Amma onu da bilirəm ki, o məktub anama aid idi. Hətta Birinci Fredidən olsa belə, bu məktub da normal bir məktub deyildi. Məktub zərf'in içində olar, üstündə ünvan yazılar, möhür vurular, bu isə ortadan qatlanmış bir vərəq kağız idi, vərəqin kənarları da cırılıb tökülmüşdü. Kağızda baş hərf'lərlə, tünd göy rənglə iki sətir yazılmışdı: "MƏN TƏTİLƏ GETMİRƏM. MƏN PODŞİPNİKLƏRLƏ MƏŞĞUL OLACAĞAM".

Beləliklə, Marlen mənim planımdan agah oldu. Mənim planım belə idi: Kristian Birinci Fredini tapsın, podşipnikli dəri kisəni ona versin, o da bunun əvəzində qayığa oturub adaya – mənim yanıma gəlsin. Anamla Linda çadırımızın yuxarı başında ikisi yatanda o da mənimlə çadırın qabağında – talvarın altında yatsın. Mən axı tək idim, istəyirdim mənimlə yoldaşlıq eləsin.

Marlen təsəvvür etsəydi ki, Birinci Fredinin bu plandan imtina etməsi diqqətimi anaının bu gedişindən yayındırar, düz də eləyərdi. Amma mən bəzi şeyləri başa düşdüm. Başa düşdüm ki, nə Kristian, nə də Marlen Birinci Fredini yanıma gəlmək


e-kitab.org

üçün inandırmağa çalışmayıblar, əksinə, onlar, ola bilsin anamla məsləhətləşəndən sonra, onun buraya gəlməkdən imtina etməsini məsələnin məntiqi sonucu kimi qəbul ediblər. Bu isə o deməkdi ki, çox güman, Kristian sirrimizin üstünü açmışdı. Birinci Fredi belə üzüyola adam idi, o özü də buna şərait yaratmışdı, bax, bu məni çox hirsləndirirdi. Digər tərəfdən, onu da bildim ki, əgər onun məktubunu dünən alsaydım, mən bu oyuna düşməzdim. Dünən hər şey yaxşı idi. Anam elə belə də deyirdi: "Onun gözlərində nəsə əcaib bir parıltı var".

Bu sözlər heç xoşuma gəlməmişdi.

Odur ki, Marlendən də, Yandan da gen gəzməyi qərara aldım. Yan qolları çırmalanmış, ağ-mavi zolaqlı sviter geymişdi. Buzun necə yanmasını göstərirdi bizə. Bir işə bax, bir parça buzu bir vedrə suyun içinə salırsan, buz suda ərimir, su qaynamağa başlayır, çünki o buz parçası suya tamam başqa bir enerji gətirir. Lap möcüzə idi, təəccüblənməmək mümkün deyildi. Tez qaçıb Borisi çağırdım, yəqin, o da quru buz parçası haqda heç nə bilmirdi. Başladıq bu parçası ilə eksperiment aparmağa, amma Marlen dedi ki, bu işdən əl çəkməsəniz həftənin qalan günləri yalnız isti süd içəcəksiz.

Sonralar, Borislə mən Deyzidən bir az uzaqlaşanda mən Birinci Fredi barədə ona danışdım, axı, anaının məni pis vəziyyətdə qoyduğu kimi, mən də Birinci Fredini unuda bilməzdim. Hər şeyi danışdım: o nəyi


e-kitab.org

xoşlayır, nəyi xoşlamır, əlindən nə gəlir, nə gəlmir, necə yeriyir, necə danışır. Çimərliyə enib sahilə gedəndə də, dənizdə gəzəndə də, yengəc tutanda da elə hey ondan danışırdım. Qayalıqda uzanıb göyə baxa-baxa onu yada salırdım. Çünki dünyada Birinci Fredi kimi az-az adam olardı.

Heç demə Borisin də Birinci Fredi kimi bir dostu varmış. O da dostundan danışırdı. Futbol oynayanda, "Şişman"a baxanda ondan danışırdı mənə. Bir dəfə "Şişman"a tamaşa edəndən sonra qayalıqdan dənizə enəndə qəfildən Hansla qarşılaşdıq. O bizə elə əyri-əyri baxdı ki, ürəyim qopdu. Onda gördüm ki, Boris heç bir zərrə də qorxmadı. O da eyni sərt baxışlarla Hansa baxdı. Onda başa düşdüm ki, iş üstə tutulan biz deyilik, Hansdır. O boyda kişi, töhmətə, qınağa o daha çox layiqdir, nəinki biz uşaqlar.

Belə şeylərlə təkcə biz qarşılaşmırdıq, başqa tanışlarımız da bunları bilməli idi, biz isə onları pis vəziyyətdə qoya bilməzdik. Məsələn, biz Marlendən, Lindadan bir təhər uzaqlaşıb, körfəzi üzüb keçir, qayalıqda otururduq. Onlarsa ikisi anamın tutduğu bu məkanda uzanıb dincəlirdi. Linda indi sualtı qayıq kimi üzürdü. Kəmərsiz, amma dayaz yerlərdə üzürdü. Suyun üzünə yalnız nəfəs almağa, həm də gec-gec çıxırdı. Çıxıb gözləri yumulu halda bərkdən gülür, dənizin şor suyunu dilinin ucu ilə ağzının kənarlarından silib təmizləyirdi. Günlət keçdikcə o qaralır, yanır, dərisinin rəngi əsmər olurdu. Bədəninin açıq qalan yerləri


e-kitab.org

mənim bədənimdən də çox qaralmışdı. Bir yerdə dayana bilmirdi, elə hey ora-bura qaçır, bir neçə gün qabaq bizim guya xəlvəti dırmaşdığımız yerlərə dırmaşırdı. Çimərliyə qaçır, ətrafı gəzib-dolaşırdı. Heç çəkinib eləmirdi. Tezliklə ayaqlarının altı elə bərkidi ki, meşə cığırlarında, ilbiz, molyusk olan yerlərdə də ayaqyalın gəzməkdən qorxmur, üşənmirdi. Norveç çimərliklərində isə bu onurğasız dəniz heyvanları çoxdur. Gəzməyi xoşlayan uşaqların ayaqlarının altı odun kimi bərk olur.

Səyyahlar heç yatıb dincəlmirlər. Səyyahlar, qaraçılar, bir də hindular. Yuyulmamış üzləri, solğun, codlaşmış saçları... həşərat dişləmiş dirsəkləri, dizləri cızıq-cızıq olur. Mavi dənizə baxdıqca gözlərimiz də mavi rəng alırdı. Günlər uzandıqca bu yay deyəsən ən uzun yay olurdu.


e-kitab.org

# 15

Elə hey buz parçaları göndərirdilər bizə. Ən gözlənilməz vaxtlarda bir də görürdün, ərzaq gəldi. Özü də çox-çox. Gecə lap xəlvət vaxtda bir qayıq gəldi. Alkoqol gətirmişdi. Hans onun gəldiyini bildi, amma nədənsə qabağını almadı. Qəfildən körpüdə balıqçı qayığından skumbriya satılmağa başlandı. Axşam çağı cavanlar yığışıb oynayır, "Sən onu əldə edə bilərsən" mahnısını oxuyurdular, kolbasa, sosiska, nabat satılan kiosk da açılmışdı. Futbol oynayır, sərt qayalara dırmaşırdılar. Eyni mahnının melodiyaları ilə yaşlılar da rəqs edirdi. Bəziləri zümzümə edir, bəziləri nə haqdasa mübahisə edirdi. Yanla Marlen möhkəm-möhkəm öpüşürdülər, lap fransızlar kimi. Boris, Linda və mən bir az aralı, qaranlıqda oturub baxırdıq. Bura bizim ada idi, bura isə rəqslərlə döyünən meydança – böyüklər üçün, əlbəttə. Qaranlıqda rəqs edənlərin baldırları toz-torpaqdan ağappaq olmuşdu.

"Şişman"i da gördük, amma ilk baxışda onu tanımamışdıq. Ətrafdakı adamlar arasında, qaranlıqda, tamam başqa bir geyimdə olduğuna görə. Ağ kətan paltar geymişdi, ayaqları, qolları gündə elə yanıb qaralmışdı ki, az qala yay axşamının qaranlığından seçilmirdi, kişilər onu bir-birinə ötürdükcə gah bu, gah o biri kişinin qolunda nəhəng qar dənəsi kimi fırlanırdı. Heç etiraz da etmirdi, sanki elə belə də olmalı idi. Biz bu yay axşamı ilə qaynayıb


e-kitab.org

qarışmışdıq, yaşa fikir verən kimdi, indi bizim yaşımız yox idi, indi bizim yalnız bədənimiz, ciyərlərimiz və bədənimizin ən uzaq yerlərinə güc və enerji paylayan qanımız vardı. Biz vardıq!

Bütün bu günlər ərzində biz bu sakit guşədə yaşamaqda idik. Adanın çadırlar qurulmuş qalan hissəsi daim dolub-boşalır, kirayəçilər üç gündən bir çadırlarının yerini dəyişir, həsədlə gözaltı etdikləri təzə yerlərə köçürdülər. Ya da gözləyirdilər ki, xoşlarına gələn filan yerdə çadır nə vaxt söküləcək ki, oranı tez tutsunlar və ya heç olmasa növbə ilə də olsa o yerdə bir-iki gün çadır qurub yaşasınlar. Üstəlik qorxurdular ki, birdən həmin bahalı yer xoşlarına gəlməz, bir gündən sonra oranı tərk etməli olacaqlar. Aydın idi ki, çox xoşladığınız bir yerdə iki gün düşərgə salanda o yerdəki tünlüyə də öyrəşməlisiz, ta ki, başqa bir yeri gözaltı eləyəsiz. İndi bilirəm ki, bunlar hamısı amansız bazar münasibətləri idi, maraqla, acı-acı izləyirdim bunları. Elə Borisin ailəsinin timsalında, onun ekzotik "əmi"sinin və gözəl, kürəyinə tez-tez günəş kremi sürtülən gəvəzə anasının timsalında. Bu qadın çox incə-mincə idi, üstəlik, hər əsən küləyə də çox həssas idi, yanında da Borisin üç qardaşı, üç də "əmi"si. Hamısı da bu köçəri həyata məhkum, bu arzuyla ki, haçansa günlərdən heç olmasa biri sakit və lütfkar keçəcək.

– Hər halda bunun bir mənası var, bu da bir işdir, – Borisin "əmi"si yanında


e-kitab.org

duran, özünün göstərişləri ilə çadırı açıb-yığan altı gənci, görünür, sakitləşdirmək üçün lap filosof sayağı danışdı. Ağzındakı siqaretin külü tərli, yanıb qaralmış qarnının üstünə tökülür, tez-tez əmrlərini verirdi. Əynindəki sıx, kiçik ölçülü tuman onsuz da heç nəyi gizlədə bilmirdi.

– Lap qoy üç gündən bir olsun, əslində, burada olduğumuz üç həftə ərzində tam bir həftə eləyir.

Bu sistem işləsəydi, yaxşı olardı. Amma hər kəs bilirdi ki, işləmir. Bəziləri daha çox vicdanlıdırlar. Hətta bəzən bütöv bir həftə puç olur, heç nə gətirmir adama. Lap Trotting Stadionu kimi. Kimə pul lazımdırsa o da udur. Ya da Birinci Fredi deyən kimi, "Cinayət cəzasız qalmır".

Amma belə şeylərin bizə dəxli yox idi.

Biz ətrafda baş verənlərə yalnız baxırdıq, qarışmırdıq. Çadırımızın yerini bir dəfə dəyişdik, metr yarım o tərəfə çəkdik. Su çantamız bütün yayı həmin ağacdan asılmışdı, tonqalımız da eyni daşların dövrəsində. Tonqal qalamaq qanunla qadağan edilsə də.

Şəhərdən gəlsək də, bu bizə bir üstünlük vermirdi, əksinə ayıb olardı. O mənada yox ki, çadırımızı söküb haradasa başqa bir yerdə quraq. Sadəcə, ayıb idi, yalnız özümüz bilirdik bunu, çünki Hansın məsləhətinə qulaq asırdıq, kimsə yerimizi soruşsa demirdik. "O tərəfdə"
– deyirdik. Ya da, sadəcə, "Bilmirik" – deyirdik.


e-kitab.org

Anaının bununla bağlı öz yanaşması vardı. Deyirdi ki, adada təzədir. Hətta heç çadırı da yox idi, sən bir
işə bax...

Amma indi çıxıb getmişdi, qayıtmaq da bilmirdi. "Bəzi işləri var? Bir-iki günlüyə?.."

Linda onu üç dəfə xatırladı. İlk dəfə suda üzərkən başını sudan çıxarıb anaını görməyəndə. Bir görəydiniz necə ağlamaq tutub onu, göz yaşları az qala sellənəcəkdi. Yoxsa ki, Marlenin yanında, doğrudan da, özünü yaxşı hiss edirdi. Marlen ona yay paltarı geyindirir, sonra da soyundurub ayrısını geyindirirdi. Elə bil, dükandan alınmış bir hədiyyə idi, kağızını açıb yenə bükürdü. Açır, yenə bükürdü. Bir azdan o özünə iki dost tapdı. Bizim dəhlizdə yaşayan həmin Enn-Berit kimi qızlar. Yaşca ondan böyük, adamı bezdirən qızlar. Lindaya sevimli bir ev heyvanı kimi baxırdılar. Linda isə bundan hirslənməyə başlamışdı. Amma onun öz içində də nəsə baş verirdi. Bəlkə də artıq baş vermişdi. Belə bir tədrici proses idi, nəsə baş açmaq olmurdu, ola bilsin sonra da gec olacaqdı, bir şey etmək olmayacaqdı. Bir gün Boris də getdi. Heç nə demədən, səssiz-xəbərsiz.

Həmişəki kimi, yuxudan erkən durdum, vedrə altında yuyundum. Dişlərimi təmizlədim. Nahar eləmədim. Yəqin, kimsə oyanmayacaqdı, Yandan başqa. Yan gecə başqa çadırlardakı şübhəli adamlarla görüşür, yalnız bundan sonra yatağına girirdi. Marlen gündüzlər çimərlikdə o


e-kitab.org

adamlarla rastlaşanda onlarla müəyyən bir çərçivədə salamlaşırdı.

Kempinqə tərəfə getdim, körfəz üzərinə enəndə yadıma düşdü ki, Borisin "əmi"sini ilk dəfə burda görmüşdüm. İndi burada bircə işıq yanırdı, ətrafda təzə, yaşıl otlar yastılanıb yerə yatmışdı. Draqevika tərəfə üz tutdum. Boris görünmürdü ki, görünmürdü. Bir saata qədər adada dövrə vurdum. O yox idi. Sonra Deyziyə qayıtdım. Marlen və Linda yuxudan oyanıb səhər yeməyi yeyirdilər.

– Anam haradadır? – soruşdum.

– Evdə... – Marlen ötəri dedi.

– Üç həftədir ki, o gedib, – dedim. Yüz faiz əmin idim ki, dediyim düzdür. Çünki körpüdə Borisin hansı qayıqla gedə biləcəyini öyrənmək istəyirdim, elə burdaca asılmış təqvimə gözüm sataşdı.

– Bir az uzana bilər...

– Nə bir az uzana bilər?

Başa düşəndə ki, mənim cavab almaq hüququm var, Marlen ciddi görkəm aldı. Çünki anam gedəndən bəri onu heç xatırlamamışdım. Hər nəsə, onu xatırlamamağım ona inanmağımdan irəli gəlirdi. Cavab almadım, elə bil o həmişəlik getmişdi.

Həmin gün yağış başladı. İlk dəfə deyildi ki. Amma indi elə bil göylər xəlbirə dönmüşdü. Çadırın içində oturub yağış damcılarının brezenti necə döyəclədiyinə qulaq asırdıq. Kart oynayırdıq. Kempinqdə gündə yanıb qaralmış bədənimiz primusun


e-kitab.org

ala-qaranlıq işığında bir az da qaraya çalırdı. Səkkiz kart oyunu oynayırdıq. Bu, Lindanın bildiyi yeganə kart oyunu idi. İstəyirdik ki, o udsun. O isə buna həvəslənir, hər şey doğru hesab edirdi. Durub talvarın altına keçdim, uzun şortiki geyinib yağışda bayıra çıxdım. Palçıqlı cığırla, yağış gölməçələrinin arasında keçib tutqun kempinqi dolaşmağa başladım. İns-cins görünmürdü. Bizim əbədi çimərlik isə yenə yerində idi. Kimsə yox, heç nə yox, yalnız yağış...

Dənizə girdim, su təəccüblü dərəcədə ılıq idi. Üzməyə başladım. Üzdükcə üzdüm. Geriyə boylanmadan. Adanın burnuna tərəf baxmadan, o yerdə ki, sahilə çıxıb "Şişman"a baxırdıq. Düz qabağa üzürdüm. Gedirdim, yalnız irəli. Adadan uzaqlaşırdım, hər şeydən uzaqlaşırdım...

Amma heç demə tək deyiləmmiş.

Marlen arxamca gəlirmiş. Səssiz-səmirsiz gəlirmiş. O yuxudan durub, dalımca gəlmiş, sakitcə mənə yaxınlaşmışdı. Yaxınlaşıb lap yanaşı üzürdü mənimlə.

– Gözəldi, elə deyil? – mənə baxmadan dedi.

Mən də ona baxmağa bir səbəb görmədim. Üzməyə davam etdim.

– Sən çox ağıllı oğlansan, – Marlen dedi. – Sən hər şeyi əvvəldən bilirdin, yox?

Heç demə mən indiyə kimi heç nə bilməmişəm, amma bu sözdən sonra başa düşdüm ki, indi mənim edə biləcəyim bir şey varsa o da üzməyə davam etməkdir.



e-kitab.org

Marlen arxası üstə çevrildi, sürətini azaltınadan üzməyə davam etdi. Üzünü yuxarı – yağmaqda olan yağışa tutdu. Dənizin səthi yağış damcılarından boz - rəngli, oxlu kirpiyə bənzəyirdi. Meşə ətəyində dənizə axan boz-bulanıq selin gurultusu gəlirdi. Sel qabağına çıxan milyonlarla yarpaq və şax budağı özü ilə gətirirdi. Elə bil, səmadan meşə və dəniz üstünə qum-çınqıl, daş axını gəlirdi. Marlen dedi:

– Anan xəstəxanadadır, bir az müalicə olunmaq istəyir. Elə bir şey deyil. Sadəcə, istəmədi ki, siz uşaqlar narahat olasız...

Bu saat məndən söz qoparmaq olmazdı. İndi mən də kürəyim üstə üzürdüm, ağzımı açıb yağış damcılarını udmağa başladım. Hiss etdim ki, yağış damcıları daha soyuqdu, dənizin suyu isə getdikcə istilənirdi.

– Amma əlbəttə, bu yaxşı deyil, – Marlen əlavə etdi. Bayaqdan yağışlı-tufanlı dəniz bir anda sükut a qərq oldu. Bax, elə bu saat, buradaca elə hönkürüb ağlamaq olardı ki! Ətrafda heç kim yoxdu. Marlen indi səsinin ahəngini dəyişdi, dedi:

– Bilirəm ki, sənə əvvəlcədən, ucundan-qulağından deməli idim.

– Nə deməli idin ki? Nəyi?

– Anan haqqında... – o dedi.

– Hə, onu deyirsən... – dedim. Hiss etdim ki, namünasib bir vəziyyət yaranır. Axır ki. Çoxdan demək lazım idi bunu. Qət etdim ki, bu bir də təkrar olunmamalıdır.



e-kitab.org

İçimdə qabaran hiddət və heç nə edə bilmədiyimə görə duyduğum ümidsizlik içində idim, "İndi neyləyim? Marlenin köksünə bıçaq saplayım yoxsa acı-acı ağlayım, o da mənə ikinci Linda kimi təsəlli versin?" Axı mən daha uşaq deyildim. Amma hər halda uşaq idim. Nə uşaq, nə də başqa heç kim olmaq istəmirdim.


e-kitab.org

# 16

Görünür, tətildə belə olur. Özünü bir kimsə zənn edirsən, amma guya haradasa başqa bir yerdə yaşayırsan, ətrafda tanımadığın, müxtəlif adamlar, Traverveynin hər iki tərəfində ucalan binalara oxşar evlər. İki məğrur dağ silsiləsinə bənzəyən bu evlərdə analar da var, uşaqlar da. Amma onlarda xəyanət də var, dostluq, mehribanlıq da. Bunu dərk etmək dərin inqilabı bir anlayışdır. Düşünə bilərsən ki, bu sənə bir xəbərdarlıqdır, çünki anlayışların bir tərəfdən dağılır, uçulur, əvəzində yeni anlayışların yaranır.

Yuxudan oyandıq. Yağış öz işini görmüşdü, günəş həmişəkindən də parlaq idi. İlk dəfə idi ki, saf, aydın havada materiki görə bilirdik. Mən Birinci Frediyə qartalların məskənini göstərdim. Gələcəyi görə bilən bu quşlar gələcəyi gördükləri üçün də yaşamağa bir səbəb görmürlər, amma yenə yaşayırlar. Əjdahanı, "Şişman"ı da göstərdim ona. Futbol meydançasını göstərdim, topu necə oynatmağı başa saldım. Biz həmişə bir komandada oynayırdıq, Qenq FK-da. Mən az qala Boris olmuşdum, onun kimi hamını dost hesab etməyə başlamışdım, amma bu haqda kütbeyin, kiçik bacıma bir şey demirdim. Linda anamız haqda heç danışmırdı, bu itkini, deyəsən, heç başa da düşmürdü, mənim niyə hirsləndiyimi nə başa düşəydi. Mən bu sirri özümdə gəzdirirdim, amma bu



e-kitab.org

sirr içimdə artır, böyüyür, nəbz kimi döyünürdü. Deyə bilərəm ki, biz burada veteran olmuşduq, atılan kəndirləri tutur, bağlayırdıq, trapı düzəldir, təzə gələnlərə hərdən də gülürdük. Mən belə bir qənaətə gəldim ki, əgər sən özünün yaxşı olduğuna şübhə edirsənsə özündən soruş ki, sən ürəyini deşən bir sirri, tutaq ki, lap başqasının sirrini saxlaya bilirsən ya yox.

Sonra da yay bitdi.

Qayıq yola düşürdü. Bizim qayığımız. Yüzlərlə adamın adadan necə ayrıldığını, yola düşdüyünü görmüşdük. Hərdən fikirləşirdik ki, bir gün biz də adadan beləcə ayrılacağıq. Adadan bu sayaq evə getmək lənətə gəlmiş bir evdən iri bir pianonu çıxarmaq kimi gəlirdi bizə. Keçmiş geri qayıtmayacaq, uşaqlıq illəri qurtardı, ümidlərimiz boşa çıxdı, mən – o sadəlövh və bəxtəvər uşaq bir aydan sonra evə gəlirəm. Anamla birlikdə. Arsız bir yetim kimi evə qayıdıram. Relslərə baxa-baxa. Nesodden yarımadası sahilləri boyunca, paslı, nəhəng, tövşüyə-tövşüyə hərəkət edən gəmilərə baxa-baxa. Gəmilərdə iynə atsan yerə düşməz, tətildən qayıdan, günəşdə qaralmış insanlar...

Arxamızda çanta, əlimizdə bağlamalar, buz qutusu, avtobusun az qala tropik bürkülü salonunda şəhərin mərkəzindən keçərək Oslonun mərkəzinə – Refstada yetişirik. Burası var ki, indi nə quru buz parçaları, nə də qurudulmuş sosiskamız var. Dizel iyi ilə dolmuş havada bir-iki dəqiqə


e-kitab.org

gözləyirik. Nəhayət, Trondheymsveyn boyunca uzanıb gedən binaları, Traverveyndəki evlərimizi görürük. Görüb tanıyırıq. Bu bizik. Elə bil özümüzü də yenidən tanıyırıq.

Nəinki özümüzü tanıyırıq, hətta başımızı bulayaraq bir qədər təəssüflənirik də – doğrudanmı bu evlər elə necə var elə də qalıb, heç dəyişməyiblər, qəribə şəkildə sakit-sakit durublar. Dünyanın əsl rəngini, şəklini dəyişən elə həmişə sakitlik olmayıbmı? Qışda qarın sakitliyi. İş tətilindən sonrakı sakitlik. İndi də bu sakitlik, amma bizim olmayan sakitlik. Çünki biz onun içində deyilik, gəlib lap onun yanında dayanmışıq, çantamızla, şeylərimizlə, yay günəşinin yandırıb qaraltdığı qol-qıçımızla, bədənimizlə onun içinə girməyə hazırıq. Yeriyib şəhərimizə daxil oluruq, amma tanımırıq onu, çünki aydındır ki, bizsiz də o bizimdir. Həmişə bizim olub. Gülümsünürük, bir az həyəcanlı və bir az sıxılaraq. Amma daha gözləmək olmur. Yüyürüb içəri giririk, qaçırıq, qışqırırıq. Blokda, dəhlizdə səsimiz əks səda verir. Yayılan əks sədanı dinləyirik... Lap dağlardan gələn bir adam kimi.

Burada bizi qarşılamağa kimsə yoxmu?

Deməк, yoxdur. Evdə qalanlar balkona, dəhlizə çıxıb tətildən qayıdanları qarşılamırlar. Adamlar bunu yaxşı bilirlər. Heç vaxt cənnətdə olmasalar da, bilirlər. Bura yer deyil ki, cənnətdir. Bax, bu nəzərə alınır. Odur ki, mənim burada olmamağımla


e-kitab.org

bağlı cəfəng şeylər demək lazım deyil!

Amma, deyəsən, heç olmasa məktub var. Mətbəxdə, stolun üstündə. Ətrafda məktubdan başqa heç bir həyat əlaməti görünmür, ona görə də Yan balkonun qapısını, mətbəxin pəncərəsini açır, yayın son günlərinin havası içəri dolur, divarlardakı kəsif iyini bayıra qovur. Bir ay qabaq adada çadırın havasını biz də beləcə dəyişərdik. Amma nə faydası? Burada olmalı insan ki yoxdur. Kirayənişin də yoxdur. Təkcə bu lənətə gəlmiş məktub. Marlen məktubu asta-asta, intizarla açır, belə hallarda adətən hərəkətlərini gizlədir. Amma məndən niyə gizlətsin? Zərfdən qatlanmış bir vərəq çıxarır, bizə göz yetirib məktubu oxuyur. Sonra:

– O bir neçə gündən sonra burda olacaq, – deyir.

Mən yayın öyrətdiyi kimi edirəm, yəni, həmin cənnət məsələsi.

– Ver baxım.

– Nəyi?

– Məktubu, – laqeyd halda deyirəm. Özüm oxuyub bilmək istəyirəm, görüm, o, doğrudan, xəstədirmi. Marlen məktubu vermir.

– Məktub mənə yazılıb, – o məni başından eləyir.

– Yaxşı, – deyib öz otağıma gedirəm, qoy anaının hələ evə gəlmədiyini eşidib mısmırığını sallayan Lindanın səsini eşitməyim. Hələ bu gün səhər saat doqquzda adadan evə gəlməyə yığışarkən



e-kitab.org

Marlendən bu xəbəri eşidəndə Linda anaını görəcəyinə çox sevinirdi. Linda heç evə getmək istəmirdi, dənizdən, çadırdan, bu gözəl adadan ayrılmaq istəmirdi. Amma onu dilə tutduq, dedik ki, "gələn il də gələcəyik, gələn yay daha yaxşı olar, indi isə evə, anamızın yanına getməliyik", qız sakitləşdi. Qayıqda da evə çatmağa tələsirdi, avtobusda, yolda elə hey "Haçan evə çatacağıq?" deyə soruşurdu. Evin pillələrini çıxanda da az qala qaça-qaça evə gəlmişdi. Amma gəlib bu lənətə gəlmiş məktubu görəsən?! Marlen də onu aça, sonra səfeh-səfeh oxuya və gözləri şübhəli-şübhəli parlaya. Mən heç o məktuba baxa bilmirəm. Eşitmək istəmirəm. Otağıma gedirəm, amma onu açıb, oxuya bilməməyim məni nigaran qoyur. Məktəb çantaını çarpayının üstünə tullayıb pəncərəni açıram, pəncərədə oturub dizlərimi qucaqlayıram. Uzaqdakı dağlara baxa-baxa fikrimdən keçir ki, kaş Birinci Fredi də öz pəncərələrindən baxıb məni görsün, tanısın. Amma o baxmır. Birinci Fredi yenə özünə sadiqdir. Amma Borisin "əmi"sinin diliylə desək, bunun da öz mənası var.


e-kitab.org

# 17

Bizim binada hər cür adam var. Kor boksçu və gözləri heç də yaxşı görməyən taksi sürücüsü. İki ahıl bacı, onların da bir boz alman ovçarkası var, it qəzet sözünü eşidən kimi hürməyə başlayır. Bizdə adamlar var ki, hər payız 123 litr mərsin suyu düzəldir, hamısını da içib qurtarırlar. Yaramaz uşaqlar dəstəsi var – su novlarını dağıdır, ağaclara çıxır, komalar düzəldir, amma pəncərələri sındırırlar. Adamlar var ki, butulka qapağı, kibrit qutusu və pivə yarlıqları yığır, amma kartlara heç vaxt əl vurmurlar ki, onlar allaha xoş getməyən şeydi. Burada adamlar var ki, kəkələyir, dili dolaşa-dolaşa danışır. Kar adam var ki, pillələri qalxa-qalxa fit çalır. Bir xanım var, ağzı qurd cəhənginə oxşayır. Ailəli bir kişi var, hər yazda bir "Moskviç" alır ki, altınışıncı illərə sadiq olduğunu göstərsin. Adamlar var ki, Yeni İl fişənglərini evlərində partladır, qapılarını təpiklə açırlar, asfalta kəllə vururlar. Hətta bir-iki sağçı seçici də var. Burda kim yoxdu ki? Əsl planetdi, altınışıncı illərin qoynunda asta-asta fırlanan bir planet. Bu illər o illərdi ki, şlyapa və paltonu gitara mahnılarına dəyişdi, bu illər ərzində kişilər özünü oğlan kimi, evdar arvadlar özünü qadın kimi hiss etməyə başladı. Bu on il köhnə və nimdaş şəhərlərin simasını dəyişdi – dəyişməz, toxunulmaz yaddaşı ilə sanki sürətlə, dördnala çapan müasir bir şeyə çevrildi.



e-kitab.org

Altsaymer xəstəliyi, genetik qocalma – huşsuzluq bəlası, Norveç mədəni inqilabı, sosial rok cingiltiləri, hətta koordinatlar sisteminin də işə yaramadığı illər... Təsəvvür edirsiz, altmışıncı illərdə donuzu trubanın bu başından salırdın, o biri başından kibrit qutusu çıxırdı. İmkanları həddən artıq şişirdilmiş, ikiüzlü və anlaşılmaz olan bu on il – həm də mənim illərim.

Sonra, anam evə qayıdır, bizdən dörd gün sonra. Dörd gündür ki, biz Marlenlə birlikdə yaşayırıq bu evdə. Xəbərsiz-ətərsiz yox olan anam. Baxışları necə də yadlaşıb. Rəngi solub, amma təzə, tamam başqa bir paltardadı. Heç özünə oxşamır, saçlarını da qısa kəsdirib. Bizi qucaqlayır, gözləri dolur, ağlayıb deyir ki, bizi bir an da yaddan çıxarmayıb, darıxıb bizdən ötrü. Nəvazişini mənimlə Linda arasında bölür, amma Linda istəyir ki, anam bütünlüklə onun olsun, qısılıb anamın köksünə, ayrılmaq bilmir. Bu mənə də ləzzət eləyir, baxıb bir az gülüşürük. Anam deyirdi ki, mədəsində, qarnında ağrılar var, amma indi elə bil yaxşıdır, sağalıb. O indi evdədir, yanımızda. Məchulluqdan qayıtmış anam. Deyir ki, qarnında naməlum ağrılar vardı, odur ki, elə özü kimi "günahkar" oğlunun dediklərini eşitməlidir.

– Heç bircə sözünə də inanmıram.

– Nə? Nə dedin?

Qəribədir, böyüklər sənə ağ yalan deyir, sonra da biləndə ki, sən bu yalanı başa


e-kitab.org

düşürsən, başlayırlar səndən inciməyə, küsməyə.

– Sən Kristianla olmusan, – qeyri-ixtiyarı deyirəm, sözlər dilimdən necə çıxır, bilmirəm.

– Nə dedin? – anam özü də bilmədən kütbeyin sözlərini bir də təkrar edir. Marlen vəziyyətin gərginliyini dərhal başa düşür.

– Əlinizi göstərin ona.

– Nə?

– Sadəcə, göstərin.

Anam bilmir nə etsin, sonra çaşqınlıq içində sağ əlini qaldırıb qolundakı plastmas bilərziyi mənə göstərir. Lentşəkilli bilərziyin üstündə onun adı var. Birtəhər özümü ələ alıram, anamsa tez əlini geri çəkir, elə bil qorxur ki, daha nələrisə bilərəm, hiss edərəm.

– Bu nəyi dəyişir ki? – deyib üzümü çevirirəm, getməyə hazırlaşıram.

– Sən heç yana getməyəcəksən, Finn, – arxamca az qala qışqırır. – Ciddi deyirəm.

Demək, o belə fikirləşir. Finn gedir, hə? Finn – ana uşağı. O, pillələrlə aşağı düşür, həm də ayaqyalın. Avqustun 17-sidir. Hamı tətildən qayıdıb, hər kəs Çərşənbə günü, avqustun 18-də məktəbə getməyə hazırdır. Küçə uşaqlarla doludur, velosipedlər, səs-küy, ağız deyəni qulaq eşitmir, deyib-gülüşürlər, sevişmələr, küsüşmələr... yada düşür. Buyur, sən də qayna, qarış.

Birinci Fredi ağappaqdır, bir az da boyu uzanıb elə bil. Əlində podşipnik şarları var, ona-buna göstərir, qürrələnir, istəyir ki,


e-kitab.org

onu Raymond Uokarneqelə satsın. Amma Uokarneqel bilir ki, onlar Birinci Fredinin deyil, mənimdir. Ona görə də Birinci Frediyə deyir ki, onları sahibinə qaytarsın. Mən Raymond Uokarneqelin xətrini həmişə çox istəmişəm, yaxşı bir oğlandır, bu on il onu mənə belə tanıdıb.

– Onları saxlamaq üçün verməmişdim, – hirslə Birinci Frediyə deyirəm. O, əlbəttə, pis əməli üstə tutulub, lap elə anam kimi yalan deyir. – Sən onları sata bilməzsən, onlar mənimdir.

– Mən onları yenə alacaqdım səndən.

– Haçan?

– Bilmirəm.

Birinci Fredi fikrə getdi.

– Onları yenə sənə qaytarsam nə qədər verərsən?

– Axı onlar mənimdir!

– Nə olsun? Mən onları almışam! – Birinci Fredi bərkdən deyir. Görürəm, nəsə demək istəyir, dayanıb, sağ əli ilə cibini eşələyir. İndi Uokarneqel arxasını bizə çevirir, öz işləri ilə məşğul olur.

– On kroner, – təxminən deyirəm. Birinci Fredinin çənəsi əyilir. Deyəsən, onun qızmış beyni olsa-olsa otuz-qırx ere barədə fikirləşir. O, həmişə aza qanedir. Hə, həmişə. Lap nə qədər acgöz olsa da.

– Neçə?

– Onlar yüz kronerdən də bahadır, – deyirəm.

– Doğrudan? Səfeh-səfeh danışma.

– Doğru deyirəm, – bu dəfə Boris kimi,


e-kitab.org

laqeyd-laqeyd baxıb dillənirəm. Birinci Fredi inanır. O da bu cür gəlib dünyaya. Gərək aldadasan, yalan deyəsən, inansın. Sonra o, dəri kisəni dartır, qurğuşun kimi ağır, öz ağırlığında qızıla bərabər kisəni. Ağırlıqdan az qala dizə qədər aşağı əyilir, əlində tutub istəyir ki, ağzını açsın, mən fürsət vermirəm, tez kisəni onun əlindən alıram.

Əlbəttə, alıram.

Bu ki mənim kisəmdir. Qapıram əlindən. Amma heç yana qaçmıram. Öz malımdır, Birinci Fredi iki dəfə məndən böyük olsa da. O üstümə atılır, amma bu gün Birinci Fredinin günü deyil. Heç vaxt. Günlər heç mənim də olmayıb həmişə. Amma bu gün mənim günümdür. Dəri kisəni onun sifətinə çırpıram, o yıxılır, əllərilə üzünü tutur, yaşıl ləkəli barmaqları arasından burnunun qanı fışqırır.

Ətrafda hər şey sakitdir. Getmək vaxtıdır. Amma ayaqlarım getmir burdan. Sağ əlimdə dəri kisə. Birinci Fredi uzandığı yerdəcə qalıb, yəqin, fikirləşir ki, bu dəfə öləcək. Hər halda, bu dəfə ölməyəcək. O ayağa qalxır, dikəlir, mənə baxır, amma, deyəsən, tanımır. Onu tamam başqa birisi vurub, yerə yıxıb. Bu mənzərəyə xeyli adam baxır, yəni, avqustun 17-də Traverveyndə olan bütün adamlar, yəni, bütün küçə. Bir-birinə heç uyğun gəlməyən, bir-birinə bab olmayan, amma müharibə elan etmiş iki dosta baxırlar.

Hiss edirəm ki, ayaqlarımın altı titrəyir,


e-kitab.org

titrəyiş yavaş-yavaş yuxarı qalxır, qarnıma, çiyinləriməcən yayılır. Və birdən tanış bir səs eşidirəm:

– Fikir vermə, Finn.

Uokarneqel mübahisəni həll etmək istəyir, axı bu, dava deyil, sadəcə, anlaşılmazlıqdır.

Amma mənim əsəblərim cingildəyir, bilmirəm, Birinci Fredi ilə neyləyim. Elə hey düşünürəm – podşipnikləri birdəfəlik ondan alım, bu məsələyə son qoyum ya yox. Bütün günü bu haqda fikirləşirəm. Sümüyümə, qanıma işləyib bu. Hayana baxıram, Birinci Fredini görürəm, Kristianın mənə verdiyi və onun beynini xarab etmiş bu alətin törətdiyi bədbəxtlik haqqında düşünürəm. Axı, bu podşipniklərlə bağlı heç bir planım da yox idi, sadəcə, onları əlimdə tutmaq istəyirdim. Görüm onlar ələ necə yatır. Bir dəfə onları Birinci Frediyə verib onu dilə tutmuşdum ki, bizimlə yay tətilinə getsin. Həmin lənətə gəlmiş tətilə. O gün o podşipniklər elə bil əlimi-qolumu açan bir vasitəyə çevrildi, bir qatil çomağına, silaha döndü. Birinci Fredi də fəlakətə düşmüş beynimdə baş verənləri görür, onun baxışları fırtına qoynunda dualar kimi axır, axırdı.

– Finn!

Uokarneqel adımı necə lazımdır elə deyir. Əlimi aşağı endirirəm, ətrafa baxa-baxa hiss edirəm ki, özümə gəlirəm, ağlım başımdadır. Dəri kisəni əlimdə möhkəm-möhkəm qamarlamışam. Bütün bu həngamə nə üçün imiş – Birinci Fredinin məndən


e-kitab.org

oynatınağa aldığı bir şeyi özümə qaytarmaq. Qazondan ayaqyalın keçib blokumuza girirəm, pillələrlə yuxarı qalxıram. Yalın ayaqlarımla sərin daş pillələri birtəhər çıxıram. Anam mətbəxdədir, əlində çay dəsmalı, qəhvə fincanı ilə qarşıma çıxır.

– Bağışla, – deyirəm.

Öz otağıma keçirəm, Linda da burada, öz yatağında ona verdiyim şəkilli kitabı vərəqləyir. Vermişdim ki, məktəbə getməzdən qabaq hərfləri bir az tanısın.

Yanındaca uzanıb danışdırmaq istəyirəm onu. Bu hansı hərfdir, o hansıdır, bəs bu. Həmişə olduğu kimi cavab verir. Sonra hansı heyvanın adının hansı hərflə başlanmasına keçirik. Çalışırıq ki, kitabda veriləndən fərqli olsun. Əjdaha, yapalaq, donuz, şor su, palma süpürgəsi... Linda sözləri çox xoşlayır, uzun-qısa sözləri. Burnumu onun saçlarına yaxınlaşdırıram ki, görüm, axşam çimib ya yox. Linda bütün yayı mənə inanıb, amma mən ona həqiqəti deməmişəm, heç nəyi. İndi deyirəm:

– Bu, "H" (ayç) hərfidir, bəziləri ona "hayç" deyir. Bu düz deyil. Sən de, görüm.

Linda "ayç" deyir. Nənəmin Milad bayramında mənə hədiyyə verdiyi kartları çıxarıram, deyirəm ki, indi o, "vist" kart oyununu oynaya bilər. Bu, səkkizlik oyunundan daha çətindir, amma lazımlı bir oyundur. Amma Linda oynamaq istəmir. Mən onu dilə tutub kartları adyalın üstünə düzürəm, başa salmağa
çalışıram.


e-kitab.org

– İndi oynaya bilərsən.

O gah mənə, gah da kənara baxır, çalışır ki, boyun qaçırsın. Mən də geri çəkilmirəm. O öyrənməyə başlayır. Bu gün axırıncı gündür, sabah dərslər başlanır, tətilin sonuncu günü – hər şeyi dəyişən bir gün. Lindanın öyrənmək istəmədiyi bir şeyi ona öyrətmək cəhdim axır ki, sona çatır, nə mənim, nə də Lindanın başqa seçimi yoxdu. Anam qəfildən içəri girir, dayanıb bizə baxır, qəfildən də heç nə demədən otaqdan çıxır, sonra yenə qayıdıb bizə baxır, bilmək istəyir ki, biz nə ilə məşğuluq.


e-kitab.org

# 18

İlk dərs günü qapımızın zəngi çalınır. Biz sakitcə oturub səhər yeməyi yeyirdik. Anam gedib qapını açır, qayıdıb təşvişlə, az qala pıçıltı ilə deyir:

– Bu həmin dostundur.

Demək, anam Birinci Frediyə belə yanaşır. Məni fikir götürür, amma dəhlizə çıxıb dostumu qarşılayıram. Onun burnu şişib, gözlərinin altında iki qorxulu qançır qaralır, amma yenə də həvəslə gülümsünür. Deyir ki, məktəbə birlikdə gedək.

Mən onu içəri dəvət edirəm. Birinci Fredi yemək stolumuzu, anamı, Lindanı görür, arxasındakı çantanı çıxarıb həmişə kirayənişinimizin oturduğu yerdə əyləşir. Stolun üstündəki süfrəni gözdən keçirib deyir:

– Mən bir az keçi pendiri ilə yeyərəm. – Matı-qutu quruyan anam gülümsünür.

– Hə, əlbəttə, buyurun, – deyir ona. Sonra Birinci Frediyə bıçaq verir, arada mənə göz yetirir, yəni "bu necə davranışdı". Sonra soruşur:

– Üz-gözünüzə nə olub?

– Heç nə, – Birinci Fredi deyir, sonra çörəyinə marqarin yaxmaq istəyir. Mən xəcalətdən gözlərimi stolun altına dikirəm. Lap çox utanıram. İçimdə qəzəbqarışıq bir hiss baş qaldırır. Yaxşı ki, anam bıçağı ondan alıb bir parça çörəyə yağ yaxır. Birinci Fredi vaxt itirmədən loğmanı ağzına basır, çeynəyə-çeynəyə niyə gəldiyinin


e-kitab.org

səbəbini, deyəsən, deyir, amma güclə başa düşürük. Yenə podşipniklərdən danışır. Deyir ki, mən onlardan iksini ona vermişdim, istəsələr, sübut edə bilər.

O, tətil qabağı ona yazdığım məktubu çıxarır, məktubda yazmışam ki, mən həmin iki podşipniki ona verəcəyəm.

Amma bu o şərtlə yazılıb ki, Birinci Fredi bizimlə adaya getsin. O ki getməyib! Anamla Linda gah mənə, gah ona baxırlar. Nəhayət, ağlıma gəlir ki, fürsət var ikən qoy yenə əvvəlki kimi hərəkət edim. Odur ki, onunla razılaşıram, gedib öz otağımdan iki podşipnik gətirirəm, ona verirəm. Birinci Fredi onları alıb qançır olmuş gözləri ilə baxır, sonra cibinə qoyur. Sonra da deyəsən ki, "bir stəkan da süd istəyirəm".

– Buyur, – anam deyir, südlə dolu stəkanı onun qabağına qoyur. – İndi nə deyərlər?

– Təşəkkür edirəm, – Birinci Fredi və Linda eyni vaxtda xorla deyir. Gülüşürük, Birinci Fredi gülə-gülə südünü içir, az qala döşəməyə də dağıdacaqdı.

Sonra məktəbə yollanırıq.

Anam bütün günü ayaqqabı dükanında işləyəcəkdi, amma Linda ilk dəfə məktəbə getdiyi üçün o da bizimlə məktəbə getdi. Sonralar, Lindanın dərsləri bizimlə eyni vaxta düşsə bizimlə gedəcəkdi, bu olmayanda dəhlizin o başındakı əkizlərlə gedəcəkdi.

Həmişə olduğu kimi, heç demə diqqət verməmişəm. Kor olmuşam, anamın



e-kitab.org

yalanları və içimdə hələ də dövr edən bu son yay beynimi elə məşğul edib ki, Lindaya bir az uzaq qalmışam. Dərslər başlanandan ən azı bir həftə keçmişdi ki, bir gün məktəbin darvazasından uşaqların arxasınca gedə-gedə gördüm ki, Linda məktəbin "E" qapısına tərəf gedir, xüsusi təhsil verən siniflərə. Arxasında çanta, azacıq gülümsəyir. Yaxınlaşıb onu saxladım, dedim:

– Sən oraya getmirsən, yox?

– Oraya gedirəm.

Hiss edirəm ki, qəzəb məni boğur, tüklərim biz-biz olur. Başa düşürəm ki, demək, o hər gün buraya gedib, hər gün burada dərsə gedib. Demək, bir həftədir ki, o buraya gedirmiş. Heç fikir verməmişəm, çünki ondan yan gəzirdim, qaçırdım ondan, qorxurdum ki, gərək ona da baxım, göz yetirim, ya da onu birinci dəfə görənlərin qarşısında utanaram, xəcalət çəkərəm. Onun, sadəcə, balaca və köməksiz olması heç, qorxurdum ki, ola bilər onun daha böyük eybini görərlər, bilərlər.

Hirslə onun qolundan yapışıb meydançaya tərəf dartıram, ümidsizlik içində fikirləşirəm ki, yəqin səhv olub, ola bilsin o "S" girişinə tərəf getməlidir. Axı bütün birincilər bu qapıdan məktəbə gəlir, burada dərs keçirlər. Yox, səhv deyilmiş. Arxamızda bir müəllim görünür. Herr Semuelson. Boz köynəkli müəllim məktəbin giriş qapısına tərəf gəlir. Belə müəllimlərin sinfində az uşaq olur. Müəllim bərkdən


e-kitab.org

deyir:

– Tələs, Linda, zəng vurulub.

– Yox! – mən qanrılıb çiynim üstündən qışqırıram, Lindanı bu yana dartıram.

– Bağışlayın, necə yəni? – Semuelson deyir və bildiyim qədər, hiddətdən daha çox təəccüblə və cəld addımlarla bizə yaxınlaşır. Bir az cüssəli olsa da, daha çox bir qulluq adamına oxşayır, tutqun eynək taxıb, amma səsi çox yumşaqdır. Mənsə, deyəsən, olan-qalan ağlını da itirdim.

– Linda o biri səfehlərlə bir sinfə getməyəcək, – deyib qışqıraram. Linda ağlamağa başlayır. Bu anda Semuelsonun üzünün rəngi dəyişir, iri, tüklü əlilə boynumu qamarlayır. Onun rəhmsiz səsi indi nə yumşaqdır, nə də özü qulluq adamına oxşayır.

– İndi mən sənə göstərərəm, səfeh kimdir, bura gəl, yaramazın biri!

Və məni bir əski oyuncaq kimi meydança boyu sürüyüb bərkdən deyir ki, Linda da o biri uşaqlarla bir yerdə olmalıdır, dəftərlərini çıxarmalı, tapşırıqlarını yerinə yetirməlidir, səhifə on səkkizdən nəyinsə rəsmini çəkməlidir...

Bu yaşlı kişinin bütün varlığını üstümdə hiss edirəm, siqaret iyi, tərə qoxusu verən üst-başı və camış gücü ilə məni dartır. Əlindən xilas olmaq istəyirəm, amma nə fayda. Bir azdan biz direktorun kabinetinə çatırıq. Elə haldayam ki, onun dediklərini güclə eşidirəm. Amma direktorun səsini tanımamaq olmur.


e-kitab.org

– Orada otur!

Bu, Finstad idi, familiyası Flinstoun. Həmişə əlində siqaret görərdin, köhnədən qalan birisi idi, zəhmli görkəmi, boz dərisi vardı. Boz da kostyum geymişdi, saçını düz ortadan ayırmışdı, döşünün sol cibində iki yaraşıqlı avtoqələm vardı, biri göy, məktub yazmaq üçün, biri də qırmızı – əmrləri imzalamaq üçün.

Semuelson gedəndən sonra o məndən soruşdu ki, kasıblara, imkansızlara "səfeh" deməyin nə olduğunu başa düşürəmmi. Yarımçıq siqaretini hirslə söndürdü, başa düşdüm ki, bu saat ona məktəb meydançasında amansız uşaq qaydalarından danışmağın faydası yoxdur. Dedi ki, bu qaydalara görə, xüsusi sinfə gedən uşaqlar təkcə davranış və görkəmini deyil, paltarlarını da, valideynlərini də, danışıqlarını da dəyişirlər, bu fəlakətzadələrlə heç kim oynamır, heç kim danışmır, hətta qohum, doğma olsalar da. Məsələn, indiki halda olduğu kimi, hələ bacını demirəm, sap-sağlam birisi öz qardaşını tanımaq istəmirsə, bu, cəhənnəmlikdir, İncil də pisləyir bunu.

Amma elə bu ailə əlaqələri bu hadisəyə bir ayrı istiqamət verdi.

– O sənin bacındır? – Finstad təəccüblə soruşdu, stolun arxasına söykənib cavab gözləyirmiş kimi baxdı və başqa bir siqaret yandırdı.

– Hə, bacımdır! – bərkdən dedim. – O, əlifbanı da bilir. Bütün hərfləri bilir.



e-kitab.org

– Yaxşı, and içmə.

– Oxumağı da bilir! – təkidlə təkrar etdim. Hiss etdim ki, çənəmdən, boynumdan tər axır. O, yəqin, başa düşdü ki, onun qarşısındakına, sadəcə, güc tətbiq etmək lazım deyil, bu, daha çox isterik bir haldır. Ona görə də, təzə siqaretini də basıb söndürdü, ayağa durdu, gəlib partanın qırağında oturdu. Əllərini dizlərində daraqlayıb, mülayim bir səslə soruşdu ki, adım nədir, hansı sinifdənəm. Bu suallardan sonra məni yenidən hiddət bürüdü.

– Linda o sinfə getməyəcək!

– Bəsdir! Qurtar bu söhbəti!

– Dedim ki, Linda o sinfə getməyəcək. Heç vaxt!

Bu sözləri deyəndən sonra mən oturduğum yerdəcə qaldım. İndi o, başqa üsuldan istifadə etməyə başladı.

– Demək, deyirsən ki, o, oxuya bilir? Hmm... maraqlıdır...

Mən nəfəs çəkmədən tez başımla təsdiq etdim, sonra o, sənədlər saxlanan iri şkafa sarı getdi, oradan bir qovluq götürdü. Qovluqda iki vərəq kağız vardı. O, kağızlara sarı əyilib oxumağa başladı. Sonra kağızları yenə qovluğa qoydu, qovluğu da siyirməyə atıb zərblə itələdi. Oturdu, nəzərlərini bir müddət pəncərədən bayıra dikdi. Təzə bir siqaret yandırdı.

– Axı bunu ananız özü xahiş edib.

– Nə?!

O dediyini başı ilə təsdiq etdi, həm də iki-üç dəfə. Amma mən onu heç eşitmirdim.


e-kitab.org

– Sizə deyirəm, o, oxumağı öyrənib, bilir! – guya ki, axırıncı dəfə dedim. İki-üç dəfə siqaretini sümürüb sonra dedi:

– Əgər dediklərin doğrudursa, o, başqa sinfə keçiriləcək.

Sonra heç vaxt görmədiyim şey baş verdi. Flinstoun gülümsündü.

– Sənədlərdən görürəm ki, sənin anan işləyir, – dedi.

– Amma mən evdə olanda o həmişə evdə olur, – mən yalan dedim. Bilirdim ki, anaları işləyən uşaqların işi bir az çətindir.

– Dükanda?..

– Hmm.

– Dükanda telefon varmı?

– Bəli, özü də ikisi.

Telefon nömrələrini dedim, o yazdı. İki altırəqəmli telefon nömrəsini düzgün, ardıcıl deməyim onda xeyli razılıq hissi doğurmuşdu.

– Heç zəng eləmisən bu telefonlara?

– Xeyr.

– Amma nömrələri əzbər bilirsən...

– Bəli.

– Bu necə olur?..

Hiss etdim ki, onun bütün fikri mənimlə məşğuldur, yoxsa ki, telefonlarla bağlı bütün bu təfsilat nəyə lazım idi. Guya bu qoca dılğır bilmir ki, bu cür əsəbi hallar keçirən bütün uşaqlar lazım gələndə hər cür fəlakət qarşısında oyanır, fəallaşırlar. O dedi:

– Bu nə isə qeyri-adi bir şeydir.

– Nə?..



e-kitab.org

O yenidən gülümsündü, ayağa qalxdı, bayaqkı şkafa doğru getdi, oradan iki başqa vərəq tapıb çıxartdı. Nə sənəd idi, müəyyən edə bilmədim. Güman edirəm ki, mənim haqqımda olmalı idi. Freken Henriksenin bir dəfə məni necə sakitləşdirdiyi ilə bağlı xeyirxah qeydləri... Direktor onları oxudu, yenidən yerinə qoydu. İndi daha çox fikrə getdi.

– Orada anamla bağlı nəsə yazılıb? – mən güclə deyə bildim.

– Bunun ananla heç bir bağlılığı yoxdu, – o etinasız dilləndi, sonra göy qələmlə ağ vərəqdə bir neçə rəqəm yazdı. Vərəqi qaldırıb mənə dedi ki, rəqəmlərə diqqətlə baxım, sonra vərəqi stolun üstünə qoyub soruşdu ki, oradakı rəqəmləri xatırlaya bilərsənmi.

Mən birnəfəsə hamısını xatırladım. O, razılıqla irişdi, mənsə təəccübləndim ki, görəsən, rəqəmləri bu cür yadda saxlamaq qabiliyyətim Lindanın işinə müsbət təsir edəcəkmi. Bəlkə lap deyəydim ki, Norveç əhalisi ildə neçə litr su içir yaxud Ekern Cars & Buses şirkətində təzə “Hilmann” maşını neçəyədir – bunları mən Kristianla həmişə müzakirə edirdim – ya da, məsələn, İsveçdə ən yüksək dağ hansıdır. Bu, Kebnekayse dağıdır. Bunları yalnız sorğu kitablarından bilmək olur.

Hiss edirdim ki, özümə gəlirəm, hirsim soyuyur, amma elə bil həm də tamam çaşbaş qalmışdım. Elə o anda da başa düşdüm ki, direktor məni dilə tutub,


e-kitab.org

qəzəbimi soyutmaq üçün məni dilə tutub.

– Sən şahmat oynamalısan, – o dedi.

– Mən onsuz da oynayıram.

– Hə? Müntəzəm məşğul olursan? Harasa gedirsən?

– Necə?

– Yəni kluba-zada gedirsən?

– Yox.

– Veytvetdə yaxşı klub var, bilirsən?

Mən cavab vermədim. Söhbət bununla da bitdi. Direktor təzə bir siqaret yandırdı.

– Finn, indisə get dərsə, mən məsələni aydınlaşdıraram.

Ayağa durdum, hiss etdim ki, bədənimin təri quruyub, amma boynumda Semuelsonun barmaq izləri göynəyirdi. Çantaını kürəyimə keçirtdim, amma gedə bilmirdim.

– Əlbəttə, mən söz verə bilmərəm, – direktor deyib siqaretini nazik dodaqları arasında fırlatdı, elə bil daha dadlı yerini tapmaq istəyirdi, mənsə ayağa qalxdım ki, gedim.

Direktora təzim edib otaqdan çıxdım. Qəbul otağında qara, dar yubka geymiş, oval eynəkli katibə Fru Nilsen oturmuşdu. O da çox siqaret çəkirdi. Boş dəhlizdən keçib, qapını döymədən sinfə getdim. Kitablarıını çantadan çıxartdım. Yerimdə oturdum, mənə zillənmiş baxışlara əhəmiyyət vermədim, hətta Froken Henriksenin harada olduğumu soruşmağını da cavabsız - qoydum.

– Direktorun yanında idim, – təkcə



e-kitab.org

bunu dedim. Tanya bunu eşidib mənə tərəf baxdı, gülümsündü. Tanya mart ayından məktəbə gəlmirdi, təzə qayıtmışdı. Birinci Fredinin dediyinə görə, onun atasının sirk furqonu xarab olmuşdu, ya da daha nəsə baş vermişdi, bilmirdik.

– Sarının, Qırmızının, Qaranın evlərini bu gün səhər söküblər, – bərkdən dedim.

– Nə?

Freken Henriksen mənimlə heç vaxt yersiz ya da tənəli danışmırdı, düzünü desək, mən onun sevimli şagirdi idim, amma məktəbə gələndə yolda üç ahıl kişinin yan-yana durub uşaq kimi ağladığını gördüm. Onların daxmalarını uçurub dağıtmışdılar, bu, Lindanın məsələsindən də vacib idi.

– Muselund Parkının yanında üç kişi yaşayırdı, onların evlərini dağıdıblar, – dedim. – Özü də buldozerlə. Polis də orada idi.

– Doğrudan?

– Mən də dayanıb baxırdım. Hə, hə, baxırdım.

Gözlərimi yerə dikib guya ki, təsirlənmiş halda susurdum. Freken Henriksen iki daş arasında qalmışdı, bilmirdi bu Sarı, Qırmızı, Qara deyilən adamların məsələsinə fikir bildirsin, ya yox, ona görə də dedim ki, onları həbs ediblər, çünki Oslo Park və Qardens ərazisində qanunsuz daxma tikiblər, bu əraziyə isə yaşıllıq üçün ot əkmək istəyirlər. Həm də təkcə Muselundenddə yox, Trondheym



e-kitab.org

səmtində gözəl təbii mənzərələri olan o yamaclarda da. Uşaqlardan bəziləri də əl qaldırmadan bu məsələdə öz fikrini bildirmək istəyəndə Freken Henriksen evsizlik kimi sosial bəlanın müzakirəsinə başladı, belə adamlara “ehtiyacı olanlar” dedi. Birinci Fredi dilləndi:

– Siz avaraları deyirsiz də, elə deyil?

– Yox, Fred, onları demirəm. Mən o adamları nəzərdə tuturam ki, layiq olduqları diqqət və sevgini görmürlər, bəzi səbəblərə görə...

– Həəə, – Birinci Fredi bərkdən irişdi və hərəkətini hamıya göstərmək istəyirmiş kimi ətrafa boylandı. Bəziləri onun gülüşünə şərik çıxdı, amma mən yox. Xüsusən, bu gün heç yox. Düz qabağa baxırdım, gördüm ki, Freken Henriksen cəld addımlarla ona yaxınlaşır.

– Onlar müharibə vaxtı ticarət matrosu olub, – söhbətə qarışdım.

– Onlar nə edirlər ki? – Birinci Fredi söz atdı.

Freken Henriksen ayaq saxladı, özünü ələ alıb yerinə qayıtdı.

– Hə, Finn, deyə bilərsənmi “ticarət matrosu” nə deməkdir?

– Yox, bilmirəm. Onu bilirəm ki, nəsə müharibə ilə bağlıdır. Dayım da onlardan olub... indi odun... doğramaqla məşğuldur.

– Odun?

– Hə, o indi zirzəmidə odun doğrayır.

Freken Henriksen bizə müharibə vaxtı Norveç ticarət matroslarının acı taleyi


e-kitab.org

haqqında danışmağa başladı Xoşa gəlmək üçün demirəm, düzünü desək, hamımızı kədər bürümüşdü, bu kədərli sənədli filmlərin televiziyada nümayişi qəmli, hüznlü bir dəfn prosesinin acı və minor notları kimi qulaqlarımızda səslənirdi. İndi mən Tanyanın saçlarına baxa-baxa Freken Henriksenin səsinə qulaq asa bilərdim. Onun gözəl danışığı var, yaşlı adamlarda belə səs az olur. Anam da yaxşı danışır, amma hərdən adama boğaza yığır. Marlen arxayın danışır, nə olsa da, eyni tonda danışır, Yanın səsi də nazikdir. Kristian radio dili ilə danışır, Birinci Fredinin anası danışanda isə adam bir dəqiqə də dözə bilmir, qaçıb uzaqlaşmaq istəyir oradan.

Tanyanın uzun saçlarına baxa-baxa bunları düşünürdüm. Onun saçları elə bil parıltılı qara mürəkkəb kimi axıb tökülürdü. Partanın üstündən bir az irəli əyildim ki, qoxusunu alım. Bu ki çiçəklə neftin qarışıq qoxusudur, heç kimin saçı Tanyanın saçı kimi ətir saçmır. Heç kimin də belə gözəl səsi yoxdur. Heyf ki, az danışır. Doğrudan, çox nadir səsdir, oturub fikirləşirsən ki, nolar, qız, bir az danış, səsini eşitmək üçün ölürəm. Hələ Lindanın səsini demirəm, yadıma düşəndə heç bu barədə fikirləşmək istəmirəm. Amma bu saat freken Henriksenin lətif danışığı Leyf Anders Larsenin və onun komandasının xatirələrini vərəqləyir, sonra da hiss olunmadan soyuq müharibə dövrünə keçir, deyir ki, ona görə də, bizim hamımızın böyük dəmir qapıları


e-kitab.org

olan bomba sığınacağımız olmalıdır. Bu qapıları on iki yaşdan aşağı uşaqlar aça bilməməlidir. İndi nüvə əsridir və s. Elə bu yerdə o, Sarı, Qırmızı və Qara dediyimiz adamlara keçir. Görürəm ki, Birinci Fredi yerində qurcuxur, deyir ki, həmin Qara dələsini cavan qızlara göstərməyi xoşlayır. Amma hətta Birinci Fredi də bu gün nəsə tutulub, hətta o da Sarı, Qırmızı və Qaranın taleyinə biganə deyil.

Zəng vurulur, mən də Tanya ilə bir vaxtda ayağa qalxıram və bu zaman dirsəyim təsadüfən ona toxunur, bədənimdən sanki elektrik cərəyanı keçir və mən üzr istəyirəm ondan. Və deyirəm ki, bu yay mənim bir dostum vardı, o mənə belə hallarda necə davranınağı öyrədib. Bu an hardansa həmin adadakı "şişman" yadıma düşdü. Bəlkə bu bir təhlükə əlamətidir – biz insanlar niyə sadəcə maşın kimi sınmırıq, xarab olmuruq.

– Sən harada idin? – soruşuram ondan, bu zaman səsim titrəyir.

– Nə?

Biz onunla üç ildir ki, bir kvadrat metr yerdə otururuq, əlbəttə, onun səyahətdə olduğu son üç ayı çıxmaq şərtilə. Birinci dəfədir ki, onunla danışıram, odur ki, bir az söhbətimiz çətin alınır, amma sualımı təkrar edirəm.

– Rumıniyada, – deyir.

Heç vaxt belə səs eşitməmişdim.

– Hə, Buxarest, – tez deyirəm və bununla bağlı bildiklərini bir az da


e-kitab.org

genişləndirirəm. – "Dəmir Pərdə" arxasında olan ölkələrdən biridir, yox?

– "Dəmir Pərdə?" – Tanya ixtiyarsız dillənir, qaşlarını çatır. Bu sualın cavabını çox da bilmədiyimdən Rumıniya ilə bağlı söhbətimi uzatmaq istəyirəm.

– Siz ordansız?

– Yox, mən buralıyam.

– Oraya niyə getmişdiz ki?

– Atamla-anamla getmişdik.

– Onda onlar ordandır, hə?

– Hmm.

Bilmirdim, bundan sonra da sorğu-sualı davam etdirim ya yox, deyim ki, mən də burdanam, amma bu zaman uşaq meydançasına çatdıq. Bundan artıq danışmaq mümkün də deyildi, amma söhbəti axıra çatdırmaq da asan deyildi. Və birdən, işə bax ki, Birinci Fredi böyürdən çıxdı. Birbaşa soruşdu ki, biz nədən danışırdıq. Odur ki, Tanya baxışlarını asfalta dikib yavaşca bizdən uzaqlaşdı. Yaxınlıqdakı qızlara qarışdı. Şübhəsiz, bu qızlar onu hələ indən belə tanıyacaq, onu qəbul edəcəklər deyə qız düşünürdü.

Podşipniklərlə, altı qaralmış gözləri ilə – indi bu qaralar bir az saralıb bozarmış, əvvəlki rənginə qayıtmışdı – xeyli "məşhurlaşmış" Birinci Fredi qorxurdu ki, birdən onu da xüsusi sinfə salacaqlar, ola bilsin elə buna görə də, baş verənlər haqda nəsə bir şey deməli idi, ən azı, hiss edirdi ki, bütün bunların düzgün olmadığını car çəksin.



e-kitab.org

– Hə, yenə nə var? – deyib dayandım.

– Yaxşı, sən xüsusi sinfə getmirsən də?

– Yox, niyə ki?

– Əvvəlcə adi sinfə salırlar, düzdür? Sonra müəllim görəndə ki, kütbeyindir, onda xüsusi sinfə keçirirlər.

Bir az əvvəl Flinsotundan eşitdiklərim beynimdə yenidən fırlandı – anam bu işdə əsas rol oynayıb, nəinki belə bir ürəksiz qərar verib, üstəlik hələ xahiş də edib, sinfi dəyişdirib.

Evə Linda və onun təzə qız dostu Cenni ilə qayıdırdıq. Cenni boyca hündür və sakit bir qızdı, düz qaməti vardı. Paltarının bütün düymələrini bağlamışdı, kürəyində çantasını elə aparırdı ki, elə bil əsgərdi.

– Bəs əkizlər hanı? – pıçıltı ilə soruşdum.

Linda eşitməzliyə vurdu, əvəzində soruşdu ki, niyə onun dalınca gəlirəm, evə aparıram. İndi mən neyləyəydim? Bu təzə dostların yanında heç olmaq istəməzdim. Bu Cenni deyilən də lap ola bilsin Birinci Fredinin qız tayıdır. İşə bax ki, onlar ikisi də ağızlarını açıb nəsə mızıldanırdılar, mənsə heç nə başa düşmürdüm, onlar biri-birinə gülümsünür, anlaşırdılar, elə bil lallar cəmiyyətinin üzvləri idi. Əvvəllər Sarı, Qırmızı və Qaranın daxması olmuş, indisə iri palçıq yığınına dönmüş bu yerə çatanda mən onlardan ayrıldım, düşündüm ki, yaxşı bir iş gördüm. Amma hər şey başqa şəkil aldı və bu, doğrudan da, onlardan qaçmaq kimi çıxdı. Qaçana da oxşayırdım, çünki



e-kitab.org

fikirləşirdim ki, Tanya bizə yaxınlaşmaqdadır, məktəbdə qeyri-normal hesab edilən bacım isə yanımdadır, odur ki, doğrudan da, qaçırdım onlardan.



e-kitab.org

# 19

Evə təzəcə girmişdim ki, qiyamət qopdu. Anam deyirdi ki, dükanda olarkən ona zəng vurublar, amma ona danışmağa icazə verməyiblər, sonra da, mən Lindaya və onun sinif yoldaşlarına səfeh demişdim. Deyirdi ki, o belə bir şey heç vaxt eşitməyib, mən belə necə deyə bilərdim və sair, və sair...

Amma mən özümü haqlı hesab edirdim.

– Onu oraya sən qoymusan, – soyuq-soyuq dedim, heç vaxt belə laqeyd baxmamışdım ona, amma bu, hər halda, içimdən gələn bir hiss idi. Anam özünü müdafiə etmək əvəzinə, elə tərzdə danışmağa başladı ki, bunun mənə zərrəcə təsiri olmadı.

– Amma, Finn, sən, axı görürsən, bilirsən, o necədir.

Mən, əlbəttə, Lindanın necə olduğunu görə bilmirdim.

– Gözlərin görmür? – o inadla məni başa salmağa çalışırdı.

Mən təkrarən dedim:

– Onu sən qoymusan ora.

– Məgər başa düşmürsən? Yoxsa... əgər belə olmasa...

– Yoxsa nə?

– Yoxsa tamam başqa bir məktəbə göndərəcəklər.

Bir anlıq onun sözlərinin mahiyyətini dərk etmək istədim.

– Lippernə? – qorxa-qorxa pıçıldadım.


e-kitab.org

Bu, Torşovdalenin on biri başında ağıldan kəm uşaqlar üçün məktəb idi, uşaqların gözündə, bu, tövlə, həbsxana və laboratoriyanın qarışığı idi, dünyanın ən axmaq yeri.

Anam yenidən əllərilə üzünü örtdü, elə bədbəxt idi ki! Zavallı sanki bütün əzabını bu yolla ifadə edirdi. Aman, Allah, böyüklər necə dərd çəkirmiş! Amma qətiyyətin yoxdursa nə mənası var?

– Daha dözə bilmirəm, – anam deyib hönkürdü. – Bacarmıram, dözə bilmirəm daha.

Mən də dözmürdüm. Evdən çıxdım.

Həmin axşam Linda Marlenin kiçik bacılarından biri ilə oynayırdı, anam da, mən də hərə öz yerinə çəkilmişdi. Televizorumuz xarab olmuşdu. Kristianın tanışlarından biri bizə gəldi. Tamam ağ geyimdə, əlində ağır alətlər qutusu, qutunun içində müxtəlif truba və probkalar. O, televizorun arxasını açdı, biz maraqla baxırdıq. Elə bil televizorun da ciyərləri toz tutmuşdu, ürəyi, qan damarları qurum bağlamışdı. Soruşdum ki, bəs o uzanıb gedən şeylər nədir, onlar televizorun bağırsaqlarıdır? Usta isə sadəcə mənə baxmaqla kifayətləndi.

– Yox, bu texniki cihazdır, onun içində insana aid olan şeylər yoxdur.

– Amma onun içində cərəyan var, hə?

– Nə demək istəyirsən?

– O səni vura bilər, öldürə bilər?

– Şəbəkəyə qoşulanda hə. Ona elektrik


e-kitab.org

deyirlər.

– Hə, hə, elektrik.

– Bilmirsən, elektrik nədir?

– Yoox...

– Finn! – eşitdim ki, anam mətbəxdən məni səsləyir, özü də lap hündürdən. Mən də səs verdim, elə onun kimi bərkdən. Hər kəs öz rolunu oynayırdı, heç kim də dəyişmirdi. Hər kəs öz rolunda olanda heç olmasa vaxt itirmirsən ki, nə edim, necə edim. Ustadan soruşdum ki, əgər mən televizoru bu saat şəbəkəyə qoşsam o öləcəkmi, anam qapıda göründü və məni mətbəxə çəkdi. Dedi ki, bu nə axmaq sözlərdir, danışıram.

– Yəqin, mən də xüsusi sinifdən başlamalı idim, – dedim. Onun üzünün ifadəsi şillə təsiri bağışladı, mən cəld geri çəkildim. Amma indi də başqa bir ağlıma gəldi.

– Mən şəkillərə baxmaq istəyirəm.

– Hansı şəkillərə?

– Atamın şəkillərinə.

– Sən nə danışırsan?

Qonaq otağına qayıdıb ustadan vintaçanı istədim.

– Oradadır, götür.

– Bundan böyüyü yoxdur?

O, böyük vintaçanı mənə verdi, mən anamın sərt baxışları altında yataq otağına getdim. Vintaçanı paltar dolabının ağzından birtəhər salıb anamın çarpayısında oturdum. İndiyə qədər bu dolaba heç nə olmamışdı, amma indi olacaqdı. Anam


e-kitab.org

təngnəfəs arxamca gəldi.

– Sən deyirsən ki, Linda ona oxşayır.

– Nə?

– Deyirsən ki, Linda mənim... bizim atamıza oxşayır. Baxmaq istəyirəm, görüm, doğrudan, belədir.

O, deyəsən, mənimlə razılaşırdı, sonra ağzımdan belə sual çıxdı:

– Sən onun anasısan?

– Tanrı xətrinə, nə demək istəyirsən?

– Onun anası sənsən?

– Finn, lütfən, bəsdi.

Göz yaşlarım yanağını yandırdı, güclə görürdüm.

– Deyirsən, Linda təkcə ona oxşamır, mənə də oxşayır...

O bir az dayandı, duruxdu, deyəsən, sonra başımı sığallamağa başladı, saçımı dartıb qarışdırdı, bir anlıq etiraz etmədim, beləcə dayandıq, gözəl ağac dəstəyi olan iri vintaçana baxa-baxa. Vintaçanın dəstəyi yağa-mazuta bulaşmışdı, qorxduq ki, birdən o bizim bu zərif barışığımızın arasına girər, dağıdar.

– Bunu izah etmək çətindir, Finn, – anam dedi. – Mən elə demirdim, ola bilsin, ailə oxşarlığıdır.

– Bəs onda... necə olur bu?

– Ola bilsin, uşaqlıqda başımıza eyni hadisələr gəlib...

– Pis hadisələr... hə?

O fikrə getdi, sonra dedi:

– Hə.

Yəqin üzümün ifadəsindən başa düşdü



e-kitab.org

ki, mən onun nəyə işarə vurduğunu bilirəm, bəlkə də düşündü ki, mən bu haqda daha heç nə eşitmək istəmirəm. Sifətimə dağılan iki-üç tükü götürüb atdı, irəli əyilib mizin siyirməsindən daş-qaş qutusunu çıxartdı. Açdı, içindən bir vərəq kağız çıxartdı. Möhürlü-ştamplı bir kağız idi. Orada mənim kim olduğum yazılmışdı, adım Finndir, Aker xəstəxanasında, filan ilin filan günündə, səhər saat doqquzun yarısında, kran maşinistinin ailəsində anadan olmuşam. Hə, hətta adımı da yazıblar – Finn. Çünki adımı hələ anadan olmamışdan qoyublar. Bu, mənim babamın adı olub, əgər oğlan olsam adıma onun adını verəcəkdilər.

– Bu, olan-qalan ən qiymətli şeyimdir, – anam astadan dedi.

– Aha, – sənədə baxa-baxa dedim. Kağızda hətta həkimin imzası da vardı.

– Ona görə də bunu bu qutuda saxlayıram. Başa düşürsən?

Başımla təsdiq etdim. O, zərfin içini də açıb göstərdi, orada başqa bir şey yoxdu.

– Bax, burada başqa heç bir doğum şəhadətnaməsi yoxdur, bildin?

Yenə başımla təsdiq etdim.

– Burada yalnız budur, – o dedi.

– Hmm... hımm... – bu dəfə mən daha çox öz-özümə deyirdim.

O, doğum şəhadətnaməsini yenidən zərfin içinə qoyub? Oradan balaca bir açar götürdü, paltar dolabına sancılmış vintaçanı çıxartdı.

– Baxa bilərsən, Finn, – o dedi və açarla


e-kitab.org

dolabı açdı. – Bizim toy şəklimizdir.

– Bunun əhəmiyyəti yoxdur, – deyib ayağa qalxdım. Mən başa düşdüm ki, bu xüsusi sinif məsələsində ola bilsin o daha pis hərəkət edə bilərdi, amma o hər halda mənim anam idi. Əgər bu qarşıdurma əvvəldən belə dəqiq başlamasaydı, yəqin ki, daha pis olardı, ən mühüm suallara belə düz cavab verilməzdi. Görülməli bir iş qalmamışdı deyə vintaçanı götürdüm və anamdan bir də üzr istədim.

– Hə, indi heç olmasa bilirsən ki, açar haradadır, – o arxamca dedi.



e-kitab.org

# 20

Bir neçə gün sonra Kristian bizimlə şam yeməyinə oturmuşdu. Gündüz Tanyaya məktub yazmağa çalışdım, istəyirdim ki, məktubda həm Rumıniya, Moldova, Albaniya və sairlə bağlı fikirlərimi, həm də həyatın intəhasız gözəlliklərindən yazım, amma bütün bunları bir-biri ilə necə uyğunlaşdırım, bilmirdim.

Qəribədir, söz tapmırdım.

Mizin üstündə doğranmış çörək dilimləri və bir stəkan südün yanında qırmızı çaxır butulkası, iki stəkan qoyulmuşdu. Anam bunları bufetdə saxlayırdı. Onlar yalnız lazım olanda yuyulub təmizlənirdi. Lindanın əhvalı yaxşı idi, o, pirojna bişirmək üçün lazım olan dörd şeyin siyahısını yazmışdı, soruşurdu ki, belədir, ya yox. Kristian İranda minlərlə insanın həyatına son qoymuş zəlzələ haqqında danışırdı. Rixter cədvəlinin nə olduğunu izah edir, deyirdi ki, nə yaxşı, biz Norveçdə yaşayırıq, iki tektonik layın arasında yox. Anam qırmızı çaxır içir, hərdən dodaqlarını salfetlə silirdi. Birdən gülümsünərək mənə baxdı.

– Təsəvvür et ki, sən ayağa qalxırsan və bunu direktoruna deyirsən.

– Hə, bu oğlana nəsə olub, – Kristian irişdi, görünür, fürsət bilmişdi, amma elə o andaca anamın iti baxışları onu yerinə oturtdu. Bu baxışlar deyirdi ki, o həmişə burdadır, kirayənişinin ağzından çıxan hər


e-kitab.org

bir sözü eşidir, bilir.

– Mən daha nə edə bilərdim? – o qışqırdı, yanaqları pörtdü.

– Uşaqlarla bağlı hər şey qaydasındadır, – Kristian mızıldandı. – Onlar özləri təkid edirlər ki, onları...

Anam onun köməyinə gəldi.

– ... onları siyirməyə qoysunlar?

– Eee... hə... elədir.

Kristian zorla gülümsəməyə çalışdı, vəziyyətdən çıxmaq üçün ətrafa baxındı və birdən yoğun bir səslə dedi:

– Linda, işlər necədir? Məktəb xoşuna gəlir?

– Hə, – Linda dedi və qaçıb çalışma dəftərini, qələmini gətirdi. Dəftərdə hərf olduğu güclə bilinən şeylər yazmağa başladı. Anam əlini gözlərinin üstə qoydu, özünü güclə saxlayırdı.

– Siz niyə onunla həmişə ucadan danışırsız? – Kristiandan soruşdum.

– Doğrudan?

– Hə.

– Heç fikir verməmişəm.

– Yenə nə demək istəyirsən, Finn?

Anam əlini üzündən götürüb çiynimə qoydu, onun üzündə hədələyici bir ifadə vardı. Mən başımı mizin üstünə qoyub mətbəxə tərəf çevrildim, az qala pıçıltı ilə dedim:

– Linda!

– Hə? – stolun o başında cızma-qaralarına başı qarışmış Linda dedi.

Bu an elə bil anaının ağlına nəsə bir



e-kitab.org

fikir gəldi. Kristian da elə baxdı ki, elə bil hansısa fürsəti əldən verirdi. Nədənsə əsəbiləşirdi. O andaca anam əlini onun əlinin üstə qoydu – mən bunu ani gördüm. Onu da gördüm ki, Linda bizim aramızda olmaqla bizim kim olduğumuzu özümüzə göstərir, bizim içimizi açıb göstərir, özünə nəzarət hissini itirmiş bu adamın mənasız sifətini göstərir. Bir anlıq ağlıma gəldi ki, bəlkə vaxtdır, anama həqiqəti deyim, qabırğam niyə sınıb, o vaxt, o şaxtalı qış günündə kirayənişinimiz mənim arxamca xizəkdə sürüşəndə mənə dəyib yerə yıxmışdı, guya mənə nəyisə öyrətmək istəyirmiş, hər halda özü belə deyirdi. Amma anama niyə deməyim ki, o, Lindaya "ağıldan kəm" deyirdi? Özüm də bilmirəm, bütün bu aylar ərzində bu məşum sirri niyə içimdə saxlayıram. İndi də anamın əli. Krstianın əlini məhrəm-məhrəm örtən əli? O əl hələ də Kristianın əlinin üstündə idi.

Mən ayağa qalxdım, qonaq otağına keçib televizoru yandırdım. Uşaq proqramı gedirdi. Sığırçınlar üçün yuvalar necə olmalıdır, Valders məktəbində olan uşaq orkestri, müxtəlif çalğı alətləri... valtorna, klarnet, truba... Bu zaman mətbəxdən yenə dava-dalaş səsi gəldi. Sonra Kristian hirslə ayağa durub öz otağına sarı addımladı. Amma anamın sərt səsi onu yarıda haqlayır:

– Bəs biz bu gün nəyisə qeyd edəcəkdik?

Anamı işdə bir az irəli çəkmişdilər, onlar bunu qeyd etmək istəyirdi. O indi həm



e-kitab.org

də paltar və baş geyimləri şöbəsində işləyəcəkdi. Bu elə bir irəliləyiş deyildi, sadəcə, maaşı bir az artmışdı.

Tanyaya yazacağım məktub barədə fikirləşirdim. İndiyə qədər mən tətili necə keçirməyimiz haqda iki esse yazmışdım. Biri Linda ilə mənim adada keçirdiyimiz günlər haqda idi. o birisi – Birinci Fredinin eyni adada keçirdiyi tətil haqda. İkimiz də eyni adada tətildə olmuşuq, hər kəs də öz çadırında. Birinci Fredinin çadırı yaşıl idi, amma bir az baxımsız, nimdaş. Bu dəfə o axmaqlıq eləmədi, onun mənə təklif etdiyi pulun yarısına ona mürəkkəblə esse yazdıq. Bunun ikimizə də xeyri oldu.

Yaxşı, bəs Tanyaya yazmaq istədiyim bu məktubla neyləyim? Niyə onu yazmağa belə çətinlik çəkirdim?

Hələ bir görək, Tanya məndən məktub gözləyirdimi? Demək çətindi, anlaşılmaz bir şeydi. Mən saçımı alnımın üstünə pırpızlayırdım, boyum ondan bir az qısa idi, sonuncu söhbətimizi nəzərə almasaq, əvvəllər onunla heç vaxt danışmamışdım. Və əlbəttə, məktub həmişə görünməmiş bir şey olur, nəsə baş verəndə yazılır, yəqin, elə mühüm bir şey olur ki, onu dilnən demək olmur, ona görə də məktub yazırsan. Məktubda fikirlərini nizama, səliqəyə sala bilirsən. Hərflər yazılı sübutlardır, hər şeyi yazı şəklində, qısa və dürüst ifadə edirlər. Məktublar həmişə yaşayacaq. Nə isə, yazmağa hazır idim.

Televizoru söndürdüm, öz otağıma


e-kitab.org

keçib Tanyaya dörd səhifəlik məktub yazdım. Nə gizlədim, bir az göz yaşı da tökdüm. Anam belə ağlamağı faydalı hesab edir. Xoşbəxt olmaq üçüm çatışmayan bir şey üçün ağlamaq – bu ki yaxşıdır. Məktubu bir zərfə saldım, üstündə adını da yazdım: Tanya. İndi bu ad nəsə lap Rumıniya kimi möhtəşəm gəldi mənə. Düşündüm ki, bəlkə zərfin üstündə bir möhür şəkli də şəkim, sonra dedim, bu, lap uşaqlıq olar, fikrimdən vaz keçdim, əvəzində oturub "Naməlum əsgər" kitabını oxumağa başladım. Bu arada mətbəx mizinin üstünə daha bir qırmızı çaxır butulkası qoyulmuşdu.

Az-az olur ki, mən Lindadan qabaq yatmağa gedirəm, amma bir həftə ərzində ikinci dəfə idi ki, ondan tez yatırdım. İlk yeddi səhifəni təkrarən oxudum. Linda kimi. Amma mən çox vacib bir məktub yazmışdım, yazarkən barmaqlarımın ucu həyəcandan titrəyir, bu titrəyiş kağızın üzərində sürüşən qələmimi də titrədirdi. Elə bil səliqəli xəttimlə içimdəki həyəcanlar kağızın üstünə tökülürdü, qorxurdum ki, bu həyəcanları oxuya bilərlər. Bəs anaının kirayənişinin əlinə toxunan əli və bunun həyatımıza gətirəcəyi sirli davranış? Bir-birinin üstündə dincəlib yatan o əllər? Doğrudan, niyə, axı? Kristianın çirkli paltarları evimizin bir parçası olmuşdu, niyə? Onun tor maykaları, corabları, həmkarlar təşkilatının iri şalvarları mənim köynəklərimlə, Lindanın kalqotkaları ilə bir yerdə zirzəmidə qurudulurdu, nədən? Ata-


e-kitab.org

ana və iki uşaq üçün nəzərdə tutulan şkaf? Hərdən küçədə də buna eyham vururlar.

– Sənin anan və sizin kirayənişin arasında nə var?

Bu kirayənişin demək olar ki, hər axşam mətbəximizin baş tərəfində oturur, qonşumuz Frenklə pillələrdə durub söhbət edir, guya ki, onun qonşusudur, yerli icma avtobus dayanacağında nəsə bir şey tikirdi, o da bu işdə iştirak etdi. Bəs Linda ilə, mənimlə bağlı gündən-günə artan fikirləri, guya ki, bunun ona dəxli var. Özü də elə danışır, yalnız ataların üzündə belə ifadə ola bilər. Bəs onda mən niyə qabırğalarım o vaxt sınması haqda anama bir söz deməyim?

Yəqin ona görə ki, mən anama inanmırdım. Anamın daş-qaş mücrüsündəki sənəd mənim kim olduğumu sübut etsə də, bu hələ heç nəyi aydınlaşdırmadı. Elə isə, qoy Tanya mənim olsun.


e-kitab.org

# 21

Amma mən bu məktubu heç vaxt vermədim Tanyaya. Bir neçə vaxt onu arxamdakı çantada gəzdirsəm də. Amma bu məktubun hər səhər kürəyimdəki çantanın içində olduğunu sadəcə bilmək, məktəb meydançasına girərkən başqalarının çantası ilə bir cərgədə qoyduğum, buzlu, sürüşkən yollarda başım üstə hərləyərək uşaqlarla döyüşdüyüm, içində dəftər-kitabımın olduğu bu çantanın içində olduğunu bilmək mənə elə qüvvə verirdi ki, elə bil içimdə gizli bir qabiliyyət, hər an partlamağa hazır olan bir əl qumbarası gəzdirirdim. Məni içimdəki həyəcanlara qovuşduran o məktubu hər an çantamdan götürüb Tanyanın partasının üstünə qoya biləcəyimi düşünəndə elə möhtəşəm bir hiss duyurdum ki, bu, bəzən məktubu vermək imkanım olanda duyduğum cəsarətsizliyi kölgədə qoyurdu. Çünki anam haqqında, Tanya haqda təzə nəsə bir şey öyrənəndə elə hesab edirdim ki, hə, bax, Tanya da, anam kimi belə uzun məktuba layiq deyil. Nə olsun, öz-özümə deyirdim, bu da həyatında yazdığın məktublardan biridir, yalnız bircə dəfə yazdığın məktub. Bütün sonra yazacağın məktublar bunun yanında solğun və nimdaşdır, cılız və saxtadır, heç biri bu ilk məktubla müqayisə oluna bilməz. İlk və yeganə məktub. Sən həyatı məktubla dilə tutmursan ki. Sən həqiqəti deyirsən.

Sentyabrın axırında, nəhayət, möcüzə



e-kitab.org

baş verdi, amma yenə də məktub qiyafəsində. Çərşənbə axşamı günü lap elə bil yay günlərindən biri idi, sanki fəsillər dəyişik düşmüşdü. Mən qaça-qaça evə gedirdim, istəyirdim ki, tez evə dəyim, qayıdıb küçədə araba yarışlarına baxım. Birdən anam qarşıma çıxdı. Qəribədir, o həmişəki vaxtından iki saat əvvəl gəlmişdi, həm də direktorla telefon danışığından sonra necə qəzəbliydisə, yenə o cür hirsli idi. Əlində bir məktub vardı.

– Bu da sənin əməlindir? – o üstümə qışqırdı.

Məktub tapança lüləsi kimi burnumun ucuna dirənmişdi. Çap hərfləri ilə yazılmış məktubdan bircə onu başa düşdüm ki, gələn həftə Lindanı əvvəlcə qeydiyyata alındığı sinfə keçirəcəklər. Sınaq müddəti üçün, həm də "lazımı diqqətdən sonra" və "xüsusi sinfin müəllimi və məktəbin tibb bacısı ilə məsləhətləşmədən sonra..." Salam, hörmətlə, Flinqstoun.

– Yox, – dedim. Bu, doğrudan da, mənim işim deyildi.

Dedim, hər halda özümü elə göstərim ki, guya fikirləşirəm, anam məni küncə dirəyəndə həmişə belə edirəm, belə hallarda o qədər şeylər var ki, onları götür-qoy etməlisən. Amma o elə bildi ki, mən onun dediyini boynuma alıram və bizim blokda yaşayan Eriksenin yanına getdi. Eriksenin telefonu vardı. Anam qeyzindən əsə-əsə direktorun ev nömrəsini yığdı.

Evə qayıdanda qəzəbli olmaqdan çox


e-kitab.org

yorğun görünürdü, gələn kimi də şkafı-zadı səliqəyə salmağa başladı. Bunu o vaxt eləyir ki, tək qalmaq istəyir ya da bilmir ki, əllərini necə məşğul etsin, nə vaxtdı yığılıb qalan şeyləri töküb-töküşdürür, təzədən yığır, bunun da yeganə səbəbi odur ki, hər şeyin yerində olduğunu bilsin.

Amma məni təəccübləndirən bu tənə-töhmət deyildi, o deyirdi ki, Linda yenidən adi sinfə keçsə, bax, o, dəhşət olar. Səbəbini soruşanda o lap özündən çıxdı, sanki uçurumun dibinə düşdü.

– Çünki mən daha peşman olmaq istəmirəm! Ümidsizlikdən bezmişəm! Nə qədər olar?! – deyib o, şkafın içinə qışqırdı. – Niyə başına girmir?!

– Ümidsizlik?..

Gör, nələr eşitməli oldum.

– Yaxşı, təsəvvür elə ki, o, imtahanlarını verə bilmir, sinifdən sinfə keçə bilmir. Mən buna dözə bilmərəm, axı!

Bir az ağlım olsaydı ya da on səkkiz yaşım olsaydı, deyərdim ki, yaxşı, əgər Linda xüsusi sinifdə oxusa, bu o deməkdirmi ki, onun, mənim əziz anaının daha heç bir peşmançılığı olmaz? Bunun əvəzində, elə bir ağır günah işlədim ki... Soruşdum ki, yəni doğrudanmı onun həyatında, həqiqətən, belə çox ümidsizlik və məyusluq olub. Axı mən atamla bağlı, onların boşanması, aldığı dul pensiyası və ya uşaqlıqda başına gələn dəhşətlər haqda onu hər gün sorğu-suala tutmamışam. O düz qabağımda durub ciddi şəkildə


e-kitab.org

soruşurdu ki, mən onu ələ salıram yoxsa nə.

Qayıdıb öz otağıma getdim, Tanyaya yazdığım məktubu bir də oxumaq istədim ki, görüm, əvvəlki kimi təsir edirmi mənə. Bir-iki dəqiqə keçməmişdi ki, anam içəri girdi və Lindanın çarpayısının kənarında oturdu. Dedi:

– Bağışla, oğlum, əlbəttə, bu, sənin işin deyilmiş, onlar onu özləri keçirirlər...

– Əlbəttə, mənim işim deyil, – dedim.

– Amma ümid edirəm ki, bacaracaq.

– Əlbəttə, bacaracaq.

Onun baxışlarına bir qat də kədər çökdü. İndi də Lindanın xəz adyalının altında yatmış Amaliyanı götürdü, iki nəfərin uşaqlığını özündə birləşdirən bu əski kuklanı dizləri üstə qoyub baxdı.

– Bu mənə elə oxşayır ki, Finn...

– Hmm...

– Eynilə oxşayır.

– Sən xüsusi sinfə getməmisən, yox? – mən daha bir cəhd etdim.

– Yox. Amma bu o deyil...

– Yaxşı, onda bəs... nədir? – az qala qışqırdım. İstədim buna birdəfəlik son qoyum. Axı onun beynini belə incidən nədir? Ola bilsin, elə mənim beynimi də. Axı bu, əslində kim olmağımıza mane olurdu. Sonra o, Linda ilə bağlı nəsə yayğın bir şey dedi, latın dilində bəzi sözlər, mənim başa düşmədiyim daha nələrsə. Ona görə də fikrini izah etməkdən vaz keçdi.

– Bir gün başa düşərsən, – deyib o, söhbətə son qoydu və birdən mənim səylə



e-kitab.org

gizlətməyə çalışdığım məktubu gördü.

– Sənə də məktub yazıblar?

– Yox, bunu mən yazmışam.

– Kimə?

– Tanyaya.

– Tanya kimdir?

– Eee, – yaxamı qurtarmağa çalışdım. Birdən o, yazda olmuş bir söhbətimizi xatırladı, həmin bu Tanya adlı qızla bağlı. Onda mən demişdim ki, yaxşı olar ki, bu qız da gəlib burada, bizdə yaşasın, onsuz da burada adam çoxdur, qoy o qız çıxıb uzaq bir ölkəyə, indi artıq bildiyim Rumıniyaya getməsin, gəlsin, bizdə yaşasın.

– Bu o qızdır, sən deyirdin ki, gəlib bizdə qalsın? – o bərkdən güldü və əlini adyala çırpdı ki, yəni gəl, otur, görüm. Sonra, dedi ki, mənim beləcə hamıya, hər kəsə yazığım gəlsə, yaşaya bilmərəm. Dedi ki, uşaqlıqda mən harada it, pişik görürdüm, evə gətirirdim, evimizə öyrəşdirmək istəyirdim. Əgər fikirləşirsən ki, sən bu evdə başqalarını, məsələn, elə Fredi kimilərini xilas etmək üçün yaşayırsan, onda, Finn, sən öz həyatını korlayacaqsan...

Mən etiraz etdim, dedim ki, burada səssiz-səmirsiz oturmaqla nə qədər möhkəm darıxdığımı başa düşə-düşə beləcə nə qədər davam edə bilər. Hər gün də deyəsən ki, indi gərək biz yalnız üçümüzü fikirləşək

– Lindanı, anamı və məni. Bir az da yekə-yekə dedim ki, Lindaya görə narahat olmaq lazım deyil, o artıq oxuya bilir.



e-kitab.org

– Yox, bilmir, Finn.

– Yox, bilir, həm də o hələ birinci sinifdədir. Başqaları heç bilmir...

– Amma başqaları bizim qədər əziyyət çəkməyib, bütün ilboyu, demək olar ki, hər gün. Biz...

– Düzdür, – səsimi qaldırmadan təkid etdim. Anam elə bil yenə qışqırmaq, bağırmaq istəyirdi, sonra götür-qoy etməyə başladı ki, bəlkə doğrudan da, mən düz deyirəm, sözümdə həqiqət var. Ardınca soruşdu ki, axı bu necə olur, onlar ikilikdə hər hansı bir kitaba baxanda Linda ən sadə sözü də oxuya bilmir, oxumur. Dedim:

– Elə bilirəm, onu narahat etmək lazım deyil.

– İndi də məni dilə tutursan, təsəlli verirsən.

– Yox, – dedim. – O oxuya bilir, özü də əvvəllər heç tanımadığı sözləri də oxuyur.

– Kaş belə olsun, – anam ah çəkdi. – İndi o haradadır?

– Əkizlərin yanında.

Ayağa durdum, dəhlizə keçib Siversensgilin qapılarının zəngini çaldım. Lindanı götürüb yataq otağına gəldim, anam hələ də Amaliyanı dizləri üstə tutub yerindəcə oturmuşdu. O yorğun-yorğun gülümsündü, Lindanın saçını tumarladı, soruşdu ki, bu gün necədir. Linda adəti üzrə dedi ki, hər şey yaxşıdır.

Lindaya dedim ki, ananın yanında otursun, Tanyaya yazdığım məktubu ona verdim ki, oxusun.



e-kitab.org

– Oxuya bilmirəm, – Linda dedi və gülümsündü, sanki gülüşü ilə bizi hirsləndirməyə çalışırdı. İstəyirdi, mən oxuyum. Amma yox, bu dəfə keçməz. Çaşıb qaldı, anama baxdı. Bu dəfə heç bir kömək olmayacaqdı. Anam, deyəsən, baxışlarını titrəyən əllərinin arxasında gizlətməyə hazırlaşırdı, çünki bu, universitetə qəbul imtahanı deyildi – bizim ailədə hələ heç kim belə imtahan verməmişdi – bu, əsas həyatı qabiliyyətlərdən verilən bir imtahan idi.

– Mən balacayam, – Linda dedi.

– Sən şeytansan, – dedim.

– Hökmən oxumalıyam?

– Hökmən, – təkrar etdim, bu, ölüm-qalım məsələsi idi, anam da qışqırmaqda özünü zorla saxlayırdı.

– Bəsdir, Finn, yığışdır daha. Gedək, yeməyimizi yeyək, əl çək ondan, sakit burax onu...

Linda üz-gözünü turşudub kağıza baxdı, dərindən köksünü ötürüb oxumağa başladı:

"Hər il şeylərini yığıb Rumıniyaya və Sardiniyaya səyahət edən Tanyaya..." Linda mürəkkəb "Çexoslovakiya" sözünü də oxuyanda anam elə bil qanad açdı, yelkən açdı. Onun bu halını təsvir etməsəm yaxşıdır.

– Bu mənim səhvimdir, mənim səhvimdir!

Lindanın gözləri alacalandı, anam ona sarı yüyürdü, necə gəldi onu qucaqlamağa başladı. Yəqin sevincindən idi, amma onun



e-kitab.org

hərəkətləri daha çox əzab rəşələrinə - oxşayırdı. Anam qamətini düzəltdi, alnını dikəltdi, sanki öz adını xatırlamaq istəyirdi, bacarmırdı, harada yaşadığını unutmuşdu. Linda daha da çaşıb qaldı. Mən məktubu onun əlindən aldım ki, qoy daha ilginc yerləri oxumasın, onu çantama qoyub Lindanı mətbəxə çəkdim. Dedim, gedək, bir az yemək hazırlayaq, kotlet bişirək.

– Soğanla? – Linda soruşdu.

– Hə, soğanla, – dedim və soyuducudan dəyirmi alümin tavanı götürdüm. Sonra Lindaya iri bir bıçaq verdim, göstərdim ki, soğanı, bax, belə, bax, belə soysun. Özümsə yarı bişmiş kotletləri Melange marqarini ilə tavada qızartdım. İşləyə-işləyə danışırdım, mənə elə gəlirdi ki, mən vaxtı uzatmalıyam, vaxt nə qədər uzansa anam o qədər fikrini tamam toplayıb özünə gələ bilər. Nəhayət, anam gəlib çıxdı, yeməyi yerbəyer etməyə başladı. Qoy bilsin ki, oğlu bunu bacarır, gec-tez onun anası özünə gələr, hər şeyi əlinə alıb, üstəlik bu qarma-qarışıqlığa gülər də.

Anam belə də elədi. Lazım olanda o, adamı pis vəziyyətdə qoymur. Budur, o gəlir, göz yaşları quruyub, özünə qayıdıb, sakitləşib. Bax, indi deyəcək ki, nə yaxşı iş görürsüz, sonra da iri bir bıçağı götürüb bişdüşü əlinə alır. Linda ilə mən üz-üzə oturub mizin üstündə çəngəl-bıçaqla təbil çalırıq, ağzımıza gələn sözləri mahnı kimi, nəqərat kimi oxuyuruq, o qədər gülürük ki, axırda Linda az qalır gülməkdən partlasın.


e-kitab.org

Bu, Birinci Fredinın “tilsim”idir, o elə bilir ki, donquldadığı çərən-pərən sözlər yaxşı, gözəl sözlərdir, onları deyəndə yaxşı olur, ya da o qədər kütdür ki, bunu anlamır. O, qəribə sözlər uydurub deyir, kobud sözlər, nəzakətli, incə sözlər, boz, heç bir məna ifadə etməyən səs birləşmələri, hamısı da elə səslənir ki, elə bil kömək, imdad istəyir.


e-kitab.org

# 22

Tezliklə Lindanın doğum gününü qeyd edəcəkdik. Odur ki, Linda tamam başqa cür olacaqdı, təzə anadan olmuş kimi. Həmin gün bizim adət etdiyimiz günlərdən olmayacaqdı. Görünməmiş oxu sınaqlarına başladıq. Küçəmizdə olan bütün balaca qızları dəvət edəcəkdik. Anam biş-düş edəcəkdi, Marlen mahnı oxuyacaq, Kristian sehrli fokuslar göstərəcəkdi...

Bəs mən nə edim?

Mənə bir şey qalmamışdı. Amma nə isə məni yaman məşğul edir, buraxmırdı, çöldə-bayırda çox qalırdım, lap gecəyə kimi. Haqanda bir ağaca çıxıb əyləşirdim ya da bomba sığınacağında otururdum yaxud da ağlıma gəlirdi ki, çıxıb çardaqda bir otaq düzəldim, elə bir yer ki, hərdən daldalanım, orada Kristian olmasın. Bir gün anam dedi ki, dostlarımdan da kimlərisə dəvət edim.

– Lindanın doğum gününə?

– Hə, burada qəribə nə var ki?

– Eee... hə, nəsə mənə elə gəldi.

– Məsələn, Essini çağırsan...

– Mən daha Essi ilə çox oynamıram.

Anam duruxdu, fikirləşdim ki, bəlkə Birinci Fredini təklif edim, amma bir azdan özü onun adını çəkdi.

– O Fredi necə, o gələ bilər, yox?

Belə də etdik. Beləliklə, axşamtərəfi mən gödəkcəmi və ayaqqabılarımı zirzəmidəki velosiped otağında gizlətdim, ilk qonaqlar – əkizlər hay-küylə gələndə


e-kitab.org

mən hiss etdirmədən aradan çıxdım. Pillələrlə aşağı düşürdüm ki, başqa bir qonaqla qarşılaşdım. Birinci Fredi idi, amma arxasında nəsə gizlətməyə çalışırdı ki, mən görməyim.

– Hə, sənsən, nə var yenə?

– Eee, heç nə... – o utana-utana dedi.

Biz göz-gözə baxırdıq. Gərək heç görüşməyəydik, bilirəm, belə ikimiz üçün də yaxşı olardı. Sonra daha bir qonaq – Cenni gəldi. Bu gün həmişəkindən də şax yeriyirdi. Mən fürsət tapıb velosiped otağına getdim, paltarımı dəyişdim. Velosipedimi sürüb Ekelund tərəflərə, Liavendən sağ səmtə gedirdim. Buralarda az olmuşdum. Əvvəllər velosipedlə bu yerlərdən keçmişdik. Amma piyada getməyin öz üstünlükləri var. Ayaqların yerə daha yaxındır, hara istəyirsən dönürsən, qalxırsan, tanımadığın yerlərdə ayaqla gəzəndə həm vaxt, həm də məkan sənindir, ətraf daha yaxşı yadda qalır. Ətrafda bağlar, bir-birinə qısılmış cərgə evlər vardı. Bunlar şəxsi evlər idi, necə deyərlər, isti səndəllərini gey, gir içinə, səbirlə yaşa. Bir azdan yağış başladı, sonra da çovğuna, sulu qara çevrildi. Yol bostanların yanından keçib bizim binanın ətrafına dönürdü. Binamızın qazanxanasına çatanda yenə o qəribə hiss məni bürüdü – evə qayıdarkən duyduğun isti, hərarətli bir hiss. Tanış, doğma yerləri görəndə duyduğun hiss.

Amma binamızdan bir az keçmişdim ki, yolun kənarında, hasarla Qemlhaqan


e-kitab.org

arasındakı sahədə on dörd velosiped gördüm. Rəngli, yaraşıqlı. Reproduktordan yayılan musiqi adamların hay-küyünə qarışmışdı, nəsə yarmarkaya oxşayırdı. Yadıma düşdü ki, keçən həftələrdə belə bir reklam eşitmişdim. Tonsendə yarmarka keçiriləcəkdi. Bəxt təkəri, lotereya və konserv qutuları ilə piramida qurmaq yarışında öz bəxtini sınaya bilərdin. Bir yanda da tir yarışı keçirilirdi.

Tir yarışı məni yaman çəkdi. Çünki əvvəllər də tir tüfəngindən atmışdım, Ostreheymdə. Özü də yaxşı atırdım. Tor dayım mənə "anadangəlmə atıcı" deyirdi. Yağış da dayanmışdı, axı hələ oktyabr ayı idi. Axşam saat yeddi-səkkiz arası olardı. Günəşin son ziyası üfüqdə əriməkdə idi. Bir də ki, cibimdə yetmiş ere vardı.

Amma növbə ilə idi, növbəyə Raymond Uokarneqel və onun köməkçiləri nəzarət edirdi. Tir sahibi olan pəzəvəng, cüssəli kişi ilə Uokarneqel arasında nəsə qalmaqal vardı. Tir sahibinin İsveç dilində dedikləri növbədəkilərə məzəli gəlirdi, Uokarneqel də nədənsə hiddətlənmişdi. Növbədəkilər deyinirdi, ətrafda "fırıldaqçı", "səyyah" "gəlmə" və başqa sözlər eşidilirdi.

Bir az maraqlanıb vəziyyəti öyrənmək istədim, birdən Tanyanı gördüm. Mənim Tanyamı. Həmişəki kimi görünməz olan Tanyanı. Dəhşətli hadisələr göstərilən otağın qapısında, açılıb-yığılan stulda oturmuşdu, elə bil nəsə bir vəzifə yerinə yetirirdi. Hiss etdim ki, o məni daha əvvəl


e-kitab.org

görüb, ürəyim sevinclə döyündü. Tanya gözləyirmiş ki, indi də mən onu görüm, sonra da gülümsəyim ona, çünki üz-gözünə məmnun və lütfkar bir ifadə verib gözlərini yerə dikmişdi. Hə, buna şübhə yoxdu.

Gözlərini yerə dikdiyindən ona xeyli baxdım, tamaşa etdim. Gözəl mənzərə idi: qırmızı güllü paltarının ətəyi altda dizlərini qoşalaşdırıb oturmuşdu, ayaqqabı dükanında anam da belə otururdu. Dizləri azca görünürdü. Azca? Bəlkə çox görünürdü. Mənimsə girdə dizlər həmişə xoşuma gəlir. Nazik baldırları dizlərinin altından arıq topuqlarına qədər uzanırdı, naxışlı corab, enliburun ayaqqabı geymişdi. Nənəm belə ayaqqabı geyib yellənən kreslosunda otururdu. Hə, saçlarını yaddan çıxarmayım. Şəlalə kimi axıb tökülən qara saçlarını ortadan ayırmışdı, hər parası sanki Modilyani fırçası ilə çəkilmiş ağ üzünü dövrəyə almışdı. Necə demişdim elə idi – Tanya gizlətməyə çalışsa da, alınmamışdı. Tanya bunu mənim üçün edib, başqa cür ağlıma da gəlmirdi. Bu saçlar mənim üçün beləcə tellənib tökülmüşdü. Elə əvvəllər də. Arxadan ya da yandan baxsam da, bu saçlar mənimki idi, mənim üçün yuyulub, daranıb, sığallanmışdı. Elə bu zaman lap qulağımın dibində bir səs hovxurdu:

– Növbə sənindir, Finn, amma elə bilirəm ki, bundan vaz keçsən yaxşıdır, çünki elə bil nəsə fırıldaq var burda.

Uokarneqel elə bir adamdır ki,


e-kitab.org

məsləhətini nəzərə almaq lazımdır, amma fikirləşdim ki, madam növbəyə durmuşam, gərək atım. Odur ki, hərəkətə keçdim. Piştaxtanın üstünə əlli ere qoydum. Pəzəvəng içində müxtəlif rəngli beş xırda mizraq olan mis kasanı mənə tərəf itələdi, sonra bir tüfəng gətirdi. Tüfəngi götürüb əlimdə yoxladım, ora-burasına baxdım. Nişangahı necədir, nə vaxt buraxılıb, cızığı yoxdur ki. Tüfəngi açdım, birinci mizrağı lüləyə itələmək istəyəndə o, əlimdən düşdü. Əllərim titrəyirdi. Əyilib götürmək istəyəndə, gördüm hamı maraqla baxır, amma mən bu andaca yenə həmin "çiçəklə neftin qarışıq ətrini" burnumda hiss etdim.

– Tüfəngin lüləsi əyridir, bir az sağa nişan al.

Qalxdım, ətrafa baxmadan mizrağı lüləyə qoyub nişan aldım.

– Kənardan demək olmaz! – isveçli dedi.

Çiyinlərimi çəkib ona baxdım.

– Kənardan kömək etmək olmaz! – bu dəfə o daha bərkdən dedi.

– Onun əlləri piştaxtaya güclə çatır, – Uokarneqel dilləndi.

Pəzəvəng məni rişxəndlə süzdü.

– Yaxşı, – dedi.

Heç bilmirdim, onlar nədən danışır.

– Dirsəklərini piştaxtanın üstünə qoy, – Uokarneqel izah etdi.

Mən onun dediyi kimi etdim, yəni, mən bunları artıq etmişdim – tüfəngi tutub çəpəki baxdım, bir az sağa tərəf nişan aldım.


e-kitab.org

Düz mərkəz dairəni vurdum. Doqquzluğu, mərkəzdən bir az sola. İkincisini nişan aldım, atdım, bir az da sağa vurdum, lap mərkəzə yaxın. Üçüncüsü düz hədəfin ortasına, "onluğ"a dəydi. "Göz"ündən vurdum lap. Axırıncı iki atışı da mərkəz dairəyə vuranda ətrafda sevinclə qışqırdılar. Orada heç bir göz-zad yox idi, amma dedilər ki, qırx beş xal qazanmışam. Bu, priz üçün bəs edirdi. Ya "Tarzan" çimərlik şortu ya da "Tvist" konfetləri götürməli idim.

– Konfetləri götür, Uokarneqel dedi.

Amma şortun üstündə pələng zolaqları vardı, onu götürdüm. O anda gözlərim Tanyanın nəzərlərinə tuş gəldi, cazibədar dizlərini yığıb yerindəcə oturmuşdu.

– Bir də atmaq istəyirsən? – Uokarneqel soruşdu.

– Bir az borc verə bilərsən?

– Al, amma bu dəfə konfetləri götür.

Piştaxtanın üstünə yenə əlli ere qoydum, pəzəvəng köksünü ötürərək yenə mis kasanı qabağıma itələdi.

– Kömək etmək olmaz! – yenə bərkdən dedi. Bu dəfə o, Uokarneqelə deyirdi.

– Səni aldatmasın ha! – Uokarneqel sözündən qalmadı.

– Narahat olma, – dedim.

Uokarneqel susdu, camaat da sakitləşdi. Tüfəngi doldurdum, yerimi rahatladım, sol dirsəyimi ombamın üstünə qoyub atdım, yenə qırx beş xal yığdım. Növbəti alqışları eşitdim. Bu dəfə konfetləri


e-kitab.org

götürdüm. Uokarneqel konfetləri alıb ətrafdakılara payladı. Bu gün attraksiona xeyli adam yığılmışdı, görünür, adamlara maraqlı idi.

– Bax, belə, Finn, bu fırıldaqçını lap ürəyindən vurdun. Al, bu da əlli ere.

O daha əlli ereni cingilti ilə piştaxtanın üstünə qoydu. Pullar par-par parıldayırdı, əsl sikkə idi, elə saf idi ki, üstündə təsvir olunmuş Norveç buhundunun[13] hər bir tükü aydın seçilirdi. İndi içimdə qarmaqarışıq hisslər, gümanlar qaynaşırdı. Tanyanın iki yerə ayrılmış qara saçları arxasından mənə dirənmiş baxışlar. O hələ də "dəhşətlər otağı"nın qabağında oturmuşdu. Bu baxışlardan qaçmaq cəhdim gülməli idi. Bu payız günü lap bahar anlarını yaşadırdı mənə. Bunun səbəbi, şübhəsiz, Kristian idi, nəinki bu saatlarda evimizdə mənsiz keçirilən fantastik doğum günü şənliyi.

İndi mən yuxarı rəfdən gözümü çəkə bilmirdim. Orada altı iri yastı ayı fiquru qoyulmuşdu. Dördü çəhrayı rəngdə, biri göy, biri də sarı idi. Tir attraksionunun ən maraqlı yeri sıra ilə düzülmüş bu fiqurlar idi. Bunları əldə etmək üçün ən nazı 48-50 xal toplamaq lazım idi. Əlçatmaz bir şey. Bu o deməkdi ki, əgər mən üç "onluq" və iki "doqquz" vursam, onda göy ayı fiqurunu əldə edə bilərəm, aparıb Lindaya doğum günü hədiyyəsi verərəm, qalan işlərimi də həll eləyərəm. Heç Uokarneqelin təklilərinə məhəl qoymaram da.


e-kitab.org

Necə olsa da, mən bu buna hazır idim.

Axı Tanya burada idi, əsəblərimə sığal çəkən Tanya. Onu düşünmək məni sakitləşdirirdi, elə ona yazdığım məktub kimi. Üçüncü cəhddə ilk "onluğ"u vurandan sonra özümü daha inamlı hiss etdim. Sonrakı iki "onluq" da vuruldu. Elə bil ayaqlarım yerə yapışıb qalmışdı, yerimdən tərpənə bilmirdim. Qollarımı boşaltdım ki, tüfəngi piştaxtanın üstünə qoyum, rahat nəfəs alıb. Az qala ürəyim gedəcəkdi. Uokarneqel təəccüblə baxırdı.

– Sənə nə oldu, Finn?

– Bilmirəm, – mızıldadım.

– Sakit olun, – o ətrafdakılara çığırdı, – Finn fikrini cəmləyir.

Daha doğrusu, güman edirəm ki, o belə dedi. Dizlərim qatlandı. əllərimi yerə dayaq elədim. Amma bu cür oturuş sanki qüvvəmi bərpa etdi, ayağa qalxdım, yavaş-yavaş mizrağı lüləyə qoydum. Hamı susub gözləyirdi. Tüfəngi qaldırıb dərhal atdım. Daha bir "onluq". Bu dəfə alqışlar eşidilmədi, hamının ağzı açıq qalmışdı.

Axırıncı "onluğ"u vurmaq üçün haradan güc alım? Yəqin ki, yenə Tanyadan. Çaxmağı çəkəndə bilirdim ki, artıq hədəfə doğru gedirəm. Sonuncu mizraq nişangahın ortasını deşəndə bayaqdan nəfəs dərməyən isveçli bərkdən donquldandı, elə bil söydü də.

– Beş torba konfet! – Uokarneqel qışqırdı, zavallı tir sahibi isə artıq konfet torbalarını saymaqda idi. Bu zaman mən


e-kitab.org

Tanyadan elə bil siqnal aldım.

– Yox, – qətiyyətlə dedim, – Ayını götürəcəyəm. O göy rənglisini.

Hər yana sakitlik çökdü.

– Nəə? – Uokarneqel heyrətləndi.

– Hə, – eyni ciddiyyətlə dilləndim. – Göy rəngli ayı fiqurunu.

Uokarneqel ətrafa boylandı. Mən özümü çox arxayın hiss edirdim, o isə toplaşanlara xoş gəlsin deyə ətli dodaqları ilə gülümsəməyə çalışdı, əlilə kürəyimi - şappıldatdı.

– Əlbəttə, Finn, istəsən ayını götürərsən. – Sonra güclə eşidilən səslə qulağıma: – Sən, səfeh Finnikins, dayan... – dedi və rinq hakimi kimi sağ əlimi yuxarı - qaldırdı.

Mən elə özüm boyda olan ayı fiqurunu götürdüm, Tanya ilə son dəfə baxışdım, istəyirdim ki, heç olmasa başı ilə hərəkətimi bəyənsin. Amma dəhşətə bax ki, bunun əvəzinə Tanya baxışlarını çevirib ayrı səmtə baxdı.

Bu nə?!

Təəccüb içində gülüşən adamlar arasından özümə yol aça-aça yüyürməyə başladım. Amma birdən-birə özümü çox axmaq və küt hiss etdim. 7 nömrəli evin yanından keçəndə gördüm bir dəstə qız mənə baxır, adımı qışqırır. Elə bil çox yorulmuşdum, bunu da yaxşı bilirdim ki, bu boyda sintetik ayı fiquru ilə onların dalınca qaçmaq indi mənlik deyildi. Üstəlik, yolboyu üz-gözümə sürtülməkdən ayının tükü elə bil



e-kitab.org

elektrikləşmişdi, saçımı da elektrikləşdirmiş, ayağa qaldırmışdı. Yorğun-yorğun pillələrdən qalxıb ayını və “Tarzan” şortunu dəhlizdə qoyub cəld öz otağıma girdim ki, bağlı qapının arxasında gizlənim.

– Finn, burdasan? – bir azdan qapıda Lindanın səsi eşidildi. Qapını döyürdü. – Qapını aç, gəl də...

Demək asandır. “Tanya gözlərini məndən niyə qaçırsın?” – məni fikir götürmüşdü.

Bunun nə demək olduğunu yaxşı bilirdim. İndi gəl bunu həll elə. Mən düz etməmişdim, onu yox, Lindanı seçmişdim. Bu, bağışlanmaz idi, uşaq kimi hərəkət etmişdim, lap gülməli idi. Qardaşına, bacısına öyrəşmiş bir adam belə kobud səhv edə bilərdimi? Əlbəttə, yox. Qardaşını, bacısını adam çox istəmir, onları sintetik xəzdən düzəldilmiş ayı ilə eyniləşdirmirsən. Onlar otağına, yeməyinə şərik çıxır, işinə qarışır, sənə mane olur, ya çox yaşlı olurlar ya da çox cavan, ya çox ağıllı ya da çox küt olurlar. Mən isə sentimental olanı seçdim. Tanya az qala mənim ovcumda idi, həm də təkcə o yox, mən Uokarneqelə də müqavimət göstərdim, onun əlli eresini dilsiz-ağızsız bir sintetik ayıya dəyişdim.

– Finn, aç qapını.

– Yox, – dedim, amma astadan. Mən pis iş görməmişdim. Bəs, görəsən, anam haradadır?

– Aç da, – Linda təkid etdi. –Sən nə isə


e-kitab.org

gizlədirsən?

O daha çox maraq göstərirdi. – Ayı çox gözəldir. Amma bu, yalançı ayıdır.

– Nə?

– Yalançı və pis ayıdır, mən bilirəm.

Nəhayət, anaının səsi gəlir. Səsi dəyişib, tanınmaz olub, qayğısız və arxayın danışır.

– Uzatma, Finn, yoxsa Kristian qapını sındıracaq.

– Birinci Fredi nə hədiyyə gətirib? – özünü ələ alıb soruşdum. Qapının o üzündə gülüş səsləri ucaldı. Sonra ora-bura gediş-gəliş, stul səsi, sobada biş-düş cızıltısı, qaz plitəsi qapaqlarının səsi. Səhv etmirəm, bu da qəhvədanın səsi, danışıq səsləri, qənddan, qaşıq cingiltisi
– hərgünkü işlər. Qapının açarını fırlatmalı oldum. Linda qapını açıb içəri girdi, ayıya görə təşəkkür etdi.

– Çox sağ ol.

Lap əsl məclis idi. Birinci Fredi qızların yanında səfehlik eləmirdi, amma yaxşıca yemişdi, Kristianın məzəli fokusları hamıya ləzzət eləyirdi, Marlenin mahnıları, oyunlar... Xeyli razı, qollarını çırmalamış Kristian məclisdən sonra lap öz evində imiş kimi aparırdı özünü, sintetik ayıdan heç də yaxşı deyildi, elə onun günündə idi, odur ki, mənim bayaq aradan çıxmağımı heç kim sezməmişdi. Linda burada olmamağını heç hiss etməmişdi, anam isə, görünür, heç kimə bildirməmişdi. Mən bunu sonra bildim. Şam yeməyinə oturanda. Gündüzdən qalan yeməklərdən, pirojna və


e-kitab.org

şirniyyatdan yedik. Qonaqlarla bağlı dostanə təəssüratlarımızı bölüşürdük – kim necə idi. Mən də həvəslə iştirak edirdim, məclisə hazırlaşmaqda bir iş görməsəm də. böyük qardaş kimi öz borcumu yerinə yetirmişdim.

– Hə, indi siz ikiniz də rahat yata bilərsiz, – biz, nəhayət, yatağa uzanandan sonra anam gah Lindanın, gah da mənim üzümü nəvazişlə sığallamağa başladı. Sonra yenə onu, sonra məni... Çünki belə gözəl gündən sonra o bilmirdi ki, axırıncı kimin yanağını sığallasın. Adi ailələrdə simmetriyanı gözləmək üçün bu, vacibdir. Mənə elə gəlirdi ki, böyümüşəm, amma əslində uşaq idim, həmişə də uşaq olmuşdum, bir fərq vardı ki, indi bu, dəhşətli yuxuya bənzəyirdi.

13 Norveç it cinsidir.



e-kitab.org

# 23

Təzə sinifdə Lindanın işləri çox da yaxşı getmirdi, görünür, ona görə ki, tez əl qaldırıb ağlına gələn ilk cavabı verə bilmirdi ki, onu tərifləsinlər ya da yanağını sığallasınlar. Mən bilmirdim, bəlkə də bütün bunlar bir pedaqoji məsələ idi, Lindanı çox əzizləmək olmazdı daha, onsuz da kifayət qədər nazını çəkmişdik.

Amma Linda elə bir şey də itirməmişdi. Oktyabr ayında din dərsinin ortasında Flintstoun Froken Henriksonla birlikdə qəflətən sinfimizə təşrif gətirdi. O, sarımtıl barınağını mənə tuşlayıb dedi ki, dəhlizdə məni gözləyir, sonra özü sinifdən çıxdı.

Dəhlizdə heç bir söz demədən qabağıma keçdi və elə iti addımlarla yeriməyə başladı ki, ona çatmaq üçün az qala qaçmalı olurdum. Ordan keçib pillələrlə aşağı endik, yeməkxanada Linda ilə onun əvvəlki din müəlliməsi Semuelson gözləyirdi. Nəsə xoşa gəlməyən bir əhvalda idilər.

– Mən ananı istəyirəm. – Linda məni görən kimi ağlaya-ağlaya boynuma sarıldı.

Onun dilindən bu sözü ilk dəfə eşidirdim. Kimi nəzərdə tutduğu, əlbəttə, məlum idi.

– Az qala bir saatdı... – deyib Flintstoun tənə ilə mənə baxdı, yəni ki, sən onu axmaqcasına xilas etmək istəyirdin, bax, bu da sənin əməlinin nəticəsi. Amma hələ bilmirdim ki, bununla o nə demək istəyir. Sonra o hirslə əlavə elədi: – Ona görə də, elə


e-kitab.org

bilirəm, sən onu anasının yanına aparmalısan.

– Nə?

– Nə dediyimi eşitdin.

Yaxşı, amma burada o qədər uşaq var ki, ağlayıb anasının yanına getmək istəyir. Onları sadəcə ya da güclə sakitləşdirirlər, bəs, onda niyə Linda?

Flintstoun sarı barınağı ilə bizə işarə etdi ki, gedin. Biz məktəbin darvazasından çıxdıq, Lorenveyndən keçib getdik. Çantalarımız məktəbdə qaldı. Linda əlimdən elə bərk-bərk tutmuşdu, bu, mənim də əsəblərimi yerindən oynadırdı, amma yəqin, soruşsam da, deməyəcəkdi ki, onu incidən nədir ya da əslində nə baş verib.

– Heç olmasa de, görüm, nə olub, nə baş verib!

– qışqırdım.

Taxıl anbarının yanına çatdıq, tramvay son dayanacaqda gözləyirdi ki, yenidən şəhərə dönsün. Biz axırıncı vaqona mindik. Trondheym boyunca gələ-gələ “bekar” qalmadıq – maşınlara baxırdıq. Şəhərin səs-küyü, Torşovdalen Parkı, “Sinsin Sinema” kino-teatrı. Bir dəfə burada rəngli filmə baxmışdım. Yolboyu Lindaya Afrika loğmanlarının yarmarkasından, silahlardan, Milad yolkası boyda sintetik ayı fiqurlarından danışırdım. Linda qəhqəhə çəkib gülürdü, elə bu zaman uniformada bilet yoxlayan konduktoru gördük.

Altmış ere sayıb daxıla atmaq istəyirdim ki, kimi görsəm yaxşıdır. Dayan,


e-kitab.org

dayan, bu ki Kristiandır, şüşə qapının o tərəfində. O da mənim kimi təəccüblə baxırdı. Elə bil həm də utanırdı. Nəsə bərkdən deyirdi, gördü ki, eşitmirik, platformaya çıxıb yaxın gəldi. Soruşdu ki, burada nə edirik.

– Anamızı görməyə gedirik.

– Dərs vaxtı?

Hə, əlbəttə, dərs vaxtı gedirdik. Amma ona nə dəxli var?

Linda arxamda gizləndi, oradan ehtiyatla gülümsəyir, baxırdı. Gördü ki, bu bizim kirayənişindir, heç özünə oxşamırdı, əynindəki uniformada lap kral VII Hokona oxşayırdı. Kralın şəklini biz Fru Siversenin evində, boşqabın üstündə görmüşdük.

– Bilet pulu verim? – soruşdum.

Kristian diksinib geri çəkildi, papağı boynuna tərəf sürüşdü, sonra boylanıb göyə baxdı.

– Dayan, fikirləşim, – güclə eşidilən səslə dedi.

– Hə?

– Fikirləşirəm ki, nə edim, Finn. Başa düşürsən? Səni, sənin bu... bacını fikirləşirəm.

– Hər halda, pulunuzu götürün, – deyib altmış ereni ona uzatdım. – İki uşaq.

– Axmaqlama, – o ani reaksiya verdi, sonra açıq qapını itələyib o biri sərnişinlərə yaxınlaşdı.

Ayaqqabı dükanında da işimiz nəhs gətirdi. Bizi dükana buraxmadılar, anam bizi dükanın arxa otaqlarından birində –


e-kitab.org

yoxlama kabinəsində gizlətdi, biz orada siçan kimi səssiz-səmirsiz oturub kitabımızı oxumalı idik. Məktəb çantalarımız bizdə deyildi. Amma xəbərsiz-ətərsiz bura gəlməyimiz də heç nəyi aydınlaşdırmadı, Linda hələ də demirdi ki, axı əslində nə baş verib. Hər halda, sakitləşib oturmuşdu yanımda. Anam bir neçə ayaqqabı gətirdi ki, onun ayağına yoxlasın. Linda balaca kətildə oturub ayaqqabıları bir-bir yoxlayırdı, mənsə Allah bilir, nə vaxtdan evimizin, ailəmizin bir parçası olmuş bu ayaqqabı dükanının qoxusunu alır, fikirləşirdim ki, görəsən, axı Flintstoun bizi bu sayaq buraya niyə göndərib.

Burası da təəccüblü idi ki, Linda anamın sorğu-sualına da məhəl qoymur, heç nə demirdi, hər dəfə səbəbini soruşanda Linda susur, cavab vermirdi.

Evə gələndə də heç nə dəyişmədi. İndi mən bir də yoxlamaq istəyirdim. Anam gördü ki, bir şey alınmır, bundan vaz keçdi, bu haqda daha heç nə eşitmək istəmədi. Yemək yeyəndən sonra Lindanı öz otağına göndərdik ki, ev tapşırıqlarını ağ kağızda yazıb hazırlasın. Linda ağlaya-ağlaya dedi ki, o daha heç bir qalmaqal istəmir, lütfən, onu sakit buraxaq.

– Düzdür, – dedim.

O heyrətlə mənə baxdı.

– Nə demək istəyirsən? Nə "düzdür"?

– Bilmirəm.

Mənə elə baxdı ki, elə bil bu saat üstümə atılacaqdı. Mənsə heç qorxmurdum


e-kitab.org

da, bir az etinasızlıq göstərdim, vəssalam. Linda mızıldadı ki, bu lənətə gəlmiş övladlığa götürmə şəhadətnaməsi ilə bağlı sorğu-sualın sonu görünmür, nə qədər yoxlayarlar. Doğrusu, biz də boğaza yığılmışdıq. Məktəb, həkimlər, başqa ictimai təşkilatlar, hamısı öz rəyini bildirməli idi ki, biz onu necə övladlığa götürmüşük.

– Biz onu övladlığa götürürük?

– Hə, məgər sən istəmirsən?

Əlbəttə, istəyirdim, elə birinci gündən, onun bizə gəldiyi gündən. Amma anam niyə belə eləyirdi, bunu bilmirdim. Elə bil o, ümumiyyətlə, heç kimi övladlığa götürməyə hazırlaşmır. Odur ki, məsələni elə bu qarma-qarışıqlıqda aydınlaşdırmaq üçün dedim ki, biz Kristianı bu gün tramvayda gördük.

– Tramvayda?

– Hə, özü də uniformada. Biz bilet pulunu ödəmək istəyirdik ki, birdən onu gördük.

– Tramvayda?!

Bax, bunu anlamaq müşkül işdi və məncə də, o heç öz yerində deyildi. Amma mən onu görmüşdüm, bu ki miraj deyildi və gördüyümü üç dəfə təkrar etdim. Elə o andaca anam oturub başını tutdu, elə görünürdü ki, bilmir, ağlasın yoxsa gülsün. Dərhal da özünə gəldi.

– Gələn dəfə məktəbdən çıxanda çantalarınızı hökmən özünüzlə gətirin, – o dedi.

– Nə demək istəyirsən, necə yəni “gələn



e-kitab.org

dəfə?"

– Gələn dəfə elə gələn dəfədir. Mənə inanın, çünki bu, yenə təkrar olacaq.

Mən heç nə başa düşmədim.

– Bura bax, Finn, – deyib anam mənə baxdı, əlini çiynimə qoydu, sanki ürəyimin içinə baxırdı. – Nə baş versə də, siz ikiniz də nümunəvi şagird olmalısınız. Başa düşürsüz, i-ki-niz də! İndisə get, onun hesab dərsi ilə bir az məşğul ol.

– Onun bu günə çalışmaları yoxdur...

– Dedim, gedin, hesabdan bir-iki misal həll etdin.

* * *

Acı olsa da, anam düz demişdi. Elə ertəsi gün Flintstoun yenə sinfimizə gəldi, o sarı barmağı ilə məni çölə çağırdı. Dəhlizdən keçib pillələrlə aşağı endik. Linda yenə burada oturub anam üçün ağlayırdı. Amma bu dəfə tramvayla getmədik. Piyada getdik, çantalarımız də çiynimizdə. Oturub dərslərimizi hazırladıq, elə bil adətkərdə olmuşduq.

Bir gün sonra bu yenə baş verdi, üçüncü dəfə. İndi bütün məktəb bilirdi ki, nə baş verir. Tanya da bilirdi, çünki tənəffüsdə yanıma gəlib dedi ki, kimsə Lindanın üstünə düşüb.

– Nədən bilirsən?

O, çiyinlərini çəkdi, vəziyyətdən çıxmağa çalışdı. Amma bu dəfə cazibəsi də ona kömək etmədi, üstəlik, mən tirdə ayını udanda onun hərəkəti yadımdan çıxmamışdı. – Nədən bilirsən? – təkrar


e-kitab.org

etdim, amma acığımı da gizlədə bilmədim. Əvəzində, o gülümsədi mənə, sonra dönüb qızların yanına getdi, o qızlar ki, onu heç vaxt qəbul etməyəcəkdilər. Hiss edirdim ki, bunu özü də bilir. Bilir ki, onu heç yerdə qəbul etməyəcəklər. O, Lindada özünü görürdü.

Linda bu gün də heç nə demədi. Yenə evə getdik, dərslərimizi hazırladıq. Mən onu hədələdim, deyindim, dedim ki, əgər nə baş verdiyini mənə deməsə, belə davam etsə, anamız bizi atıb gedəcək.

Heç nəyin xeyri yox idi. Linda karandaşını götürür, hərfləri yazır, şəkil çəkirdi, bu zaman ağzının sol kənarından dilinin ucunu çıxarır, yanağını vərəqə yapışdırırdı. Fikrini o qədər cəmləyirdi ki, şübhəsiz, xəyalı harasa uzaqlara uçurdu, o yerdə ki, nə Norveç ibtidai məktəbi vardı, nə də bir anadan olan doğma qardaşı və ögey anası. Lindanın fikri bu dünyada deyildi, bir gün mən bunu, nəhayət, başa düşəcəyəm, o, Marsdan gəlmişdi, Yerə enib bütpərəstlərlə danışmaq istəyirdi, norveçlilərlə fransızca, amerikalılarla rusca danışmaq istəyirdi. O bir tale idi, həm gözəllik, həm də bir fəlakət idi. Hərəsindən bir az. Anamın güzgüsü, anamın uşaqlığı. Hər şey təkrar olunurdu. Heç vaxt yox olmayan bir şeydən qalan axırıncı fraqment. Tanrının onu yaratmaqda bir məqsədi olmalı idi. Gizli bir planı olmalı idi. Amma nə?

– Bu nədir? – soruşuram ondan.

– Zürafə, – Linda deyir və gülümsəyir,


e-kitab.org

yəni ki, özü də yaxşı bilir ki, bu, nə zürafədir, nə də peyin böcəyi. Amma bunun nə əhəmiyyəti var, tutalım zürafə elə zürafəyə də oxşadı, nə olsun, onunla neyləyəcəyik biz? Onu qəpik-quruş daxılına atacağıq?

Nəhayət, vaxt gəlib çatdı.

Mən anamın daş-qaş mücrüsündən açarı götürüb illərlə bağlı qalmış paltar dolabının siyirməsini açıram, köhnə, saralmış məktubları və albomu gətirib mətbəx mizinin üstünə qoyuram.

– Linda, – Linda barmağını mənim uşaqlıq şəklimin üstünə qoyub deyir.

– Yox, – deyirəm. – Bu mənəm.

Axı, o düz demir, onun şəkli deyil, ona görə də mübahisə edirik, amma anamın və atamız hesab edilən adamın, Oskar dayımın, nənəmin, Tor dayımın və ailəmizin digər üzvlərinin şəkillərinə gözüm sataşanda axırda mən təslim oluram. Onlar hamısı adi adamlardır. Çimərlikdə, meşədə, ağ bir çadırın yanında oturublar, hərəsinin də əlində qulpsuz bir fincan. Bir şəkildə anam, yanında da naməlum bir şəxs, Froqner Parkında bir abidənin yanında dayanıb. Bilirəm ki, indi bu abidə "Həyat Çarxı" adlanır. Başqa bir şəkildə həmin naməlum adam cavan Biarne dayımla otu təzəcə biçilmiş sahədədirlər, hərəsi bir əlində yaba tutub, o biri əlini yanındakının çiyninə qoyub, lap qardaşlar kimi. Bunların heç birində qeyri-adi bir şey yoxdur.

Başqa sözlə, mən heç nə görmürəm.



e-kitab.org

Bircə onu görürəm ki, anam ümumiyyətlə, Marlen kimi xoş simalıdır, əslində, ondan gözəldir də, bizim səfeh atamız isə bizə bir elə də oxşamır, nə mənə, nə də Lindaya. Qısası, burada maraqlı heç nə yoxdur.

Əgər haçansa inansam ki, bizdə hansısa bir xəstəlik var və doğrudan da, məndə bu xəstəlik varsa, bunun da səbəbini bu şəkillər rentgen kimi göstərər, demək, onda mən tamam səhv edəcəyəm. Amma bu o deməkdirmi ki, biz indi əqlən və cismən sağlam deyilik?

Əlimdə tutduğum bir şəkillə oturmuşam, bu şəkil qalan həyatım boyu mənimlə olacaq və bütün qeyri-adiliyi ilə mənimçün nəsə bir məna daşıyacaq. Bu Tonsenin evinin şəklidir, şəkildə bu ev hələ tikilməkdədir. Torpaq və palçıq qalaqları arasında bir qaldırıcı kran beton plitəni qaldırır. Kranın kabinəsindəki bizim atamızdır. 1953-cü ilin isti yay günlərindən biri. O, könüllü olaraq bu ictimai faydalı işi görür. Elə o biri adamlar kimi. Hamı dama-dama köynəkdə, parçadan tikilmiş papaqlarda, qolları çırmalanmış halda əl arabası və sement qarışdıran alətlərlə iş başındadır. Bizim üçün çalışırlar, bizim üçün tikirlər. Sonralar bizim burada yaşamağa haqqımız olsun deyə. Bu şəkillə fəxr etmək olar, hər halda adama xəcalət gətirən bir sirr-zad yoxdu burada. Amma şəkildə o görünmür, elə görünməz halda da bu "dəmir leyləyi", bu dar ağacına oxşayan kranı idarə edir, nömrələnmiş beton


e-kitab.org

panelləri müəyyən edilmiş yerlərə qaldırır. Burada adamlar on illərlə yaşayacaq, yeyib-yatacaq, uşaqlarını böyüdəcəklər. O uşaqlar ki, böyüyə-böyüyə həyatda neçə-neçə sirr və müəmmalarla üz-üzə gəlir, bir gün də bu sirlər onları mina kimi içəridən partladır.

Daim bağlı qutuda saxlanan bu şəkil və siyirmənin açarı mənə bir iftixar duyğusu gətirir, şəkli gah dizim üstə, gah da miz üstə qoyub baxıram, sonra da duzqabının arasına qoyub baxıram. Yataq otağının jalüzləri arasından bayıra boylanıram. O jalüzləri yalnız anam açıb-yığa bilir, mən də, Linda da açanda iplər dolaşır, düyün düşür. Pəncərədən Birinci Fredinin dediyi uzaq zirvələrə baxıram, sonra baxışlarım yenə şəklə sancılır, iş başında olan o görünməz adamın şəklinə.

Mən özümə bu şəkli götürmüşəm.

Linda da özünə şəkil götürüb. Anamın şəkli. Qara bir "Ford"un buferində oturub, şəkil çəkib anam. Maşının modelini o dəqiqə tanıyıram, 1936-cı ilin modelidir. Səndəl geyib, ağ paltardadır, saçlarına çiçək taxıb, elə bil mənim ya da Linda sözünə gülümsəyir, hər halda sevdiyi bir adamın sözünə gülümsədiyi bilinir. Şəkillər içində ən yadda qalanı anamın qayğısız vaxtlarını əks etdirən bir şəkil idi. Bəlkə elə bir də görmək istəmədiyi və ya bizə göstərmək istəmədiyi şəkil elə budur? Gülümsədiyi və xoşbəxt olduğu həmin anlar?

O anlar keçmişdə qalıb, ona görə?

Şəkillər içində mənim keçən günlərini


e-kitab.org

əks etdirən şəkillər də vardı, hamısında da demək olar ki, tək. Yəqin, fotoaparat anamın əlində olub, bəzilərində isə ikimiz birlikdəyik. Marlenin yayda məni, Lindanı və Borisi çəkdiyi şəkillərdən başqa qalan şəkillərə baxmaqda bir problem yoxdur, elə deyil? O şəkilləri elə baxmaq üçün çəkmişik. Biz istədiyimiz şəkli seçir, götürüb baxırıq, sakitcə, xatirələrə dalırıq, yaddaşımızla danışırıq. Biz, axı bu şəkillərdə əks olunmuş həmin adamlarıq və onlar kimi də adi və normal adamlarıq.

– Mən o şəkli istəyirəm, – Linda anamın şəklini göstərib deyir, sonra mətbəxə keçir, ümumi şeylər saxlanan siyirmədən lent rulonunu və qayçı götürüb öz otağına gedir. Mən də şəkilləri götürüb onun arxasınca gedirəm.

Linda anamın şəklini çarpayısının baş tərəfində asıb. İndi çarpayıda uzanıb, əllərini başının altında daraqlayıb şəklə baxır. Mən məktubları və şəkil albomlarını qaytarıb siyirməyə, açarı daş-qaş qutusuna qoyuram. Paltarlarımızı asdığımız stulda oturub şəklə baxırıq. Beləcə gah yerimizdə uzanır, gah da oturub baxırıq. Anamın şəklinə baxmaq gözəl duyğudur, amma bu həm də qəribə gəlir adama – anamız o vaxtdan nə qədər az dəyişib. O biri tərəfdən, fikirləşirsən: burada nə var ki, anam onu belə gizlədir. Bu zaman anam içəri girir.

Yorğun baxışlarından hiss edirəm ki, bu gün yenə məktəbdən onun iş yerinə zəng vurublar, indi Linda ilə yenə danışmaq


e-kitab.org

lazım olacaq, görünür, həll olunmalı daha nələrsə var. Amma bunun əvəzinə, gözü divarda asılmış şəklə sataşır, dayanıb baxır ki, nə etsin. Sonra deyir:

– Görürəm, şəkillərə baxmısız, hə?

Geri qayıdıb, paltosunu soyunur, dəhlizdə asır. Sonra Lindanın yanına gəlib çarpayısının kənarında oturur. Birlikdə şəklə baxırıq. Bu həmin şəkildir ki, anam maşının buferində əyləşib. O da şəklə mən baxdığım kimi baxır. Hiss edirəm ki, bu saat hamımız eyni şeyi düşünürük: aman Allah, adi və normal olmaq nə qədər gözəldir?!



e-kitab.org

# 24

Ertəsi gün, yaxşı ki, həftəsonu idi. Anam yuxudan oyanmamış Linda ilə mən oyandıq, bir-iki yumurta qaynatdıq, süfrə açdıq. Səhər yeməyi yedik, geyinib Fornebu aeroportuna gedən avtobusa mindik. Aeroportda iyirmi altı dəfə eskalatorla qalxıb-endik, sonra avtomata əlli ere atıb damın terrasına qalxdıq. Oradan uçan təyyarələrə baxıb sevinirdik. Qəribə gəlirdi bizə, Ankoricə və Rumıniyaya uçan bu qorxulu dəmir qanadlılar göyərtəsində nə qədər adam aparırdı. Hamısı adi, normal adamlar idi, bizim kimi. Anam deyirdi ki, onlar heç qorxmurlar da. Oturacaqların arxasındakı balaca ciblərdə papaqlar, əlcəklər, xalça salınmış döşəmədə ayaqqabılar görünürdü. Linda yaşında bir qızın əlində qəfəs vardı, qəfəsin içində tutuquşu. Bayırdan baxanda təyyarənin içindəki əsas şeylərdən yalnız bunları görmək olurdu.

Üç-dörd dəfə təyyarəyə qalxandan sonra başa düşdüm ki, bu səs-küy içində nə qədər qısqırsan, səni heç ki eşitməyəcək. Sonra, Linda da qışqırdı. Heç nə eşitmirdik. Baş-başa verib birlikdə qışqırdıq, yenə heç nə eşidilmədi.

Sonra anam da qışqırmağa başladı, əvvəlcə çəkinə-çəkinə, bir az yavaşdan. Yəqin, məşq etməli idi. Yavaş-yavaş öyrəndi, amma onsuz da biz onu eşitmirdik. Lap zil səslə qışqırır, bərkdən qəhqəhə


e-kitab.org

çəkirdik, axırda böyrəklərimiz ağrıdı. Oradan çıxıb restorana getdik, vafli yedik. Burada bir-birimizlə pıçıltı ilə danışırdıq, amma səsimizi eşitmirdik, elə bil qulaqlarımız batmışdı. Bu gün elə günlərdən ki, gərək heç vaxt bitməyəydi.

Evə qayıdanda avtobusun arxa tərəfində oturduq, Linda başını anamın düzləri üstə qoyub yatdı. Anam yavaşdan soruşdu ki, məktəbdə-zadda kimsə Lindanı incitmir ki. Dedim ki, yox, amma özüm də göz-qulaq oluram, o da tənəffüsdə, bayıra çıxmağa icazə verəndə.

– Bəs evdə, küçədə?

Dedim ki. Elə bir şey hiss etməmişəm, amma...

– Amma nə?

– O sənə “ana” deyir.

Anam bir anlıq özünü itirdi, çaşıb qaldı. Üzünü çevirib pəncərədən görünən Uessels Meydanına baxdı. Əvvəllər bir dəfə anamla buradan keçmişdik. Dedi:

– Yay tətilində Linda doğrudanmı üzməyi yaxşı öyrəndi?

– Hə, yaxşı öyrəndi.

– Yəni lap yaxşı?

– Bütün körfəzi əldən saldı, hər yana üzürdü.

Anam başı ilə də təsdiq etdi, dedi ki, Marlen də ona belə deyib. Avtobus dayandı, adamlar düşdü. Bazar günü, günorta saat üç idi. Oktyabr ayının axırları. Avtobus uğuldayır, dayanır, qapıları cırıldayıb açılır, yenə adamlar düşür. Beləcə, yolumuz



e-kitab.org

davam edir. Bu gün elə günlərdəndir ki, istəyirəm, o heç vaxt bitməsin.

– Kimsəyə deməmisən ki, o, televizora baxmağa qorxur? – anam az qala pıçıltı ilə soruşur.

– Yox, – deyirəm. Onsuz da Linda daha qorxmur.

– Bəs kimə isə demisən ki, o, axşamlar yerini isladır?

– Yox. – Linda daha onsuz da belə eləmir.

– Bəs əvvəllər eləyəndə kimə isə deyirdin?

– Yox...

– Finn, əminsən ki, mənə hər şeyi deyirsən? Nəsə yaddan çıxarmırsan ki?

– Hə, bir dəfə Enn-Berit dedi ki, bizim sinfimizdən sidik iyi gəlir.

– Nə? Haçan?

– Narahat olma, çoxdan, lap qabaqlar demişdi...

Anam fikrə gedir, təxminən bilirəm nə fikirləşir. Yəqin hesablayır ki, altı ay olar ki, Lindanın döşəyinə daha plastik parça qoymur, üstəgəl, dörd aydır ki, Lindaya təzə döşək almışıq, daha heç bir iy-zad da gəlmir.

Mənə çoxlu suallar verir. Başqalarına nə deyə bilərdim, nə deməyə bilərdim. Nəhayət, mənə çatır ki, anam başımıza gələ biləcək hər şeydən bizi qorumağa çalışır. Birdən mən qızışıb ağzımdan nə isə qaçıra bilərəm, artıq-əskik söz deyərəm, bu da bəzi əlaqədar adamlara fürsət verər. Axı biz


e-kitab.org

nəzarət altındayıq.

Görürəm ki, Linda gözlərini açıb. Anama onun oyandığını deyirəm. Anam susur, pəncərədən Rozenhof və Sinsen binalarına baxa-baxa Lindanın başını sığallayır. Deyir ki, deyəsən yağış başladı. Yağış getdikcə güclənir, elə bil vedrədən tökülür. Linda soruşur:

– "Ölmək" nədir?

– Nə?

– "Ölmək" nə deməkdir? – o, sualını təkrar edir. Biz anamla baxışırıq.

– Niyə soruşursan ki?

Amma Linda ilə bu cürə danışmaq olarmı?

– Kim dedi bunu sənə? – boz pərdələr arasından bayıra sakitcə baxa-baxa soruşuram.

– Dundas, – Linda deyir, elə bil özü-özü ilə danışır.

– Dundas?

– Onların sinfində bir oğlandır, "ad undas" da deyirlər, ləqəb kimi. Mənası "batmaq, uğursuzluq" deməkdir. – Qəfildən hirs məni boğur, hiss edirəm ki, sakitləşmək çətin olacaq. Öz-özümə deyirəm ki, bayaqdan düşündüyün kimi bu gün çox da uzanmayacaq, bugünkü gün çox da davam edə bilməz, etməməlidir.

– O daha nə dedi sənə?

Burada Dundas haqqında bir şeyi deməli lazım bildim.

– Dundas cin kimi bir şeydir, – deyirəm. – Cinlər girib oturub onun içində, odur ki,



e-kitab.org

içində cin havası var, hər dəfə ağzını açanda ağzından axmaq və nəhs şeylər çıxır. Gərək özünü qoruyasan ondan. Əsl qulyabanıdır.

– Bəsdir, Finn...

Linda gülür, anamı da gülmək tutur, amma mənə elə baxır ki, yəni ki, gülmək lazım deyil. Sonra mən Dundasın əbləhliyini təsvir etmək üçün Traverveyndə eşitdiyim ən təhqiramiz, əski qəbilə sözlərini işlədirəm, Linda ilə bu sözləri bərkdən deyib yenə gülürük. Sonra mübahisə etməyə başladıq ki, avtobusu dayandırmaq üçün zəngi kim çalır və beləliklə, bir az keçincə, deyəsən, özümüzə gəldik. Anam dedi:

– O, doğrudanmı, dedi ki, bizim yataq otağımızdan sidik iyi gəlir?

Anam şam yeməyi hazırlamağa başlayanda mən hirsimi də, podşipnik kisəsini də götürüb – bundan böyük valyutam yoxdu ki – Birinci Fredinin yanına gedirəm. Podşipnikləri ona verəndə bilirəm ki, hər halda bundan xoşu gələcək. O iki mübahisəli podşipniki nəzərə almasaq, o, bunları alandan sonra Dundası əzişdirməyə həvəslə razı olar.

Biz 7-ci bloka girib Dundasgilin evinin zəngini basırıq. Onlara gələn az olur, zəngləri az-az basılır, ona görə də anası bizi ehtiyatla, şübhə ilə süzür. Dundası xahiş edirik.

– Onun adı Dundas deyil.

Amma Dundas heç nədən şübhələnmir, cemperini tələsik əyninə keçirib çıxır, pilləleri elə cəld addımlarla düşür ki, onunla


e-kitab.org

güclə ayaqlaşırıq. Aşağıda ondan soruşuruq ki, Linda ilə aralarında hansı söhbət olub, o nə dediyimizi başa düşmür və elə bilir ki, onu harasa dəvət edirik.

– O ölüb? Ölür?..

O, otların üstündə o yan-bu yana dartınır, boyun qaçırır, özünü o yerə qoymur, bizsə hərəmiz bacardığımız kimi bu alçağı yumruqlayırıq. Təpiklə, şillə ilə vururuq. Əvvəlcə necə gəldi vururuq, sonra isə ağrıtmağa, ağlatmağa vururuq. Amma Dundasın elə bil qanayan yeri də yoxdur. Elə vururuq ki, yıxılsın. Budur, nəhayət o tir-tap yıxılır, elə bil huşunu da itirir. Hirsim bir az soyuyur, amma bu halda kimsə işə qarışmalıdır, yoxsa gözümüz heç nə görmür. Bununla belə, başını aşağı salıb hönkürən Lindanın üzü, Flintstounun sarı barınağı gözlərimiz qarşısından çəkilmir. Lindanın çarpayısı, onun sintetik ayısı, zahiri görünüşləri ilə tamam başqa planetlərdən olan heyvan rəsmləri... gözlərimə görünür. Özüm sakitləşməsəm kimsə bir şey edə bilməz. Birdən altımda nəsə bir şey xırçıldayır, sınır, bir az özümə gəlirəm, əsməyə başlayıram, qışqırıb deyirəm ki, nəsə şaqqıldadı, sındı, Birinci Fredi isə bu yeni vəhşiliyindən razı halda mənə baxır, qışqırır:

– Heç qanayan yeri də yoxdur bunun!

O, yumruğunu düyünləyib Dundasın suyu axan burnuna endirir, onu bir də sındırır. Daha bir yumruq. Bir də. Qışqırmağın xeyri yoxdur. Onsuz da sükut



e-kitab.org

binaların arasından dağ kimi qalxıb. Mən onu çəkib kənara dartdım, ikimiz də palçıqda diyirləndik. Di gəl ki, Birinci Fredi sakitləşmək bilmirdi, ayağa qalxmaq istəyəndə səndirlədi, arxası üstə yıxıldı, yerdəcə qışqırmağa başladı:

– Qoy öldürüm onu! Gicbəsərin biridir o! Öldürəcəm onu!

Amma mən onu buraxmıram, o təngnəfəs halda yenidən dizi üstə yerə gəlir. Bu anda elə bil o özü də nə isə hiss edir, özünə gəlir, nə baş verdiyini başa düşür, çünki Dundas arxası üstə tərpənməz uzanıb, tanınmaz hala düşüb, iniltisi eşidilir. Qollarımı boşaldıram, oktyabr ayının soyuq bir bazar günü, günorta vaxtı, bomboş, bu saatlarda sakinləri nahar yeməyinə oturmuş binamıza baxıram. Qulağıma səs gəlir, bu səs bədənimə, qanıma yayılır. Görürəm ki, Dundasın bir qolu tərpənir, sonra bir dizi, sonra da bir gözünü açır. Qeyzim yenə tüğyan edir, Lindanın avtobusda dedikləri qulağımda əks-səda verir. Əyilib onun şişmiş gözünə baxıram. Gözü dəhşət saçır. Başa düşürəm ki, əgər həmin anda bir az da başısoyuqluq eləsəydim, o bir də ayağa qalxmazdı.

Qəlbimdə bu ağrılarla durub tərpənirəm. Birinci Fredi də arxamca, səndirləyə-səndirləyə gəlir. Ayaqlarımız rezin kimi yerə yapışır, bir-birimizə baxırıq, guya ki, döyüş meydanını birlikdə tərk edirik. Pillələrlə evə qalxmazdan əvvəl çiynimiz üstdən boylanıb görürük ki,



e-kitab.org

Dundas hələ də yerdə uzanıb-qalıb, dəhşətli ağrılardan əziyyət çəkir, ayağa durmağa cəhd edir. O Dundas ki, heç vaxt dostu olmayıb, amma bundan sonra bir dostu olacaq.



e-kitab.org

# 25

Cəzanın müxtəlif növləri, çeşidləri varmış, elə bilirdim ki, onların hamısını bilirəm. Günah və uçurum da varmış. İçəri girəndə anam bu yaşantılarımı üzümdən oxusa da, heç nə soruşmur. Anam soruşmur, soruşmaq istəmir, mənsə indi artıq dəyişmiş, xirtdəyəcən günaha batmış cismimlə ağzımdakı yeməyi marçıldada-marçıldada yeyirəm, çünki anam soruşmur, bilmək istəmir. Bir də ki, onsuz da mən onu başa düşmürəm.

Hamıdan əvvəl yatağa girirəm. Bir azdan görürəm ki, Linda balaca pilləkənlə dırmaşır ki, çarpayının başından mənə baxsın.

– Sabah məktəbə getməkdən qorxursan? – soruşuram ondan.

– Yox, – o deyir, sağ tərəfə sürüşüb mənə tərəf əyilir, istəyir ki, mənimlə güləşsin, amma birdən üstümdə oturur, ciddi bir görkəm alıb deyir: – Yox.

Deyirəm ki, Dundas ölüb.

– Yox, – o gülür, yəni ki, bu mövzunu aeroportdan gələndə avtobusda danışıb qurtardıq, indi niyə bundan danışırıq. Sonra Cenninin ona öyrətdiyi barmaq oyununu mənə başa salır.

Bəzən vaxt keçmir ki keçmir. Bazar gününün yarısı ona sərf olundu ki, bizi sinifdən çağırdılar, Flintstounun bürkü və siqaret tüstüsü ilə dolmuş otağında onun danlağına və ədalarına dözməli olduq.


e-kitab.org

Amma onun qaydaları alt-üst edilmişdi, yəqin, ona görə ki, biz onun düşündüyü kimi elə də yumşaq və zəif deyildik. Bu dəfə məsələ nə qədər ciddi olsa da.

Bizi yenidən sinfə qaytardılar, heç bir söz də demədilər. Yerimizdə oturub gözləyirik, beynimiz də təmizdir. Sonra məni direktorun yanına çağırırlar, həm də tək. Amma bu dəfə anam da buradadır. Stulda əyləşib, əynində heç vaxt görmədiyim palto var. Bildiyim qədər, bahalıdır. Başında şlyapa, dizinin üstündə balaca əl çantası var. Bu çantanı da mən heç vaxt görməmişəm. Dizlərini cütləyib, dik oturub. Anam özünü vəzifə adamı kimi göstərir. Ayaqqabı dükanının satış assistenti olan anam dükanın gündəlik mədaxilini çox dəqiq hesablayır. O az qala indi məni də görmür. Amma hər halda mən onun oğluyam. Tezliklə başa düşürəm ki, düşmən kimdir, görürəm ki, anamla direktor heç də bir cəbhədə deyillər.

– Oğlanın bir neçə qabırğası sınıb, – Flintstoun qaşqabaqlı deyir. Aydındır ki, Dundası nəzərdə tutur. – Bir qolu əzilib, bütün bədəni qançırdır, iki dişi...

Anam hələ də mənə sarı baxmır, gözləyir ki, Flintstoun sözünü qurtarsın, sonra çəkinib-eləmədən tüstü burulğanına tərəf deyir:

– Bu bir də baş verməyəcək, inanın.

– Eləmi? – direktor şübhə ilə qaşlarını çatır.

– Bəli, bəli, – anam təkidlə əlavə edir. –


e-kitab.org

Ona görə də, biz indi bilməliyik ki, Lindanı niyə qorxudublar...

– Bunun o məsələyə heç dəxli yoxdur.

– Hər gün onu məktəbdən çıxarıb evə göndərirdilər, sizsə heç nə etmirdiniz. Müəllimləriniz onu evə göndərirdi...

– İşə düşmədik?!

– Ümumiyyətlə, bir şey etdinizmi?

– Nə demək istəyirsiz?

Aralığa uzun bir sükut çökür. Bunu, əlbəttə, Flintstoun eləyir, burada sakitliyin ağası da odur, onu pozan da. Anama baxıram, deyəsən, ruhdan düşür. Direktora tərəf dönüb bərkdən deyirəm:

– Eləyə bilərdiniz, əgər boş-boş danışmasaydınız...

– Nə?!

– Anam isə boş-baş danışmırdı.

Flintstoun siqaretini barmaqları arasında az qala əzişdirir, stulun arxasına söykənir.

– Demək, belə, cavan oğlan. İndi bütün bunları necə başa düşək?

Anam dillənir:

– Demək istəyir ki, əgər o nəsə desəydi, bəlkə də onu...

Anam sözünü yarımçıq deyir, təsəvvüründəki dəhşətlər üzündə də əks olunur. Mən də bunu görməyə bilmirəm, bu vəziyyət Flintsouna da təsirsiz qalmır.
O, boz-göyümtül başını əlləri ilə tutur, anam nəsə tez-tez deyir, axırda fikrini belə tamamlayır:

– Belə şeylər, axı məktəbin


e-kitab.org

məsuliyyətidir...

Bundan sonra ona bir az dincəlmək lazım gəlir. Mənimsə ağlıma bu dəfə yaxşı bir şey gəlmir, amma dik oturmuşam, yəni ki, oturuşuma irad tutulmasın. Flintsotun lazım gəldikdə taktikasını dəyişənlərdəndir.

– Yəni işlər elə pisdir? – o üzünü mənə tutur və görünür, bir az yumşalıb.

– Yox, – tərəddüd etmədən deyirəm. – Yəni bəli, pisdir. – Bu indiyə qədər verdiyim ən düzgün cavabdır. Anam bütün bunlara son qoymaq istəyir:

– O neçə müddətə məktəbdən xaric ediləcək?

Flintstoun təzə bir siqaret yandırır, söhbəti yekun-
laşdırır.

– Sizə xəbər veriləcək.

Anam ayağa qalxır.

– Yaxşı, daha nəsə qaldımı?

Daha heç nə qalmamışdı.

Biz dəhlizə çıxırıq, yaxşı ki, kimsə gözə dəymir. Bu söz-söhbətin onuncun necə qurtaracağını düşünə-düşünə görürəm ki, anam yaxınlıqdakı divara əl atır, pəncərə taxtasına söykənir, olduqca gərgindir, bir az əyilib. Bir şey deməyə cürət etmirəm, sadəcə, hazırlaşıram ki, birdən yıxılıb eləsə, tutum.

Amma hər halda, fikirləşirəm ki, bu əhvalatın səbəbi mən deyiləm, heç vaxt da olmamışam. Bu, onun özünün, bir də Flintstounun işidir, ictimai məsələdir.

– Sağ ol, Finn, – deyib, anam məndən


e-kitab.org

ayrılır, müəllimlərin çıxış qapısına doğru gedə-gedə kimsəsiz dəhlizdə dabanları səs salır.

Yoxsa eyni mənzərədir – həmin yay günü sahil körpüsündə durub qayıqda uzaqlaşan anama baxdığım gün keçirdiyim hissləri yenidən yaşayıram? Yox, bu deyil, bu, tamam başqa bir hissdir. Heç məni ağrıtmır da. Çünki dalınca baxa-baxa şüşə qapıdan çıxanda başa düşürəm ki, o nə qorxur, nə də bədbəxt deyil. Onun heç bizi atmaq planı da ola bilməzdi. Əksinə, başını dik tutub Lorenveynlə üzü aşağı yeridikcə xeyli rahat görünürdü. Bir azdan yarpaqları tökülmüş kolların arxasında gözdən itdi.

Yaşıl paltoda, eləmi?

Nədənsə özümü günahkar hiss edirəm, elə bil məni əfv ediblər, amma çox əzgin haldayam. Bu hala, deyəsən, katarsis deyirlər. Bu düşüncələrlə dayanıb gözləyirəm, bir azdan zəng vurulacaq, zəngdən qabaq dəhlizdə səssiz bir hərəkət duyulur. Səsdən əvvəl bir gözləmə anı, zəngin səsin hələ yoxdur, səsin ərəfəsidir, amma qulaqlarda o artıq səslənir, hər bir şagird bu "ərəfə"ni öz nəbzində hiss edir.

Sinfə qayıdıram. Qapını döyürəm, Freken Henriksenin "Gəl" səsini dinləmədən içəri girirəm. Birinci Fredi gözlərini mənə dikib, başı ilə öz aləmində nəyi isə təsdiq edir. Yerimə keçib otururam, heç kimə tərəf dönmədən yalnız irəli baxıram. Sanki belə tapşırıblar. Freken Henriksenin səsini eşidirəm, öz-özümə


e-kitab.org

deyirəm, yəqin, o bu işi də əlinə alıb həll etmək istərdi – amma, əlbəttə, İkinci Dünya müharibəsi kontekstində. Məni bu düşüncələrdən zəngin səsi ayırır.



e-kitab.org

# 26

Məktəbdə yayılmışdı ki, Dundasın başına bədbəxt hadisə gəlib, ölümcül əzilib, şikəst olub və bu iş polisə, həbsə aparıb çıxaracaq. Amma cümə axşamı o, məktəbə qayıtdı, üz-gözü şişmişdi, gözləri qanla dolu, bir qolu sarğılı idi, həmişəki qaynar hərəkətləri yox olmuşdu, asta tərpənirdi, ona görə də yerindəcə qalıb verilən suallara cavab verirdi.

Onun üzündə bir əzab vardı, böyük bir sınaqdan çıxmış adamın əhvalı, qəfil ölüm qorxusu çökmüşdü üstünə. Onu da hiss etdim ki, əlində nəsə tutub, sarğılı qolunda irəli-geri diyirlədir. Adama elə gəlirdi ki, o bu əşyanı özü əllə oynadır ya da podşipnik şarları onun əlini oynadırdı.

Yaxına gəlib soruşdum:

– Bunu haradan almısan?

– Birinci Fredi verdi, – o tərəddüd etmədən dedi.

Onun düyünlənmiş balaca əlində podşipnik vardı, aydın görünürdü ki, ovcundakı podşipniklə qürrələnir. Dundasın xarakterində iki fərqli cəhət vardı. Fağır və zavallı qəlbini görüb ona acıyırdın, yazığın -gəlirdi, amma hirsini, hikkəsini, burnu fırtıqlı uşaq kimi çığır-bağırını eşidəndə tutub dənizə atmaq istəyirdin. Bilirdim ki, Birinci Fredi tez-tez elədiyinə peşman olur, amma yaxşı oğlandır. Mən özüm də bu xasiyyətdə idim, tez-tez hərəkətlərimdən peşman olurdum, amma həmişə nəsə bir


e-kitab.org

şey quraşdırırdım. Belə bir oyunda isə mən təzə idim, yəqin ki, əməlimizi boynuma alıb, Dundası heç vaxt bağışlamayacaqdım. Başımla təsdiqedici bir jest edib, çevrilib getdim.

Elə həmin gün Birinci Fredini və məni rəsmi olaraq sinifdən çıxardılar. Şeylərimizi yığıb məktəbdən getməli və bazar ertəsinə qədər buralarda görünməməli idik. Bizə təqdim olunan məktubda deyilirdi ki, bizə yumşaq cəza veriblər, çünki "insident məktəbdən kənarda" baş verib.

Evə getdik, mən xeyli yüngülləşmişdim. Birinci Fredininsə öz qayğıları vardı.

– İndi gör, başıma nələr gələcək.

– Atan evdədir?

– Yox, əsas anamdır, bilirsən, necə döyür?

– Deməmisən ona?

– Yooox...

Birinci Fredigildə də telefon yox idi, üstəgəl, o, məktəbdən verilmiş məktubu da atdı. Beləliklə, təkcə Birinci Fredinin anası, bir də onun Framheld məktəbinə gedən bacıları qalırdı.

Birinci Fredi həmin gecə heç bayıra çıxmadı, evlərinin pəncərəsində oturub oradan mənə işıq siqnalları göndərirdi. Mən də heç yana çıxmadım, çünki bilmirdim ki, məni görənlər nə deyəcək.

Evdə "Dundasın işi" heç danışılmalı mövzu deyildi, amma bu məsələ mətbəx mizimizə gəlib çıxmışdı və ana-oğul münasibətlərində növbəti bir mərhələ


e-kitab.org

başlanırdı. Oğul-kirayənişin münasibətlərini hələ bir tərəfə qoyuram.

Kristian da məsələdə bir iştirakçı kimi aparırdı özünü, az müdaxilə etməyə çalışsa da, hərəkətlərindən gərgin olduğu hiss olunurdu, guya ki, biz müttəfiq idik, bu işə birlikdə qərar vermişdik və indi oturub Farenqeyti Selsiyə necə dəyişdirməyi götür-qoy edirdik. Amma bu saat mən ayrı şey fikirləşirdim. Bir dəfə o mənə bir sikkənin tarixindən söhbət açmışdı, onun əldən-ələ necə keçib, sürtülüb köhnəlməsindən söz açmışdı, indi o yadıma düşmüşdü. İndi mən də bilirdim ki, günahı yuya bilməmək nə deməkdir, bu elə bir günah idi ki, onu yumaq, təmizləmək olmur. Bu, bağışlanmaz cinayətdir, bu cinayətin izi sənin içində həmişəlik qalır. Çapıq kimi.

Anamın həyatında olduğu kimi.

– Mən bu məsələnin üstündən birdəfəlik xətt çəkmişəm, – günorta vaxtı mən evə gələndə anam belə dedi. – Çörəklə nə yeyəcəksən?

– O paltonu haradan almısan?

– Nə?

– Bu gün geydiyin paltonu deyirəm, haradan almısan?

– Bu nə cəsarətdir?

Bax, belə!

– Bir az donuz əti, bir az salami kolbasası, bir az da Banyos balı14 olsaydı, yaxşı olardı.

– Deyəsən, məni azdırırsan, Finn, demək istədiyini demirsən.


e-kitab.org

– Onda...
– Aha, de, görüm.
– Kimdənsə borca götürmüsən?
– Borca götürmüşəm? Nəyi?
– Paltonu.
– Yenə başladın?
Fikrə getdim.
– Amma yaxşı yaraşırdı.
– Finn!
– ...

Əllərimi yuxarı qaldırıb havada oynatdım, amma bu gün səhər məktəbi tərk edən bu əllər, çiyinlər mənim olsa da, hiss etdim ki, onu o qədər özündən çıxara bilmərəm ki, əvvəlki kimi ürəkdən gülüb qəhqəhə çəksin, sakitləşsin. Boylanıb pəncərənin o üzündəki qaranlığa baxanda şüşədə öz əksimi gördüm və fikrimdən keçdi ki, deyəsən, həmin payız mənim üçün yavaş-yavaş qışa dönür. Anam stolun üstünü yığışdırdı, bir fincan qəhvə süzüb oturdu, stolun o tərəfindən mənə göz yetirdi, deyəsən, hirsimi, hiddətimi indi gördü.

– Yenə beynində nə var? – dedi.

Bu, ola bilsin, danışmağa fürsət verirdi, amma mən yenidən əvvəlki sözləri dilimə gətirə bilmədim: "O palto...".

Biz bilmirdik ki, nə deyək, nə danışaq. Nə o, nə də mən.

Bunlar bazar ertəsi günü olmuşdu. İndi cümə axşamı günü idi. Münsiflər qərarını


e-kitab.org

vermişdi, bir neçə gün məktəbə getmədik. Özümə qarşı yeni bir münasibət hiss edirdim. Buna hörmət deməzdim, ona görə yox ki, bu, hörmət deyildi, baş verənlərin qeyri-adiliyini nəzərə alsaq, bu, belə də olmalı idi. Hamı çalışırdı ki, müqəssiri qurban kimi qələmə versin. Axırda bizi məcbur etdilər ki, boynumuza alaq. Amma Dundas buna layiq deyildi, ya da bəlkə də daha çox layiq idi? İşlər bu cür dolaşıq idi, hər gün dəyişir, başqa şəkil alırdı.

Birinci Fredi də heç özündə deyildi, diqqət mərkəzində olmağına görə çox narahat idi. Lovğa və gülməli əda ilə yeriyirdi, bir dəfə də kino ulduzlarının şəkilləri üstə dalaşmış iki uşağın mübahisəsinə qarışmışdı. Yəqin fikirləşirmiş ki, gərək o, ölkənin qanunvericiliyi ilə məşğul olsun. Amma cümə günü o, hər şeyi dağıtdı. Gəyirməyin ustası kimi elə bir rekord qazandı ki! Hər dəfə gəyirəndə bir "o" eləyirdi, bu elə təsirli olurdu ki, qızlar gülüb səs-səsə verirdilər. Qızlar onsuz da buna bənddirlər, indi də belə. Oğlanlar isə əmin idi ki, Birinci Fredi elə əvvəlkidir, heç dəyişməyib, uşaq oyunlarının ustası kimi hələ heç kimin oynamadığı oyunları məharətlə oynayır.

İşə bax ki, indi Dundas da onun tərəfində idi, onun gəyirmək məharətini çox xoşlayırdı. Dundas, həmin zərərdidə, həmin qurban. Yəqin ki, gələn həftə onun da canı qurtaracaqdı. Alt ya yedi həftə sonra yaraları da sağalacaqdı. Birinci Frediyə


e-kitab.org

görə, işin ən yaxşı həlli yaxşıca döyməkdir. Amma bu da onun fikridir ki, cinayət etdin, gərək cəzasını çəkəsən.

İndi də Linda haqqında.

O, evdə oturub tapşırıqlarını eləyir, indi fikirləşib bütöv cümlələrlə danışır.

– Finn, rəngli tabaşirlərini mənə verə bilərsənmi? Onları həftənin ikinci günü qaytararam, söz verirəm.

– Üç gün çoxdur, axı.

– Mənə üç gün lazımdır...

– Niyə... bəs üç gün?

– Bir şəkil çəkəcəyəm, gərək verim...

– Kimə?

– Demirəm.

– Sənin, axı rəngli tabaşirlərin var, onlar necə oldu?

– Narıncı rəng yoxdur.

– Elə isə yalnız narıncı rənglisini götür də...

– Yox...

Bir neçə gün o, məktəbə Birinci Fredi ilə və mənimlə getdi. Sonra əkizlərlə və əsgər yerişli qız Cenni ilə getdi. Sonra evimizə bir kağız gəldi. Orada deyilirdi ki, ola bilsin Linda oxumağa qabil deyil, bu, disleksiyadır və onda beyin pozğunluğu var. Anam özünü güclə saxlayırdı. Amma bu latın dilində olan sözlər lənətə gəlsin, heç baş açmırsan ki, nə deməkdir. Lindaya xüsusi dərslər keçilirdi, onunla məktəbin ən yaxşı müəllimi Cillebo məşğul olurdu. Linda oturub porsuq və durnaların akvarellə çəkilmiş şəkillərinə baxırdı, bu şəkilləri haçansa müəllim özü


e-kitab.org

çəkmişdi. Linda onun hipnozedici səsinə üç saat qulaq asır, sonra sinfə gəlirdi, yanında da əkizlər və Dundas. O Dundas ki, oxumağı keç vaxt öyrənə bilmədi. İndi Linda öz yerində idi. Sonra gələn bir məktubda deyilirdi ki, bu, beyin pozğunluğu deyilmiş. Anaının dediyinə görə, onun səhhəti tamam yerində idi. Sonra bu məktubu da ilin əvvəlindən aldığımız o biri kağızlarla bir yerdə qovluğa qoyduq. Deyəsən, bu ən uzun il oldu, amma yalnız ən uzun il olmadı, həm də nəyisə aydınlaşdırdı, nəyisə dəyişdi. Sonra da qış gəldi.

14 Banyos – Ekvadorda əyalətdir.


e-kitab.org

# 27

Gəldi və qaldı. Qarlı, xizəkli-kirşəli enişləri ilə, qartopu oyunu ilə gəldi və qaldı. Barmaqlarımızı donduran süd kimi ağ qarıbuzu ilə gəldi. Qış başa cür necə ola bilər ki? Qış belə olmalıdır da. Tufanla, qasırğayla başladı və hər yana sükut yorğanı saldı. Milad bayramı yaxınlaşırdı. Mən Birinci Frediyə başqa bir diyircəkli podşipnik verdim. O da mənə birini verdi. Onlar bir-birinin eyni idi, amma mənimki bükülmüşdü. Lindanın da xizəyi olmalı idi. Bunu elə gizli hazırlayırdıq ki, Kristian bütün gecəni zirzəmidəki otaqda keçirib xizəklərin qayışlarını bərkitmiş, sonra da gətirib çardaqda, köhnə "Dombas" çamadanının arxasında gizlətmişdi.

Yeni İl yolkası aldıq, qar sovurulan balkonda qurduq ki, anamla Linda hər axşam baxıb heyran olsunlar, mən də uzaqdan baxıb, sevinim. Milad bayramını harada keçirəcəyimizi də müzakirə edib razılığa gəldik. Bu dəfə bayramı başqa şəraitdə qeyd edəcəkdik.

Keçən ildən bəri ailəmizin bir çox üzvlərini görməmişdik. Söz gəzirdi ki, Tor dayım işlədiyi restorandan çıxarılıb, çünki sərxoşluq edib. Anam da bu haqda ətraflı bir şey demədi. Sonra dayım Dənizçilər Məktəbində qeydiyyata durub uzaq dənizlərə üzən gəmi mühəndisi işləməyə razılıq alıb. Demək, yeni, daha yaxşı bir həyata başlamışdı. Biarne dayımın zarafatla


e-kitab.org

"Romeo", "modabaz, yelbeyin" dediyi həmin Tor dayım. Nənəm yəqin bir az da qocalıb, indi kreslosunda oturub, odun sobasını yandırır, səbirlə hər şeyə dözür.

Beynimdə yenə nəsə yaranırdı. Dedim ki, mən evdə qalmaq istəyirəm.

Bu sözləri sakitcə dedim, mübahisə etmək üçün yox. Elə-belə, səbəbini özüm də bilmədən, keçən payızda olduğu kimi, elə bil yenə nəsə görür, duyurdum.

Üstəlik, Dundasın işindən sonra bir neçə həftə sakit yaşadıq. Rahat bir ailə həyatı, bütün günü ritmik olaraq davam edən gündəlik işlər. Lap kiçik radiolarda gecə yarısına qədər elə hey aramsız səslənən musiqini xatırladırdı adama. Özü də Kristiansız. Hələ anam?!

Onun əhvalı yaxşı idi, yüngülləşmişdi, "Şehdən sonra yağış gəlir" hekayəsində olduğu kimi, oturub mənə baxırdı. Bu hekayəni biz iki-üç dəfə oxumuşduq, İki nəfər haqqındadır. Manimlə Tanya kimi. Onlar bir-birini tapmırlar, həm də səfeh səbəblərə görə. Anam bu hekayəni tək qalanda oxumağı xoşlayırdı, görürdüm, hər dəfə oxuyanda doluxsunurdu. Mən nə üçün ailədən ayrı, evdə qalmaq istədiyimin səbəbini izah edə bilmədim. Lindaya baxdım. O, üzüqoylu uzanıb televizora baxırdı, çənəsi əllərinin arasında, nazik ayaqlarını oynadırdı. Anam buna işarə edərək dedi:

– Nə deyirsən, Linda, Milad axşamında ailə qohumlarımızı görməyə gedək?



e-kitab.org

– Hə, – Linda ekrana baxa-baxa dedi.

Dekabrın 24-də şeylərimizi rükzak çantalara doldurub yola düşdük. Xizəkləri mən götürmüşdüm, Linda məktəb çantası əlində, hərdən baxışlarını qaldırıb gizlicə gülümsəyir, bəzən də hoppanıb yeriyirdi. Anam təngnəfəs olmuşdu, şeyləri daşımaqdan yanaqları qızarmışdı. Çatan kimi məhrəm bir hərəkətlə biş-düş eləməyə başladı, bu, yəqin, belə də olmalıydı. Dükandan da şey-şüy aldı, əlbəttə, bu işdə ona qonşu, bir də nənəmizin məsləhətləri kömək elədi.

Lindanı və məni zirzəmiyə, Oskar dayının yanına göndərdilər. Dayım elə əvvəlki formasında idi, kombinezon geymişdi, başında papaq, əlində balta vardı, qıvraq və çevik görünürdü. Mənə elə gəldi ki, zirzəminin tavanı bir az alçalıb. Bəlkə də mən bir az böyümüşdüm. Linda öz təzə, ağ paltarı, qırmızı lentləri ilə, güclə eşidilən gülüşləri ilə buranı doldurmuşdu. Oskar dayım bizə baxıb elə bərkdən gülürdü ki, elə bil indicə xərçəng xəstəliyindən müalicə olunub sağalmışdı.

– Sən bir işə bax! – hər dəfə Lindanın boş-boş sözlərini eşidəndə deyirdi. Amma Oskar dayı gülüb-eləməyə çox da aludə deyildi. Biz burada, zirzəmidə çox ciddi işlə məşğul idik, odun doğrayırdıq, fikrimizi toplayıb iş görürdük. Balta elə bil yüngülləşmişdi, indi onu daha iki əllə götürmürdüm, odunlar da yüngül idi. Linda, öyrətdiyimiz kimi, odunları çinləyirdi. Bir



e-kitab.org

azdan hərəmiz bir qucaq odun götürüb donuz ətinin bişirildiyi yerə gələndə Lindanın üz-gözü qapqara koks tozuna bulaşmışdı. Onu elə bu cür də Milad bayramına gəlmiş digər xalauşaqlarına, dayıuşaqlarına təqdim etdik. Onlar isə, doğrudan da, çox idi.

İndi onlar Lindaya ailənin yeni üzvü kimi daha çox qayğı göstərir, balaca vanna otağında şir ayaqları üstə qurulmuş vannada çimməndə onu əzizləyirdilər. Hamam vannasının üstündəki cərəyan ştepseli donuz sifəti formasında idi, ştepselə uzanan mis naqillər boyunca divarı qəhvəyi-yaşıl ləkələr basmışdı. İçəridən gülüş səsləri gəlirdi, bağlı qapının arxasından danışıq eşidilirdi. Anam qapının qabağında əsəbi halda var-gəl edir, qapını döyür, soruşurdu ki, onlar içəridə belə uzun-uzadı nə edirlər, işıq yanırmı, vaxtdır, onlar çıxmalıdır. Amma onun səsini elə bil heç eşitmirdilər, onun narahat və qəribə davranışını kimsə görmürdü. Mən onu əvvəllər də belə əsəbi görmüşdüm, amma indi daha aydın görürdüm.

– Orada işıq yanırmı? – anam qışqırdı.

– Bir kart seç, – nənəm dedi.

Mən bir kart seçdim, səkkiz qaratoxmaq kartı. Bəlkə də başqasını götürməli idim.

Milad yolkasındakı şamlar bu il elektriklə yanırdı. Növbənöv şirniyyatlar, fındıq, piroqlar, donuz salası, zirə, saç yağı və siqaretlər bükülüb yolkadan asılmışdı.


e-kitab.org

Soba həmişəki kimi yanır, guruldayırdı, Tor dayım pəncərə taxtasında oturub qarışıq içkilərdən içir, dalbadal siqaret çəkirdi. Hərdən mənə baxıb deyirdi ki, axırıncı dəfə gördüyündən çox böyümüşəm. Bu, əlbəttə, şişirtmə idi, dayım bilə-bilə belə deyirdi ki, xoşum gəlsin. Amma Biarne dayım isə deyirdi ki, mən heç bir millimetr də böyüməmişəm, bu da, əlbəttə, şişirtmə idi, həm də xətrimə dəyirdi.

– Maritə bax, – Biarne dayım dedi, – elə bilirəm, əgər belə boy atsa, o, çox gözəl model olacaq.

– Ha, ha, ha... kök, şişman vanna... – birdən Tor dayım qəhqəhə çəkdi, dərindən siqaretini sümürəndə öskürdü, sonra boğazını arıtlamağa başladı ki, gülməyini saxlasın. Biarne dayı dedi ki, dilini dinc saxlasın.

– Yavaş, eşidə bilər, ay qanmaz.

Marit xala ətəyindəki fındıq qabıqlarını təmizləyirdi, bunu eşidib ayağa durdu.

– Burada oturub bu sözləri eşitməkdənsə qoy Allah məni öldürsün, – deyib çıxdı.

Sonra mətbəxə getdi. Anam orada idi, həm də bir az özünə gəlmişdi, çünki qızlar vanna otağından çıxmışdı. İndi onun başı biş-düşə qarışmışdı, kömək də istəmirdi. Buraya kömək istəməyə gəlməmişdi ki. Biarne dayım qadınların burada olmamasından istifadə edib Tor dayının yeni işindən narazılığını, buna heç inanmadığını bildirdi. “Dənizçilər



e-kitab.org

Məktəbində mühəndislik kursu nədir, axı?" deyirdi. Amma mənə elə gəlirdi ki, bu, yaşlılar üçün xüsusi bir təhsildir.

Mən özümü elə aparırdım ki, guya heç nə baş verməyib, amma ümumi əhval belə idi: Biarne dayım tünd göy rəngli kostyum geymişdi, şalvarı ütülü idi, üzünü tərtəmiz qırxdırmışdı, səliqəli idi, ətirlənmişdi, parıldayan qara ayaqqabı geymişdi. Tor dayım isə tamamilə əksinə geyinmişdi. Amma qəhvəyi ayaqqabıları ona yaraşıq verir, nəzəri cəlb edirdi. Nazik qalstuk taxmışdı, saçını stilyaqa formasında vurdurmuşdu, ütüsüz şalvarının dizləri qalxmışdı, bir sözlə, elə bil böyük qardaşının tamam əksi idi. Bu qədər yaxın adamlar sanki ayrı-ayrı dünyalardan gəlmişdi. Oturub bir-birinə rişxənd edirdilər, guya ki, rəqib idilər. Onların bir-birinə lağ etməsi sataşmaqdan çox müalicəsi olmayan bir yara kimi idi – bu, ola bilsin, hələ uşaqlıqdan onların arasında yaranmış münasibətdən doğurdu. Yəqin əvvəllər fikir verməmişdim. Elə Oskar dayımın gülüşü kimi – əvvəllər heç vaxt onun belə gülməyini eşitməmişdim. Bəlkə həmişə belə gülüb, deyə düşündüm.

Yoxsa onların arasındakı bu münasibətə Linda səbəb olmuşdu? Nənəm də sən deyən qocalmamışdı, axşam düşdüyü üçün pərdələri çəkib, kreslosunda oturmuşdu, yəqin, gözləyirdi ki, bütün bunlar nə vaxt qurtaracaq. Bunları anam sonra deyəcəkdi, biz evə gedəndə. Mən isə...



e-kitab.org

Mən isə nənəmin arxasındakı divarda asılmış uzunsov güzgüdə – onu adətən əldə toxunmuş balaca xalça ilə örtürdülər – özümə baxa-baxa fikirləşirdim ki, hə, bir az böyümüşəm. Buraya axırıncı dəfə dörd il qabaq gəlmişdim. Güzgüdə yalnız başım görünürdü, çiyinlərim, sinəm, qollarım görünmürdü. Əllərimi gözlərimin qabağında tutdum, əllərimi də görmədim. Amma qorxmağa dəyməzdi, çünki anam da güzgüdə özünü belə görürdü, kimsə bunu hiss etmirdi.

– Yaxşı, kartları açırıq yoxsa başqasını götürürsən?
– nənəm dedi.

Nəzərlərimi dolandırıb Oskar dayının onun üçün düzəltdiyi balaca mizə, sonra, üzü üstə çevrilmiş karta baxdım, özümü elə göstərdim ki, guya fikirləşirəm – açım, açmayım. Ağzının kənarlarındakı qırışlardan məni hirsləndirən təbəssümünü də sezdim, başımı asta-asta buladım.

– Qorxuram, axı, – deyib gülümsündüm.

– Ağıllı qərardır, – o dedi və kartları qarışdırdı. Sonra bir də qarışdırdı, bir də...

Nəhayət, bəzənib-düzənmiş Lindanı şahzadə kimi içəri gətirdilər, qulaqlarını təmizlədilər. O elə zərif, elə balaca idi ki. Həm də gözəl və ağıllı bir qızcığaz. Hələ hamının qabağında təzim də edirdi. Amma mən bütün bunlarda nəsə bir məna görmürdüm. Bizim onu tanımağımız bir il çəkdi, amma indi bunlar birdən-birə onu görüb tanıyırdı. Marit xalanın acıqlı üz-


e-kitab.org

gözündən görürdüm ki, Linda buradakıların heç birinə oxşamır, qıcıq doğurur və onun qızlarından daha yaxşıdır.

Bu, dördüncü təhlükə idi. Bəlkə də beşinci...

Aydın oldu ki, buraya gələndə qatarda qızlara Milad hədiyyələri veriblər ki, biz yemək yeyəndə onlar sakit qalsın, hədiyyə bağlamaları açılsın. Odur ki, uşaqlar Mikado oyunu15 oynayırlar. Mikado çubuqları mətbəx mizinin üstünə səpilib. Linda neçə oyunu dalbadal udur, onun kiçicik əli elə möhkəmdir ki, çubuqları bir-bir elə götürür ki, əli o biri çubuqlara dəymir. Amma elə bu, şirnikləndirici və aldadıcı görünür. Odur, Marit xala kələyə əl atır:

– Dəydi, sənin əlin bir çubuğa dəydi! Mən gördüm!

Linda isə, hər halda, öz gözlərinə inanmağı üstün tutdu, çaşıb qalsa da, öz gördüyü Maritin ekzotik iddiasından daha etibarlı idi.

– Uduzanda dözə bilmirsən ha, Marit, – Tor dayım adəti üzrə şaqqanaq çəkib, mətbəxə geçdi. Əlində su qayıtdı, suyu Lindaya verib saçlarını da sığalladı.

– İndi mən yalan deyirəm də, hə?

– Əh, bəsdi, sən Allah, qurtar! – Tor dayım dedi.

– Tor, Maritlə belə danışma, – onun ardınca gələn Biarne dayım dedi.

– Necə istəsəm, elə də danışa bilərəm, o, uduzub, hələ bir...

– Yaxşı, sakit ol, deyəsən, çoxdan sənə


e-kitab.org

yumruğum dəymir, – bunu deyib Biarne dayım gülə-gülə yumruğunu yuxarı qaldırdı. Vəziyyəti yüngülləşdirməyə çalışdığı hiss olunurdu. Onsuz da günortadan bəri hamı gərgin idi, elə bil karusel getdikcə daha sürətlə fırlanmağa başlamışdı. Tor dayım tozlu-torpaqlı ayaqqabılarını bir qırağa çəkib peşəkar boksçu vəziyyəti aldı, lap elə İnqemar Yohanson kimi ətrafa yumruq zərbələri atmağa başladı. Qənd torbasına, qəhvə qablarına, pəncərə taxtasında qoyulmuş dibçəklərə tərəf zərbələr endirdi. Dibçəklər bir-birinə dəyib silkələndi. Anaının kələm qaynatdığı qazana da ehmalca bir yumruq ilişdirdi. Sonra anaının qollarından tutub, "Üçüncü adam"16 filmindən bir mahnını oxuya-oxuya vals oynamağa başladı. Nədənsə kağız fabriki mühəndisinin üzündəki qəzəb indi daha aydın görünməyə başladı. Hamımız görürdük, indi nəsə baş verəcəkdi. Birdən Marit xala hamımızın eşidəcəyi bir pıçıltı ilə:

– Dedim, axı, sizə, bu il gəlmək lazım deyildi bura, – dedi.

– Hə, gəlməyəydiz də!

– Doğrudan da, gəlmək istəmirdik...

– Gəlmək istəmirdiz, amma nəyin bahasına olur-olsun, gəlib bu qəribə qızcığazı görmək istəyirdiz.

– Biarne, lütfən, bəsdir.

Bununla da vals bitdi. Anam Tor dayının qollarını aralayıb qurtuldu, kənara üç addım atdı, hər addımda taqətdən


e-kitab.org

düşdüyü hiss olunurdu. İkinci qardaşına yaxınlaşıb üzünə möhkəm bir şillə çəkdi, o, şillədən üzünü tutub səndirlədi, kitablara dəyib onları dağıtdı, sonra skamyaya çökdü. Qalan bütün vaxtı oradaca qaldı.

– Sən özünü nə hesab eləyirsən?!

Ayağa qalxmağa çalışsa da, ikinci şillə onu yerindəcə oturmağa məcbur elədi. Bəlkə belə yaxşı idi. Marit xala güclə köksünü ötürdü. Anamın boyun-boğazı, - əlləri qızarıb yanırdı, elə bil qardaşını yenidən vurmağa hazırlaşırdı. Bunu Tor dayı da hiss etdi, anamı tutmağa çalışdı, amma arada ona da bir yumruq dəydi.

– İndi siz hər şeyə qarışmaq istəyirsiz, eləmi? – anam qışqırdı. – Mənə lazım olanda harada idiz?

– Siz orada nə hay-küy salmısız? – qonaq otağından nənəmin səsi gəldi.

– Yaxşı baxın ona! – anam bir də qışqırdı. Səsində mis cingiltisi vardı, Lindanı göstərib danışırdı. Linda isə bir əlində Mikado çubuqları, o biri əlilə məndən tutub dayanmışdı. –Görmürsüz, necə oxşayır? Görmürsüz?

Oskar dayım xəcalətdən donub qalmışdı. – Siz yaşlı-başlı adam idiniz, görmürdüz, nə baş verir? – Anam qəzəblə danışırdı. – Siz, bir də o biri... ağlını itirib lap!

– Oxx, elə demə, xətrinə dəyərsən, – Marit xala dedi. Qızlar da ağız-ağıza verib hönkürməyə başladı. Anam, görünür, nəyisə götür-qoy etdirdi, yəqin ki, Biarne dayının



e-kitab.org

ağlasığmaz sözlərini.

– Elə bilirsiz, o yalnız sizi bu günə qoyub? Gicbəsərlər! – Sonra vanna otağındakı qaranlıq haqqında danışdılar, belə başa düşdüm ki, nəsə onların ataları, yəni mənim babamla bağlı bir söhbət idi. Mənim atamdan yenə hərdən danışırdılar, ondansa çox az danışılırdı. Babamın qəbri üstə biz çoxdan getməmişdik. Hərdən gedib qəbrinə baxıb-eləyən yalnız Oskar dayım idi. Mən oraya dörd il qabaq, şaxtalı bir gündə getmişdim. Milad Bayramı ərəfəsində. Şam yandırdıq, başqaları kimi əklil qoyduq. Onda mən soruşmuşdum ki, babam indi cənnətdədirmi. Oskar dayım şaxtalı nəfəsi ilə belə demişdi:

– Yox, o, cəhənnəmdədir.

Bu sözlər Oskar dayımın hər gün işlətdiyi sözlərdən deyildi, ona görə də, mən donub qaldım, ayaqqabımın burnu ilə qarı eşələməyə başladım. Onun qəlbindəkiləri bu cür ifadə etməsi çox şey deyirdi. Hə, nolar, onsuz da hərəmiz bir yerdə yaşamalıyıq da. Sonra bu sözləri unutmuşdum. O vaxta qədər ki, bir gün hiss etdim ki, Tor dayının da başına nəsə sirli bir fəlakət gəlib. İndi o, alnını buz kimi pəncərə şüşəsinə dayayıb uşaq kimi ağlayırdı.

– Bu evdə yaxşı günlər də, əyləncələr də olub...

– anam donquldandı və bərkdən dedi ki, Milad məclisi qurtarıb. Sonra bizi dəhlizə dartıb Lindanı orada geyindirməyə başladı. Linda alaqaranlıqda şam kimi dimdik


e-kitab.org

dayanmışdı, Mikado çubuqları hələ də əlində idi. Anam onları əlindən aldı ki, əlcəklərini geyindirsin, mənsə hədiyyələrimizi yığıb rükzak çantama qoydum.

– Siz orada nə edirsiz, axı? – nənəm yenə çağırdı.

– Heç nə, – anam cavab verdi. – Həmişə neynirik?!

15 çubuq oyunudur

16 Qrem Qrinin eyni adlı romanı əsasında çəkilmiş Britaniya filmi


e-kitab.org

# 28

Saat dörd olardı. Küçələr sakit, evlər sakit idi, sakitlik göyləri də ağuşuna almışdı. Biz də sözsüz-zadsız hələ möhkəmlənməmiş qarın içilə yeriyib dəmiryol körpüsünün altına, odun qalağının yanına gəlib çıxdıq. Anam burada qəfildən ayaq saxladı, mənə tərəf döndü.

– Bilirdin ki, belə olacaq?

– Nə bilim, – gözlərinə baxa-baxa çiyinlərimi çəkdim. Sonra o lap yaxına gəlib yanımdaca çömbəldi, çiyinlərimdən tutub silkələdi, nəzərlərini mənə tuşlayıb elə bil qəlbimdəkiləri bilmək istəyirdi.

– Finn, belə olacağını bilirdin sən? Hiss etmişdin?

– Nə bilim... bəlkə də... – dedim. – Amma deyəsən, mən bəzi şeyləri... görə bilirəm.

– Nə? Nəyi görə bilirsən?

Görünür, indi onu yenidən tapmağıma, geri qaytarmağıma imkan yaranırdı, amma bu məndən daha çox şey istəyəcəkdi, bacardığımdan daha çox. Bu saat - hönkürəcəkdim.

– Sən də... yenə başlama, – o deyib ayağa qalxdı, qar basmış dəmiryol körpüsünə, buradaca şaxələnən maşınsız yola baxdı. Qarşımızda qarla örtülü çöl uzanırdı, soyuq və qaranlıq Milad günü ərəfəsində azı bir kilometr yol getməli idik. Lindanın əlcəyini düzəldəndə birdən onun əlində qan gördü, elə bil onu ildırım vurdu.

– Bu nədir, qız?


e-kitab.org

Linda elə pərt və məyus baxırdı ki.

– Aman, İlahi, bu nədir, qız? Harada olub, deyəcəksən, ya yox?

– Mən onun buduna batırdım.

– Nəyi? Kimin?

Linda dediyini təkrar elədi, bir az da tutuldu.

– Kimin budunu yaraladın?

– Maritin. Çubuqla.

Anamla mən bir-birimizə baxdıq. Mənim işimə bax. Çox nahaq yerə fikirləşirdim ki, nəhayət, indi yenə anamla bir yerdə deyib-güləcəyik, ürəyim açılar. Çoxdan gülməyi tərgitmişdik... Anam mənimçün itmişdi, onu əlimdən almışdılar.

– Aman, İlahi! Onları aç!

– Nəyi açım?

– Bunları, – o qətiyyətlə dedi, çiynimdəki xizəkləri alıb açdı, Lindaya verdi. Gözləri bərəlmiş Linda mat-mat baxırdı.

– Elə burda?

– Hə, əlbəttə, burda, gəl, qızım.

Linda sakitcə dayanıb gülümsünürdü, sonra hədiyyəsinin üstündəki yarlığı oxudu: "Lindaya. Anasından və Finndən". Diqqətlə bükülünü açmağa başladı. Elə səliqə ilə açırdı ki, içindəkini dağıtmamağa, sındırmamağa çalışırdı. Kağızı açıb çantasına qoydu. Anamla mən baxırdıq.

Bir cüt Splitkeyn xizəyi, 1,40 sm uzunluğunda. Kristian, xizəklər elastik qalsın deyə onları yastı Qəndəhar ipi ilə ortadan sarıyıb bağlamışdı. Bu ipləri mis



e-kitab.org

vintlə hər iki tərəfdən bərkitmək olurdu. Splitkeyn xizəklərinin adını eşidəndə adamın əhvalı dəyişir, qarlı peyzajlar, ağ qar üzərində qoşa iz salan, bir cüt şumal, al-qəhvəyi üzlü, şokolad kimi parlaq işıq saçan, cilalı taxtalar adamın yadına düşür. Qədim kitabxanaların, skripkaların rəngində.

– Onun axı botinkaları yoxdur.

– Var, – anam dedi. – Var, indi verərəm.

Anam öz rükzakını açdı, oradan Linda üçün bir cüt qatran bəxyəli botinka çıxardı. Lindaya dedi ki, otur, geyin. Mən də çiynimdəki qayışı bir az boşaltdım, indi başa düşdüm ki, xizəklərin altından çiynimə yumşaq heç nə qoymamışdım. Bir yandan da qatran iyi gəlirdi. Linda botinkalarını yastı qaytanların içinə salıb rahatladı, mən əyilib qaytanları bərkitdim. Anam dilləndi:

– İndi gedə bilərik.

Linda iki addım atmışdı ki, yıxıldı. Mən onu qaldırdım, o yenə yıxıldı. Anam rükzakdan bir ip çıxartdı, bir ucunu düyünləyib dedi:

– Sən ipin bu ucundan yapış, biz səni dartaq.

Linda ipin ucundan yapışdı və biz tərpəndik. Muselunden Parkından və Disen məhəllələrindən keçib getdik. Lap Milad səhnələrinə bənzəyirdi, həyatın əsas münasibətlərini əks etdirən bir səhnə. Arada gördüm ki, anam gülümsəyir, sonra bir də gülümsədiyini gördüm. Qarın altı buz bağlamışdı, anam sürüşüb qarın içinə


e-kitab.org

yıxıldı, oturub əlcəkli əli ilə qarı ağzına təpdi. Gülə-gülə Lindanın xizəkdə necə sürüşdüyündən danışmağa başladı. Linda özündən çıxdı, anaını qara basınağa çalışdı. Onlar deyə-gülə çapalayır, biri-birini qara basırdılar. Mənsə bir tamaşaçı idim, çünki gözlərimin qabağındaca anaının dərk olunmaz xarakterinin yeni bir səhifəsi açılırdı.

Qar başladı. Qaranlıq göy qübbəsindən toz kimi səpələnən ağ qar üzümüzə, paltarımıza, dörd bir yana səpələnir, sonra Trondhemsveynin küçə işıqları altda sarıya çalırdı. Onlar iki məktəbli qız kimi yan-yana oturmuşdular. Bəlkə elə bu mənzərəyə görədir ki, mən uşaqlığımı həmişə sarı rəngdə təsəvvür edirəm. Bu işıqlar ki, kim üçün yandığı məlum deyildi. Bir maşın görünmürdü. Yayda adada olduğumuz vaxt anam bizi qoyub indi gördüyümüz bu xəstəxanaya getmişdi, ondan danışmağa başlayanda ürəyimin döyüntüsü şüşə cingiltisi kimi gəldi mənə. İndi qar içində görünən xəstəxana, məsələn, “Aker” kimi adi bir xəstəxana deyildi, gedib boğazındakı vəzi ya da apendiksi əməliyyat etdirəsən. Bu xəstəxana pis xatirələri kəsib atmaq, sağaltmaq üçün idi. Məsələn, səni evdə saxlayıb qapını bağlayırlar, ya da uşaq vaxtı atan səni möhkəm döyür... sonra bunlar hamısı pozulmaz xatirəyə çevrilir, yaddaşında tez-tez qanayır. Hansı yaşda olursan ol, fərqi yoxdur. Fikrini, düşüncəni zərrə-zərrə zəhərləyir. Biz bu ili ağır və


e-kitab.org

çətin il hesab etsək də, anam üçün bu il yaxşı il olmuşdu. Bu il o etmək istədiklərinin hamısını etmişdi. Görünür, bu ana kimi bunu dərk etməmişdi, məhz bu ana kimi. Bu sirli xəstəxana və Linda ona ümid və cəsarət vermişdi, onu inandırmışdı ki, bunlar heç vaxt yadından çıxmayacaq. Sonra dedi ki, yaxşı ki, mən burdayam və yaxşı ki, heç bir dəlilik əlaməti yoxdur. Hələ ki, yoxdur.

– Başa düşürsən, nə deyirəm sənə, Finn? – bir az bərkdən, amma gülə-gülə dedi, çünki həm də zarafatla deyirdi. Görürdüm, o sınmamışdı, özünü ələ almışdı, əmin-arxayın danışırdı.

Dediklərindən bir şey anlamasam da, razılıqla:

– Başa düşürəm, – dedim. Linda da başı ilə bir-iki dəfə təsdiq etdi, çünki bizim ümumi razılığımız lazım idi. Biz, nəhayət ki, başa düşdük ki, anam bir az tək qalmalıdır, özü ilə baş-başa qalmalıdır. Bu çox vacib idi.

* * *

Evə çatanda saat altı olardı. Hay-küylə evə girdik. Anam tez mətbəxə keçdi, Milad bayramı üçün saxladığımız döyülmüş ətdən kotlet qızartmağa başladı. Mən Lindanı xəz adyala büküb Milad yolkasının qabağında otuzdurdum. Bu il yolkadan təkcə bəzəkli yumurta qutuları deyil, Lindanın və mənim Birinci Fredi ilə birlikdə düzəltdiyimiz ağ-qırmızı, ürəkşəkilli fiqurlar da asılmışdı. Onların ən böyüyünü, sarısını Birinci Fredi düzəltmişdi. Yemək hazır olana qədər


e-kitab.org

hamımız evdə düzəldilmiş marsipan və qoz qurabiyəsi yedik. Hə, indi ürəkdən gülmək, zarafatlaşmaq olardı. Bu axşam çox gözəldir, sabah isə turş xiyar və ətin suyu ilə nahar edəcəyik.

Yeməkdən sonra daha çox hədiyyə aldıq. Linda üçün paltar və albom, anam üçün saat. Saatı, bu il Milad bayramını doğmaları ilə keçirən Kristian almışdı. Mənə də çoxlu kitablar hədiyyə verilmişdi.

Linda yatandan sonra, biz Milad himnini dinlədik, sonra da mən "Beş dost"[17] kitabını oxumağa başladım. Anam qırmızı çaxır içirdi. Dalbadal üç qədəh içdi. Gözlərini Milad yolkasına zilləyib kresloda yerini rahatladı. Bax, bu yerdə, bu gün səhərdən yağan qara baxa-baxa duyduğum sevinc hissinə soğan doğrandı.

– Necə bilirsən, Finn, mən Kristiana ərə gedə bilərəm?

Bayaq ona verilmiş hədiyyə bükülüsündən çıxardığı qol saatı əlində idi. Bükülünü açıb saatı çıxaranda daha sərbəst və arxayın görünürdü, nəinki bir vaxt Kristiandan hədiyyə olaraq qızıllı dovşan fiqurunu çəkinə-çəkinə alanda.

– Kristian belə bir təklif eləyib mənə. Sən nə deyirsən?

Bir an da tərəddüd etmədən "yox" dedim. Həm də bərkdən təkrar etdim.

– Niyə yox?

– Niyə?!

Necə, yəni, "niyə"? Çünki mənim tanıdığım kişilərin hamısı qəribə və qeyri-


e-kitab.org

ciddi adamlar idi. Atam vəfat edib, babam "cəhənnəmdədir", fışqırıq çalan və at iyi verən Frenki elə-belə, uzaqdan uzağa tanıyırdım, Birinci Fredinin atası heç vaxt evində olmurdu, quru buzla və yoğun səsilə yadımda qalan, elə Tor dayım kimi nə ilə məşğul olduğu bilinməyən Yan... Yalnız Oskar dayı ilə bir az yaxından ünsiyyətdə olurdum, onu da özüm yoluna qoymuşdum. Amma o da heç təsəvvür etmədiyim hansısa bir işdə günahkar idi. İndi də bu fikir – anamın hansısa küncdə-bucaqda kirayənişinimiz olan bir adamla yatağa girməsini təsəvvür etmək. Bədənimdən soyuq bir gizilti keçdi.

– Bilirəm, bilirəm ki, o bir az yalançıdır, şeytandır bir az, – anam əlüstü mızıldandı, ardınca qəribə şəkildə güldü.

– İstəmirəm Kristian məni oğulluğa götürsün,
– dedim.

– Hə, əlbəttə, bu da var, – o, eyni ahənglə dilləndi, qolundakı saat qandal kimi biləyinə sürüşüb cingildədi. Sonra nəsə yadına salmış kimi:

– Onda biz Lindanın sənədlərini qaydaya sala bilməyəcəyik, – dedi.

– Necə yəni?

– Mən subay anayam, Finn. Yalnız evli qadınlar uşaq götürə bilər. Üstəgəl, bütün bu hengamə...

Bu ona işarə idi ki, Lindaya dərman vermək istəyirlər, bu isə uşağa qarşı zor tətbiq etməkdir. Məktəbdə baş verənlər,


e-kitab.org

Lindanın bu lənətə gəlmiş disleksiya xəstəliyi ilə bağlı yaranmış fikirlər. Kimi inandırasan, bunlar elə-belə keçməzdi. Odur ki, nə deyəcəyimi bilmirdim, bunları fikirləşməyə məndə baş-beyin qalmamışdı. Və birdən açıldım:

– Kimsə hər şeyimizi dağıdır, məhv edir, mənə isə icazə vermirlər ki, kağızlara baxım. Mənə yalnız bunu deyirlər ki, bu bir az çox vaxt aparar, bir az uzun çəkər... Sonra da ki...

– Aha, sonra?

– Sonra da bu işi düzüb-qoşurlar, deyirlər ki, mən özümü yaxşı aparmıram... ya da xəstəyəm...

– Səndə ki, heç nə yoxdur.

– Əlbəttə, yoxdur...

İstəyirdim qışqırım, haray çəkim. Gecəmiz tamam korlanırdı. Bu saat ayağa qalxıb evdən çıxmaq, baş götürüb harasa uzaqlara qaçmaq istəyirdim. Mən o ağ-qara şəkilləri görmək istəyirdim, o şəkillərdə çiyinlərində yaba, əllərində qəhvə fincanları tutub guya ki, özündən razı olan o adamları görmək istəyirdim. O gözə görünməyən kran maşinistini, o Ford maşınının buferi üstündə oturmuş anaını görmək istəyirdim. Lap bunlar da heç. Bir neçə saat bundan əvvəl Lindanın yanında o sayaq oturmuş, o qar yeyən və inamla “Bu ilimiz çox yaxşı keçdi” deyən anaını görmək istəyirdim.

– Amma bizim qələbə kartımız var, – anam deyib məni fikrilərimdən ayırdı.

– “Kozır” deyirlər, qələbə kartı yox! –


e-kitab.org

mən hirslə qışqırdım. O bərkdən güldü, bir qurtum şərab içdi.

– Sənə nə olub belə? Necə dəyişmisən?

– Bəs onda nədir? – az qala hönkürəcəkdim.

O düz gözlərimin içinə baxıb sakitcə dedi:

– O kozır sənsən. Onun qohumu, doğması sənsən, qan qohumu...

– Qan qohumu?

– Hə, onun yeganə qohumu sənsən, əlbəttə, bir də anası. Nə onun, nə də... sənin atan yoxdur...

– Onda sənin Kristiana ərə getməyinə heç ehtiyac yoxdur, – yenə çığırdım. Onun gözləri yol çəkdi, Milad yolkasına tərəf çevrildi. Deyəsən, Birinci Fredinin düzəldib yolkada asdığı ürək fiquruna baxırdı. Bu nəzəri cəlb edən, ən böyük oyuncaq idi. Bir az da yöndəmsiz, uzaqdan sapsarı görünürdü, bəlkə də hələ heç bir Milad yolkasında belə oyuncaq asılmamışdı. Birdən elə bil gözü nəyəsə sataşdı, amma mən fikirləşirdim ki, mənim axırıncı sözlərimdən sonra o daha bu mövzuya toxunmayacaq. Odur ki, fürsət gəzirdim ki, aradan çıxım, gözündən itim, o da məni görməsin. O, axırıncı hədiyyəni görmüşdü, yolkanın arxa budaqlarında, yaşıl kağıza bükülmüş kiçik bir silindr, üstündə də əllə yapışdırılmış bir yarlıq.

– O nədir elə? – ayağa durub hədiyyəni yolkadan götürdü.

Linda bütün hədiyyələrin üstündəki


e-kitab.org

adları oxumuşdu, bunu oxumağı yaddan çıxarmışdı ya da qəsdən oxumamışdı. İndi anam onun üstündəki yazıya baxırdı – “Lindadan Kristiana”.

Sualedici baxışlarını mənə tərəf çevirdi. Əlbəttə, nə anam, nə də mən Kristiana hədiyyə almışdıq. Bildiyim qədər, bizim vəziyyətimizdə olan birinin kimsəyə hədiyyə verməməsi üçün kifayət qədər səbəblər vardı.

– Bu nədir?

– Bilmirəm, – dedim. Amma o günlər keçdi daha. İndi o yalnız mənə baxmalıdır. – Deyəsən, şəkildir,
– məcburən dedim. – Elə bil at şəklidir.

– At şəkli?

– Hə, at.

Bununla da bu axşam sona çatır. Sonra... Milad axşamıdır, anam əlində at şəkli bükülmüş Milad hədiyyəsini tutub, bir qərara gələ bilmir. Bükülünü harasından açsın, bəlkə gizlətsin ya da saxlayıb sahibinə versin? Kitabı oxusam da, hərflər gözümdən qaçır, yerimi divanda rahatlayıb fikirləşirəm – kaş ki, onun dediyi axırıncı sözlər gecəyə qarışıb ərimәsin, itməsin. “Kozır” kartı ilə vurmaq. “Yəqin, bu təsir edəcək”, düşünürəm. Elə bil dörd bir yanımızda bütün qonşu mənzillərdən ayaq səsləri gəlir. Səslər, xısın-xısın gülüşlər eşidirəm. Hardasa bir qapı çırpılır, kran açılır, radiatorlardan axan suyun şırıltısı, zibil şaxtasının səsi gəlir, lyuk açılır, nəsə xışıltı ilə tökülür, axır. Zirzəmidən də


e-kitab.org

gurultu gəlir. Yenə addım səsləri, sonra da mumu əriyən şamların, sousun və yolkanın qoxusu yayılır. Bizim binamızda gecədir, gecə vaxtıdır. İlin gecəsi. Görürəm ki, Linda mənə tərəf qaçır, elə bil havada əriyib yox olur, ya da barmaqlarımın arasından sürüşüb çıxır, itir... Tər içində yuxudan ayılıram, bayırda ildırım çaxır.

Heç demə, bu, yuxunun səsi imiş.

... Zülmətə qərq olmuş uzaq bir ada. İki ada. Anam və Linda hərəsi bir adadır. Amma nəfəs alırlar. Mən də uzanıb guruldayan göyə qulaq asıram. Bu göyü yalnız ana yarada bilər, yalnız ana dağıda bilər. Axır ki, deyəsən, bədənimdəki tər quruyur, çünki elə bil hər şey aydınlaşır, elə bil gecənin zirvəsindən aşağı baxıram. Başa düşürəm ki, bu saat etməli olduğum bir şey varsa, o da ayağa durmaqdır. Ayağa dururam, gedib anamın yatağı yanındakı mizin üstündən o saatı götürürəm, mətbəxə aparıram. Sonra da əlüzyuyanın üstündəki şkafda saxlanılan ayaqqabı qutusundan çəkici götürüb o lənətə gəlmiş saatı bir zərbə ilə xıncım-xıncım eləyirəm.

Şüşə-metal qırıqlarını, dişli təkərcikləri, əqrəbləri süpürüb yığıram, kağıza büküb çəkicin yanında qoyuram. Lap Birinci Fredinin Milad yolkasının bir bəzəyi kimi. Sonra da yataq orağına qayıdıram.

– O nə idi elə? – anam yuxulu-yuxulu soruşur.

– Heç, mən idim, – pıçıltı ilə deyib çarpayının ikinci qatına qalxıram.



e-kitab.org

* * *

Ertəsi gün aydın və günəşli bir hava açılır. Oskar dayım qoltuğunda iri bir parça donuz qaxacı, bir butulka Skandinav içkisi ilə evimizə gəlib. Heç vaxt dilinə içki vurmayan Oskar dayım. Heç indi də içmir, nə o, nə də anam. Onlar mətbəx mizinin arxasında oturublar, hərəsinin qabağında bir fincan qəhvə. Linda ilə mən xizəklə sürüşməkdən evə qayıdıb içəri girəndə onların çox ciddi bir söhbət etdiyini hiss etdik. Əgər diqqət versəydin, görərdin ki, Linda indi xizəklə yaxşı sürüşür, amma hər halda Milad günü xizək tullanışları eləyən Birinci Fredi daha çox diqqəti cəlb edirdi.

– Aha, budur, cavanlar da gəlir, – Oskar dayı irişir. Anam bizə elə baxır ki, elə bil o da onun sözlərinə şərikdir. "Mənim cavanlarım", "kozır kartı", üstəgəl, onun bacısı. Heç narahat da olmur ki, durub ayaqqabılarımızın bağını açsın, soyunmağa kömək etsin. Hər şeyi özümüz edirik. O isə oturub baxır, üzündə də nənəmin odun zirzəmisində olduğumuz vaxt, parafin lampasının işığında Oskar dayımın üzündə gördüyüm eyni təbəssüm. O vaxt Oskar dayım Lindanı ilk dəfə görürdü və biləndə ki, Linda o biri uşaqlardan heç də fərqlənmir, bu təbəssümlə baxmışdı ona, halbuki Lindanı heç vaxt görməmişdi, sanki təzə bir gözlə baxmaq lazım imiş.

Qızardılmış donuz ətinin iyi, adamın canına yayılan istilik, bir stəkan "Solo", yenidən Milad söhbətləri... Anamla Oskar



e-kitab.org

dayı qardan danışırdılar, deyirdilər ki, qış cavanlar üçündür. Milad axşamı baş verənlərdən, onun ərə getməyindən heç kəlmə də kəsmirdilər. Sındırılmış saatın qırıqlarından da bir şey deyilmirdi, başa düşdüm ki, bu, yuxu imiş.

Nahar stoluna yığışanda Yanla Marlen də gəlib çıxırlar, anam təklif edir ki, onlar da qalsın. Marlen İsveç sərhədində alınmış nişan üzüyü barmağında, oturub Tor dayım kimi asta-asta içir, həm də bir az yorğun görünür. Yaydan danışırlar, quru buzdan, kartof oyunundan18 söhbət edirlər. Danışırlar ki, haradasa dükan açılıbmış, tez də bağlanıb. Birgə çəkdirdikləri şəkillərə baxarkən hiss etdiklərini biri-biri ilə bölüşürlər. Mətbəx mizinin ətrafında oturub qızardılmış ətlərin sümüklərini gəmiririk, hərdən dişlərimiz qıcırdayır. Sonra kart oyunu oynayırıq. Lindaköməyimizə ehtiyac duymadan dalbadal udur. O yanda anaının baxışlarını tuturam, razılıqla bir-birimizə baxırıq, yəni ki, əsl həyat indi başlanır. İndi hər şey öz yolu ilə gedəcək, necə lazımdır, elə. Bizim ailəmizdə də. Qışda da, yazda da belə davam edəcək. Tfu, tfu, göz dəyməsin. Yayda da, payızda da, bütün gələcək 60-cı illər boyunca. Kişilərin oğlan uşaqlarına, evdar qadınların gənc qızlara çevrildiyi bu inanılmaz on il boyunca. Bu on il ki, evlərə süni bir yenilənmə, hamıya pulsuzluq və ehtiyac gətirdi. Xüsusən də, tutqun bir noyabr günü, kiçik, göy bir çamadanda özü ilə sanki bir bomba daşıyan o zavallı


e-kitab.org

qızcığazı Qrorud avtobusu ilə bizə gətirdi. O gəldi və həyatımızı alt-üst etdi.

17 Britaniya yazıçısı Enid Blayton

18 kartofu qaşığa qoyub müəyyən məsafəyə daha tez aparmaq yarışı



e-kitab.org

# 29

Onlar yanvarın 8-də, biz məktəbdə olanda Lindanın dalınca gəldilər. Başqa sözlə, onlar nə etdiklərini bilirdilər. Elə həmin gün bizə palto, şlyapa geymiş bir adam gəldi. O bizə bir sənəd verdi, sonra da dedi ki, haradasa Lindanı qızlığa götürmək istəyən adamlar var, onların mən yaşda bir oğlu da var, odur ki, Linda üçün adaptasiya çətin olmaz, hər şey yaxşı olar.

Anam qol çəkməyə özünü məcbur edə bilmədi, kişi dedi ki, bunun o qədər də əhəmiyyəti yoxdur, bu rəsmiyyətçilik hər yerdə var, onsuz da bu sənədi bərbər qadın və hökumət nümayəndələri təsdiq ediblər. Ona görə də, bircə məsələ qalırdı – çantasından başqa Lindaya ayrı şeylər də götürməyə icazə verəcəklər ya yox. Paltar, çox sevdiyi şeylər, oyunlar, kukla.

Nə anam, nə də mən bu haqda bir şey deyə bildik.

Qonaq otağında əyləşmişdik, həyat bizim üçün dayanmışdı, yaşamırdıq. Amma xeyriyyə və ədalət naminə buraya təşrif gətirmiş bu kişi isə yaşayırdı. O dedi ki, bizi başa düşür, amma onu da dedi ki, bunu uşağın xatirinə eləyirlər.

Dedi və getdi.

Yadımda qalan odur ki, deyəsən, həmin gün anamla mən bir-birimizlə heç danışmadıq. Ertəsi gün səhər yuxudan duran kimi hərəmiz yemək mizinin bir tərifində oturduq, yenə biri-birimizə



e-kitab.org

baxmırdıq. Boğazımızdan tikə keçmirdi. Sonra da hər birimiz öz işinin dalınca getdi. Anam – paltar və ayaqqabı dükanına, mən də
– məktəbə, Tanyanın arxasındakı skamyada oturub onun qara saçlarına baxmağa. Onsuz da sinifdə deyiləni eşitmirdim.

Bir də nahar yeməyi zamanı evdə görüşdük. Yenə danışmağa söz tapmırdıq. Amma gecənin yarısında mən səssizcə uzanıb Lindanın dərman qəbulunu dayandırdığı vaxtın səslərinə "qulaq asanda" anam daha dözmədi... Ertəsi gün məktəbdən gələndə Lindanın şeyləri də getmişdi. Paltarları, oyuncaqları, kitabları, "Amaliya"... Daha sonrakı gün onun çarpayısını da apardılar, onsuz da yəqin ki, onu aparıb çardağa atacaqdılar. Təbii qüvvələr bizi iflic eləmişdi, zavallı bir siçan kimi sakitcə oturub işlərin daha da pisləşəcəyi günü gözləyirdik.

İki həftə sonra Kristian da köçüb getdi. O daha papaq, palto geymirdi, üstündə sərçələr və maral şəkli olan cemper geymişdi. Özünə köhnə bir Chevrolet almışdı, nəyi vardısa ona yüklədi. Mikroskopu və şahmat taxtasını saxladı. İstəyirdi ki, televizoru da bizə
saxlasın.

– Onu da aparın, – anam elə bir səslə dedi ki, Kristian aparmaya bilmədi.

Həmin il də yəqin ki, qış da oldu, yaz da, yay da, amma biz bayıra çıxmadıq, çox vaxt evdə olurduq, nəzərlərdən uzaq. Mən yenə



e-kitab.org

öz otağımda, bir vaxt kirayə verdiyimiz otaqda yatırdım. Oradan Essigilin evləri görünürdü. Anam da öz köhnə otağında idi, oradan heç yer görünmürdü. Mən onun gözlərinin içinə baxa bilmirdim, hər birimiz öz həyatını yaşayırdı. Sükut okean kimi bizi udmuşdu, bir də sentyabr ayında üzə çıxa bildik. Yenidən evimizi, işlərimizi yerbəyer etməyə başladıq. Bir kitab şkafı aldıq, mənzilimizi bahalı divar kağızları ilə bəzədik.

– Biz bunun öhdəsindən gələ bilərik? – anamdan soruşdum.

– Nə demək istəyirsən? – o dedi. Divar kağızlarını kəsdi, yapışqanı qarışdırdı və işə getdi. Anam çox işləyirdi, axşamlar da kursa gedirdi, mühasibliyi öyrənir, Fru Haraldsenin hesablarını yoxlayırdı. Bir dəfə biz ondan gizlənmişdik – anamızın yanına gedəndə o bizi dükanın arxa otağında gizlətmişdi. Sonra anam bütün hesabları əlinə aldı, alınan mallara da cavabdeh idi və daha çox işləyirdi. İndi bütün ölkədə olduğu kimi, bizim də təminatımız nisbətən yaxşı idi.

– Elə bil bütün olanlar heç olmayıb, – oktyabrın son günlərindən birində əl nərdivanında işini qurtarıb düşən anam təzələnmiş evimizə baxa-baxa dedi. Özü də lap ciddi şəkildə əlavə etdi ki, Linda bir mələk idi, onu bizə Allah göndərmişdi. Göndərmişdi ki, onun həyatını biz yoluna qoyaq, onu bizə müvəqqəti vermişdi, ona görə də, onunla birlikdə yaşadığımız


e-kitab.org

vaxtlara şükür etməliyik.

Mən onun üzünə baxdım, başa düşdüm ki, bu hər nədirsə mən bunu heç vaxt bağışlaya bilməyəcəyəm.

Otağımın divarlarını ingilis pop ulduzlarının, planetlərin şəkilləri ilə bəzədim. Bir tərəfdə böyük, narıncı rəngli bir at şəkli, o biri tərəfdə bizim Tonsen məhəlləsinin 50-ci illərdə, biz buraya köçməzdən qabaq havadan çəkilmiş şəklini asdım. Şəklin ortasındakı kran maşinisti mənim atam idi, yerli icmanın xeyrinə o da öz töhfəsini verirdi. Şəkildə üzü görünmürdü, necə ki, həyatda görünmürdü. İndisə qızı ilə birlikdə siyirmənin gözünə qoymuşduq. O qız da elə atam kimi daha gözə görünmür, amma mənimlə, Borislə çimərlikdə çəkdiyimiz şəkildə görünür, özü də kəmərsiz.

Mən Grundskola təhsilinə19 başlamışdım, bu, "The Doors" qrupunun məşhur "Musiqi sona çatanda" mahnısını oxuduğu illər idi. Gimnaziyaya da gedirdim, "Led Zeppelin" rok qrupunun mahnılarına qulaq asırdım. Burada yenidən Borislə rastlaşdım. Biz eyni sinifdə idik, riyaziyyat, elm öyrənirdik, hər şeydə bir-birimizə oxşayırdıq. Amma saçımız əvvəlki deyildi, indi biz çiynimizə çatan saç saxlayırdıq, nimdaş hərbi pencək geyinirdik, kodla, şifrə ilə danışır, inqilaba hazırlaşırdıq. Bütün ölkədə olduğu kimi, indi bizim də təminatımız nisbətən yaxşı idi.

19 İsveç orta təhsilinin nisbətən yuxarı


e-kitab.org

mərhələsi, 7-9-cu siniflər



e-kitab.org

# 30

Yayda məktəbi bitirməli idim, bir məktub gəldi bizə. Elə oldu ki, anamdan qabaq mən məktubu gördüm. Götürüb üzünə baxdım bir az. Çap hərfləri ilə yazılmış ünvan, göndərənin adı. Oslo poçt markası. Zərf özlüyündə heç nə demirdi.

Amma, bilirsiz, niyə açmadım məktubu?

Çünki bilmirdim, nə daha pis olar – bizə faciə xəbərini verəcək, əyri-üyrü bir xətlə yazılmış məktub yoxsa hər şeyin yaxşı olduğunu söyləyəcək səlis və aydın sözlər. Bəlkə Linda qorxunc dəhşətlər yuvası olan bir məbədə düşüb, burada onu səfeh və gicbəsərlər təhqir edə-edə məhv eləyib? Bu təsəvvür ürəyimi ağrıdır. Yoxsa maşından düşüb, yaxşı, qayğıkeş ata-ana olan təzə valideynləri və yəqin ki, mənim yaşıdım olan bir oğlan onu qarşılayıb? Linda o ananın əlindən bərk-bərk yapışır, o oğlan da – qoy onun adı Knut olsun – dərhal bilir, başa düşür ki, bu, həyat uğrunda çarpışan bir adamın əldən tutması kimidir. Bu cür yapışmaqla o səni özünə, öz ürəyinə bağlayır, səni məngənə kimi sıxır, ta ki öldürsün, sən qəbirdə çürüyəndə də sənin yanında uzansın.

Bəlkə də o vaxtdan bəri hər şey öz yolu ilə gedir. Lindagilin ailəsi ikimərtəbəli evin birinci mərtəbəsində yaşayır. Linda adamdan çox uca şabalıd ağacları olan bir məhəllədə məşhur, amma köhnə bir məktəbə gedir. Müəllimləri ona lazım olan


e-kitab.org

şeyləri öyrədir, o orada özünə dostlar tapır. Dostları onun necə ləng danışdığını görmək üçün dönüb ona iki dəfə baxmırlar. Yayda o, Knutla və valideynləri ilə tətilə gedir. Amma yarısı yanıb qaralmış çadırda ox, haradasa bir kottecdə qalırlar. Orada çoxlu maraqlı şeylər var, Knut ona səbirlə, hər şeydə kömək edir. Görünür, Knut yaxşı oğlandır. Bəlkə məndən də yaxşıdır. Demək, onu bizim yanımızdan aparmaq ən düzgün variant imiş.

Bu təsəvvür də qəlbimi sıxır yaman. Amma onsuz da fərqi yoxdur.

Zərfi açmadım. Birinci Fredini görməyə getdim. Valideynləri ayrılandan bəri o, "Qartal yuvası" dediyimiz o köhnə mənzildə, demək olar ki, tək, sərbəst yaşayırdı. Orada bildim ki, o da, Dundas da yenə əvvəlki dalaşmanı yada salacaqlar. Dundas saçlarını uzadıb kürəyinə tökəcək, lap peşəkar bir cani kimi yetişəcək, adı dillərdə gəzəcək. Amma onun cılız bədəni vardı, burnundan uzağı görmürdü, sonranı fikirləşmirdi. Həmişəki kimi, Birinci Fredi məni görəndə yaman sevindi, sonra da hərdən dediklərini yenə təkrar etdi ki, daha xoruldamayacaq, o da gimnaziyaya oxumağa gedəcək.

– Finn, yoxsa hesab edirsən ki, mən çox kütbeyinəm?

– Nömrə Bir, mən hesab etmirəm ki, sən kütbeyinsən, – deyirəm. O irişsə də, mən gəlib yanında oturutwram, deyirəm ki, Lindadan məktub almışam.


e-kitab.org

– Linda yadındadır?

– Yox, – Dundas deyir.

– Əlbəttə, yadımdadır, – Birinci Fredi deyir, bir az rəngi də açılır elə bil.

– Sizinlə məsləhətləşmək istəyirəm, – deyirəm, amma əvvəlcə deməkdən çəkinirəm, sonra deyirəm ki, bilmirəm, məktubu anama göstərim ya yox.

– Sən məktubu oxumusan? – Birinci Fredi soruşur.

– Yox.

Oturub bir az Lindanı yada salırıq, heç onda aydın olmayan bəzi şeyləri indi aydınlaşdırmağa çalışırıq. Sonra Birinci Fredi deyir ki, məktubu anana göstər, çünki sənin anan Traverveyndə ən səbirli qadındır. Dundas isə narkotik atmış adam kimi əsir, əsnəyir və qəti deyir ki, məktubu göstərmə, çünki uşaqlıqla bağlı nə varsa birdəfəlik basdırılmalıdır.

– Məktubu cır, at.

Həmin gün çox isti idi. Tezliklə yay tətili başlayacaqdı, demək, təzə bir sükutun başlanğıcı. Yenə Haqana tərəf gəzməyə çıxdım, oradan evlərə, uzaqda qaralan dağlara baxmağa. Görüm, bir şey görə bilirəmmi. Qoy deyim, əlimdən çıxmış uşaqlığımı gördüm. Oralarda həmişəlik qalmış uşaqlığımı. Bir-birinə oxşamayan iki ayrı dünya. Bu hisslə kifayətlənib geriyə – məktubun yanına qayıtdım. Bu məktub mənə indiyədək bu evə gəlmiş məktubları, həm də qorxa-qorxa, əsə-əsə oxunmuş məktubları xatırlatdı.


e-kitab.org

Lindanın xətti düzəlmişdi, bir qız xətti ilə, tər-təmiz yazırdı, həm də qətiyyətli bir xətt idi. Bu xətti o əl yazmışdı ki, o zaman isteriyadan mətbəx mizinin üstündən bir yox, bütün Mikado çubuqlarını götürə bilmişdi. İndi onun işləri yaxşı idi. Necə yaxşı olması haqda, əlbəttə, az məlumatım vardı.

Amma o, barınağını uzadıb bizi günahkar hesab edirdi, nəticə çıxarıb sual formasında soruşurdu. Bu sualı mən də özümə bəlkə min dəfə vermişdim, amma anamdan soruşmağa cürət etməmişdim: biz onu niyə o cürə yola saldıq?

Hər halda o elə bir əziyyət çəkməmişdi – amma biz buna necə razı olmuşduq, necə özümüzə necə rəva bilmişdik ki, kimsə həyatımıza soxulub uşaqlığımızı əlimizdən alsın?

Sonra xatırladım ki, Sinsendə məktəbi bitirən vaxtlarımda Flintstoun bir dəfə məni gördü, axırıncı dəfə papiros tüstüsü ilə dolu kabinetinə çağırdı. Dedi ki, bir müşahidəsini mənimlə bölüşmək istəyir.

– Bu məktəb yaranandan bəri mən burada işləyirəm, – həmin sarı təbəssümü ilə dedi, amma nə demək istədiyini hələ ki, kəsdirə bilmədim. – Bütün bu illər ərzində belə bir şeylə heç vaxt qarşılaşmamışam – o vaxt sən və sənin o qəribə sinif yoldaşın sənin bacının
üstündə necə bir həngamə törətmişdiz. Heç vaxt belə bir şey görməmişəm.

Əsl fikrini hələ ki, başa düşmürdüm.



e-kitab.org

– Bu heç bağışlanası deyildi, – o dedi. – Siz ikiniz az qala o oğlanı öldürmüşdüz. – Bir az ara verib əlavə etdi: – Uşaqlar belə şey eləməzlər.

– Necə?..

– Uşaqlar bir-birinə belə qahmar durmurlar, lap doğma olsalar da.

Mənə elə baxdı ki, sanki mühüm bir fikir söyləmişdi. Yenə ağlıma bir şey gəlmədi, nə demək istəyirdi, başa düşmürdüm. İndi o əsəbiləşməyə başlamışdı.

– Yəqin ki, əslində bu başqa cür olub, hə? – soruşdu.

– Nə necə olub?

– Siz ikiniz necə razılaşdız ki, birlikdə sənin bacını müdafiə edəsiz? Yəqin arada nəsə başqa bir səbəb də olub? Bu bir oyun idi?

Deyəsən, yavaş-yavaş başa düşürdüm.

– Siz elə hesab edirsiz ki, biz, sadəcə, öz gücümüzü yoxlamışıq, görək ikilikdə onu döyə bilirik ya yox?

– Məsələn də... ola bilər...

O ayağa durdu, əlindəki siqareti yelləməyə başladı.

– Həəə, ola bilər... – gülər üzlə dedim, amma ürəyimdə yenə fikirləşdim ki, Linda həmişəlik gedib. Əgər o vaxt Birinci Fredi Dundası məndən də bərk vurmasaydı, elə qəzəblə döyməsəydi, bunu mən eləyərdim. Eləyərdim və Dundas bir də ayağa qalxmayacaqdı. Amma Flintstounun məndən eşitmək istədiyi bu deyildi. Üstəgəl,


e-kitab.org

bu motivə özüm də axıradək inanmırdım.

– Hmm, elə isə, gəl, elə belə də saxlayaq, – o dedi.

Balkonda dayanıb baxırdım. Gördüm anam ikinci blokun qabağından həyətə keçdi. Təzə yay paltarında idi, yubka, kofta geymişdi, üstündən də açıq rəngli jaket. Paltar qurudulan yerdən, daş plitələrin yanından keçib giriş qapısına tərəf gəlirdi. Qətiyyətlə, zərif addımlarla yeriyirdi. Evə keçib məktubu məhv etməyə hələ imkan vardı. Amma yerimdən tərpənə bilmədim. Anam qapını açıb içəri girdi, bir azdan evdən səsi gəldi:

– Kartofu qaynamağa qoymamısan?

– Yox, – mən də balkondan səsləndim. – Bizə məktub gəlib. Mətbəxdə, mizin üstündədir.

Uzun bir sükut. Nəhayət o, bir əlində məktub, o biri əlində qəhvə fincanı balkona gəldi, açılıb-yığılan stulda əyləşib ayaqlarını alçaq kətilin üstünə qoydu. Lap uşaq olanda mən bu kətilin üstə çıxıb yuyunurdum. O, hamama keçib makiyajını təmizləmiş, yumuşdu. Aydın məsələ idi, onsuz da o, göz yaşlarını daha gizlətmirdi. O, cazibədar, uğur qazanmış qadın idi, uşaqlıq yaralarını artıq sağaltmışdı, balans kitablarından başı çıxan filial meneceri idi. Bütün həyatı boyu da bu balansı gözləmişdi. Nəinki bir kirayənişinin uzaq perspektivləri...

– Allaha şükür, – o, əlindəki məktuba baxa-baxa dedi.

– Cavab yazacaqsan? – soruşdum.



e-kitab.org

– Əlbəttə.

– Demək istəyirəm ki, onun sualına cavab verəcəksən?

– Əlbəttə, – o təkrar etdi. Məktubu bir də oxudu.

– Nə yazacaqsan ki?..

Baxışlarını qaldırdı, mənə yox, kənara baxdı.

– Burda da onun işləri yaxşı olacaqdı, – fikirli-fikirli dedi. –Amma onda, ola bilsin, mən bunu dəqiq bilmirdim. Yəqin, elə ona görə də, bir şey edə bilmədim...

– Demək, bu düzgün idi ki, gəlib onu apardılar?

– Mən belə demədim, – o dilləndi. Mən ayağa durub əllərimlə balkonun məhəccərindən bərk-bərk yapışıb sıxdım, Essi dağlarına tərəf boylandım. – Bilirsən, bizim işimiz elə də yaxşı deyildi.

Mən çevrildim. İndi o düz mənə baxırdı.

– Onlar bizim haqqımızda hər şeyi bilirdilər.

– Nə?

Üzündə yenə həmin ifadə var, mən adi bir şeyi başa düşməyəndə o həmişə mənə belə baxır.

– Kirayənişinə görə? – soruşdum. Deyəsən, nəhayət, hər şeyi başa düşmüşdüm. – Ona görə ki, sən ona ərə getməyə razı olmamışdın?

Başını buladı – məni başından eləmək üçün.

– Dəqiq bilmirəm, amma...

Susdu, sonra:



e-kitab.org

– Bir dəfə onu axtarmışam, – dedi.

– Mənə deməmiş?

– Sən axı uşaq idin, Finn.

Mən fikrə getdim. Yəni, mən də uşaq olmuşam? Sonra yadıma düşdü ki, kirayənişinimiz bizdən gedəndən bəri heç birimiz onun əsl adını çəkməmişik. Əslində, mən bunu həmişə fikirləşirdim. Kristian, tramvay konduktoru, matros, çilingər, inşaatçı, həmkarlar fəalı, çadır sahibi, kətan makintoş geymiş yarımçıq filosof. Onun o qədər nağılları vardı ki, inanmaya bilmirdim.

– O sənin xoşuna gəlirdi, yox? – anam soruşdu.

– Bilmirəm.

– Hər halda dostlaşmışdın bir az.

Elə bilirəm ki, onda əlimdən gələni etdim, hə, etdim, anamın xatirinə. İndi hiss etdim ki, mən də anam kimi hərəkət edə bilərdim, nəzakət göstərib başımla təsdiq edə bilərdim ki, hə, Lindanın bütün işləri yaxşı olub, indi də yaxşıdır. Elə bu yerdə də söhbəti qurtarardıq. Yoxsa gərək öz otağıma gedib, mikroskopu götürüb sındıraydım, şahmat taxtasını parça-parça edəydim? Amma bunu da edə bilmədim.

– Məncə, sən yazmalısan, – anam dedi. – Sən, axı, ağıllı bir oğlansan.

– Yazım ki, onlar düz eləyib onu aparıblar? – atmaca atdım, amma dərhal da peşman oldum. Səhvimi düzəltməyə çalışdım. – Yazacağam, əlbəttə.

– Onda gedək, elə indi yazaq, – anam


e-kitab.org

dedi və durdu ki, qələm-kağız gətirsin.

Gözüm bir anlıq onun qəhvə fincanına sataşdı. Fincanı Lindanın məktubunun üstünə qoymuşdu ki, külək alıb aparmasın. Sonuncu bəraət üçün? Məncə məhz belə idi, anam ona məktub yazmağa belə baxırdı – özünə bəraət üçün. Mənsə Essi dağlarına baxırdım, gözlərimi dağlardan çəkmədən fikirləşirdim ki, görəsən, mənim də içimdə bəraət hissi varını, qəlbimdə haçansa belə bir hiss olubmu.



e-kitab.org